**Əbu Əli Həsən ibn Əli Xacə Nizamülmülk**

# SİYASƏTNAMƏ

**Bakı,**
**“Çıraq” 2007**



downloaded from KitabYurdu.org

**Əbu Əli Həsən ibn Əli Xacə Nizamülmülk, Siyasətnamə, Bakı. “Çıraq” 2007.Səh.273**

**ISBN 5-552-01366-7**

**©“Çıraq” nəşriyyatı, 2007**



downloaded from KitabYurdu.org

# NİZAMÜLMÜLKÜN HƏYAT VƏ FƏALİYYƏTİ HAQQINDA

Xacə Nizamülmülk Həsən ibn Əli, səlcuq sultanlarından Alp Arslan (1063-1072) və Məlik şahın (1072-1092) vəziri olmuş, Səlcuqilər dövlətinin genişlənib möhkəmlənməsində, ölkənin iqtisadi qüdrətinin artırılmasında, ordunun qüvvətlənməsində, abadlıq işlərinin aparılmasında, elm və mədəniyyətin yüksəlməsində çox böyük işlər görmüşdür. Bu dövrlərdə, mübaliğə etmədən demək olar ki, dövləti sultanlar deyil, Nizamülmülk idarə edirdi[1].

Nizamülmülk daxili dövlət işlərilə yaxından məşğul olmaqla bərabər, xarici siyasətə istiqamət verir, din-şəriət qayda-qanunlarına dəxalət edir, məzhəb və təriqətləri öyrənmək, dövlət və din xadimləri hazırlamaq məqsədilə xüsusi mədrəsələrin açılmasına təşəbbüs göstərir və böyük maddi yardım edirdi. Bu mədrəsələr Sonralar «Nizamiyyə» mədrəsələri adı altında şöhrət tapmışdı. Bunların ən məşhuru bir çox dövlət və din xadimləri, münəccimlər, filosoflar,hüquqşünaslar və şairlər hazırlamış Bağdad nizamiyyəsi sayılırdı. Bu mədrəsələr Nizamülmülkün ölümündən Sonra da öz fəaliyyətlərini davam etdirmiş və Şərq ölkələrinə böyük şəxsiyyətlər vermişdir. Sədi Şirazi kimi bir şairin məhz Bağdad nizamiyyəsi divarları arasında yetişdiyini qeyd etmək kifayətdir.

Məxəzlər Nizamülmülkün anadan olması, həyatı və fəaliyyəti, dini görüşləri və əqidəsi haqqında sən dərəcə ziddiyətli məlumatlar verir, onun özü barədə müxtəlif əhvalatlar, bəzən əfsanəyə oxşayan rəvayət və hekayələr danışırlar. Bu rəvayətlərin ən məşhurlarından biri Nizamülmülk, Xəyyam və Həsən Səbbah əhvalatıdır. Nizamülmülkün «Məcməül-vəsaya» («Vəsiyyətlər toplusu») adlı əsərindəki rəvayətə görə guya Nizamülmülk, Xəyyam və Həsən Səbbah gənc yaşlarında bir məktəbdə oxuyurmuşlar, söz verib əhd-peyman bağlayırlar ki, kim böyük bir mənsəbə çatsa, o birilərini irəli çəksin, onlara kömək etsin. Zahirən həqiqətə oxşayan bu rəvayət bəzi tarixi faktlara əsasən mümkün olduğu halda, başqa faktlar tərəfindən tamamilə qeyri-adi görünür.Tarixi faktlara görə, biz əsrinin sən dərəcə görkəmli alim və şairi olan Xəyyamın doğrudan da Nişabur yaxınlığında kənd aldığını, orada yaşayaraq yaratdığını, Həsən Səbbahın sarayda vəzifə aldığını görürük. Lakin digər tərəfdən bu üç tarixi şəxsiyyət arasında olan yaş fərqləri onların gənclikdə bir yerdə oxuya biləcəyini tamamilə şübhə altına alır.Tarixdən məlum olduğu üzrə, Nizamülmülk 1018-ci ildə, Xəyyam 1040-cı ildə anadan olmuşdur. Həsən Səbbahın anadan olduğu il isə məxəzlərdə göstərilmir. Beləliklə, Nizamülmülkün yaşı 22-23-ə çatdıqda Xəyyam anadan olmuşdur. Bu qədər yaş fərqləri olan adamların gənc yaşlarında bir mədrəsədə oxuya biləcəyini, əlbəttə ciddi bir hökm kimi qəbul etmək olmaz. Əgər Nizamülmülkün ölərkən bəzi məxəzlərin göstərdiyi kimi[2], doxsan altı yaşda olduğu ehtimal edilərsə, onun

---

[1] BSE, ikinci nəşri,29 c,səh.603

[2] Şəmsəddin Sami, Qamüsül-əlam,6-cı cild,səh.4587-88



downloaded from KitabYurdu.org

anadan olduğu il, 1018 deyil, (Nizamülmülk 1092-ci ildə vəfat etmişdir) 996-cı il olmalıdır. Məxəzlərin verdiyi məlumata əsasən, Nizamülmülk (Xacə Qəvaməddin Əbu-Əli Həsən bin Əli) bir rəvayəta görə İranın şərqində Tusun zadəgan nahiyəsində, başqa rəvayətə gorə isə Nuqan məhəlləsində 408 hicri-qəməri, yəni 1017/18-ci miladi illərində anadan olmuş, ilk təhsilini də burada almışdır. Sən dərəcə istedad və bacarığa malik olan Həsən bin Əli hələ gənc yaşlarından divan işlərinə həvəs göstərmiş, dövründə çox dəbdə olan şəriət qanunlarını böyük aludəliklə öyrənmiş, hədis və rəvayətləri əzbərləmiş, katiblik, dəbirlik sənətlərinə məharətlə yiyələnmişdir. Az müddət içərisində yuxarıda adları çəkilən peşələrdə şöhrət tapdığından əvvəlcə Bəlx hakimi Əli bin Şadanın xidmətində katiblik vəzifəsində işləmişdir.

Şeferin fars dilində nəşr etdirdiyi «Vəzirin tərcümeyi-halı» kitabında oxuyuruq: «bir müddət Bəlxin əmiri ibn Şadanın yanında olub katiblik edirdi». Vaxtaşırı ibn Şadan Xacəyə deyirdi: «Ey Həsən, yaman kökəlibsən». Sonra nəyi vardısa tutub əlindən alar və deyərmiş:» Sən katibsən, qələmin sənə bəsdir». İbn Şadanın xəsisliyi kimi qələmə verilən bu söhbətin özündə də arabir Nizamülmülkün «çox kökəldiyi», varlanıb dövlət sahibi olduğu açıq-aydın nəzərə çarpır. Əlbəttə, bu vəziyyətə nə Şadan dözə bilərdi, nə Nizamülmülk. Ona görə bir müddət işlədikdən Sonra katiblikdə etdiyi bəzi özbaşınalıq və qeyri-qanuni işlərə yol verildiyindən mal və əmlakı müsadirə edilmiş, oranı tərk edərək Davud bin Mikayıl Səlcuqun yanına qaçmışdır.

Artıq saray işlərinə, xüsusilə divan və katiblik həyatına yaxşı bələd olan, sarayda baş verən düşmənçilik paxıllıq, yaltaqlıq, ürəyə girmək, nifrət salmaq, xalq əmlakının necə talan edildiyini, rəiyyət və millətdən haqlı-haqsız vergilərin necə toplandığını, bunların kiçik və böyük məmurlar tərəfindən necə mənimsənildiyi üsullarına vaqif olan, özü də belə işlərin ləzzət və əziyyətini dadmış Nizamülmülk üçün Davud bin Mikayılın ürəyinə yol tapmaq, ona qulluq göstərmək, irəli çəkilmək, torpaq, dövlət və qul sahibi olmaq o qədər də çətin deyildi. Çünki o dövrdə hamı belə edirdi. Ona gorə də Nizamülmülk və «Siyasətnamə»dən danışarkən ***marksizmin öyrətdiyi*** və həqiqətin göstərdiyi kimi, yalnız tarixi şəraitdən çıxış etmək, o dövrdə baş verən hadisələri yalnız o dövrün süzgəcindən keçirmək lazımdır.

***Vladimir İliç Lenin kapitalizm və ondan əvəlki dövrləri xarakterizə edərək yazırdı: "Köhnə cəmiyyət belə bir prinsip üzərində qurulmuşdur ki, ya sən başqasını soyursan, ya, başqası səni soyur, ya sən başqası üçün işləyirsən, ya başqası sənin üçün işləyir, ya sən qul sahibisən, ya özün qulsan. Aydındır ki, belə bir cəmiyyətdə tərbiyə olunan adamlar ya qul sahibi olmaq, ya qul, ya xırda mülkiyyətçi, xırda qulluqçu, xırda çinovnik, ziyalı - bir sözlə, yalnız özünün malı olması qayğısına qalan, başqası ilə isə işi olmayan bir adam olmaq psixologiyasına, adət və anlayışlarına, demək olar, anadan doğulan gündən alışmağa başlayırlar".***



downloaded from KitabYurdu.org

Nizamülmülk məhz belə bir dövrün övladı idi və o, tarixin göstərdiyi kimi, doğulan gündən öldürülən günədək yalnız bu psixologiyaya sadiq qalmış, bütün işlərini, o cümlədən dövlət, şəriət, siyasət şəxsi həyat və yaşayış normalarını dövrünün bu tələbinə tabe etmiş, öz məqsədinə çatmaq üçün heç bir tədbirdən əl çəkməmiş, hətta yeri gəldikcə, gördüyü bütün mütərəqqi işlərinə baxmayaraq, edam, xəyanət və cinayətdən çəkinməmişdi. Nəticədə özü də belə bir cinayətin qurbanı olmuşdur. Bu baxımdan, şübhəsiz ki, Nizamülmülk bir vəzir kimi bəzi tarixçilər tərəfindən idealizə edilmişdir.

Həqiqətən də az müddət içərisində Nizamülmülk Davud bin Mikayılın dəftərxana işlərini nizama sala bilmiş, vergi toplanmasını, torpaqların suvarılması, din və şəriət qayda-qanunlanna riayət edilməsi və sairədə böyük məharət göstərmiş özünün yaxşı siyasətçi, dini və şəri məsələlərdən başı çıxan, təsərrüfatı idarə etməyi bacaran bir dövlət xadimi kimi tanıtmış, divanda böyük hörmət və nüfuz qazanmışdı. Davud bin Mikayıl hər şeydə Nizamülmülklə məsləhətləşir, onun təkliflərinə əməl edir, istedad və qabiliyyətinə heyrətini belə gizlətmirdi. Ona görə özü ölərkən oğlu Alp Arslana vəsiyyət edir ki, Nizamülmülkdən istifadə etsin, ona dövlət vəzifələri tapşırmağı müzayiqə etməsin. Alp Arslan hakimiyyətə keçdikdən Sonra Nizamülmülk öz fəaliyyətini daha da genişləndirir, Alp Arslana yeri gəldikcə böyük xidmətlər göstərir, rəqiblərini bir-bir aradan qaldıraraq vəzirlik məqamına qədər yüksəlir. Bu cəhətdən Nizamülmülkdən əvvəl səlcuq sultanlarına vəzirlik etmiş, sonra dini əqidələr bəhanə edilərək həbsxanaya salınmış Əmidülmülkün edam edilməzdən bir az əvvəl Alp Arslana göndərdiyi məktub çox səciyyəvidir.

O yazırdı:

"Sənə sədaqətlə xidmət etdim. Atan bu dünyanı mənə vermiş, mən də hökm sürmüşdüm.

Bu gün də sən məni şəhid etməklə axirəti mənə bəxş edirsən. Bundan yüksək səadət ola bilməz. Nizamülmülkə də vəziri öldürməklə dünyaya murdar bir bidət, çirkin bir adət gətirdin. Bunun nə ilə nəticələnə biləcəyini düşünürsənmi? Sənin və övladlarının aqibətinin belə olacağından qorxuram"[3].

Tarix Əmidülmülkün necə uzaqgörən olduğunu sübut etdi. Nizamülmülk özü və oğlu dini və saray çarpışmaları üstündə, əlbəttə, çox sonralar məhv edildi. Hələlik Nizamülmülkün ulduzu parıldayır. O, Alp Arslan sarayında əl-ayağına dolaşanları, dini əqidəsinə zidd olanları, tədbir və siyasətinə qarşı duranları, əmr və tapşırıqlarını yerinə yetirməyə maneçilik törədənləri, haqqında şayiə yayanları, bir sözlə siyasi, ictimai, dini, hərbi rəqiblərini, hər hansı bir iradəsinə müqavimət göstərənləri şirnikdirib öz tərəfinə çəkmək, qorxudub susdurmaq, öldürüb aradan qaldırmaq yolu ilə Səlcuqlar dövlətinin cilovunu daha möhkəm əlinə yığır, bütün həssas vəzifələrə öz adamlarını təyin edirdi. Lakin bununla birlikdə öz hamisi Alp

[3] *Osman Turan*. SəlcuqIar tarixi və türk-islam mədəniyyəti. Ankara,1965, səh.99. Bundan sonra: *Osman Turan,* səh...



downloaded from KitabYurdu.org

Arslana, sonra isə Məlik şaha böyük xidmətlər göstərir, ölkənin nizama salınmasını, dövlətin möhkəmləndirilməsini, xəzinənin doldurulmasını da unutmurdu. Bu xidmətlərin bir qismi hakimiyyət başında olan səlcuq sultanının şəxsən özünə və ən yaxın adamlarına edilir, Nizamülmülk onları, necə deyərlər, şəxsən özünə borclu vəziyyətə salırdı. Bu baxımdan Nizamülmülkün Alp Arslan şikarda olarkən Rum qoşunları tərəfindən tutulması, Nizamülmülkün tədbirləri əsasında bundan saray adamlarının xəbərdar olmaması, on iki yaşlı Məlikşahın Məryəm Neşin Qalası alınarkən boğulmaqdan xilas edilməsi haqqında rəvayətlər Alp Arslan öldükdən sonra Məlikşahın taxta çıxarılması və s. çox səciyyəvidir. Məxəzlərin göstərdiyinə görə, bir dəfə Alp Arslan şikarda olarkən Rum əsgərləri tərəfindən əsir tutulur. Bir nəfər qaçıb sultanın tutulduğunu Nizamülmülkə xəbər verir. Nizamülmülk dərhal öz yaxın adamlarından birinə əmr edir ki, müəyyən bir dəstə ilə axşamüstü, qaş qaralanda ovlaq tərəfindən ordugaha daxil olsun, elə etsin ki, guya sultan şikardan qayıdır. Haman adam bu tapşırığı sən dərəcə məharətlə yerinə yetirir. O öz adamları ilə böyük hay-küylə axşam ovlaq tərəfindən ordugaha daxil olur, guya Alp Arslan şikardan qayıdır, sonra isə Nizamülmülk sultanın özünü də əsirlikdən azad etdirməyə müvəffəq olur. Nizamülmülk bir tərəfdən səlcuq sultanlarının şəxsən özlərinə etdiyi xidmətlər, hərbi qüvvələrə, fars aristokrat təbəqələrinə göstərdi himayəçilik, digər tərəfdən öz yaxın adamlarının böyük vəzifələrl təyin edilməsi, ölkədə apardığı bir sıra islahatlar, iqtisadi tərəqqi hərbi qələbələr, daxili və xarici siyasətdə əldə etdiyi nailiyyətlər onun qüdrət və nüfuzunu xeyli artırmışdı. Əlbəttə Nizamülmülkün belə böyük bir siyasətlə hakimiyyəti ələ alması onun əleyhdarlarını narahat etməyə bilməzdi.

Hələ Alp Arslan dövründə Nizamülmülkün rəqibləri onun əleyhinə işləyir, müxtəlif şayiələr yayırdılar, onlar hətta namaz vaxtı belə Nizmülmülkün əleyhinə ərizə və şikayətlərini sultana çatdırmaqdan çəkinmirdilər. Bir dəfə namaz qılarkən Alp Arslanın önünə imzasız bir şikayət ərizəsi qoyulur. Alp Arslan Nizamülmülk əleyhinə olan bu ərizəni oxuduqdan sonra guya Nizamülmülkə demişdir:

"Əgər doğru söyləyirlərsə, əxlaqını düzəlt, iftira deyirlərsə onları bağışla və bu kimi şeylərlə uğraşmağa vaxt tapmamaları üçün onları mühüm işlərlə məşğul et"[4].

Nizamülmülk bütün bu xəbərdarlığa baxmayaraq, öz bildiyini edirdi. O saray intriqalarını, xalqın vəziyyətinin ağırlığını, ölkənin daxili və xarici siyasətindəki ziddiyyətləri, dini təriqətlər arasındakı ixtilaf və toqquşmaları hamıdan yaxşı bildiyindən və gördüyündən belə şikayətlərin olacağını ehtimal etməyə bilməzdi. Nizamülmüik öz dövründə möveud olan ictimai, iqtisadi, siyasi, hərbi, dini və s. qüvvələrin nə vəziyyətdə olduğunu hamıdan gözəl anlayırdı. Ona görə, ölkənin bütün sahələrdə qüdrətini artırmaq, öz mövqeyini daha da möhkəmlətmək üçün təsirli tədbirlər görmək zərurəti qarşısında qalmışdı. Səlcuq

[4] *Osman Turan,* səh.137



downloaded from KitabYurdu.org

sultanlarının və xanlarının müharibə etmək təcrübələri vardısa da, böyük bir sahəni tutan ölkəni idarə etmək, iqtisadi və ictimai şəraiti təhlil, əhalinin güzəranını təmin etmək, külli yazışma və hesablama tələb edən maliyyə və vergi sistemini nizama salmaq, çox incə, lakin mürəkkəb dini və şəri məsələləri aydınlaşdırmaq, təriqət çarpışmalarını aradan qaldırmaq və mərkəzləşmiş qüdrətli imperiya yaratmaq üçün heç bir ənənə və təcrübəyə malik deyildilər. Bütün bu qəbildən olan işçiləri hazırlamaq üçün ağıllı düşünülmüş məktəb və təhsil sistemi yox idi. Bundan əlavə bütün mülki işlərin fars, dini-şəri işlərin ərəb, xarici siyasi əlaqələrin fars-ərəb dillərində aparılması bu dillərə çox da dərindən vaqif olmayan türk tayfalarının bu və buna oxşar sahələrdə fəaliyyət göstərməsini xeyli məhdudlaşdırırdı.

Demək olar ki, ölkənin bütün divan işləri, yazı-pozu idarələri həmin dillərə bələd olan fars zadəganlarının əlində idi. Başqa tərəfdən ərəb xəlifələrilə də sıx dini şəri əlaqə yaratmaq ehtiyacı hiss olunurdu.

Nizamülmülk, sən dərəcə ağıllı, müdrik, siyasətçi, fars, ərəb, türk, ehtimal ki, xarici dillərə də yaxşı bələd olan, təbii-ictimai, dini-fəlsəfi elmlərlə, yunan təhsil sistemini də öyrənmişdi. Bu uzaqgörən vəzir dövrünün tələb etdiyi mütəxəssislər və savadlılar ordusunu yaratmaq üçün sonralar "Nizamiyyə" mədrəsələri adı altında şöhrət tapmış və Nizamülmülk adını hələ öz dövründə "Siyasətnamə" əsəri yazılmamışdan çox-çox əvvəl əbədiləşdirmiş və ona dünya şöhrəti qazandırmış təhsil sistemini icad etdi və onu ilk dəfə olaraq 1067-ci ildə, Alp Arslan dövründə ərəb xilafətinin və islam dininin mərkəzi olan Bağdad şəhərində açdırdı.

Bu mədrəsənin Bağdadda açılmasının sən dərəcə böyük əhəmiyyəti var idi. Nizamülmülk bununla Ərəb xilafəti ilə çox sıx əlaqə saxlamaq imkanı əldə etməklə bərabər haman tipli mədrəsələrin başqa şəhərlərdə açılması üçün də hüquqi-şəri icazə ixtiyarı qazanmışdı. Bundan sonra artıq bütün təhsil-ürfan mərkəzlərini əlində saxlayan xəlifələr, məktəb və mədrəsələrdə nələr tədris edildiyini nəzarət altında saxlayan şeyx və müftilər, Nizamülmülkün əl-ayağına dolaşa bilməzdi. Biz tezliklə həmin mədrəsələrin Nişabur, Bəlx, Herat (xilafət mərkəzlərindən uzaq) Bəsrə, Mosul və başqa mədəniyyət ocaqlarında yarandıqlarını da görürük. Bu mədrəsələrdə dini-şəriət qayda-qanunlarını öyrənməklə yanaşı, iqtisadiyyat, fəlsəfə, riyaziyyat, nücum, bəlağət, fəsahət, katiblik, nədimlik, ümumiyyətlə Nizamülmülkün fikrinə gorə, dövrü üçün nə lazımdısa, bütün fənnlər tədris olunurdu. Bu mədrəsələrin məzunları, əlbəttə ki, özlərini ilk növbədə Nizamülmülkə borclu bilirdilər. Təbii məsələdir ki, onlar harada işləmələrindən asılı olmayaraq, Nizamülmülkün iradəsini yerinə yetirir və onun nüfuzunun möhkəmlənməsinə səbəb olurdular. Onu da qeyd etmək lazımdır ki, burada təhsil görmüş din və dövlət xadimləri arasında Nizamülmülkə qarşı çıxanlar da az olmamışdır. Bu, özünü xüsusilə dini münaqişələrdə göstərirdi ki, bunların bəzilərində Nizamülmülkün şəxsən bilavasitə iştirak etdiyi ehtimal olunur. Nizamiyyə mədrəsələri haqqında külli miqdarda ədəbiyyat və tədqiqat əsərləri



downloaded from KitabYurdu.org

yazılmışdır [6].

Nizamülmülk Alp Arslanın ölümündən, Məlikşah hakimiyyət başına keçdikdən sonra daha sərbəst hərəkət etməyə başlayır. Buna onun tam əsası vardı. l072-ci ilin payızında Alp Arslan Mavərənnəhrdə yürüşə başlayır. Lakin bu hücum uğursuz olur, yürüş, Alp Arslanın məğlub edilmiş bir qalanın ölümə məhkum edilmiş komendantı tərəfindən öldürülməsilə dayandırılır[5].

V.V.Bartold Alp Arslanı öldürən adamın adını çəkmir, lakin başqa məxəzlərdə onun adının Yusif olduğu deyilir.

Alp Arslan öldürüldükdən sonra kimin onun yerinə keçməsi, kimin sultan olacağı bu sülalənin ən qüdrətli vəziri Nizamülmülk üçün birinci dərəcəli əhəmiyyətə malik olan məsələ idi.

Alp Arslan dövründə Səlcuq dövlətinin sərhəddi xeyli genişlənmişdi. Əgər Alp Arslanın əmisi Toğrul bəy dövründə Səlcuq dövləti Amu-Dəryadan Fərat çayına qədər uzanırdısa, Alp Arslan dövründə o daha genişlənmiş, Ermənistan, Azərbaycan, Suriya, Fələstinə qədər gəlib çıxmışdı[6]. Bu qədər böyük bir sahəni əldə saxlamaq bəlkə daha da genişləndirmək,

Alp Arslanın ölümündən sonra dövlətin başqaları tərəfindən zəbt edilməsinə imkan verməmək və özü vəzirlikdə qalmaq üçün məhz Məlikşahı hakimiyyət başında saxlamağı Nizamülmülk ən vacib məsələ hesab edirdi. Ona görə də, Nizamülmülk bir tərəfdən Məlikşaha qarşı çıxan üsyankarları susdurur, digər tərəfdən, Məlikşaha daha böyük qayğı göstərirdi. Nəzərə almaq lazımdır ki, Məlikşah hakimiyyət başına çıxanda 17-18 yaşında bir cavan idi (1055-1092). O, 1072-ci ildə atası Alp Arslanın yerinə keçmişdi. Məlikşahın hökmranlığının lap ilk ilində ona qarşı üsyan etmiş Elbasanın arvadı Gövhər xatının Nizamülmülk tərəfindən öldürülməsi, ya başqa üsyankar Fəzlullahın əsir alınması Nizamülmülkü Məlikşahın gözündə daha böyütmüş və onun vəzirlikdə qalmasını təmin etmişdi. Bundan əlavə, Məlikşah ona "çox üstün səlahiyyət və ixtiyarat" vermişdi[7].

Bundan sonra Nizamülmülk daha geniş fəaliyyətə başlamış, Səlcuq dövlətində çoxdan qəbul edilmiş bir sıra qayda-qanunların aradan çıxması, xüsusilə səlcuq qadınlarının dövlət işlərinə dəxalət etməsinin məhdudlaşdırılması, səlcuq dövlət sisteminə İran-Fars dövlət sisteminin, Nizamülmülkün idealizə etdiyi qəznəvilər, Samanilər və daha əvvəllər Sasanilərin mərkəzləşmiş dövlət sisteminin geniş tətbiq edilmə təşəbbüsləri səlcuq xanədanının böyük etirazına səbəb olurdu. Buna görə də Nizamülmülk öz məqsədinə çatmaq üçün ən həssas vəzifələrə öz övladlarını, qohum qardaşlarını, sədaqətli adamlarını təyin edir, yerli fars zadəganlarına, eləcə də, onu mühafizə edən səlcuq hərbi-feodallarına arxalanırdı.

---

[5] В.В.Бартольд.Сочинение, том1 , М., 1983, səh.377
[6] Н.В.Пигулевская.
[7] *Osman Turan,* səh. 140-141



downloaded from KitabYurdu.org

Əlbəttə, Nizamülmülkün düşmənləri yeri düşdükcə, Məlikşahın diqqətini buna cəlb edir, vaxtında tədbir görülməzsə, sən dərəcə böyük bir ərazini əhatə edən Səlcuq dövlətinin aqibətinin necə olacağı ilə onu qorxudurdular. Həqiqətən, demək olar ki, vilayətlərin hamısının valiləri bu və ya başqa dərəcədə Nizamülmülk nəslinə yaxın olan adamlardan ibarət idi. Məxəzlərdə oxuyuruq:

"Xacənin (Nizamülmülk nəzərdə tutulur.-R.S.) on iki oğlu, çoxlu kürəkəni, qohum əqrəbası var idi ki, oğlanlarının hərəsinə bir əyalət və hökumət vermişdi. Beləliklə, həm öz adamlarını mənsəb və sərvətə çatdırmış, həm Səlcuq dövlətinin hökmran olduğu bütün ərazini öz möhürü, nüfuzu altına almışdı. Hökmü hər yerdə rəvan idi”[8].

Səlcuqlar dövlətinin bütün iqtisadi-siyasi, dövlət-inzibati aparatını əlinə keçirmiş, böyük bir vəchlə nəzarət altında saxlanıla bilməyən, ibarə cayizsə, bu Nizamülmülk sülaləsi yerlərdə öz bildiyini edir, vergiləri istədikləri kimi toplayır, bunlardan özləri üçün payı götürür, lazım gəldikdə, öz ata və qaynatalarına arxalanaraq ümumi xəzinəyə göndərmir, etiraz edənlərə divan tutur, hətta şaha yaxın olan adamları belə cəzalandırmaqdan çəkinmirdilər. Məlikşah ordusunun qəbbəbrinə, bir-birinin ardınca başqa ölkəbri fəth etməsinə baxmayaraq bu zahiri qələbələr arxasında çox kəskin daxili mübarizələr qüvvətlənir, Nizamülmülk hələ lap qədimdən Toğrul dövründən dövlət məsələlərinə dəxalət edən, hətta xüsusi orduları olan, ərlərinə, oğullarına-şah və və sultanlara böyük təsir göstərən Səlcuq qadınlarına verilən hüquqları məhdudlaşdırır, ümumiyyətlə, qadınların şəriətə görə, kişi işlərinə qarışmağa haqlı olmadıqları kimi bəhanələrlə onları nüfuzdan salır və hərəmxananın da böyük narazılığına səbəb olurdu. O biri tərəfdən də rəqibləri Nizamülmülkün Məlikşahı aldatdığını, xəzinənin kifayət qədər təmin edilmədiyini, divan işlərinin qayada olmadığını, hesabların düzgün tərtib edilmədiyini, dövlət malı yeyən vali qohumlarının nalayiq işlərini ört-basdır etdiyini deməkdən çəkinmir, Məlikşahı Nizamülmülk üzərində nəzarəti artırmağa təhrik edirdilər.

Bu cəhətdən Həsən Səbbahın divanxanaya gəlməsilə Nizamülmülk arasında toqquşma və bu toqquşma nəticəsində onların düşmənçiliyinin başlanması çox səciyyəvidir. Məxəzlərin verdiyi məlumata görə[9], Həsən Səbbah vergi və maliyyə işlərilə tanış olduqdan sonra orada hərcmərclik, yeyinti, mənimsəmənin olduğunu hiss edir, mənsəbpərəst, şöhrətsevən, vəzifə almaq istəyən olduğundan belə qərara gəlir ki, yoxlama olarsa, Nizamülmülkün nələr etdiyi meydana çıxa bilər və bu vəziyyətdən istifadə etməklə o, yəni Həsən Səbbah böyük rütbə əldə edə bilər. Həsən Səbbah çox istedadlı olduğundan tezliklə saray həyatının bütün sirlərinə vaqif olmuş, burada qarşı-qarşıya duran qüvvələrin münasibətini ölçüb-

---

[8] Məşhəd ədəbiyyat fakültəsinin əsərləri, IV il, # 1-2, səh.24

[9] *А.Болотников.* Омар Хайям. Сб. «Восток», II вып., М-Л, 1935,səh.l82-182



downloaded from KitabYurdu.org

biçmiş, az müddət içərisində özünə çoxlu tərəfdar tapmışdı. O, ciddiyyətlə çalışır, özünün Nizamülmülk tərəfindən daha irəli çəkilməsini gözləyirdi. Lakin Həsən Səbbahdan heç də az istedadlı olmayan, üstəlik də vəzirlikdə böyük təcrübə qazanmış Nizamülmülk, Həsən Səbbaha göz qoyur, öz inanılmış adamları vasitəsilə onun nələr danışdığını, nə fikirdə olduğunu bilir, onu irəli çəkməkdə tələsmirdi. Bu iki köhnə dost arasında hələ aşkara çıxmamış gizli bir mübarizə gedirdi. Biri hakimiyyətə can atırdı, o biri hakimiyyəti əldə möhkəm saxlamağa çalışırdı. Həsən Səbbah səlcuq sultanlarının sarayına Nizamülmülkün təqdimilə gəldiyindən o, tezliklə böyük etibar və etimad sahibi olmuşdur. Ona görə Alp Arslan (bu, Məlikşah da ola bilirdi) ona inanır, hüsn-rəğbət bəsləyir, istedad və işgüzarlığına heyran qalır. Bunu deməkdən də çəkinmirdi. Bu isə Nizamülmülkü düşündürməyə bilməzdi. Saray adamlarının da Həsən Səbbahla məhrəmanə rəftarı onu daha ehtiyatlı olmağa məcbur edirdi. Bir müddət keçdikdən sonra Həsən Səbbah Nizamülmülkün rəqibləri vasitəsilə Sultanın qulağına çatdırır ki, ölkənin maliyyə-vergi vəziyyəti yaxşı deyil. Mənimsəmə, yeyinti var, xəzinədə böyük çatışmazlıq əmələ gəlib və s. Hər halda, yoxlama və hesabata böyük ehtiyac vardır. Bu işlərin hamısı isə Nizamülmülkün ixtiyarında idi. Alp Arslan, nəhayət Nizamülmülkü çağırtdırıb vilayətlər üzrə bütün ölkə haqqında kamil və hərtərəfli hesabat hazırlanmasını və şəxsən ona təqdim etməsini tapşırır. Nizamülmülk toplanmış əlaqədar adamların yanında deyir ki, belə mühüm, məsuliyyətli iş üçün xeyli müddət lazımdır. Nizamülmülk yəqin ki, vəziyyətin necə olduğunu hamıdan yaxşı bilir, sultanın gözlənilmədən belə hesabat istəməsinin yaxşı niyyətlə olmadığını da gözəl duyurdu. Vaxt nə qədər çox ola bilsəydi o qədər əlverişli idi. Alp Arslan nə qədər vaxt lazım olduğunu soruşur. Nizamülmülk deyir: altı ay. Orada iştirak edən Həsən Səbbah yerindən duraraq baş əyir, bu iş ona həvalə edilərsə iki həftə ərzində hazırlaya biləcəyini söyləyir. Bu təklif Nizamülmülkü sarsıdır. O aydın başa düşür ki, Həsən Səbbahda hazır hesabat var. Çünki bu böyüklükdə ərazinin hesabatını iki həftəyə hazırlamaq o qədər də asan iş deyildi. Həsən Səbbah onun fikrini oxuyurmuş kimi əlavə edir ki, bu olduqca ağır, qızğın əmək tələb edən, gecə-gündüz çalışmaq nəticəsində meydana çıxa bilən bir işdir. Həm də, əlavə ixtisaslı köməkçilərə ehtiyac var. Onun saydığı bu imkanlar əlbəttə vəzirdə var, əgər Alp Arslan ona etibar edib bu məsul vəzifəni ona tapşırarsa, Nizamülmülkdə olan şəraiti də ona yaratmaq lazımdır.

Alp Arslan ona etibar edib bu işi Həsən Səbbaha tapşırır. Bu, artıq Nizamülmülkün, hesabat baş tutarsa, hüquqlarının alınmasının başlanğıcı demək idi. Bunu hamı, birinci növbədə Nizamülmülk çox gözəl başa düşürdü. Nizamülmülk dərhal tədbir düşünməyə başladı. Öz yaxın və inanılmış adamlarını Həsən Səbbahın köməkçi qrupuna daxil edir və onlardan birinə tapşırır ki, Həsən Səbbahın bütün hərəkətlərini izləsin, gördüyü işləri nəzarət altında saxlasın və hesabatın vəziyyəti haqqında ona məlumat versin.

Hesabatın veriləsi gün təyin edildikdə Nizamülmülk öz adamına tapşırır



downloaded from KitabYurdu.org

ki, dəftərlərin içərisindəki vərəqlərin yerini dəyişdirsin, bəzi vərəqləri bu dəftərlərdən başqa dəftərə qoysun. Nəhayət, hesabat günü çatır. Lazım olan adamların hamısı toplanır. Hesabatın dəftərlər siyahısı, ya da o dövrün istilahı ilə demiş olsaq, şahın qarşısına qoyulur. Şah maraqlandığı ölkə, vilayət və şəhərlərin adını çəkdikcə Həsən Səbbah dəftərləri götürərək oxumağa başlayır. Oxuduqca başa düşür ki, hər şey alt-üst edilibdir, bu dəftərlər əsasında hesabat vermək rüsvayçılıqdan başqa bir şey deyildir. Alp Arslan buna qəzəblənir, onun hüzurunda belə hədərən-pədərən şeyləri oxumağa Həsən Səbbahın necə cəsarət etdiyini soruşur. Məxəzlərin verdiyi məlumata görə[10], bu zaman Nizamülmülk bir künedə oturub hesabatın nə ilə qurtaracağını müşahidə edirmiş, sultanın qəzəbləndiyini gördükdə fürsəti əldən verməyib deyir: "Hökmdarım, görürsünüz ki, belə bir ciddi və məsul işin az bir vaxtda yerinə yetirilməsi və özü də belə bir istedadsız adama tapşırılması nə deməkdir? ".

Həsən Səbbah təhqir edilmiş, rüsvay olmuş bir halda şah hüzurundan qovulur, hesabatın yenidən hazırlanması Nizamülmülkə tapşırılır. Həsən Səbbah əvvəlcə Bağdada, Bağdaddan isə Misirə qaçmalı olur ki, sonra Nizamülmülk və səlcuq xanədanından intiqam almaq üçün gizli terrorçu təşkilat ismaili təriqətinin başçısı kimi İrana qayıda bilsin.

Bütün bunlara baxmayaraq şah-vəzir problemi, bütün şərq tarixində olduğu kimi, Məlikşahla Nizamülmülkün arasında da möveud idi. Məlikşahla Nizamülmülk arasında kim-kimi məsələsi hələ öz yüksək nöqtəsinə çatmamışdı. Lakin onun get-gedə yaxınlaşdığını hamı, o cümlədən Nizamülmülkün özü də yaxşı hiss edirdi.

Nizamülmülkün şəxsən Məlikşaha, eləcə də, Səlcuq dövlətinə bütün xidmətlərilə, bunların müqabilində Nizamülmülkə etdiyi bütün hörmət və güzəştlərlə birlikdə onları ayıran və bir-birinə qarşı qoyan çox amillər var idi. Məlikşah fars mədəniyyətinə yiyələnməsinə baxmayaraq, bütün keçmişlə, əxlaq, tərbiyə, ənənə, bütün psixologiyası ilə türk-köçəri mühitinə bağlı idi. Hətta dini münaqişələrdə də o Nizamülmülklə düz gəlmirdi. Nizamülmülk dini mübahisə və münaqişələrdə nəinki mane olmur, bəzən özü də iştirak edirdi. Fanatik dərəcədə şafei məzhəbinin tərəfdarı olan Nizamülmülk başqa təriqət və məzhəb tərəfdarlarını təqib edir, onların yanlış yolda olduqlarını sübut etmək üçün müxtəlif inzibati vasitələrə əl atırdı. Məlikşah isə belə işləri xoşlamır, onların dövlətə ziyan verəcəyindən qorxurdu.

Biz Nizamülmülkün "Siyasətnamə" əsərində dönə-dönə dini təriqətlər, onların tərəfdarlarının darmadağın edilməsi zərurətindən danışdığını görürük. Bütün bunlara qarşı etiraz edən Məlikşah Bağdaddakı Nizamiyyə mədrəsəsinin rəisi Əbu İshaq Şitaziyə göndərdiyi məktubda yazırdı: "Nizamiyyə mədrəsəsi

---

[10] *A.Bolotnikov.Göstərilən* əsəri,səh. 181-182



downloaded from KitabYurdu.org

məzhəb münaqişələri üçün deyil, elmi inkişaf etdirmək üçündür"[11].

Orta əsrlərdə başqa yerlərdə olduğu kimi, səlcuqların qılınc və qələm gücünə zəbt etdikləri böyük bir ərazidə də daxili saray çarpışmaları, geniş zəhmətkeş təbəqələrin müxtəlif şəkildə təzahür edən sinfi mübarizələrlə yanaşı, dini münaqişələr-ideoloji mübarizənin orta əsrlər üçün səciyyəvi olan bu forması, yerdə qalan bütün mübarizə formaları, siyasi, iqtisadi, hərbi və s. ilə elə calaqlanmışdı ki, əlbəttə, onu Məlikşahın əmri, istəyi ilə dayandırmaq mümkün deyildi. **Çünki F.Engelsin ifadəsilə demiş olsaq, feodalizm cəmiyyətindəki sinfi hərəkatların dini boyaları insan qəlbinin xüsusiyyəti və insanın dini ehtiyacları ilə deyil...yalnız bir ideologiya forması dini və teoloji forması tanıyan orta əsrlərin bütün əvvəlki tarixi ilə izah edilir.**

Ölkə genişləndikcə, Məlikşah yaşa dolub kamilləşdikcə, vəzir qocaldıqca, Səlcuq sülaləsi və xilafət arasında ziddiyyətlər kəskinləşdikcə, zəhmətkeş xalqın vəziyyəti ağırlaşdıqca, dini münaqişələr qızışıb siyasi mübarizələrə keçdikcə saray intriqaları daha da güclənirdi. Məlikşah Nizamülmülkə qarşı daha inamsız olur, onun hərəkətlərindən tez-tez əsəbiləşirdi. Bu işdə hərəmxana və Nizamülmülkün rəqiblərinin də rolu az olmurdu. Yuxarıda qeyd edildiyi kimi, Səlcuq dövlətində hərəmxana qadınları, xüsusən sultan arvadları dövlət işlərinə müdaxilə edirdilər, ərləri üzərində böyük nüfüz və təsirləri vardı. İndi isə Nizamülmülkün fəaliyyəti nəticəsində onlar siyasət və dövlət işlərindən uzaqlaşdırılır, ərəb-fars hökmdarlarında belə bir adətin olmadığı göstərilirdi. Digər tərəfdən, Nizamülmülk tərəfindən incidilmiş saray adamları da harada xoşagəlməyən bir hadisə baş verirdisə, onu Nizamülmülk və onun adamlarının ayağına yazırdılar, şahın ixtiyarını məhdudlaşdırdığını deyir, ölkənin bütün işlərinin Nizamülmülk və onun adamları tərəfindən ələ keçirildiyi haqqında yalan-doğru şayiələr yayıb Məlikşahı qızışdırırdılar. Məxəzlərdə oxuyuruq: "Rəqibləri hər gün sultanı xacədən daha ehtiyatlı olmağa təhrik edirdilər (deyirdilər) ki, bütün öz adamlarını, oz tərəfdarlarını vəzifəyə təyin etmişdir. Sultanın özünün heç bir ixtiyarı yoxdur". Bu sözlər isə yanlış deyildi. Yavaş-yavaş Məlikşahın Nizamülmülkə olan hörmət və etimadı azaldı, onun tərəfdarları tədricən işdən uzaqlaşdırıldılar. Ara-sıra sultanın yanına şikayətə gələn olduqda Məlikşah ona (haman adama) edilmiş zülmün səbəbini xacə və onun iradəsinin yarıtmazlığında görürdü[12].

Həyat göstərir: ürəyə şübhə və inamsızlıq toxumu düşdümü, o mütləq cücərib qol-budaq atacaqdır. Su tökən çox olduqca daha tez, qida verən bol olduqca daha böyük olacaqdır. Sarayda isə bunların hər ikisi istənildiyindən qat-qat çox idi. Hərəmxanada-xatunlar və xədimlər, divanxanada-xainlər və xadimlər.

---

[11] *Osman Tııran,* səh 233.
[12] Məşhəd. Ədəbiyyat fakültəsinin əsərləri,IV il, # l-2,səh.25



downloaded from KitabYurdu.org

Ölkədə isə, müharibələr, mübarizələr bütün antaqonist sinfin cəmiyyətlərdə olduğu kimi, orta əsrin feodal-quldarlıq qarışılıqlı cəmiyyətində əsas iki-zalimlər və məzlumlar, istismar olunanlar sinifləri qarşı-qarşıya durmuşdular. Lakin hər sinfin özünün daxilində ziddiyyətlər, ictimai təbəqələşmə və mübarizələr gedirdi. Nizamülmülkün mənsub olduğu hakim təbəqədə ən azı üç qüvvə qarşı-qarşıya durmuşdu: hakimiyyət başında duran əlisilahlı səlcuqlar və ona tabe olan bütün bürokratik-zadəgan dövlət dəstgahı, dinin başında əliquranlı, ağzıdualı xilafət, hər ikisi açıq fəaliyyətdə olan, zahirən bir-birinə hörmət edən qohumluq bağları ilə peyvənd edilmiş, zəhmətkeş xalqa qarşı mübarizədə əlbir olan qüvvələr idisə, üçüncü qüvvə gizli fəaliyyətdə olan, hakimiyyəti ələ keçirməyə çalışan və hər iki qüvvəni daxildən dağıtmaq istəyən qüvvələrdən ibarət idi. Nizamülmülk bu istismarçılar sinfinə aid olan hər üç cəbhə ilə sıx əlaqə saxlayır, onların hər üçündən, şəraitdən asılı olaraq istifadə etməyə çalışırdı. O, bu məqsədinə bəzən nail olur, bəzən isə müvəffəqiyyətsizliyə uğrayırdı. Bu qruplarda dostlar da çox idi, düşmənlərdə. Nizamülmülk öz təcrübəsindən gözəl bilirdi ki, dostlar köməyə çatana qədər düşmənlər adamın axırına çıxa bilərlər. "Yaxın düşmən daha qorxulu olar" məsələsi Nizamülmülkə çox tanış idi. Ona ən yaxın Məlikşah idi, onun düşmən olması ən arzuedilməz və dəhşətli idi. Ona görə Nizamülmülk ona yaxın vəzir kimi görünməyə çalışır, lakin xilafətlə aranı sazlamağı, ətrafına e'tibarlı adamlar yığmağı da unutmurdu. Bir-birinin ardınca əldə edilən qələbələr, vuruşmalarda xüsusi qəhrəmanlıq göstərmiş, zəfər və fəthlərdə böyük rol oynamış sərkərdələrə "iqta" (kəsik) adlanan torpaqların verilməsi, mədrəsələrin açılması, alimlərin himayə edilməsi, ölkədə abadlıq işlərinin aparılması onun adına çıxarılır, nüfuzunu artırırdı, bu isə Məlikşahın sultanlıq şəninə, xudpəsəndlik hisslərinə müəyyən sədəmə gətirir, onun Nizamülmülkə qarşı kin və nifrətini şiddətləndirirdi. Hər halda Nizamülmülk şöhrəti səlcuq sultanlarının şəxsi nüfuzunu kölgədə buraxırdı. Bütün tarixçilər, istər qədim, istərsə yeni, Məlikşah dövründən danışarkən söhbət onun adı ilə bağlanırdı, misilsiz vəzir adlanırdı. "Bu dövrdə ölkənin abadlığı və millətin asayişi tam mənasında bərqərar və Nizamülmülk kimi misilsiz vəzir də ixtiyar sahibi idi[13]".

XI əsrin sənlarına doğru ölkədə demək olar ki, daxili vəziyyət nisbətən "sabitləşmiş", zahiri sakitlik yaranmışdı. Məlikşah tacqoyma mərasimi keçirmək, vəliəhd seçmək qərarına gəlmişdi. Digər tərəfdən, Xəlifə Müqtədi qohum olmaq arzusunu bildirmiş, Məlikşahın qızını alaraq onun kürəkəni olmaq istədiyi xəbərini öz vəziri Fəxrəddövlə vasitəsilə ona çatdırmaq üçün Məlikşahın yanına göndərmişdi. Lakin xəlifə vəzirinin ayağı xeyirli deyilmiş. O, 1082-ci ildə İsfahana gələrkən Məlikşahın iki yaşlı Davud adlı oğlu ölmüşdü. Ona türkmən qaydasında yas saxlayırdılar. Şəhər bütün matəmə batmışdı. Türkmənlər atlarının quyruğunu kəsmiş, yəhərlərini tərsinə çevirmiş, qara geyinmiş, qadınlar saçlarını

---

13 *A.Bakıxanov.* Gülüstani-İrəm, Bakı,1951, səh.71



downloaded from KitabYurdu.org

yolmuşlduar. Sultan günlərlə heç bir şey yemir, uşağını basdırmağa qoymurdu. Xəlifə bu xəbəri eşitdikdə Bağdadda üç günlük matəm elan etmişdi. Xəlifənin vəziri bu vəziyyətdə nə edəcəyini bilməyib Nizamülmülklə məsləhətləşir. Nizamülmülk Məlikşahın yanına deyil, baş hərəm sayılan Türkan xatunun yanına getməyi lazım bilir. Hər ikisi birlikdə onun yanına gəlib məsələni açırlar. Türkan xatun müəyyən şərtlərlə, xüsusilə də toy mərasiminin səlcuq qaydasında keçiriləcəyi təqdirdə bu işin düzəlməsinə söz verir. Özü də qeyd edir ki, Türküstan xanlarından, Qəznə sultanlarından qızın istəyənləri çoxdur, şəxsən bunu xəlifənin xatirinə edir ki, yeri gəldikcə bu xidmət qarşısında xəlifənin də ona əl uzadacağına əmin olsun. Vəzir xəlifə tərəfindən tam vəkalətli olduğunu və onun bütün şərtlərini qəbul etdiyini deyir. Türkan xatunun bu sən şərti Nizamülmülkün xoşuna gəlməsə də, o, heç bir söz demir. Vəzir bir aya qədər İsfahanda qaldıqdan sonra Məlikşahın razılığını alır, özündən razı halda Bağdada, xəlifənin yanına qayıdır. İki yaşlı Davudun ölümü, şahın tacgüzarlığını, vəliəhdin təyinini, Xəlifənin toyunu xeyli təxirə salır. Lakin bu məsələlər ölkənin ümumi, ictimai-iqtisadi, siyasi vəziyyətindən asılı olmayaraq heç vaxt unudulmur, şahı, Türkan xatunu, xəlifəni və Nizamülmülkü həmişə düşündürürdü. Hərəsinin öz planı, öz mövqeyi, öz məqsədi vardı. l087-ci illərə doğru, hələ Həsən Səbbah fədailərinin şahların, vəzirlərin, xəlifələrin canına qorxu salmazdan bir neçə il əvvəl, ölkədə nisbətən "sakitlik" hiss edən Məlikşah və xəlifə tacgüzarlıq və toy mərasiminin vaxtının çatdığını hiss edirdilər.

Məlikşah-xəlifə qohumluğu özünün ideyasına görə qılınc-Quran, səltənət-şəriət qohumluğu idi. Hər iki tərəf buna azı 5-6 il hazırlıq görmüşdü. Bu toyu təsvir edənlər tarixdə hələ belə təntənə, cah-cəlal, dəbdəbə görünmədiyini qeyd edirdilər. Bizim bu müqəddimədə məqsədimiz tarix yazmaq deyil, Nizamülmülkün necə vəzir və şəxsiyyət olduğunu göstərməkdən, onun heç olmazsa, ümumi şəkildə obrazını təsvir etməkdən və "Siyasətnamə" müəllifinin daxili mənəviyyatını açıb göstərməkdən ibarətdir. Əks təqdirdə, "Siyasətnamə"nin özünün mahiyyətini aşkara çıxartmaq mümkün ola bilməz. Buna görə də biz bilavasitə Nizamülmülklə bağlı olmayan məsələlərə burada mövzu ilə az əlaqəsi olan dərəcədə toxunuruq.

Nizamülmülk bütün başqa işlərdə olduğu kimi, şübhəsiz, toy məclisində də çox mühüm rol oynayır və mərkəzi şəxsiyyətlərdən biri, bəlkə də birincisi idi. Əslinə qalsa, xəlifəyə qızın "hə" cavabını da o vermişdi. Ona görə də, Nizamülmülkün Bağdada yaxınlaşma xəbəri xəlifəyə çatdıqda o, dərhal bir adam göndərib Nizamülmülkün atda, yerdə qalan adamların piyada gəlməsini əmr edir. Nizamülmülk "Məcməul-vəsaya" ("Vəsiyyətlər toplusu") adlı əsərində onların xəlifə tərəfindən necə qarşılandığını belə təsvir edir:

"Kəbin kəsiləcək gün Sultan əmr etdi ki, dünyanın hər tərəfindən dəvət edilmiş bütün əyan və əşrəf xəlifənin xoşuna gəlmək üçün hüzuruna, darül-xilafəyə piyada getsinlər. Xəlifə bundan xəbər tutacaq dərhal bir adam göndərib böyük əyan və əşrafların toplandığı yerə xəbər çatdırdı: Əmirəlmö'minin (xəlifə) əmri budur



downloaded from KitabYurdu.org

ki, darülxilafəyə Nizamülmülk atlı, qalanlar isə piyada gəlməlidirlər. Bunu eşitdikdə dərhal murad atını mindim, dünyanın bütün əyanları isə mənim yanımda piyada yola düşdük. Xilafətin ziyafət məclisinə çatdıqda sən dərəcə böyük və uca bir taxt qoyub məni oturtdular. Başqaları mənim sağımda və solumda qərar tutdular. Alim və böyüklərin sayı qədər hamıya xələt gətirdilər. Mənim xələtim çox naxışlı və bəzəkli idi. Üzərində isə yazılmışdı: "Dünyanın alim, adil vəziri Rəziyy (xoşbəxt kişi - R.S.) Əmirəlmö'minin Nizamülmülkə". İslamın zühurundan indiyə qədər vəzirlərdən heç kəsə "Əmirəlmö'minin" adı nəsib olmamışdı"[14].

Xəlifə Müqtədinin Nizamülmülkə göstərdiyi bu lütf bir tərəfdən Məlikşahın qüdrət və əzəmətinə göstərilən hörmət əlaməti idisə, digər tərəfdən onu xilafət başına gətirməkdə böyük xidməti olan əvəzsiz vəzir Nizamülmülkün özünə şəxsi minnətdarlığının əlaməti idi. Nizamülmülk özünə verilən bu "Əmirəlmöminin" adından həddən artıq qürrələndiyini, daxilində xudpəsəndlik, lovğalıq, təkəbbür hisslərinin baş qaldırdığını hiss edir, batinində şeytani hisslərin coşduğunu, insani hisslərin söndüyünü, belə cah-cəlala baxmayaraq, özünün miskin, zavallı olduğunu duyur, onun üçün bundan yüksək mənsəb və məqamın ola bilməyəcəyini yazır. Dünyanın faniliyi onun gözü qarşısında canlanır, bundan sonra inhitat, eniş dövrünün başlayacağı qorxusu onu bürüyür. Nizamülmülk o uca taxt üstündə oturarkən təqribən belə bir vəziyyətdə olduğunu təsvir edir. Sonra zorla özünü ələ ala bilir. Oğluna vəsiyyətnamə şəklində yazdığı "Məcməul-vəsaya" yəni "Vəsiyyətlər toplusu"nda xəlifə ziyarətindən qayıtdıqdan sonra nə kimi dəhşətli, vahiməli yuxular gördüyünü yazır. Bunlar xacənin öz dilindən olduğu, onun necə deyərlər, bu dünyadan gedəcəyini hiss edən bir adamın etirafı olduğu üçün, Nizamülmülkü yaxşı tanımaq üçün çox səciyyəvidir.

Nizamülmülk bu yuxular haqqında çox geniş danışdığı üçün biz onun farsca mətnini və tərcüməsini verməkdənsə qısa məzmununu danışmağı məqsədəuyğun hesab edirik. Maraqlananlar məxəzlərə müraciət edə bilərlər [15].

Qısa məzmun belədir: "Xəlifənin hüzurundan qayıtdıqdan sonra gecə yatdım.Yuxuda gördüm ki, haman taxt daha uca bir yerdə qoyulmuş, haman xələt əynimdə onun üzərində oturmuşam. Lakin tək-tənhayam. Təklikdən dəhşət məni bürümüşdü. Birdən sən dərəcə eybəcər və çirkin bir adam mənim yanımda, taxtın üzərində oturdu. Üfunətdən başım çatlayırdı. Bir az keçməmiş ondan da eybəcər və üfunətli bir adam peyda olub yanımda oturdu. Sonra bir-birindən daha üfunətli, daha kifir, daha qorxulu əcayib-qərayib həyulalar mənim ətrafıma toplaşdılar. Hamısı da taxt üzərində məni sıxışdırıb yerə salırdılar. Az qalırdı yerin darlığından o uca taxtdan yıxılım, üfunətin tündlüyündən boğulurdum. Birdən yuxudan ayıldım. Allaha şükür etdim. Sabahı sədəqə payladım, yuxumu heç kəsə danışmadım. İkinci gecə eynən yuxunu gördüm. Bədənimə lərzə düşdü.

[14] Tərcümeyi-hali-vəzir, səh.29
[15] Tərcümeyi-hali-vəzir, səh.29-30



downloaded from KitabYurdu.org

Ayılmasaydım yəqin canım çıxmışdı. Üçüncü gecəni qorxumdan yatmağa cəsarət etmədim. Lakin səhərə yaxın yuxu məni yenə apardı. Yenə həmən eybəcərlər başıma toplandı. Az qalırdı ürəyim partlasın. Birdən üzlərindən nur tökülən adamlar haradansa nazil oldular. Eybəcərlər yoxa çıxdılar. Ətrafımı rayihələr bürüdü, kefim kökəldi, könlüm açıldı, o qədər sevindim ki, qələm onu fəsvir etməkdən acızdır. Nəhayət, bunlardan birinə xitab edib dedim: "Siz kimsiniz və onlar kim idilər?". Onlar dedilər: "Biz sənin dünyada gördüyün xoş əməllərin, onlar isə bəd əməllərin idi. Bizim və onların həddi-hüdudu, sayı-hesabı yoxdur. İndi isə özün bil, onlar xoşuna gəlirsə, bizdən əl çək, yox biz xoşuna gəliriksə, onları tərk et"[16].

Məlikşah, Türkan xatun, Xəlifə, Nizamülmülk münasibətlərinin iki problemi toy, tacgüzarlıq məsələsi qurtarmış, yalnız bir vəliəhdi təyin etmək qarşıda günün ən vacib və yeganə məsələsi kimi dururdu. Burada hər birinin öz xüsusi mövqeyi vardı. Ən maraqlı Türkan xatun ilə Nizamülmülk arasındakı münasibət idi. Ona görə də, ilk ciddi toqquşma vəliəhd təyin etməkdən başladı. Ümumiyyətlə, bütün səlcuq sultanları, xanlarl kimi Məlikşahın arvadı Türkan xatun da hökmlü, yalnız əri üzərində deyil, dövlət adamları, saray xadimləri üzərində böyük nüfuzu, özünün xüsusi divanı, on iki ınindən yuxarı seçmə ordusu,Tacülmülk Ğənaimi kimi hiyləgər, tədbirli, mahir, riyakar vəziri, öz tayfa və qəbiləsi içərisində çoxlu miqdarda adam və tərəfdarları olan, zahirən gözəl və cazibədar, batinən kinli və qəddar qadın idi.Türkan xatun məxəzlərin verdiyi məlumata görə, başladığı işi yarımçıq qoymayan, qarşıda qoyduğu məqsədə çatmaq üçün heç bir şeyi müzayiqə etməyən, bütün tədbirlərə, onun yaxşı və pisliyindən asılı olmayaraq əl atan mətin, iradəli, qorxmaz bir qadın idi. Məlikşah özünə vəliəhd seçmək istəyərkən bu qadın öz dörd yaşlı oğlu Mahmudun seçilməsini tələb edirdi. Məlikşahın o biri arvadı Zübeydə xatundan Börküyarıq adlı böyük oğlu var idi. Nizamülmülk onun vəliəhdliyini məsləhət görürdü. Nizamülmülk bunu deyərkən Börküyarığın anasının əsil-nəcabətli olmasını, böyüklüyünü, ölkəni idarə etməyə daha tez hazır olmağını irəli sürürdü. Ənənəyə görə də vəliəhdlik ona düşürdü[17]. Lakin onun özünün heç kəsə demədiyi məqsəd və mülahizəsi vardı. Burada böyüklük məsələsini irəli sürən Nizamülmülk Alp Arslan ölərkən onu nəzərə almamış, yaşca daha kiçik olan Məlikşahın taxta çıxmasını təmin etmişdi. Əlbəttə, məsələ indi tamamilə başqa cür idi. Əslində özünün və ya övladının vəzirliyinin müqəddəratı məsələsi idi. Türkan xatunun vəziri Tacülmülk idi, xatunun oğlu vəliəhd olarsa, onun da vəzirinin Tacülmülk olacağı heç bir şübhəyə yol vermirdi. v)gər Börküyarıq hakimiyyət başına keçsəydi, heç vaxt Nizamülmülk şəxsən ona göstərdiyi yaxşılığı unutmayacaq, sağ qalarsa, özünü vəzirlikdə saxlayacaq, olmazsa oğlunu vəzir təyin edəcək idi. Buna da heç bir şübhə ola bilməzdi. Sultan hələ də açıq-açığına Nizamülmülkə qarşı çıxmağın,

[16] Tərcümeyi-hali-vəzir, səh.29-30
[17] Tərcümeyi-hali-vəzir, səh.29-30



downloaded from KitabYurdu.org

xüsusilə böyük oğlu ilə birləşməsinin məsləhət olmadığını nəzərə alaraq, Börküyarığa üstünlük vermiş, beləliklə, Türkan xatunla Nizamülmülk arasında düşmənçiliyin artmasına, həm də sevimli baş hərəminin böyük narazılığına səbəb olmuşdu. Türkan xatun Nizamülmülkdən qisas almaq üçün tədbirlər düşünməyə başlayır. Belə qərara gəlir ki, Nizamülmülkü məhv etmək üçün ən düzgün yol Məlik şahla onun arasını vurmaq, vəzirlikdən uzaqlaşdırmaq, adamlarını vəzifələrdən qovmaq və beləliklə, Nizamülmülk hökmranlığına sən qoymaqdır. Başqa sözlə, Nizamülmülk özündən əvvəlki, Alp Arslanın vəziri Əmdülmülkü hansı yolla aradan qaldırmışdısa, o üsul ilə də, onun özünü məhv etmək qərarına gəlir. Baş hərəm fitnə-fəsada başlayır. Sözsüz ki, bu işdə ona köməkçilər də lazım idi. Birinci növbədə, onun məsləhətçisi, şübhəsiz Tacülmülk olmalı idi. İlk fəaliyyət Məlikşahın sultanlıq hissinə toxunmaq, ölkəni onun deyil, Nizamülmülkün idarə etməsindən özünün ov, əyləncə, dövlətə dəxli olmayan başqa işlərə başı qarışdığından, Nizamülmülkün və onun adamlarının zülm və ədalətsiz işlərindən, hətta səlcuqlar xanədanına mənsub olan adamları belə, döydürüb həbsə saldırdığından və sairədən danışmağa, hər gün, hər gecə onun qulağını doldurmağa başlayır. Türkan xatunun dediklərində həqiqət də var idi, sultan özü də bunu gözəl bilirdi. Türkan xatunun casusları belə hadisələri şahın qulağına çatdırmaqda az səy göstərmirdilər. Bəd söz də qaratikan toxumu kimi bir şeydir, hansı qulağa düşsə baş verib cücərəcək, ürəyə keçsə, dəlib deşəcək. Məlikşaha deyilən sözlər isə tam onun ürəyini nişan alırdı. Məlikşah oturub indiyə qədər Nizamülmülkün onun xilafına nələr gördüyünü xatırlayır, get-gedə şübhə etimadsızlıq kabusu onu öz ənginə alır, fitnə və qisas cadusu onu intiqam məcrasına yönəldirdi. Hələlik gizli halda, yavaş-yavaş közərən, Türkan xatun tərəfindən alovlandırılan bu cəza közünün şölələnməsi üçün Nizamülmülk, ya onun adamları tərəfindən bircə yanlış hərəkət, xoşagəlməz bir hadisə kifayət idi. Belə bir hadisə İsfahandan uzaqda Mərv şəhərində baş verdi. Məxəzlərdə oxuyuruq:

"Xacənin oğlu Osman Mərvin hakimi idi. Onunla Mərvin şəhnəsi arasında ixtilaf əmələ gəldi. Şəhnə sultanın yaxın adamlarından idi. Osman əmr etdi. Şəhnəni tutdular. Buraxıldıqdan sonra şəhnə sultanın hüzuruna gəlib əhvalatı sultana danışdı. Bu rəftar sultanın qəzəbini daha da artırdı, o həddən artıq hiddətləndi və dövlət başçılarını çağırıb belə bir sifarişlə Xacənin yanına göndərdi və dedi: "Xacəyə çatdırın ki, əgər o ölkəyə mənimlə şərikdirsə, bu başqa məsələ, əgər o mənə tabedirsə, nə üçün özünü saxlamır, oğlanları və tabeliyində olanları tərbiyələndirmir. Onlar bütün dünyanı öz əllərinə alıblar, hətta o dərəcəyə çatdırıblar ki, bizim adamlarımıza da hörmət qoymurlar. Yoxsa, istəyirsən əmr edəm sənin qələm-dəvatını əlindən alsınlar."

Onlar Xacənin yanına gəlib sifarişi çatdırdılar. Xacə inciyib hirsləndi və dedi: "Sultana deyin, məgər bilmir ki, ölkədə mən onun şərikiyəm. O, bu mərtəbəyə mənim tədbirim sayəsində çatıbdır. Yadında deyilmi, Sultan Alp Arslan öldürüldükdə necə mən, əmirləri və qoşunları toplayıb Ceyhun çayını keçdim.



downloaded from KitabYurdu.org

Onun üçün şəhərlər almış, Şərq və Qərb ölkələrini fəth etmişəm. Deyiniz ki, o tac bu qələm-dəvata bağlıdır. Bu qələm-dəvatı alsan, o tacı da ondan alarlar".

Həqiqətən, xacənin cavabı çox sərt idi. Sözünü deyib qurtardıqdan, hirsi yatdıqdan sonra onlara dedi: "Mən bu sözləri əsəbiləşdiyim üçün belə dedim. Siz istəyirsiniz, bu sözləri eynən olduğu kimi çatdırınız, istəyirsiniz, necə məsləhət bilirsinizsə, hamınız birlikdə o curə də deyiniz."[18]

Onlar çıxıb şahın yanına gəldilər və birlikdə dedilər: "Xacə ərz etdi ki, o sizin kiçik qulunuzdur, oğlanları da sizin nökəriniz. Sultanın əmri onların canları, mal-dövlətləri üçün məcburidir.

Necə əmr edilərsə, elə də yerinə yetiriləcəkdir. Oz övladlarına elə bir qulaqburması verəcəkdir ki, qalanlara da ibrət dərsi olsun".

Sonra elə ki, məclis xali oldu, o adamlardan biri (Tacülmülk-R.S.) sultana dedi: "Xacənin şaha qul olduğu haqqında sizə deyilən sözlər xacənin cavabı deyildir. Xacə elə dedi, belə dedi". Sultan bir az fikrə getdi, bu sözün üstündən keçdi. Xacə isə, vəzirlikdə öz yerində qalmaqda davam etdi.

Nizamülmülk haqqında danışılan təqribən bütün məxəzlərdə bu əhvalat çox cüzi dəyişikliklə eyni şəkildə verilir. Lakin sonrakı söhbətlərdə zidiyyət və ixtilaflar meydana çıxır. Bəziləri öldürülən günə qədər Nizamülmülkün vəzirlikdə qaldığını, bəziləri hələ bir il əvvəl Türkan xatun tərəfindən düzəldilmiş tədbir əsasında vəzirlikdən qovulduğunu yazırlar. A.Bakıxanov özünün "Gülüstani-İrəm" əsərində yazır: "Axırda Məlikşahın baş hərəmi Türkan xatun cürbəcür böhtanlarla Nizamülmülkü padşahın gözündən saldı. Nizamülmülk işdən kənar edildi və bir il sonra Nəhavənd şəhərində Həsən Səbbahın fədailəri tərəfindən ölıdürüldü"[19].

Türkan xatun oğlunu vəliəhd keçirmək üçün bütün tədbirlərə əl atır, əri Məlikşahla açıq üz-üzə gəlməsə də arxada xəlifə ilə sazişə girə bilmişdi. Bu isə Məlikşahı qəzəbləndirmiş, onun Bağdada gedərək xəlifənin Bağdadı tərk etməsini tələb etməyinə səbəb olmuşdu. Tarixi məxəzlərin verdiyi məlumata görə, 1090-cı illərdə Qəzvin yaxınlığında Ələmut qalasının Həsən Səbbah və onun tərəfdarları tərəfindən alınaraq bir tərəfdən Səlcuq dövlətinə, digər tərəfdən ərəb xilafətinə meydan oxuması da vəziyyəti xeyli gərginləşdirmişdi. Həsən Səbbahın qul kimi müti olub, onun əmrlərini kor-korana həyata keçirən və «fədai» adlanan tərəfdarları artıq terrorçuluğa başlamış, ayrı-ayrı adamları aradan qaldırmaq üçün öz fəaliyyətlərini genişləndirmişdilər.

Nizamülmülk Məlikşahı təhrik edir, Həsən Səbbahın fitnəsinə sən qoymaq üçün qəti tədbir görülməsini tələb edirdi. Fədailərin 1090-cı ildə qurbanı Savə müəzzinin öldürülməsinə etiraz olaraq Məlikşah Ələmut qalasında oturan Həsən Səbbaha yazırdı: "Sən özündən yeni din icad edibsən, avam dağlıları yoldan çıxarıb Əbbasi xəlifələrini ələ salır, adamları öldürtdürür, ölkədə qarışıqlıq salırsan. Təriqətdən əl çək, əsil islam yoluna qayıt. Əks təqdirdə qalanı yerlə yeksan edib,

---

[18] Tərcümeyi-hali-vəzir, səh.17-18

[19] *A.Bakıxanov.* Gülüstani-İrəm,Bakı,l95l,səh.71



downloaded from KitabYurdu.org

sakinlərini qılıncdan keçirərəm ".

Həsən Səbbah isə cavabında yazır ki, o heç bir yeni din icad etməmişdir, əsl müsəlmandır. Xəlifəyə gəldikdə isə Əbbasiləri devirmək, onları Bağdaddan qovmaq lazımdır. Çünki onlar xəlifəliyi zəbt etmişlər, həqiqi xəlifələr Fatimilərdir. Ölkədə olan qarışıqlıq, adamların öldürülməsi isə camaatın narazılığı üzündəndir. Onun da səbəbkarı vəzir Nizamülmülkdür. Bunların hər ikisini aradan qaldır. Onda hər şey qaydasında olar. Əks halda bir başqası meydana çıxıb bu vəzifəni yerinə yetirə bilər.[20] Cavab ağır, söz kəskin, məzmun hədə-qorxulu idi. Həsən Səbbah güclü rəqib olduğu kimi, geniş xalq təbəqəsi arasında hörməti az deyildi. Bu sahədə onların təşviqatçıları da az fəaliyyət göstərməmişdilər. O dövrdə onsuz da avam, qara camaat dini məsələləri o qədər də dərindən başa düşmür, əslinə qalsa, qarınlarını doydurmaq üçün gecə-gündüz çalışır, heç dinlə bir o qədər də maraqlanmırdılar. Kim onların bu ağır və dözülməz həyatını bir az yüngülləşdirəcəyini vəd edirdisə, onun da ardınca gedirdilər. Onların ictimai şüur səviyyəsi də elə buna uyğun gəlirdi. Hər halda Məlikşah qəti ölçü götürməli idi. Bunu arvadı Türkan xatun, vəziri Nizamülmülk, kürəkəni xəlifə Müqtədi, rəqibi Həsən Səbbah, bunların hamısından çox ölkədə başlamaqda olan hərc-mərclik tələb edirdi. Çünki bu ziddiyyətləri az-çox zəiflətmək üçün, nisbətən asanı, dəqiq deyilmiş olsa, ziyanın kiçiyi Nizamülmülkün hüquqlarını məhdudlaşdırmaq idi. Həqiqətən də, tarixi məxəzlər 1091-ci illərdə şahın kəmiltifat olduğunu, onun mühüm dövlət işlərindən uzaqlaşdırıldığını yazırlar. Bunu onun qocalığı ilə də əlaqələndirmək olardı. Hər halda, Nizamülmülk özünün mövqeyinin zəiflədiyini hiss edirdi, vəziyyətinin pisləşdiyini duyurdu. Artıq bu dövrlərdə bəzi tarixçilər onun vəzirlikdən qovulduğunu, yerinə Türkan xatunun vəziri Tacülmülkün təyin edildiyini də yazırlar. Yuxarıda gördük ki, A.Bakıxanov da bu fikirdə idi. Lakin bir çoxları onun öldürülənə qədər vəzir qaldığını deyirlər.

Tarixi mənbələrin verdiyi məlumata görə, Nizamülmülk bütün müdrikliyinə baxmayaraq, çox dindar, mövhumatçı, münəccim, rəmmal və bu qəbildən olan etiqadı ehkam və əlamətlərə inanan imiş.

Nizami Əruzi Səmərqəndi tərəfindən yazılmış və XII əsrin etibarlı mənbələrindən biri hesab edilən "Çahar məqalə" (Dörd məqalə) əsərində oxuyuruq: "Həkim Mousili Nişabur münəccimlərindən biri idi. Böyük xacə Nizamülmülk Tusiyə xidmət edərdi. Mühüm işlərdə Xacə onunla məsləhətləşər, onun rəyini və nə tədbir görmək lazım gəldiyini soruşardı. Elə ki, Mousili qocaldı, qüvvəsi zəiflədi, bədəni taqətdən düşdü, uzaq səfərlərə çıxmaq imkanı qalmadı, xacədən istefaya icazə istədi. Söz verdi ki, Nişaburda qalacaq və hər il Xacə üçün təqvim göndərəcək, ilin nə üstdə təhvil olduğunu, nələr baş verəcəyini ona xəbər verəcəkdir. Xacənin özü də ömrünün qurtardığını, həyatının sona yaxınlaşdığını

---

[20] *Osman Turan.* səh. 277



downloaded from KitabYurdu.org

hiss etdiyindən dedi: bir rəml at, gör mənim təbiətim nə vaxt taqətdən düşəcək, heç kəsin qaça bilmədiyi o qəza, o məcburi hökm nə zaman göydən yerə enəcəkdir. Həkim Mousili dedi: Mən öləndən altı ay sonra[23] Xacə onun rifah halını daha da yaxşılaşdırdı. O, Nişaburda oturub rahat-farağat ömür sürür, hər il Nizamülmülkə təqvim göndərir və təhvil haqqında xəbər verirdi. Buna baxmayaraq, kim Xacənin yanına Nişaburdan gəlirsə, birinci sualı bu olurdu: "Mousili necədir?". Nə qədər ki, onun sağ-salamat olduğunu eşidirdi, kefi kökəlirdi, damağı çağ olurdu. Dörd yüz həştad beşinci ilə qədər (1092) belə davam etdi. Bu vaxt Nişaburdan bir adam gəldi. Xacə Mousilini soruşdu. O adam baş əyib dedi ki, "İslam başçısının ömrü uzun olsun, Mousilinin ruhu göylərə pərvaz etdi". Soruşdu: "Nə vaxt?". Dedi: "Rəbbiül-əvvəl ayının ortalarında ömrünü islamın başçısına (Nizamülmülkə-R.S.) bağışladı."[21]

Nizamülmülk çoxdan qorxduğu bu xəbəri eşitdikdən sonra Əruzi Səmərqəndinin dediyinə görə həddən artıq kədərlənir, öz işlərini qayda-qanuna salır, torpaqlarını paylayır, qullarını azad edir, borclarını qaytarır, vəsiyyətnamə yazır, dostlarını, düşmənlərini razı salır, bir sözlə, bu dünyadan köçən adama nə lazımdırsa, hamısını edir. Görünür, onun o vaxta qədər şəriətdə olmayan "Məhzər" yazdırmaq rəvayəti də bu dövrə təsadüf edir.

Tarixi məxəzlərin verdiyi məlumata görə[22], xacə çox inanan, guya o dünyanın işinə bu dünyadan daha çox fikir verən bir adam imiş. Ona görə o, ölməmişdən əvvəl bütün adamlara müraciət edib onun haqqında nə fikirdə olduğunu bir dəftərə yazmalarını, o dövrün istilahı ilə demiş olsaq, "Məhzər", müasir terminlə söyləsək, "rəy sorğusu dəftəri" yazmalarını xahiş edir. Dəftər təşkil edilir, hərə bir şey yazır, nəhayət, növbə gəlib Nizamiyyə mədrəsəsinin Müdərrisi Əbu İshaq Firuzabadiyə çatır. O qısa, üç sözdən ibarət aşağıdakı kəlamı yazır: "Həsən xeyrüzzələmə". Yəni "Həsən zalimlərin insanlısıdır" (yaxşısıdır) (Həsən Nizamülmülkün adıdır).

Məhzəri Nizamülmülkün yanına apardıqdan sonra deyir: "Böyüklərdən heç kəs onun qədər düz yazmamışdır".

Rəvayət edirlər ki, Nizamülmülk öldükdən sonra bir dostu onu yuxuda görür, o deyir: "Allah məni o kişinin düz sözünə görə bağışladı".

Nizamülmülk haqqında rəvayətlər çoxdur. Onlar xacəni bir insan kimi səciyyələndirirlərsə də onların hamısından danışmağa ehtiyac yoxdur. Tarixi hadisələrə qayıdaq.

Yuxarıda deyildiyi kimi, o zaman yaradılmış tarixi şəraitdə qəti, cəsarətli tədbir görülməli idi. Məlikşahla Nizamülmülk arasında əmələ gəlmiş soyuqluq isə buna böyük mane olurdu. Məlikşah görünür, eyni zamanda bütün ziddiyyətləri aradan qaldırmaq qərarına gəlir, ordu göndərərək Ələmut qalasını alt-üst etmək istəyir. O, bu vəzifəni yerinə yetirmək üçün 1092-ci ildə əmir Arslan Taşı Ələmuta

---

[21] Çahar məqalə, Məhəmməd Müşinin redaktəsi ilə, Tehran,1343,səh 98-99
[22] Yenə orada



downloaded from KitabYurdu.org

göndərir. Xəlifəni Bağdaddan qovmaq üçün isə özü Bağdada yollanır. Bu məsləhətin kim tərəfindən verildiyi tarixi məxəzlərdə çox qaranlıq və rəmzi halda eyhamla verilir. Lakin Türkan xatunun yaxın adamı Tacülmülk Qənaminin əli hər yerdə görünür. Bu səfərdə Nizamülümlk də iştirak edir. Amma onun nə əmrinin gücü, nə nəfəsinin təsiri hiss olunur. Əksinə, o bu səfərə çıxarkən özünün salamat qalacağına qətiyyən ümid etmir. Bu barədə "Siyasətnamə"nin müqəddəməsində çox aydın yazılmışdır. Bəlkə burada həkim Mousilinin də qabaqdan verdiyi xəbərin təsiri vardır. Lakin bu tədbirin kimin tərəfindən görülməsinə baxmayaraq, o, Nizamülmülk, Məlikşahın öldürülməsi, Ələmut qalasında onun ordusunun məğlubiyyətə uğraması, xəlifənin Bağdaddan qaçması, Tacülmülkün vəzirliyə çatması ilə nəticələndi.

Nizamülmülkün ölümü haqqında məxəzlərdə bəzi xırda ixtilaf olsa da, əsasən hadisə eyni şəkildə təsvir edilir. 485 Hicri-Qəməri (1092-ci) ildə Məlikşahla İsfahandan Bağdada gedərkən yolda, bəzilərinin dediyinə görə, Brucird[23], bəziləri Nəhavənd[24] yaxınlığında dərviş paltarında bir adamın ona yaxınlaşaraq məktub verdiyini söyləyir. Xacə məktubu aldıqda həmin adam onu bıçaqla vurur. Bəzi məxəzlər onun adını yazmır, bəziləri, bunu Həsən Səbbahın fədailərindən olan Əbu Tahir olduğunu deyirlər. "Qisas xəncəri uzun olar"- məsəli doğru çıxır. Nizamülmülk yaralanarkən bəzi məxəzlər Məlikşahın onun yanında, bəziləri Bağdadda olduğunu yazırlar.

Bir sıra məxəzlərdə Nizamülmülkün öldürülməsində Türkan xatun, Məlikşah və Tacülmülkün əlinin də olduğu qeyd edilir. Nizamülmülk bıçaqlanandan sonra, rəvayətlərə görə, hələ bir neçə gün yaşayır, hətta, Məlikşaha vəsiyyət edir ki, ölərsə, onun yerinə oğlunu vəzir təyin etsin. Həmin şerin bir misrasında Nizamülmülk özünün doxsan altı yaşında olduğunu yazır.

Ey bəxti cavan şah, bir müddət sənin xidmətində,
Sitəminin tozunu günlərin çöhrəsindən sildim. Qəzadan ömrüm gəlib doxsan altıya çatanda, Nəhavənd yaxınında bir bıçaqla öldüm.
O köhnə vəzifəmi oğluma qoyub gedirəm,
Onu allaha, bir də sizə tapşırıram [25].

Şəmsəddinin gətirdiyi bu qitədən elə çıxır ki, Nizamülmülk öldürülürkən doxsan altı yaşı var imiş. Lakin fransız şərqşünası "Siyasətnamənin" ilk naşiri Ş.Şeferin 1897-ci ildə nəşr etdirdiyi həmin adlı III cildində "Vəzirin tərcümeyi-halı" bölməsində Nizamülmülkün öldürülərkən yetmiş yeddi yaşında olduğu göstərilir [26].

---

[23] Tərcümeyi-hali-vəzir,səh.37.
[24] *Ş.Sami.* Qamus.səh.4587-88.
[25] Yenə orada.
[26] Tərcümeyi-hali-vəzir,səh.37.



downloaded from KitabYurdu.org

Orda da təqribən Ş. Saminin[27] gətirdiyi qitəyə oxşar şer verilir, lakin yaş göstərilən misra başqa cürədir, orada heç yaş haqqında söhbət getmir, öldürülən yer, yəni Nəhavəndin adı da çəkilmir.

Rəvayətə görə Nizamülmülk öldürüldükdən sonra Məlikşah sən dərəcə kədərlənir, xəlifə Bağdadda üç gün matəm saxlayır, Türkan xatun qara geyinir, matəm mərasiminda tacülmülk sərpalıq edir.

Matəm mərasimi qurtardıqdan sonra Məlikşah Xəlifənin Bağdadı tərk etməsini tələb edir. Xəlifə on gün möhlət istəyir. Möhlətin onuncu günü Məlikşah zəhərlənib öldürülür. Nizamülmülkün də peyğəmbərliyi doğru çıxır. Bəzi məxəzlərin dediyinə görə, Məlikşah Nizamülmülkdən on səkkiz, bəziləri bir ay sonra yaşadığını yazır. İbn Əl-Cozi Əbül Fərəcin dediyinə görə, Məlikşahı öz nökəri zəhərləmişdir.

Məlikşahın ölümü, deyilənlərə görə, Nizamülmülkün ölümündən sonra camaata bir o qədər də böyük təsir göstərməmişdir. Hər halda Nizamülmülkün böyük hörmət göstərmədiyi, sarayların şairlər şahı (Məliküş-Şüəra) hesab edilən Əmir Müizzinin aşağıda sultanın ölümü münasibətilə yazdığı şeirə inanmaq olar:

Şahın ölümündən çox ürəklər yaralanardı,
Əgər vəzir ondan qabaq öldürülməsəylər[28].

Tarixi məxəzlər açıq-aydın yazmasalar da, faktların müqayisəsi, təhlili, məntiqi nəticə və mühakimələr, nəhayət, sağlam düşüncə göstərir ki, həm Nizamülmülkün, həm də Məlikşahın öldürülməsində Türkan xatun, xəlifə, Tacülmülk dəstəsinin rolu, heç də Həsən Səbbah fədailərindən az olmamışdır. Nizamülmülkə bir tarixi şəxsiyyət kimi qiymət verməyə gəldikdə isə, biz onu V.İ.Leninin, ümumiyyətlə, tarixdə şəxsiyyətin rolu haqqındakı bir fikrilə tamamlamaq istərdik: "Tarixi xidmətlərə qiymət verilərkən, tarixi xadimlərin müasir tələblərə nisbətən vermədikləri şeyləri deyil, öz sələflərinə nisbətən verdikləri yeni şeylər əsas tutulur". Nizamülmülk, bütün tədqiqatçıların fikrinə görə, öz sələflərinə nisbətən çox yeni işlər görmüş, bəşəriyyət tarixinin elm xəzinəsinə "Siyasətnamə" kimi cahanşümul bir əsəri bəxş etmişdir.

*Rəhim Sultanov*

[27] Yenə orada.
[28] Yenə orada səh.20.



downloaded from KitabYurdu.org

## BİR NEÇƏ SÖZ

Xacə Nizamülmülk Həsən bin Əli Hicri-Qəməri 408 (miladi 1017-1018)-ci ildə Tus vilayətinin Noğan nahiyəsində anadan olmuş, H.Q. 485 (1092) - ci ildə Bağdad yolundakı Səhnə qəsəbəsində Həsən Səbbahın fədailərindən birinin bıçaq zərbəsi ilə öldürülmüşdür.

Nizamülmülk səlcuq sultanlarından Alp Arslanın və onun oğlu Məlikşahın vəziri olmuş, bir neçə ölkəni özündə birləşdirən Səlcuq dövlətinin otuz il müddətində, demək olar, bütün ixtiyarını öz əlinə keçirmiş, tam istiqlaliyyətlə hökm sürmüşdür. Nizamülmülk Şərqin tanınmış, tədbirli, bacarıqlı vəzirlərindən biri idi. O, dövləti və ölkəni yalnız silahlı qüvvələrin gücü ilə deyil, eyni zamanda bilikli, təcrübəli dövlət xadimləri və din başçıları vasitəsilə idarə edirdi. Bunları tərbiyə edib hazırlamaq üçün elm ocaqlarının yaradılmasına çoxlu vəsait ayırırdı. Bağdadda və digər şəhərlərdə məktəblər təsis etməsi həmin məqsədə yönəldilmişdi. Bu məktəblər sonra "Nizamiyyə" adı ilə məşhurlaşmışdır.

Tarixi mənbələrin bəzisinin verdiyi məlumata görə, Nizamülmülk bu əsəri ömrünün sənlarında, hətta Məlikşahın arvadı Türkan xatunun intriqası nəticəsində vəzirlik məqamından düşəndən sonra yazmışdır. Fəqət XVII əsr müəllifi Hacı Xəlifənin verdiyi məlumat bundan bir qədər fərqlidir. Onun qənaətinə görə Nizamülmülk bu əsəri 1076-cı ildə 30 fəsildə yazıb Məlikşaha təqdim etmişdir. sonradan Əlyəməni adlı bir katib ona 15 fəsil əlavə etmiş və nəhayət, əsərə başqa katiblərin də əlavəsi olmuş, kitab 50 və ya 51 fəslə çatmışdır.

"Siyasətnamə"nin fəsilləri arasında olan üslub fərqi, eləcə də Nizamülmülkün vəfatından sonra fəaliyyət göstərmiş bəzi tarıxi şəxsiyyətlərdən, baş vermiş hadisələrdən müəyyən fəsillərdə bəhs edilməsi onun bir neçə fəslinin başqa müəlliflər tərəfindən yazılıb əlavə edilməsinə heç bir  şübhə qoymur.

Hər halda, "Siyasətnamə" səlcuqlar dövründən qalmış ən mötəbər ədəbi-larixi abidədir. Orta əsr feodal dövlətlərinin idarə sistemini, vergi qaydalarını, hərbi quruluşunu və bir sıra başqa qayda-qanunlarını öyrənmək üçün "Siyasətnamə" zəngin material verir. Onda elə fikirlər, ibrətamiz rəvayətlər, hekayələr və nəsihətlər vardır ki, min il bundan əvvəl deyilməsinə baxmayaraq, indi də öz dəyərini itirməmişdir.

"Siyasətnamə"də Nizamülmülk dini təriqətlərə qarşı sən dərəcə həssasdır. Xüsusilə şiələrə və ismaililərə qarşı olduqca qəddar mövqe tutur və təəssübkeşliklə onlan təkfir edir, Babəki və xürrəmiləri şiddətlə töhmətləndirir, düşmənlərin onlar haqqında yaydıqları böhtanları təkrar edir. Bütün bunlar şübhəsiz ki, Nizamülmülkün yaşadığı dövrün xarakteri və tarixi şəraitindən doğmuşdur. O dövrdə də hakim təbəqəyə, işğalçılara və dövlətə qarşı çıxışlar və etirazlar dini pərdə altında özünü göstərmişdir. Buna görə də Nizamülmülk vəzir olduğu dövləti hər cür iğtişaş və üsyandan qorumaq üçün təriqətləri damğalayır, dini təəssübü dövlətin kəskin silahına çevirir.



downloaded from KitabYurdu.org

Nizamülmülk Səlcuq dövlətinin vəziri olduğu vaxt Azərbaycan da həmin dövlətin tərkibinə daxil edilmişdi. Buna görə də "Siyasətnamə" XI əsr Azərbaycan tarixini öyrənmək üçün də əhəmiyyətlidir. Eləcə də bu əsərdən bir ədəbi abidə kimi də sonrakı əsrlərdə istifadə olunmuşdur. O cümlədən Məhəmməd Qəzzali "Nəsihətülmülk" əsərində "Siyasətnamə"yə nəzər salmışdır. "Siyasətnamə"də olan bir rəvayət Nizami Gəncəvinin "Həft peykər"indəki mənzum bir hekayə kimi verilmişdir. Bu hekayət Bəhramın ova gedib bir çobana rast gəlməsi və onun itinin canavarla birləşib sahibinə xəyanət etməsi üstündə cəzalandırmasıdır ki, həm "Siyasətnamə"də həm də "Həft peykər"də təxminən eyni süjetdə nəql olunmuşdur. Fərq yalmz vəzirin adının "Siyasətnamə"də Rastrəviş, "Həft peykər"də Raströvşən olmasındadır.

"Siyasətnamə" ilk dəfə fransız şərqşünası Ş.Şefer tərəfindən 1892-ci ildə nəşr edilmişdir. Bundan bir il sonra Ş.Şefer onun fransızca tərcüməsini və nəhayət 1897-ci ildə Nizamülmülkün tərcümeyi-halını nəşr etdirmişdir. "Siyasətnamə" rus dilində B.N.Zaxoderin tərcüməsi, geniş izahları və əsər haqqında tədqiqatı ilə 1949-cu ildə Moskva-Leninqradda nəşr edilmişdir. İranda "Siyasətnamə" Murtəza Moddərresi Çahardəhinin tərtibi və müqəddiməsi, Məhəmməd Qəzvininin haşiyə və izahları ilə 1955-ci ildə çap olunmuşdur.

**"Siyasətnamə" Azərbaycan dilində ilk dəfə nəşr olunur.** Prof.Rəhim Sultanov bu misilsiz ədəbi abidəni tərcümə etməklə Azərbaycan oxucuları, eləcə də ədəbiyyatımıza dəyərli hədiyyə təqdim etmişdir. Biz bundan əvvəl də farsdilli klassik ədəbiyyatdan bir neçə əsəri, o cümlədən “Qabusnaməni", "KəliIə və Dimnə"ni dilimizə çevirməklə mütərcimin bu sahədəki bacarığı, qələminin qüdrəti və dinin rəvanlığı ilə tanış idik. "Siyasətnamə"də isə R.Sultanov uzun illərdən bəri topladığı tərcüməçilik təcrübəsini, klassik ədəbiyyat abidəsinin müasir dilimizə çevirmək qabiliyyətini daha parlaq şəkildə nümayiş etdirmişdir. Mütərcimin əsər haqqında yazdığı geniş tədqiqat, ona əlavə etdiyi izahlar, şübhəsiz ki, əsərin düzgün qavranılması, onun yazıldığı tarixi şərait haqqında oxucuda tam təsəvvür oyatmaq işinə qiymətli yardım göstərəcəkdir. Əsərin çapa hazırlanmasında Azərbaycan SSR EA Yaxın Şərq xalqları İnstitutunun İran filologiyası şöbəsinin əməkdaşı N.B.İsmayılova iştirak etmiş, adlar cədvəlini hazırlamışdır.

*Həmid Məmmədzadə*



downloaded from KitabYurdu.org

## KİTABIN YARADILMASI SƏBƏBİ

"Kitablar xəzinəsinin nasixi[1] bu kitabın yaradılması səbəbi haqqında belə deyir ki, möminlərin inanılmış əmiri xoşbəxt sultan Əbülfəth Məlikşah bin Məhəmməd[2] - allah onun yolunu işıqlandırsın - dörd yüz həşlad dördüncü[3] ildə bir neçə dünyagörmüş, müdrik və alim şəxsə buyurdu: hər biriniz bizim məmləkət haqqında düşünün görün bizim zəmanədə nə kimi pisliklər var, nə səbəbə bizim sarayda, dövlət və divan idarələrində, məclislərimizdə belə nalayiq işlərə yol verilir, görün nələr bizim üçün gizlində qalmışdır, bizdən əvvəlki şahların hansı vəzifələrini biz yerinə yetirmirik. Bundan əlavə, səlcuqilər sülaləsinə aid olan keçmiş şahların gördükləri bütün işləri, ayin və ənənələrin hamısını yazıb (dərgaha) təqdim ediniz. Biz onları nəzərdən keçirib bir az fikirləşdikdən sonra (elə edərik ki,) bundan sonra dünya və axirətin bütün işləri öz qaydasında getsin, hər vəzifə layiqincə yerinə yetirilsin, bəd əməllərdən qaçılsın, böyük yaradan bu dünyanı bizə bəxş etmiş nə qədər nemət varsa, hamısını bizə vermiş, düşmənlərimizi isə məğlubiyyətə uğratmışdır. Bundan sonra bizim ölkəmizdə heç bir tədbir nöqsanlı olmamalı, heç bir şey bizim gözümüzdən qaçmamalıdır".

O, Nizamülmülk[4], Şərəflilmülk[5], Tacülmülk[6], Məedəlmülk[7] və bu qəbildən olan adamlara belə əmr etmişdi. sonra hər kəsin ağlına nə gəldisə, onu da yazıb şahın dərgahına təqdim etdi. Nizamülmülkdən başqa heç kimin əsəri bəyənilmədi. Şah dedi: "Bu fəsillərin hamısı mənim ürəyim istəyən kimi yazılmışdır, buna heç bir şey artırmaq olmaz. Mən bu kitabı özüm üçün rəhbər tutub orada deyilənlər kimi edəcəyəm".

Mən bu kitabın üzünü köçürüb xəzinəyə təqdim etdim, ümid edirəm ki, bəyəniləcəkdir. Heç bir padşah və hökmdar bu kitabı oxumadan keçinə bilməz, xüsusilə indiki dövrdə; nə qədər çox oxusalar, din və dövlət işində o qədər çox sayıq olarlar, doğru tədbir yolları onlar üçün daha geniş açılar; saray, dərbar, divan, məclis, meydan, ordu başçıları və rəiyyətin vəziyyəti onlar üçün daha aydın olar; ölkə daxilində uzaqdan-yaxına, böyükdən-kiçiyə qədər heç bir şey onların gözündən qaçmaz... Bu kitab aşağıdakı tərtib üzrə əlli[8] fəsildən ibarətdir.

## FƏSİLLƏRİN ADI

*Birinci fəsil* - İnsanların halı, ruzigarın dövranı və dünya hökmdarının mədhi haqqında- allah onun dövlətini sabit etsin.

*İkinci fəsil* - Padşahların allah-taalanın verdiyi nemətin qədrini bilmələri haqqında.

*Üçüncü fəsil* - Şahların şikayətə baxmaları, ədalət, mərhəmət və xeyirxahlıq haqqında.

*Dördüncü fəsil* - Amil[9], vəzir, qulam və sairin işlərinə nəzarət haqqında.

*Beşinci fəsil* – Müqtilər[10], onların rəiyyətlə rəftarı və özlərini necə aparmalarına nəzarət haqqında.



downloaded from KitabYurdu.org

*Altıncı fəsil* - Qazi", xətib[12], möhtəsib[13], və onların işlərini yaxşılaşdırmaq və zülmlərinin qarşısını almaq haqqında.
*Yeddinci fəsil* - Amil, qazi, şəhnə[14] və rəislərin işlərinə nəzarət qaydaları haqqında.
*Səkkizinci fəsil* - Din, şəriət və bu kimi işləri öyrənib nəzarət altına almaq haqqında .
*Doqquzuncu fəsil* - Dövlət müşrifləri[15] və onların maaşlarının zülmsüz verilməsi haqqında.
*Onuncu fəsil* - Sahibxəbər[16] münhilər[17] və ölkəni idarə etmək üçün onlarla məsləhətləşmək haqqında.
*On birinci fəsil* - Ali fərmanların, dərbardan verilən əmrlərin hörməti və yerinə yetirilməsi haqqında.
*On ikinci fəsil* - Böyük və məsuliyyətli işlər üçün saraydan qulamların göndərilməsi haqqında.
*On üçüncü fəsil* - Casuslar göndərmək, ölkə və rəiyyətin vəziyyətini yaxşılaşdırmaq haqqında.
*On dördüncü fəsil* – Qasid və göyərçinlərin ardıcıl göndərilməsi haqqında.
*On beşinci fəsil* - Məst və ayıqlıqda əmrlərin verilməsində ehtiyatlı olmaq haqqında.
*On altıncı fəsil* - Saray vəkili və onun işlərini yaxşılaşdırmaq haqqında.
*On yeddinci fəsil -Nədimlər* və adil padşaha yaxın olanlar haqqında.
*On səkkizinci fəsil*- Padşahın öz işləri haqqında alim və filosoflarlarla məsləhət etməsi haqqında.
*On doqquzuncu fəsil* - Müfridlər[19] və onların hərbi ləvazimatı, işlərinin nizama salınması haqqında.
*İyirminci fəsil* — Sarayda daş-qaşla bəzədilmiş silahların saxlanılması haqqında.
*İyirmi birinci fəsil* — Eçilərin işlərinin mahiyyəti, onların qarşılanıb, yola salınması haqqında.
*İyirmi ikinci fəsil* — Mənzil yerlərində (düşərgələrdə), ehtiyat ələflərinin saxlanılması haqqında.
*İyirmi üçüncü fəsil* — Orduya aid mal-dövlətin açıq saxlanması haqqında.
*İyirmi dördüncü fəsil* - Hər növ ordu hissələrinin saxlanması haqqında.
*İyirmi beşinci fəsil* — Sarayda girov (adam) istəyib saxlamaq haqqında.
*İyirmi altıncı fəsil* — Türkmənlərin sarayda qulam, türk və başqaları kimi saxlanması haqqında.
*İyirmi yeddinci fəsil* — Xidmət zamam qulları incitməmək və onların işini sahmana salmaq haqqında.
*İyirmi səkkizinci fəsil* - Sarayda əyan-əşraf və qara camaatı qəbul etmək qaydaları haqqında.
*İyirmi doqquzuncu fəsil* - Şərab məclisi düzəltmək qaydaları və onun şərtləri haqqında.
*Otuzuncu fəsil* - Xidmət vaxtı qul və aşağı (vəzifəlilərin) durması qaydaları



downloaded from KitabYurdu.org

haqqında.
*Otuz birinci fəsil* — Müharibə və yürüş yaraqlarının, alət və silahlarının hazırlanması haqqında.
*Otuz ikinci fəsil* — Ordu, qul və saray adamlarının ehtiyac və xahişləri haqqında.
*Otuz üçüncü fəsil* - Qüsur və səhvə yol verən böyük vəzifəli adamların məzəmmət edilməsi (danlanılması) haqqında.
*Otuz dördüncü fəsil* — Keşikçilər, növbətçilər və qapıçılar haqqında.
*Otuz beşinci fəsil* — Gözəl süfrə və onun şah qarşısında açılma qaydaları haqqında.
*Otuz altıncı fəsil* - Layiqli xidmətçilər və qulların mükafatlandırılması haqqında.
*Otuz yeddinci fəsil* - İqta sahiblərinə qarşı ehtiyatlı olmaq haqqında.
*Otuz səkkizinci fəsil* - Məmləkət işlərində şahın tələsməməsi haqqında.
*Otuz doqquzıuncu fəsil* - Əmir Hərəs[20], çubdarlar və cəza dəstələri haqqında.
*Qırxıncı fəsil* - Şahın allah bəndələrinə bəxşiş verməsi, hər iş və adətdə qaydaya riayət etməsi haqqında.
*Qırx birinci fəsil* — İki işi bir adama tapşırmamaq, işsizlərə iş vermək, onları məhrum etməmək, vəzifəni layiqli və əqidəli adama tapşırıb, nalayiq, bədməzhəbə verməmək haqqında.
*Qırx ikinci fəsil* - Üzü örtülülər və ordu başçılarının rütbələrini saxlamaq haqqında.
*Qırx üçüncü fəsil* - Ölkədə olan bədməzhəblərin vəziyyətini aşkara çıxarmaq haqqında.
*Qırx dördüncü fəsil* - Məzdəkin xürucu, onun məzhəbi[23] və Nuşirəvanın onu öldürməsi haqqında.
*Qırx beşinci fəsil* - Gəbr Sunbadın xürucu və Xürrəmdinlərin meydana çıxması haqqında
*Qırx altıncı fəsil* - Kuhistan, İraq (Əraq), Şam (Suriyə), Xorasan, Xuzistan, Bəhreyn, Ləhsa[24], Məqrib[25] ölkələrində kənnət[26] və batinlərinin meydana çıxması, onlann törətdiyi fəsad və qırğınlar haqqında.
*Qırx yeddinci fəsil* - Xürrəmdinlərin İsfahan və Azərbaycanda xürucları haqqında.
*Qırx səkkizinci fəsil* - Xəzinənin qayda və nizamda saxlanması haqqında.
*Qırx doqquzuncu fəsil* - Şikayətçilərin ərizələrinə cavab vermək, işlərinə baxmaq və ədalətli hökm çıxarmaq haqqında.
*Əllinci fəsil* - Hesab, gəlir və vergiyə nəzarət qaydaları haqqında.
Əvvəlcə Nizamülmülk bədahətən, qısa şəkildə otuz doqquz fəsil demişdi, bir az fikirləşdikdən sonra qəlbində dövlətə qarşı olan inciklik üzündən on bir fəsil də artırdı. Sonra hər fəslə layiq nə mümkün idisə əlavə edib yola düşdükdə mənə verdi. Yolda onun başına o hadisə[27] gəldikdən sonra mən bu kitabı ortaya çıxarmağa cəsarət etmədim.

Bu, yalnız indi ədalət, islam və dünyanın hökmdarı qüvvət tapıb möhkəmləndikdən sonra mümkün oldu. Allah-taala bu dövləti öz görkəmi və mərhəməti xatirinə qiyaməta qədər mühafizə etsin.



downloaded from KitabYurdu.org

*Birinci fəsil*

## İNSANLARIN HALI, RUZİGARIN DÖVRANI VƏ DÜNYANIN SULTANI QİYASƏDDÜNYA VƏ DİNİN MƏDHİ HAQQINDA

Böyük yaradan hər əsrdə insanlar arasında bir adam seçib ona şahlara məxsus istedad və qabiliyyət bəxş edir, ona ad və şöhrət qazandırır; dünyanın asayişini, rəiyyətin yaşayışını ona tapşırır; fitnə, fəsad qapıları onun vasitəsilə bağlıdır. Onun qorxusu qəlblərə çökür, əzəməli göz qamaşdırır. Bunun nəticəsində insanlar onun ədaləti sayəsində güzəran keçirib əmin-amanlıqda yaşayar və onun dövlətinin davamını istəyərlər. Əgər qullardan üsyan, şəriətə qarşı etinasızlıq, itaət və ibadətdə qüsur baş versə və böyük yaradan bunun müqabilində onları tənbeh etmək, əməllərinin cəzasını daddırmaq istədikdə (allah-taala o günü bizə göstərməsin, belə bəladan bizi uzaq etsin) onlara müxtəlif bəla göndərər; yaxşı şah onların arasından gedər, cürbəcür qılınclar qınından çıxarılar, çoxlu qan axıdılar; kimin qolu daha güclüdürsə istədiyini eləyər, nəhayət, o günahkarlar bu çaxnaşma və qanlı vuruşmalar içərisində məhv olub gedərlər. Bu, odun qamışlığa düşməsinə bənzər; qurular büsbütün alışar, ona qonşu olduqlarına görə yaşların əksəriyyəti də qurunun oduna yanar. Sonra allahın köməyi ilə bəndələrdən birinə xoşbəxtlik üz verər. Dövlət əlinə keçər, allah-taala ləyaqətinə görə ona tale bəxş edər, ona ağıl və bilik verər ki, o da bu ağıl və bilik sayəsində əli altında olanların hərəsinin öz yerini bilsin, hərəsinə özünə layiq vəzifə və məncəb tapşırsın; xidmətçiləri və onların köməkçilərini adamların içindən seçə bilsin, onların hərəsinə bir iş və peşə versin, din və dünya işlərinin yerinə yetirilməsində onlara inansın.

Elə ki, rəiyyət itaət edib öz işləri ilə məşğul olmağa başladı, onları incitməməli, öz ədaləti nəticəsində rahat güzəran keçirmələrinə imkan yaratmalıdır. Lakin xidmətçilərdən və mənsəb sahiblərindən biri yenidən nalayiq işlərlə məşğul olub əliuzunluq etməyə başlasa, öyüd, nəsihət, qulaqburması ilə səhvini başa düşüb düzəlsə, onu haman işdə saxlamaq olar, yox, qəflət yuxusundan ayılmasa, təxirə salınmayıb, dərhal layiqli bir şəxslə əvəz edilməlidir.

Nemətin qədrini bilməyən, naşükür, əmin amanlığa rahatlığa qiymət verməyən, ürəklərində xəyanət haqqında fikirləşən, açıqda dikbaşlıq edib, həddini aşan adamları qüsurlarına müvafiq danlayıb məzəmmət etməli, günahlarına mütabiq cəza verməli, sonra onu rahat buraxmalı, haman günah üstündə bir daha incitməməlidir.

Şah dünyanın abadanlığı ilə məşğul olmalı, kəhrizlər çəkdirməli, arxlar qazdırmalı, böyük çaylar üzərində körpülər saldırmalı, kəndləri, talaları abad etməli, qalalar ucaltmalı, yeni şəhərlər saldırmalı, yüksək binalar, gözəl malikanələr tikdirməli, böyük caddələrdə (böyük karvan yollarında) karvansaralar yaradılmasına əmr etməlidir. Bu işlərdən onun adı əbədi olaraq qalar, savabı isə o dünyada çatar, ona həmişə xeyir-dua oxunar.



downloaded from KitabYurdu.org

İndi allah-taala elə istəmişdir ki, keçmiş tarix yenidən təkrar edilsin, əvvəlki şahların rəftarı bərpa olunsun, xalq bundan əvvəlkilərin ağlına belə gəlməmiş bir xoşbəxtliyə çatsın, ona görə o, nəsli iki böyük nəslə (şah və üləma), ata-babası gedib Əfrasiyaba çatan, dünyanın hökmdarı və ən böyük sultanını yaratdı, onu dünyanın şahlarına nəsib olmamış kəramət və üstünlüklərlə bəzədi, şahlara nə lazımsa; gözəllik, xoşxasiyyət, ədalət, mərdlik, qoçaqlıq, at çapmaq, silah oynatmaq, bilik, bütün sənətlərdən istifadə etməyi bacarmaq, şəfəqqət və mərhəmət, səxavət və sədaqət, nəzir vermək, ehsan paylamaq, dini doğru, etiqadı təmiz, ibadətçi olmaq, allahın buyruğunu yerinə yetirmək, çox gecə namazı qılıb, artıq oruc tutmaq, elm adamlarına hörmət edib, zahidlərə əl tutmaq, əməlisaleh və hikmət sahiblərinə kəramət göstərmək, yoxsullara sədəqə, məzlumlara yaxşılıq, xidmətçilərlə xoş rəftar elmək, rəiyyəti zülm edənlərdən qorumaq - o, bunların hamısını ona bəxş etdi.

Allah-taala bu dövləti qiyamətə qədər var etsin, bədnəzərdən və eynəlkəmallar[30] bu ölkədən uzaq olsun! Qoy xalq dünya hökmdarının ədalətli və siyasəti himayəsində güzəran keçirib, xeyir-dua ilə məşğul olsunlar.

Dövlətin vəziyyəti, dediyimiz kimi olduğundan biliyin səviyyəsi, yaxşı ənənələrin səciyyəsi də dövlətə uyğun olar. Onun biliyi elə bir məşələ bənzər ki, ondan çoxlu işıq yaranar və xalq bu işıqlı yolu tapıb, zülmətdən xilas olar, onun özünün isə heç bir müşavirə və bələdçiyə ehtiyacı yoxdur. Amma hökmdarı elə şeylər düşündürür ki, rəiyyətin bundan başı çıxmaz, ağıl, bilik və kamalı ona çatmaz. Lakin mənə əmr etdi ki, şahlar üçün ən zəruri və onlarsız keçinmək mümkün olmayan yaxşı xüsusiyyətləri yaz, əvvəlki şahların gördükləri, indi isə unudulmuş yaxşı-pis nə varsa hamısını qələmə al. Mən də qarşıma çıxan eşitdiklərim, bildiklərim və oxuduqlarımdan nə yadımda isə şahın yüksək əmrinə müvafıq olaraq qısa şəkildə bu neçə fəsli yazdım, hər fəslə nə layiq idisə, onu da aydın bir ifadə ilə deməyə çalışdım. Bunu böyük allahın köməyi ilə etdim.

### *İkinci fəsil*

## PADŞAHLARIN ALLAH-TAALANIN VERDİYİ NEMƏTİN QƏDRİNİ BİLMƏLƏRİ HAQQINDA

Şahlar allahı-onun şəni böyük olsun - razı salmalıdırlar, allahın (adı böyük olsun) razılığı ilə xalqa edilən ehsan, onlar arasında yayılan ədalətlə olar. Xalqın dühası şahın dühası ilə birləşdikdə ölkə mökəmlənir, günü-gündən inkişaf edər, dövlət qapıları və xoşbəxtlik hökmdarın üzünə gülər; bu dünyada yaxşı ad qazanar, o dünyada hesabı yüngül olar. Odur ki, deyiblər: "Dövlət küfr ilə dağılmaz, zülm dağılar".

**Haman mənada bir hekayət.** Belə rəvayət edirlər ki,Yusif ə.s. öldükdə belə vəsiyyət edir ki, onu babası İbrahim ə.s.-ın yanında basdırsınlar. Yusifın



downloaded from KitabYurdu.org

tabutunu onun qəbrinin yanına gətirdikdə Cəbrayıl ə.s. gəlib deyir: "Onun yeri bura deyildir, çünki o etdiyi şahlıq üçün qiyamət günü cavab verməlidir."

Yusifin halı belə olanda gör başqalarınınkı necə olacaq!

**Rəvayət.** Peyğəmbər ə.s.adından belə bir rəvayət söyləyirlər: "Xalq üzərində hökmranlıq etmiş adamları məhşər ayağına əlləri boyunlarına bağlı gətirəcəklər, adil olublarsa, ədalət onların əlini açacaq, behiştə gedəcəklər, zalım olublarsa, eləcə əlibağlı cəhənnəmə salacaqlar".

**Rəvayət.** Yenə də rəvayətdə deyilir ki, hər kəs xalqa, saray adamlarına və ya əli altında olanlara hökmranlıq edibsə məhşər günü bunun cavabını ondan soruşacaqlar. Qoyunu saxlayan çobandan da qoyunun hesabını istəyəcəklər.

**Rəvayət**. Deyirlər Abdullah ibn Ömər Əlxəttab (allah onların hər ikisindən razı olsun) atası can üstündə olarkən ondan soruşdu: "Ey ata, səni nə vaxt görəcəyəm?". Dedi: "O dünyada". Dedi: "Tez istəyirəm". Dedi: "Ya birinci, ya ikinci, ya da üçüncü gecə məni yuxuda görəcəksən".

On iki il keçdi, lakin onu yuxuda görmədi. On iki ildən sonra bir dəfə yuxuda gördü və soruşdu: "Ey ata, sən deməmişdinmi ki, üç gecədən sonra səni yuxuda görəcəyəm?!„ Dedi: "Başım qarışıq idi. Bağdadın ətrafında bir körpü uçulmuşdu, məmurlar isə onu təmir etməmişdilər. Bir qoyunun ayağı körpüdəki deşiklərdən birinə keçib sınmışdı. İndiyə qədər onun cavabını verməklə məşğul idim".

Dünyanın hökmdarı (allah onun dövlətini əbədi etsin) həqiqətən bilməlidir ki, onun hökmü altında olan bu camaatın cavabını o böyük gündə ondan soruşacaqlar və əgər başqasının boynuna atsa, qəbul etməyəcəklər.

İndi ki belədir, şah bu mühüm işi heç kəsə tapşırmamalı, özünün və xalqının işindən qafil olmamalıdır, açıq və gizli məsələləri bilməli, xalqın halına qalmalı, uzun əlləri qısaltmalı, zalımların zülmünün qarşısını almalıdır onda o tək allahın köməyi ilə onun dövləti güclənər, çörəyi bərəkət tapar, ölkədə bolluq olar.

***Üçüncü fəsil***

## ŞAHLARIN ŞİKAYƏTƏ BAXMALARI, ƏDALƏT, MƏRHƏMƏT, VƏ XEYİRXAHLIQLARI HAQQINDA

Çarə yoxdur, padşah ən azı həftədə iki gün şikayətə baxıb zalimlərə cəza verməli, bilavasitə öz qulağı ilə rəiyyətin sözünü eşitməlidir. Onlar mühüm olan məsələləri deməli, hər məsələ haqqında isə şah fərman verməlidir.

Elə ki şahın həftədə iki dəfə məzlumları, şikayətçiləri qəbul edib onlara qulaq asma xəbəri ölkəyə yayıldı, bütün zalimlər vahiməyə düşüb yerlərində rahat oturar və cəzanın qorxusundan heç kəsə əziyyət verməyə cəsarət etməzlər.

**Hekayət.** Qədim kitablarda oxumuşam ki, Əcəm şahlarının çoxu yüksək bir qurğu tikdirər və at üzərində onun üstündə durar, beləliklə, orada səhraya



downloaded from KitabYurdu.org

yığılmış şikayətçilərin hamısını görər və hərəsinin şikayətinə baxarmış. Bunun səbəbi o idi ki, padşah böyük qapılı, yüksək divarlı, uzun dəhlizli, qalın pərdəli saray kimi bir yerdə oturduqda zülm etmiş qərəzli adamlar şikayətçiyə mane olub onu şahın yanına buraxmazlar.

**Hekayət.** Eşitmişəm, bir padşah qulaqdan ağır imiş. Elə düşünür ki, tərcümanlar şikayətçilərin sözlərini düz demirlər, vəziyyəti düzgün bilmədiyindən verdiyi əmrlər də o işə müvafıq olmur. Əmr edir: "Şikayətçilər gərək qırmızı paltar geysinlər və başqa heç kəs geyməsin ki, mən şikayətçiləri tanıyım".

O şah bir filə minib səhrada durar, qırmızı paltarda kimi görsəydi hamısının yanına gətirilməsini əmr edərdi. Sonra xəlvət bir yerdə əyləşib onları bir-bir çağırar, dərdlərini bərkdən söyləməyi əmr edər, sonra hərəsi haqqında ədalətlə hökm verərdi.

Bunların hamısını o dünyanın qorxusundan edərdi, çalışırdı ki, heç bir şey onun gözündən qaçmasın.

**Hekayət**. Salmanilərdən[31] ədalətli bir əmir var idi, adına İsmail ibn Əhməd deyərdilər. O çox ədalətli imiş, gözəl xasiyyətləri var imiş, böyük yaradana xüsusi etiqad bəslərmiş, yoxsullara ənam bəxş edərmiş, bunların hamısı onun haqqında yazılan kitablarda deyilmişdir. Bu İsmail o əmir idi ki, Buxarada əyləşərdi, Xorasan, Əraq, Mavərunnəhr[33] onun atasının idi.

Yəqub Leys[34] Sistandan[35] xüruc edib bütün Sistanı zəbt etdi. Təriqətçilər onu aldadıb yoldan çıxartdılar, o, İsmaili təriqətini[36] qəbul etdi. Bağdad xəlifəsinə qarşı ürəyində pis şeylər fikirləşməyə başladı. Bağdada gedərək xəlifəni öldürmək, əbbasilər[37] xanədanını devirmək qərarına gəldi.

Xəlifə Yəqubun Bağdada gəlmək niyyətində olduğu xəbərini eşitdi, bir elçi göndərib ona çatdırdı: "Sənin Bağdadda heç bir işin yoxdur, yaxşısı budur ki, Kuhistan, Əraq və Xorasanı saxlayıb orada əmin-amanlıq yaradasan, geri qayıt! ".

Xəlifə nə qədər elçi göndərirdisə, aldığı cavab bu oldu. Yəqub əmrə tabe olmadı və dedi: "Mənim arzum budur ki, mütləq sənin xidmətinə gəlib vəzifəmi yerinə yetirəm, əhdimi təzələyəm, bunu etmiyincə geri dönən deyiləm".

Xəlifə nə qədər elçi göndərirdisə, aldığı cavab bu oldu. Yəqub ordu toplayıb Bağdada üz qoydu.

Xəlifə şübhəyə düşdü, böyükləri xidmətinə çağırıb dedi: "Belə görürəm ki, Yəqub Leys itaət boyunduruğunu atıb xəyanət məqsədilə bura gəlir, çünki biz onu çağırmamışıq, mən əmr edirəm geri dönmür. Hər halda, qəlbində xəyanət xəyalı var, güman edirəm ki, batinilərə[38] beyət gətirmişdir, bura çatmayınca bunu etiraf etməyəcəkdir. Biz ona qarşı ehtiyatı əldən verməməliyik. Bu barədə nə tədbir görmək lazımdır?".

Belə qərara gəldilər: "Xəlifə şəhərdə qalmasın, səhraya gedib orada ordugah düzəltsin, onun yaxın adamları və Bağdadın bütün böyükləri də onunla olsunlar. Yəqub gəlib xəlifəni ordu ilə birlikdə səhrada görsə, səhv etdiyini anlar, onun üsyan fikrində olmadığı isə xəlifəyə məlum olar. Ordugaha isə adamlar bir-



downloaded from KitabYurdu.org

biri ilə görüşüb danışar, üsyan fikrində olsa belə, İraq, Xorasan əmirlərinin hamısı onunla həmfikir ola bilməz, ürəkdən ona tərəfdar çıxmazlar. Üsyanı aşkara çıxarsa, biz tədbirlə onun qoşununu əleyhinə çevirərik, bu baş tutmazsa, heç olmasa yol bizim üzümüzə açıq olar və əsirlər kimi dörd divar içərisində qalmayıb özümüzü bir yana çıxararıq".

Bu tədbir əmirəlmöminin xoşuna gəldi, elə də etdilər. Bu zaman xəlifə Əlmötəmid Ələllah Əhməd idi.

Yəqub Leys gəlib xəlifənin ordugahı qarşısında qərar tutdu. İki ordu bir-birinə qarışdı. Yəqub Leys üsyanını büruzə verdi, bir adamla xəlifəyə xəbər göndərdi: "Bağdadı tərk et, hara istəyirsən get!". Xəlifə iki ay vaxt istədi. Vaxt vermədi.

Gecə olcaq gizlin bir adam göndərib onun ordu başçılarına bildirdi: "Yəqub üsyan etdiyini, mülhidlərlə (allah onlara lənət etsin) həmrəy olduğunu büruzə verdi, o bizim xanədanı devirib düşmənləri bizim yerimizdə oturtmaq istəyir. Sizdəmi onunla əlbirsiniz, yoxsa yox?!"

Bəziləri dedilər: "Biz onun sayəsində bir parça çörək tapmışıq, onun xidmətindən bu nemətə çatmışıq, o nə edibsə, biz də onu etmişik". Əksəriyyəti belə dedi: "Bizim bu işdən xəbərimiz yoxdur, elə güman edirik ki, o heç vaxt əmirəlmöminin əleyhinə qalxmaz, əgər qalxsa, biz razılıq verməri̇k görüş günü səninlə birik, vuruş vaxtı sənin tərəfinə keçər və sənə qələbə qazandırarıq". Bunlar Xorasan əmirləri idi.

Xəlifə Yəqubun ordu başçılarının bu fikirdə olduğunu gördükdə sevindi, sabahısı gün ürəklənərək Yəquba belə bir peyğam göndərdi:

- İndi ki sən nankorluq etdin, mənimlə sənin aranda qılınedan başqa bir şey ola bilməz. Doğrudur, mənim ordum az, səninki çoxdur, lakin bunun əhəmiyyəti yoxdur.

Əmr etdi, ordu silahlandı, vuruş təbili döyüldü, düşmənçilik şeypuru çalındı, səhrada səf çəkildi.

Yəqub Leys bunu gördükdə dedi: "Arzuma çatdım". O da əmr etdi təbil vurdular, ordu atlanıb, hərbi cərgə ilə səhraya getdilər və xəlifənin ordusu qarşısında səf çəkdilər. O tərəfdən xəlifə gəlib ordunun mərkəzində durdu, bu tərəfdən Yəqub Leys də elə etdi. Sonra xəlifə bir kişiyə əmr etdi ki, gedib iki ordunun mərkəzində dursun və uca səslə belə desin: "Ey müsəlman camaatı, bilin ki, Yəqub yağı olub əbbasilər xanədanını devirmək, onun yerinə Mehdiyədəki düşməni gətirib oturtmaq, sünniliyi[40] aradan qaldırıb, onun yerinə bidət bərpa etməkdən ötrü bura gəlmişdir.

Kim allahın elçisi xəlifənin əleyhinə qalxsa, bu, allah taalanın əmrinin əleyhinə qalxmaq, müsəlmanlıq cızığından çıxmaq kimi olar, necə ki, allah-taala öz kitabında dönə-dönə demişdir: "Allaha, onun rəsuluna, sizə hökmdar olana itaət ediniz." İndi sizlərdən kim cənnəti cəhənnəmə əvəz etmək istəmirsə, haqqa kömək etməlidir. Üzünüzü batil olandan çevirib bizim tərəfə keçin, bizim əleyhimizə



downloaded from KitabYurdu.org

çıxmayın".

Yəqubun qoşunu bu sözü eşitdikdə Xorasan əmirləri dərhal toplaşıb xəlifənin tərəfinə keçdilər və dedilər : "Biz elə bilirdik ki, o, xəlifənin əmrinə görə, itaət üçün gəlir. İndi ki, yağı olub üsyan etdiyini büruzə verdi, biz səninləyik nə qədər canımız var, sənin üçün qılınc vuracayıq".

Xəlifə qüvvətlənən kimi əmr etdi, ordu hücuma keçsin. Yəqub Leys ilk həmlədə məğlub oldu, üz çevirib Xuzistana qaçdı. Onun bütün xəzinəsini talan etdilər, bunun nəticəsində ordu xeyli qüvvətləndi.

Yəqub Xuzistana çatcaq dərhal hər tərəfə adam göndərib ordu topladı, valiləri çağırıb, İraq və Xorasan xəzinələrindən dinar və dirhəm gətirtdi. Xəlifə onun Xuzistanda yurd saldığını eşitcək dərhal məktub yazıb qasidlə göndərdi: "Bizə məlum oldu ki, sən sadəlövh adam imişsən və düşmənlərin sözünə uyub belə bir iş tutmusan. İşin aqibətini görməlisən və gördün ki, allah-taala öz qüdrətini sənə necə göstərdi, öz ordun vasitəsilə səni məğlub etdi. Bu bir səhv idi, sənin əlindən çıxmışdı. İndi, bilirəm, ağlın başına gəlib, peşiman olmusan. İraq və İsfahan əmiri olmaq üçün səndən daha layiqlisi yoxdur, sənin nemət haqqın bizim yanımızda çoxdur. Biz sənin bu səhvini o xidmətlərinin qarşısında məqbul hesab edirik, elə təsəvvür edirik ki, heç belə iş olmamışdır. Biz bu dəhşəti unutduğumuz kimi, sən də o dəhşəti unutmalısan. Tezliklə İraq və Xorasana gəlib ölkənin işlərilə məşğul olmağa başla!".

Yəqub xəlifənin məktubunu oxuyub qurtardıqdan sonra nə ürəyi yumşaldı, nə də tutduğu işdən peşiman oldu. Əmr etdi, bir taxta tabağa tərə, balıq və bir neçə soğan qoyub gətirdilər. Sonra əmr etdi xəlifənin qasidinə tutub dedi: "Get xəlifəyə de ki, mən misgər oğluyam və misgərlik öyrənmişəm. Mənim yeməyim arpa çörəyi, soğan və balıq olmuşdur. Bu şahlıq, silah, xəzinə və dövləti isə əyyarlıq və mərdliklə ələ keçirmişəm. Nə atamdan miras qalıb, nə də səndən mənə çatıb.Ya dediyimi edəcəyəm, ya arpa çörəyi, balıq və göyərti yeməyə dönəcəyəm. Budur, xəzinənin qapılarını açıb qoşun toplamağa başlamışam, məqsədim də budur ki, deyirəm".

Sonra xəlifənin qasidini yola saldı. Xəlifə nə qədər qasid göndərib məktub yazdısa, fayda vermədi, nə qədər ənam bəxş edib hörmət göstərdi isə təsir etmədi. Yəqub geri dönmədi, ordu toplayıb Bağdada hücum əzmində oldu.

Yəqubun qulunc[41] xəstəliyi var idi. Birdən quluncu tutdu, halı elə xarablaşdı ki, bundan canını qurtara bilməyəcəyini başa düşdü. Qardaşı Əmr ibn Leysi özünə vəliəhd etdi, xəzinəni onun adına köçürdü və öldü.

Əmr ibn Leys qayıdıb Kuhistana gəldi. Bir az orada qaldıqdan sonra Xorasana getdi. Orada hökmranlıq sürüb itaət edirdi, ordu və rəiyyət Əmri Yəqubdan daha çox sevirdilər. Bu əmir çox yüksək hümmət sahibi, əliaçıq, sayıq və siyasətcil adam idi. Onun əliaçıqlığı, hümməti o dərəcəyə çatmışdı ki, mətbəxini daşımaq üçün dörd yüz dəvə lazım olurdu, başqa şeyləri də bununla ölçmək lazımdır.



downloaded from KitabYurdu.org

Lakin xəlifə həmişə şübhə içərisində idi, qorxurdu o da qardaşının yolu ilə gedə, sabahısı günü o da qardaşı kimi edə.

Əmr bu fikirdə olmasa da xəlifə həmişə bu barədə düşünür, ara vermədən Buxaraya, İsmail ibn Əhmədin yanına gizlicə adam göndərirdi ki: "Əmr ibn Leysə qarşı xüruc et, qoşun çək və dövləti onun əlindən al, Xorasan və Əraqın əmiri olmağa sən daha çox haqlısan, çünki bu yerlər sənin alanın olubdur və onlar isə zəbt elmişlər. Deməli, birinci budur ki, haqq sənin tərəfindədir; ikinci sənin üstünlüklərin ondan çoxdur; üçüncü. mənim duam sənin üstündən əskik olmayacaqdır. Bu hər üç mənada şübhə etmirəm ki, allah-taala səni onun üzərində qələbə çalmağa kömək edəcək. Sən ona baxma ki, ordu və sayın onunkundan azdır, ona bax ki, alah-taala buyurmuşdur: "Allahın icazəsi ilə çox az qoşunlar çox-çox qoşunlara qalib gəlmişlər. Allah səbr edənlərlədir ".

Xəlifənin dedikləri yavaş-yavaş İsmail ibn Əhmədin ürəyinə təsir etdi, o, qəti qərara gəldi ki, Əmr ibn Leyslə müharibə etsin. Nə qoşun vardısa, hamısını toplayıb Ceyhunu bu tərəfə keçdi, qamçı başı ilə saymağa başladı, iki min atlı oldu, belə ki, ikisindən birinin qalxanı, iyirmisindən birinin zirehli paltarı, əllisindən birinin nizəsi var idi, bir adam var idi ki, atı olmadığından zirehli paltarı örkənlə sərimişdi.

O Amudan[42] Mərvə gəldi. Əmr Leysə xəbər apardılar ki, İsmail ibn Əhçəd Ceyhundan keçib, Mərvə gəlmişdir. Mərvin darğası qaçmışdır, o, ölkəni tələb edir. Əmr Leys güldü. Nişaburda idi. Yetmiş min süvari topladı, hamısı zirehli, dəbilqəli, silahlı-yaraqlı.

O tam hazırlıqlı bir şəkildə Bəlxə üz qoydu. Bir-birinə çatdıqda vuruş başladı. İş elə gətirdi ki, Əmr ibn Leys Bəlxin qapısında məğlub oldu, onun yetmiş min atlısı geri qaçmağa başladı, nə bir nəfər yaralandı, nə bir nəfər əsir düşdü. Onların arasından yalnız Əmr ibn Leys özü ələ keçdi.

Onu İsmailin yanına gətirdilər, əmr etdi ki, onu pələng saxlayanlara tapşırsınlar. Bu, dünyanın qəribəliklərindən biridir.

Bir namaz da qıldıqdan sonra Əmr Leysin fərraşlarından biri ordugahın həyətində gəzişirdi, gözü Əmr Leysə düşdü, ürəyi yandı. Dedi bu gecə mənim yanımda qal, lap tək qalmışam. Dedi nə qədər sağam, yeməksiz keçinə bilmərəm, yemək üçün mənə bir şey tap, Fərraş bir batman ət lapdı, əsgərlərdən bir dəmir qazan girov aldı. Sonra o yan-bu yana qaçıb bir az quru peyin yığdı, iki-üç kəsəyi bir-birinin üstünə düzüb ocaq qaladı, əti qazana saldı, duz tapmaq üçün ocaqdan aralanmalı oldu.

Axşama yaxın, bir it gəldi, başını qazana uzatdı, bir sümük götürdü, ağzı yandı, başını geri çəkəndə qazanın halqası boynuna keçdi qazanı götürüb qaçdı.

Əmr ibn Leys bunu gördükdə üzünü əsgərlərə və keşikçilərə çevirib dedi: "İbrət götürün, mən haman o adamam ki, səhər mənim mətbəximi dörd yüz dəvə çəkirdi, axşam isə bir it onu götürüb apardı." Bir də dedi: "Səhər əmir idim, axşam əsir oldum".



downloaded from KitabYurdu.org

Bu da həyatın qəribəliklərindən biridir.

Bu hər iki qəribə hadisədən daha təəcüblüsü odur ki, Əmr Leys tutulduqda Əmir İsmail üzünü böyüklərə tutub demişdi: "Bu qələbəni o böyük allahdan başqa heç kəs mənə verməmişdir və bu işdə allahdan başqa heç kəsin mənim boynumda haqqı yoxdur". Sonra dedi: "Biliniz ki, Əmr Leys alicənab, səxavətli, çox silah və ordusu olan siyasətçi, tədbirli, sayıq, işbilən, haqq tanıyan, qədir bilən, süfrəsi açıq bır adam idi. Mənim fikrim budur cəhd edəm ki, ona heç bir zərər toxunmasın, qalan ömrünü rahatlıqla keçirsin".

Əmr Leys bunu eşitdikdə dedi: "Bilirəm, mən özümü bu əsirlikdən qurtara bilməyəcəm. Sən ki, İsmailsən, mənim yanıma bir inanılmış adam göndər, deyəsi sözüm var, məndən eşidib sənə çatdırsın".

Bu xəbəri İsmailə çatdırdılar. İsmail dərhal inanılmış bir adam göndərdi. Əmr Leys ona dedi: "İsmailə de ki, məni sən məğlub etmədin, bəlkə sənin dəyanət, inam, xoşəxlaqın və əmrəlmömininin narazılığı məğlub etdi. İzzət və cəlal sahibi olan o allah bu ölkəni məndən alıb sənə vermişdir. Bu yaxşılıq, əliaçıqlıqla sən bu dövlətə daha çox layiqsən, mən o izzətli və cəlallı allahın iradəsinə tabe olur, sənə xoşbəxtlikdən başqa heç bir şey arzu etmirəm. Sən indi yeni ölkə zəbt edibsən, lakin var dövlətin yoxdur. Mənim və qardaşımın isə çoxlu xəzinə, dəfinə və cəvahiratımız vardır ki, onların siyahısını sənə bağışlayıram. Qoy sənin də var-dövlətin olsun, silah qayıtdır, qoşun topla, qüvvətli ol və xəzinə düzəlt".

Sonra cəvahiratın siyahısını çıxarıb, haman adam vasitəsilə Əmir İsmailə göndərdi.

İnanılmış adam gəlib eşitdiklərini dedi və sənədləri İsmailin qarşısına qoydu. İsmail üzünü böyüklərə tutub dedi: "Bu Əmr ibn Leys çox zirək adamdır, istəyir zirəklərin əlindən yaxa qurtarıb, zirəkləri tora salsın və əbədi bəlaya düçar etsin".

Sonra siyahı və qəbzi götürüb haman inanılmış adamın qabağına tulladı və dedi: "Bu sənədləri ona qaytar və de ki, sən o qədər hiyləgərsən ki, istəyirsən hər şeydən özünü kənara çəkəsən. Sənə və qardaşına dövlət haradan gəlmişdir? Sizin atanız bir misgər kişi idi, sizə də misgərlik öyrətmişdir. Göylərin təsadüf gərdişindən siz ölkəni zəbt etdiniz, qoçaqlıqla hakimiyyəti ələ keçirdiniz. Bu qızıl və gümüşlər, dinar və dirhəmlər xalqdan zorla alınmışdır. Qoca qadın və kişilərin sursatından, qərib və müsafirlərin ehtiyacından, yoxsul və yetimlərin malından toplanmış, xəzinə yaradılmışdır. Bunların cavabını sabah izzət və cəlallı allah qarşısında sən verməlisən. İndi isə cəld tərpənib bu zülmü mənim boynuma atmaq istəyirsən ki, sabah qiyamət günü düşmənlər sizin yaxanızdan tutub deyəndə ki, bizdən nahaq aldığınız malları geri verin, siz deyəsiniz ki, nə almışıqsa hamısını İsmailə tapşırmışıq, ondan tələb edin. Siz hər şeyi mənim boynuma yıxmaq istəyirsiniz, mənim isə düşmənlərə, izzət və cəlallı allahın qəzəbinə cavab verməyə halım yoxdur."

Allahın qorxusundan və etiqadın gücündən xəzinənin qəbzini qəbul



downloaded from KitabYurdu.org

etmədi, onu geri göndərdi, dünya malına inanmadı. O, bu zəmanə əmirlərindən deyildi ki, bir haram dinar xatirinə on haramı halala çevirməkdən, haqqı batil etməkdən qorxmayaydı və aqibətini fikirləşməyəydi.

**Hekayət.** Həmin İsmail ibn Əhmədin adəti bu imiş ki, gün çox soyuq olduqda, həddən artıq qar yağdıqda tək ata minib meydana gələr və günorta namazına qədər orada durardı. Deyərdi : "Bəlkə bir şikayətçi gəldi, ehtiyacı oldu, yeməyə çörəyi, qalmağa yeri olmadı, qar və yağışdan bizim yanımıza gəlmək onun üçün çətin oldu. Lakin bilsə ki, biz burada durmuşuq, gəlib öz sözünü deyər və salamat qayıdıb gedər".

Belə şeylərdən çox demişlər. Hamısını o dünyanın qorxusundan edərmişlər.

### *Dördüncü fəsil*

## AMİLLƏR, VƏZİR, QULAM VƏ BAŞQALARININ İŞLƏRİNƏ NƏZARƏT HAQQINDA

Amilə iş tapşırdıqda onlara nəsihət edib öyüd vermək lazımdır ki, allah bəndələri ilə xoş rəftar edib, qanuni vergidən başqa bir şey istəməsinlər, vergini isə müdara və xoş dillə almaq lazımdır. Əlləri məhsula çatmayınca onlardan heç bir şey tələb etmək lazım deyildir, çünki vaxtından əvvəl istədikdə rəiyyətə zülm olar, xərmən vaxtı gəldikdə isə zərurət üzündən yarım dirhəm satmağa məcbur olar, iflasa uğrayıb didərgin düşərlər.

Rəiyyətdən biri yoxsullaşıb, öküzə, toxuma ehtiyacı olsa, ona ol tutub borc vermək, yükünü yüngülləşdirmək lazımdır ki, yerində qalsın, evini tərk edib qürbətə getməsin.

**Həmin mənada bir hekayət.** Belə eşitmişəm ki, Qubad şahın[44] dövründə yeddi il dünyanı qəhətlik bürüdü, bərəkət göydən kəsilmişdi. Amillərə əmr etdi ki, yığdıqları taxılları satsınlar, bəzilərini sədəqə versinlər, beytülmal[45] və xəzinədən yoxsullara kömək etsinlər. Elə etdilər ki, o yeddi il içərisində bir nəfər də acından ölmədi. Bu ona görə belə oldu ki, o valiləri cəzalandırır, amillərin işlərini isə nəzarət altında saxlayırdı.

Əgər indicə dediyim kimi işləsələr, onları vəzifədə saxlamaq olar, belə olmazsa, onlan daha layiqliləri ilə əvəz etmək lazımdır. Belə iş tutan amilin öz malı müsadirə edilməlidir ki, başqalarına ibrət olsun və əliuzunluq etməsinlər.

**Axırıncı fəsil.**[46] Vəzirlərin də işini də nəzarət altında saxlamaq lazımdır ki, vəzifələrini layiqincə yerinə yetirmədikləri aydın olsun. Şahın və ölkənin yaxşı-pisliyi onlara bağlıdır: vəzir xeyirxah, düz işləyən olsa, ölkə abad, xalq şad, asudə, yeməkləri bol, şahın isə ürəyi sakit olar; pis işləyən, bədxasiyyət olsa, ölkədə təsəvvür edilməz pozğunluqlar əmələ gələr, şah həmişə sərgərdan, narahat, məmləkət isə təşviş içərisində olar.



downloaded from KitabYurdu.org

**Hekayət.** Belə deyirlər Bəhram Gurun bir vəziri var imiş, onu Rastrəviş[47] deyə çağırırlarmış. Bəhram Gur bütün məmləkəti onun ixtiyarına vermiş, hər şeyi ona etibar etmişdi. Onun haqqında kim nə deyir-desin qulaq asmaz, özü isə gecə-gündüz əyləncə, şikar və şərab içməklə məşğul olarmış.

Bu Rastrəviş Bəhram Gurun şəxsi valilərindən birinə deyir: "Rəiyyət tərbiyəsizləşib, bizim ədalətimizin çoxluğundan qudurub. Qulaqburması verilməsə, qorxuram iş xarab ola; şahın isə başı şəraba qızışıb, rəiyyətin və camaatın nələr etdiyindən xəbəri yoxdur. Qulaqburması isə iki cür olur: pisləri həbs etmək, yaxşılardan mal almaq, kimi tut desəm, tut!".

O dedi, vali tutdu. Rastrəviş isə rüşvət alıb buraxdırdı. Ölkədə kimin dövləti, yaxşı atı, gözəl kənizi, qulamı, mülkü, varidatı var idisə hamısı tutulub alındı, rəiyyət yoxsullaşdı, adlı-sanlı adamlar bütünlüklə didərgin düşdülər, xəzinəyə heç bir şey daxil olmadı.

Bir müddət bu minval ilə keçdikdən sonra Bəhram Gura bir düşmən baş qaldırdı. İstədi orduya bəxşiş versin, yaraqlanıb düşmən qarşısına göndərsin, xəzinəyə getdi, heç nə görmədi. Şəhərin başçılarından, adlı-sanlı adamlarından soruşdu, dedilər: "Bir neçə ildir ki, ülankəs və filankəs ölkəni tərk edib, filan vilayətə gediblər". Soruşdu :"Nə üçün?". Dedilər: "Bilmirik".

Heç kəs qorxusundan vəzirin adını çəkə bilmədi.

Bəhram Gur bütün günü və gecəni fikirləşdi, lakin bu pozğunluğun səbəbini tapa bilmədi.

Sabahısı səhər tezdən fikirli halda tək ata minib səhraya yollandı. Dərin düşüncələrə dalaraq gedir və heç bir şey hiss etmirdi. Bir vaxt ayılıb gördü ki, günəş qalxmış, yeddi fərsəngdən çox yol getmişdir. İsti və susuzluq ona təsir etdi, su içmək istədi. Səhraya nəzər salıb uzaqdan tüstü gördü, dedi: "Hər halda orada adam olar". Sonra üz tutub tüstü gələn tərəfə getdi. Yaxınlaşdıqda gördü ki, qoyunlar yatırılıb, çadır qurulub, bir it də dara çəkilibdir. Çox təəccüb etdi. Çadıra yaxınlaşanda bir kişi çıxıb salam verdi, onu atdan düşürdü, qabağına yemək qoydu, Bəhram olduğunu bilmədi.

Bəhram dedi: "Əvvəlcə çörək yeməzdən qabaq o itin əhvalatını danış. Mən bu sirri bilməliyəm".

O cavanmərd dedi: "Bu it qoyunların mənim tərəfimdən inanılmış keşikçisi idi. Mən onun hünərinə bələd idim, on canavarın öhdəsindən gələrdi. Onun qorxusundan bir canavar belə qoyunların həndəvərinə dolana bilməzdi. Çox vaxt mən iş üçün şəhərə gedər, sabahısı gün gələrdim. Bir müddət belə keçdi. Br gün qoyunları saydım, bir neçəsi çatmadı. Sonra fikir verdim, gündə qoyunların azaldığını gördüm. Buralara isə oğru gəlməz. Qoyunların nədən azaldığını heç vəchlə başa düşə bilmirdim. Azalmaqdan sürümün vəziyyəti elə bir hala düşdü ki, amil adəti üzrə gəlib məndən sədəqə istədikdə qalan qoyunlarımın hamısını sədəqə verməli oldum. İndi haman amilə çobanlıq edirəm.

Demə bu it dişi bir canavarla dostluq edirmiş, mən isə bundan xəbərsiz.



downloaded from KitabYurdu.org

Bir dəfə odun yığmaq üçün səhraya getmişdim, qayıdanda bir təpənin başında gördüm ki, qoyunlar otlayır, bir canavar isə sürüyə tərəf gedir. Özümü bir kolun dalına verib gözlədim və gizləndim baxmağa başladım. İt canavarı görcək irəli gəlib quyruğunu bulamağa başladı. Canavar yerində sakitcə durmuşdu. Sonra it canavarın dalına dırmaşdı, ciftləşdi, sonra bir tərəfə çəkilib yatdı. Canavar özünü sürüyə vurdu, bir qoyun tutub yırtdı, parçalayıb yedi. İt heç cınqırını da çıxarmadı. Mən işi belə gördükdə başa düşdüm ki, mənim bu günə düşməyimin səbəbi itin o yola düşməsidir. O mənə xəyanət etdiyi üçün mən də tutub onu asdım".

Bəhram Gur bu əhvalata təəccüb etdi. Qayıdarkən hey bu barədə fikirləşirdi. Nəhayət, gəlib o nəticəyə çıxdı ki, rəiyyət sürü, vəzir isə onların keşikçisi hökmündədir. Mən bu ölkəni pərakəndə, rəiyyəti pərişan görürəm. Kimdən soruşuramsa, heç kəs bir söz demir, həqiqəti məndən gizlədirlər. İndi mənim bircə çarəm qalır ki, rəiyyətin vəziyyətini, vəzirin isə işlərini yoxlayam. Öz yerinə qayıtdıqdan sonra, həbs olunanların işlərini tələb edib onlarla tanış olduqda, başdan-ayağa rüsvayçılıq olduğunu gördü və başa düşdü ki, Rastrəviş nəinki camaatla yaxşı dolanmamış, çoxlu zülm və xəyanət etmişdir. Dedi: "Bu necə Rastrəvişdir, bu başdan-ayağa yalan və əyridir". Sonra dedi: "Atalar düz deyiblər: şöhrətə uyan çörəksiz qalar, çörəyə xəyanət edən köynəksiz".

Mən bu vəziri çox qudurtmuşam, camaat onu bu cah-calal, əzəmət və şöhrət içərisində gördükcə onun qorxusundan doğru danışa bilməyəcək, həqiqəti açmaqdan qorxacaqlar. Mənim çarəm budur ki, sabah saraya gəldikdə camaat qarşısında hörmətdən salım, tutdurub ayağına kündələr vurdurum, sonra məhbusları öz yanıma çağırıb vəziyyətlərini soruşum. Əmr edim car çəksinlər ki, biz Rastrəvişi vəzirlikdən çıxarıb həbsxanaya salmışıq və ondan kimin tələbi varsa, gəlib öz dili ilə öz şikayəlini etsin, hər şey bizə aydın olsun. Əgər adamlarla yaxşı rəftar edib, nahaq yerə mal almamışsa, ondan razılıq etsələr, onun könlünü alıb öz vəzifəsinə qaytararıq, əksinə etmiş olsa onu cəzalandırarıq".

Sabahısı gün Bəhram Gur qəbul düzəltdi. Böyüklər gəldi. Vəzir içəri girib öz yerində oturduqda Bəhram Gur üzünü ona çevirib dedi: "Bu nə dağınıqlıqdır ki, bizim ölkəmizə salıbsan, qoşunumuzu yaraqsız, rəiyyətimizi çörəksiz qoymusan! Biz sənə tapşırmışdıq ki, xalqın ruzisini vaxtında çatdırasan, ölkənin abadlığı ilə məşğul olasan, xalqdan qanuni vergidən başqa heç nə almayasan, xəzinədə həmişə ehtiyat saxlayasan. İndi nə xəzinədə bir şey görürəm, nə ordunun təchizatı var, nə xalqı yerində tapıram, sən elə güman edirsən ki, mən şərab içib, şikar etməklə məşğulam, ölkənin vəziyyətindən, rəiyyətin məşəqqətindən xəbərim yoxdur?!".

Əmr etdi, onu hörmətsizliklə yerindən qaldırıb dama saldılar, ayağına ağır kündə vurdular. Saray qapısında car çəkdilər."Şah Rastrəvişi vəzirlikdən çıxarmışdır, ona qəzəbi tutmuşdur, bir daha ona vəzifə verməyəcəkdir. Kimi incidibsə, kim ondan zülm görübsə, heç bir şeydən qorxmasın, saraya gəlib öz dərdini desin və şahdan haqqını alsın".

Şah əmr etdi, zindanın qapısını açıb məhbusları onun yanına gətirdilər,



downloaded from KitabYurdu.org

bir-bir sorğu-suala başladı ki, səni nə təqsirlə tutub saxlayıblar? Biri dedi: "Mənim varlı-dövlətli bir qardaşım var idi. Rastrəviş onu tutdu, bütün var-yoxunu əlindən aldı, özünü isə işgəncə altında öldürdü. Dedim: "Qardaşımı niyə öldürdün?" Dedi: "Şahın düşmənləri ilə yazışır".Sonra məni zindana göndərdi ki, şahın yanına şikayətə gələ bilməyim və bu iş örtülü qalsın". O biri dedi: "Mənim çox gözəl ab-havalı bir bağım var idi. Atamdan qalmışdı. Rastrəvişin malikanəsi onun yanında idi. Bir gün Rastrəviş mənim bağıma gəldi, bağı çox bəyəndi, ürəyinə yatdı. Almaq istədi, satmadım. Məni tutub zindana saldı və dedi: "Sən filankəsin qızını sevirsən, bu isə sənin üçün cinayət sayılır. Gəl bağdan əl çək, öz razılığınla mənim adıma bir qəbalə yaz. Orda yaz ki, bağ səni təngə gətirib, gözündən düşüb, bağ və mülk Rastrəvişin halal malıdır". Mən razılıq vermədim. Bu gün beş ildir ki, həbsxanada yatıram".

O biri dedi: "Mən sövdəgər bir adamam. Mənim peşəm budur ki, suda quruda-gəzəm, az maya ilə bir şəhərdən nadir şeylər alıb, başqa şəhərdə satam, bir az pul qazanam. Əlimə bir mirvari boyunbağı keçmişdi, şahın vəzirinə xəbər çatdı, pulunu vermədən öz xəzinəsinə göndərdi. Bir neçə gün görüşünə gedib salam verdim, özünü o yerə qoydu ku, guya heç bir şey almamışdır, nə mirvarinin pulunu verdi, nə də mirvarini geri qaytardı. Dözməyə halım qalmamışdı, yol üstə idim. Bir gün yanına gedib dedim: "O boyunbağını bəyənirsinizsə, buyurun, pulunu versinlər, bəyənmirsinizsə, özünü qaytarsınlar, yol üstəyəm, gözləyə bilmirəm. Cavab vermədi. Hucrəmə qayıtdıqdan sonra isə bir sərhəng[51] , dörd piyada əsgər gəlib dedilər ki, dur səni vəzir çağırır. Sevindim, elə bildim mirvarinin pulunu verəcəkdir. Qalxıb o dörd əsgərlə getdim. Onlar məni zindana gətirib, zindanbana dedilər: Fərman belədir ki, bu kişini zindana salasan, ayağına ağır kündə vurasan. İndi il yarımdır ki, mən həbsxanadayam". O biri dedi: "Mən filan nahiyənin rəisiyəm. Mənim qapım qonaqların, qəriblərin, alimlərin üzlərinə həmişə açıq olardı. Adamların hayına qalar, ehtiyacı olanlara əl tutardım. Ehtiyacı olanlara xeyrat, ehsan verərdim. Biz ata-babadan belə olmuşuq. Mənə nə qədər mülk-miknət, var-dövlət miras qalmışdısa, hamısını qonaqlara xərc edər, sədəqə paylardım. Şahın vəziri məni tutub dedi ki, xəzinə tapıbsan, gərək verəsən. İncitməyə, işgəncə verməyə başladı, sonra zindana saldı. Mənim nə qədər torpağım, mülküm vardısa, hamısını məcburiyyət üzündən yarıbahasına satıb vəzirə verdim. İndi mən dörd ildir zindanda həbsdəyəm, bir dirhəmə qüdrətim çatmır".

O biri dedi: "Mən filan zəimin[52] oğluyam. Vəzir atamın mülkünü müsadirə edib, özünü çubuq altında öldürdü, məni zindana saldı. İndi yeddi ildir zindan əziyyəti çəkirəm.".

O biri dedi: "Mən hərbçiyəm. Bir neçə il şahın atasına xidmət

edirəm. Divan qapısında bir parça çörəyim var. Keçən il heç nə vermədilər. Bu il vəzirə müraciət edib dedim: "Külfət əyal sahibiyəm, keçən il maaşımı verməyiblər. Bu il ödəyin, bir hissəsini sənə verərəm, bir hissəsini



downloaded from KitabYurdu.org

ehtiyacıma xərcləyərəm".

Dedi: "Şahın qabaqda elə bir işi yoxdur ki, orduya, sənə və sənin kimilərə ehtiyacı olsun, xidmət edib-etməməyinin heç bir fərqi yoxdur. Çörək qazanmaq lazımdırsa torpaq işinə get". Dedim:

"Mənim bu dövlət qarşısında xidmətim o qədərdir ki, mən

torpaq işinə getməyə də bilərəm. Sənə isə ölkəni dolandırmağı öyrətmək lazımdır. Mən qılınc vurmaqda canımı şaha qurban verər, onun əmrindən çıxmaram, sən isə bir parça çörəyi də bizə çox görür, şahın fərmanını yerinə yetirmirsən. Sən başa düşmürsən ki, şah qarşısında mənim nökərçiliyim ilə sənin nökərçiliyinin hər ikisi eynidir, bu işi mənə tapşırıblar, o işi sənə. Mənimlə sənin aranda olan fərq ondan ibarətdir ki, mən əmr quluyam, sən yox. Padşaha mən kimisi lazım deyildirsə onda sən kimi də lazım deyil. Mənim adımın divandan pozulması haqqında əmr almısansa göstər, yoxsa, şahın bizə əta etdiyi nemətləri ver". Dedi: "Get, səni və padşahı mən saxlayıram, mən olmasa idim, sizin beyninizi çoxdan quzğunlar dağıtmışdı". İki gündən sonra məni tutub həbs etdirdi, indi dörd aydır ki, zindandayam".

Yeddi yüzdən çox məhbus var idi. İyirmiyə yaxın qatil, oğru və cani idi, qalanın hamısını vəzir mal-dövlət üstə tutub zülmlə zindana saldırmışdı.

Carçı padşahın fərmanını car çəkdikdən, şəhər və nahiyə əhalisi onu eşitdikdən sonra sabahısı gün saray qapısına o qədər şikayətçi toplanmışdı ki, sayı-hesabı yox idi. Bəhram Gur camaatın halına bələd olub, vəzirin etdiyi ədalətsizlikləri, qanunsuzluq, haqsızlıqları eşitdikdən sonra dedi: "Bu adamın ölkədə yaratdığı fisqü-fəsad mənim bildiklərimdən müqayisə edilməz dərəcədə çoxdur, onun allaha, allah bəndələrinə və mənə qarşı göstərdiyi qudurğanlıq təsəvvür edilməzdir. Bu məsələyə dərindən baxmaq lazımdır".

Əmr etdi, Rastrəvişin malikanəsinə gedib onun kağızlarını, xəritələrini[53] gətirsinlər, bütün qapılarına möhür vursunlar.

Məmurlar gedib, deyilən kimi də elədilər, kağızlarını gətirdilər, diqqətlə oxumağa başladılar, arasından bir məktub tapdılar. Bu məktub Bəhram şaha qarşı çıxmış padşahın Rastrəvişə yazdığı dostanə bir məktub idi. Sonra Rastrəvişin öz xətti ilə yazılmış cavab məktubunu tapdılar. Rastrəviş ona yazırdı: "Nə yavaş tərpənirsən, bilicilər demişlər: "Qəflət dövləti əldən verər". Mən sənə tərəfdarlıqda və qulluqda nə lazımdırsa, hamısını yerinə yetirmişəm. Bir neçə ordu başçılarını yoldan çıxarıb tabe etmişəm, qoşunun əksəriyyətini təchizatsız qoymuşam, bütün müddət ərzində nə yığmışdımsa, hamısını birdəfəlik göndərib, rəiyyəti ac-yalavac, laqətsiz, sərgərdan bir hala salmışam. Sənin üçün elə bir xəzinə toplamışam ki, dünyanın heç bir şahında belə bir xəzinə yoxdur, elə qiymətli və əzmətli tac, kəmər və məclis hazırlamışam ki, mislini heç kəs görməmişdir, düşmən-qafil. Nə qədər gec deyil, bu adam qəflət yuxusundan ayılmayıb, tələs!".

Bəhram Gur bu yazıları gördükdə dedi: "Afərin, düşməni mənim üstümə qaldırmışdır, indi o qürurla gəlir. Bunun nanəcib, nankor və düşmən olduğuna artıq



downloaded from KitabYurdu.org

şübhəm qalmamışdır."

Əmr etdi onun xəzinəsində nə vardısa hamısını (müsadirə edib) xəzinəyə gətirdilər, qullarını, mal-qaralarını əlindən aldılar. Mülkünü, mal-torpağını satdırıb xalqdan zorla, rüşvətlə aldıqlarını camaata geri qaytardılar. Onun sarayını, ev-eşiyini, dudmanını yerlə yeksan etdilər. Sonra əmr etdi, sarayın qabağında uca bir dar ağacı qurdular, otuz ağac da onun qarşısında basdırdılar. Əvvəl Rastrəvişi dara çəkdilər, necə ki, o kişi iti dara çəkmişdi. Sonra onunla əlbir olanları, onun tərəfdarlarını haman ağaclardan asdılar.

Əmr etdi, yeddi gün car çəkdilər: "Şaha xəyanət fikrində olub, onun düşmənləri ilə sazişə girən, xəyanəti sədaqətə üstün tutan şaha və allaha ağ olan adamın cəzası bu olacaqdır".

Belə bir tədbir gördükdən sonra bütün naxələf adamlar Bəhram şahdan qorxdular. Rastrəviş kimə iş vermişdisə, Bəhram hamısını vəzifədən məhrum etdi, bütün dəbir[54] və mütəssərifləri[55] dəyişdirdi.

Bu xəbər Bəhram Gurun ölkəsinə qəsd fikrində olan o şaha çatdıqda hara qədər gəlmişdisə, oradan da geri qayıtdı, tutduğu işdən peşiman oldu, çoxlu mal, daş-qaş və zərif şeylər göndərdi, üzr istədi, müti qul olduğunu etiraf etdi və dedi: "Vəzir olmasaydı, şaha qarşı üsyan mənim ağlıma da gələ bilməzdi. Məni bu işə vəzir məcbur etmişdir. O hey yazır, adam göndərir, məni təhrik edirdi, mənim ürəyim mənə deyirdi ki, bu adam günahkardır, özünə sığınacaq axtarır".

Bəhram şah onun üzrünü qəbul etdi, günahını bağışladı. Düz etiqadlı, xoş rəftarlı, allahdan qorxan bir adamı vəzir təyin etdi. Ordunun və rəiyyətin işi qaydasına düşdü, iş irəliləməyə, ölkə abadlaşmağa üz qoydu, xalq zülm və ədalətsizlikdən xilas oldu.

Bəhram şah iti asan adamın çadırından çıxarkən oxdanından bir ox çəkib onun qabağına almış və demişdi: "Mən sənin duz-çörəyini yedim, sənə dəyən zərərləri və çəkdiyin ağrıları bildim. Sənin mənim boynumda haqqın vardır. Bil ki, mən Bəhram Gur sarayında hacıblər hacibiyəm[56]. Sarayda olan bütün böyüklər, hacıblər mənumlə dostdurlar və məni yaxşı tanıyırlar. Bu oxu götürüb, Bəhram Gurun sarayına gələrsən. Hər kəs bu oxla səni görsə, mənim yanıma gətirər, mən sənin xəcalətindən çıxaram, bəzi zərərlərinin əvəzini çıxaram, bəzi zərərlərinin əvəzi çıxar". Bir neçə gündən sonra arvadı o kişiyə dedi: "Dur get şəhərə, oxu da özünlə apar, o təmtəraqla geyinmiş atlı, şübhəsiz adlı-sanlı və dövlətli olmalıdır. Sənə az yaxşılıq etsə də, bizim günümüz üçün böyük kömək olar. Tənbəllik etmə, belə adamlar boş söz verməzlər".

Kişi qalxıb şəhərə getdi O gecəni yatdı, səhərisi Bəhram Gurun sarayına yollandı. Bəhram Gur hacıblərə, saray adamlarına tapşırmışdı ki, əlində mənim oxum olan bir adam saraya gəlsə dərhal, onu mənim yanıma gətirin. Elə ki, hacıblər o oxla onu gördülər, onu çağırdılar və dedilər: "Ay səni görək pir olasan[57]. Neçə gündür gözümüz yoldadır, burada otur, səni ox sahibinin yanına aparaq".

Bir azdan sonra Bəhram Gur çıxıb taxta oturdu, qəbula başladı. Hacıblər o



downloaded from KitabYurdu.org

kişini bargaha apardılar. Kişinin gözü şaha düşcək dərhal tanıdı və dedi: "Vay, o atlı Bəhram şah imiş, mən ona lazımi hörməti edə bilməmiş, onunla çox sərt danışmışam. Olmaya məndən incimişdir?!".

Haciblər onu şahın taxtı qarşısına apardıqda baş əyib təzim etdi. Bəhram Gur üzünü əyan-əşrafə çevirib dedi: "Mənim ölkə işlərində ayılmağıma səbəb bu kişi oldu". İtin əhvalatını böyüklərə danışdı, əlavə edib dedi: "Mən falımı bu kişinin üzünə açmışam".

Sonra əmr etdi, ona xələt geyindirdilər, sürüdən onun bəyəndiyi yeddi yüz qoyun-quzu, mal-qara ayırıb bağışladılar. Sonra dedi: "Nə qədər mən sağam, ondan vergi alınmasın"

İsgəndərin Daranı məğlub etməsinin səbəbi o idi ki, vəziri gizlində İsgəndərlə əlbir idi. Dara öldürüldükdən sonra İsgəndər demişdir: "Əmirin qəfləti, vəzirin xəyanəti şahlığı məhv edər".

Padşah hər vaxt məmurlarının vəziyyətindən xəbərdar olmalı, onların nələrlə məşğul olduqlarını nəzarət altında saxlamalıdır. Əyrilik və xəyanət gördükdə dərhal onları başqaları ilə əvəz etməli, günahlarına müvafiq cəza verməlidir ki, başqaları ondan ibrət götürsün, heç kəs cəzanın qorxusundan şaha qarşı pis fikirlərə düşməsin. Birinə böyük bir iş tapşırdıqda bir nəfəri də gizlicə onun üstünə nəzarətçi qoymalıdır ki, o xəbərdar olmasın, həmişə onun nələr etdiyini, özünü necə apardığını şaha xəbər versin.

Əristatalis[58] İsgəndər şaha belə demişdir. Sənin məmləkətində hökmürəvan olmuş bir adamı incitsən, ona daha böyük vəzifə tapşırma. O gizlində düşməninlə əlbir olub səni məhv etməyə çalışar".

Şah vəzirə belə deməlidir: "Şaha o lazımdır ki, dörd qrup adamın günahı bağışlanmasın: birinci ölkəyə qəsd edənlərin; ikinci şahın hərəminə göz dikənlərin; üçüncü dilini saxlamayanların; dördüncü, üzdə şahla, könüldə şahın düşmənləri ilə əlbir olanların".

İnsanın işi sirrindən sənə xəbər verər. Şah ayıq olsa, işlərdə heç bir şey onun üçün gizli qala bilməz. Allah-taalanın köməyi olsa.

***Beşinci fəsil***

## MÜQTİLƏR VƏ ONLARIN RƏİYYƏTLƏ RƏFTARI HAQQINDA

İqtası olan iqtidarlar bilməlidir ki, onların rəiyyət üzərindəki haqqları yalnız ondan ibarətdir ki, onlara həvalə edilmiş vergiləri rəiyyətdən xoşluqla alsınlar. Aldılarmı, onların canları, malları, arvad-uşaqları əmin-amanlıqda olmalıdır. Ev-eşiklərinə dəyilməməlidir. Rəiyyət şah dərgahına gedib, öz vəziyyətini danışmaq istəsə, ona əngəl törətməməlidiıiər. Hansı iqtidar bunun əksini etsə, onun əlini gödəltmək, iqtanı ondan almaq, onu tənqid etmək lazımdır ki, başqalarına da ibrət olsun. Onların hamısı bilməlidir ki, dövlət və rəiyyət yalnız



downloaded from KitabYurdu.org

şahındır. iqtidarlar isə valilər, darğalar kimi rəiyyət üzərində başçı təyin edilmişdirlər, şah başqaları ilə necə rəftar edirsə, onlar da rəiyyətlə elə rəftar etməlidirlər. Rəiyyət onlardan razı qalmalıdır ki, onlar da axirətin əzab-əziyyətindən azad olsun.

**Adil şah haqqında hekayət.** Belə nəql edirlər ki, Qubad şah öldükdən Sonra onun on səkkiz yaşlı oğlu Ənuşirəvan atasının yerinə keçib, padşahlıq etməyə başladı. Ədalət lap uşaqlıqdan onun qəlbinə yol tapmış, sanki onun xəmiri ədalətlə yoğrulmuşdu, pisi pis, yaxşını yaxşı tanıyırdı və həmişə deyərdi: "Atam zəif iradəli və sadəlövhdür, tez aldanır, vilayəti valilərə tapşırıbdır, onlar da istədiklərini edirlər. Vilayət dağılır, xəzinə boşalır, (gümüşü) oğurlayırlar, bədnamlıq, zalimlik isə onun boynunda qalır. Bir dəfə Məzdəkin felinə aldandı, başqa bir dəfə filan vali və amilin dilinə. Onlar isə vilayəti dağıdıb viran etmiş, rəiyyəti dilənçi hala salmışdılar. Pulpərəstlikdən ona gəlirilən gümüş bədrələrini[60] gördükdə sevinmiş, lakin məsələni aydınlaşdırmamışdı, onlardan soruşmamışdı ki, axı, siz ölkənin valisi və əmirisiniz, mən bu vilayətlər üçün sizə o qədər maaş verirəm ki, bu sizin özünüzün və ordunuzun yeməyinə, köməyinə çatar. Bilirəm ki, mənə gətirdiyiniz bu artıq şeyləri onlardan alıbsınız, atanızdan miras qalmayıb, hamısını zorla, haqsız olaraq rəiyyətdən toplayıbsınız. Amilə də belə deməli idi: “Vilayətin gəliri bu qədərdir, filan qədərini filan şeyə xərcləmiş, filan qədərini isə xəzinəyə veribsən. Bəs bu artıqları haradan gətiribsən? Bunlar nahaq alınanlar deyilmi?!,,. O belə etməli idi ki, başqaları da düzlüyə öyrənsinlər. Üç dörd il yenə də valilər, iqtidarlar əliuzunluq etdilər. Onları çağırdılar, Ənuşiravan taxta oturub. Əvvəl allaha dua etdi, sonra onlara dedi: "Birincisi, bu şahlığı mənə o izzətli və calallı allah əta etmişdir, ikincisi, atamdan miras qalmış, üçüncüsü, mənə qarşı üsyan etmiş əmimi məğlub edib əldə saxlamışam, -daha sonra qılınc vurub ölkə tutmuşam. Allah-taala bu ölkəni mənə əta etdiyi kimi, mən də sizə əta etmiş, hərənizə bir vilayət vermişəm. Kimin bu dövlətdə mənim boynumda haqqı varsa, onu əvəzsiz qoymamışam. Atamdan mənsəb, vilayət alıb, orada böyüklük edənləri də öz yerlərində və mənsəblərində saxlayıb, bir parça çörəklərini azaltmamışam. Sizə təkidlə deyirəm, rəiyyətlə yaxşı rəftar ediniz, qanuni vergidən başqa heç nə almayın, mən sizin hörmətinizi saxlayıram, siz saxlamırsınız, sizin qulağınıza söz batmır, xaliqdən qorxmursunuz, xalqdan utanmırsınız. Mən allahın qəzəbindən qorxuram, nəbada sizin nikbət və zülmünüzün sədəməsi mənim dövlətimə çatsın. Dünya düşməndən təmizlənmiş, siz isə lazımi qədər təmin olunmuşsunuz. İndi yaxşı olar ki, allahın sizə, mənə əta etdiyi bu nemətlə kifayətlənib, dövlətə zərər, nemətə ziyan gətirən zülm və nankorluqla məşğul olmayasınız, bundan sonra allah bəndələri ilə xoş rəftar edəsiniz, yaxşılarla həmsöhbət olub, pislərdən uzaq gəzəsiniz, işə can yandıranları incitməyəsiniz. Allaha və mələkələrə and içirəm ki, kim dediklərimi yerinə yetirməsə, dərhal onu qovacağam". Hamısı dedi: "Belə edərik, buyuruq quluyuq".

Br neçə gün keçdikdən sonra öz iş yerlərinə qayıtdılar, əvvəlki kimi zülm



downloaded from KitabYurdu.org

və əliuzunluq etməyə başladılar. Ənuşirəvan şaha uşaq kimi baxdılar. Hər dikbaş elə xəyal eldi ki, Ənuşirəvanı şahlıq taxtına o oturtmuşdur. İstəsə onu padşahlıqda saxlar, istəməsə yox.

Ənuşirəvan hələlik susur və müdəra ilə dolanırdı. Beş il də bu minval ilə keçdi. Nəhayət belə bir hadisə baş verdi: ən dövlətli, qüdrətli bir sərkərdə[10] var idi. Ənuşirəvan adil tərəfindən Azərbaycana vali təyin olunmuşdu. Bütün ölkədə ondan daha böyük vali yox idi. Heç kəs cah-cəlalda, ordu, dövlət və malda ona çata bilməzdi. O, oturduğu şəhərin kənarında malikanə tikdirib bağ saldırmaq fikrinə düşdü. O yerin yanında bir qarının bir parça torpağı var idi, o qədər idi ki, onun illik gəlirindən padşahın səhmini verər, əkinçi öz payını götürər, qalanı ildə hər gün qarıya dörd çörəyə çatardı: birinə yavanlıq, birinə çıraq üçün yağ alardı, birini səhər, birini axşam yeyərdi. Paltarı ona yazığı gələnlər verərdi. Heç vaxt evdən bayıra çıxmaz, gizlində yoxsulluq və ehtiyac içərisində yaşardı.

Haman sərkərdə bu bir parça torpağı almalı idi ki, öz bağına və imarətinə qatsın. Bir nəfəri qarının yanına göndərib dedi: "Bu bir parça torpağını sat, mənə yaman lazımdır". Qarı dedi: "Satmaram, özümə səndən də çox lazımdır, bütün dünyada ondan artıq torpağım yoxdur, ruzim ondan çıxır, heç kəs ruzisini satmaz".

Dedi: "Mən pulla alaram, ya əvəzinə elə torpaq verərəm ki, gəliri bir neçə dəfə bundan çox olsun,,.

Qarı dedi: "O toıpaq mənim halal malımdır, ata-anamdan miras qalıbdır, suyum yaxında, qonşunlarım yaxşıdır, hörmətimi saxlayırlar. Sənin mənə verdiyin torpaqda isə bunların heç biri yoxdur, bu torpaqdan əlini çək".

Bu sərkərdə qarının sözünə qulaq asmadı, zülm və zorla torpağını alıb bağının içərisinə saldı, divar çəkdirdi. Qarı çarəsiz qalaraq ya pulunu, ya əvəzinə torpaq almağa razı oldu. Onun yanına gedib dedi: "Ya pulunu ver, ya əvəzini".

Vali özünü o yerə qoymadı, heç onun üzünə də baxmadı. Qarı naümid xaricə çıxmağa məcbur oldu, onu bir daha sərkərdənin sarayına buraxmadılar. Bu sərkərdə hər dəfə ata minib gəzməyə və ya ova getdikdə qarı onun yolunun üzərində oturar, ora çatdıqda, qışqırıb torpağın pulunu istəyərdi. O isə cavab verməz, uzaqdan saymazyana keçib gedərdi.

Yaxın adamlarına, nədim və hacıblərinə şikayətlənərdi onlar qarıya söz verər, lakin sərkərdəyə heç nə deməzdilər. Bu hadisədən iki il keçdi. Qarı daha ağır günə düşdü. Heç kəsdə insaf görmədi, təngə gəlib əlini ondan üzdü və dedi: "Nə vaxta qədər mən soyuq dəmiri döyəcəyəm. Allah-taala hər əlin üstə bir yaradıbdır. Nə qədər güclü olsa, yenə də Ənuşirəvan adilin nökəridir. Mənim çarəm budur ki, nə olur-olsun, canımı dişimə tutub, Mədainə[60] getməli, özümü Ənuşirəvanın yanına salmalı, vəziyyətimi ona danışmalıyam, bəlkə onda insaf gördüm".

Bu barədə heç kəsə bir söz demədi, gizlicə qalxıb, çox əziyyət və çətinliklə Azərbaycandan gedib Mədainə çıxdı. Ənuşirəvan sarayının dəbdəbəsini gördükdə öz-özünə dedi: "Məni kimi qoyar ki, buraya girəm, o, Azərbaycanın valisi və bu padşahın nökəridir, məni onun sarayına qoymadılar, bu ki,



downloaded from KitabYurdu.org

dünyanın şahıdır, heç qoyarlarmı ki, saraya gedib, onu görəm?! İndi mənim bir çarəm qalıb ki, sarayın yaxınlığında özümə bir yer tapam, öyrənəm nə vaxt gəzməyə gedəcək. Bəlkə səhrada özümü onun ayağına atıb başıma gələn macəranı ona danışa biləm".

Qəzadan qarının torpağını zəbt etmiş haman sərkərdə saraya gəldi. Ənuşirəvan da şikar niyyətində oldu. Qarı onların hansı gün hansı ovlağa gedəcəklərini öyrəndi, yerindən qalxdı, çox əziyyətdən sonra soruşa-soruşa gedib haman ovlağa çıxdı. Özünü bir kolun dalına verib, gecəni orda yatdı. Sabahısı Ənuşirəvan gəlib ora çatdı, əyan-əşraf dağılıb ova başladılar. Ənuşirəvan öz silahdaşıyanı ilə tək qalıb, ovlaqda at ilə gəzirdi. Qarı şahı belə tək gördükdə kolun dalından çıxıb, şahın qabağını kəsdi və dedi: "Ey şah, dünyanın hökmdarı sənsənsə, mən yazıq qarının imdadına çat, macərasına qulaq as, gör başıma nələr gəlmişdir". Nuşirəvan qarını görüb, onun şikayətini eşitdikdə bildi ki, zərurət olmasa idi, şikargaha gəlməzdi. Atı ona tərəf çapdı, macərasını dinlədi, nələr nəql etdiyini eşitdikdə gözləri yaşardı. Nuşirəvan qarıya dedi: "Heç ürəyini sıxma, indiyə qədər o sənin işin idi, odur ki, ürəyini sıxırdı, indi ki, bizə dedin, oldu bizim işimiz. Mən sənin arzunu yerinə yetirərəm. İndi isə səni göndərirəm şəhərə, bir neçə gün burda qalıb dincəl, uzaq yoldan gəlibsən".

Sonra dala baxdı, öz fərraşlarından birinin qatır üstə gəldiyim gördü. Dedi: "Aşağı düş, bu qarını mindir qatıra. Aparıb bir kəndin kovxasına tapşır, özün geri dön. Ovdan qayıtdıqda, onu o kənddən şəhərə, öz evinə apar, orada saxla, Hər gün iki batman[63] çörək, bir batman ət, hər ay beş dinar bizim xəzinədən ona ver. Mən onu səndən tələb edənə qədər ona belə qulluq et".

Fərraş elə də etdi.

Nuşirəvan şah ovdan qayıtdıqdan sonra hər gün nə tədbir görmək haqqında düşünürdü, bilmirdi bu işin qarı deyən kimi olub-olmadığını necə yoxlasın ki, böyüklərdən heç kəs xəbər tuta bilməsin. Bir gün nahardan sonra hamı yatdığı və istirahət etdiyi, sarayın xəlvət olduğu vaxt xadimə filan otağa gedib, filan qulamı gətirdi. Şah dedi: "Ey qulam, mənim çoxlu layiqli qulamlarımın olduğunu yaxşı bilirsən, onların hamısının içərisindən tək səni seçmişəm. Sənə bir iş tapşıracağam. Gərək xəzinədən xərclik götürüb Azərbaycana gedəsən, filan şəhərdə, filan məhəllədə düşüb iyirmi gün orada qalasan, camaata özünü elə göstərəsən ki, guya qaçmış bir qul axtarmağa gəlibsən. Sonra hər cürə adamla oturub-durarsan, dostluq edərsən, qaynayıb-qarışarsan. Ayıq və məst vaxtlarda sözarası soruşarsan: "Burada sizin küçədə filan adlı qoca bir qadın var idi, indi o haradadır, heç gözümə dəyməyir, o bir parça torpağını neylədi? Bax kim sənə nə desə, yadında yaxşı saxla və mənə düz xəbər gətir, səni yalnız bu iş üçün göndərirəm. Lakin sabah sarayda, böyüklərin qabağında səni çağırtdırıb, hamının eşidə biləcəyi dərəcədə bərkdən deyəcəyəm: "Get xəzinədən xərclik götür, buradan Azərbaycana get. Hansı şəhər və nahiyəyə çatsan soruş bu il taxıl, meyvə və başqa məhsulatın vəziyyəti necədir, göydən bəla nazil olub, yoxsa yox. Eləcə də



downloaded from KitabYurdu.org

otlaqların və ovlaqların vəziyyəti ilə tanış ol. Elə ki, öyrəndin, dərhal qayıdıb mənə xəbər ver. Qoy heç kəs bilməsin ki, mən səni nə üçün göndərmişəm". Qulam dedi: "Fərmana hazıram".

Sabahısı gün Nuşirəvan dediyi kimi etdi. Qulam gedib, iyirmi gün haman şəhərdə qaldı. Kimlə oturdusa, qarını soruşdu, hamı qarının dediyini deyirdi: "Qarı həyalı, nəcabətli bir qadın idi. Biz onun ərini, uşaqlarını da görmüşük. Əri və övladları öldülər, varidatı dağıldı, bir özü, bir də bir parça torpağı qaldı.Torpağı bir əkinçiyə verdi, əkinçi əkir, torpağın məhsulu o qədər olurdu ki, şahın vergisini əkinçinin payına çıxdıqdan sonra gələn ilin məhsuluna qədər hər gün qarıya dörd çörək çatırdı. Birini yavanlığa verirdi, birinə çıraq yağı alırdı, birini səhər yeyirdi, birini axşam".

Vali bağ saldırmaq, malikanə tikdirmək, hasar çəkdirmək eşqinə düşdü. Onun torpağını zorla alıb özününkünə qatdı. Nə pulunu verdi, nə əvəzini. Qarı bir il onun sarayına getdi, hay-küy saldı, qiymətini istədi, sözünə qulaq asan olmadı. İndi bir müddət var ki, heç kəs onu şəhərdə görmür. Bilmirik hara gedib, ölüdür ya diri".

Qulam qayıdıb saraya gəldi, Ənuşirəvan adilin qəbul günü idi. Qulam irəli gəlib təzim etdi. Ənuşirəvan dedi: "Hə de görüm, nə gördün?!".

Dedi: "Şahın dövlətindən bu il hər yerdə taxıl boldur, heç bir bəla nazil olmamışdır, otlaqlar şad, ovlaqlar abaddır".

Dedi:"Allaha şükür, xoş xəbər gətiribsən".

Camaat dağıldıqdan, saray yad adamlardan boşaldıqdan sonra qarı haqqında nə eşitmişdisə, hamısını olduğu kimi nağıl etdi.

Nuşirəvan o gecəni qəzəb və fikirdən yata bilmədi. Sabahısı gün sübhdən baş hacibi yanına çağırıb buyurdu. Əyan, əşraf gəlməyə başladıqda filankəsi içəri buraxmayıb dəhlizdə oturt, sonra deyərəm nə etmək lazımdır".

Bütün böyüklər və möbidlər saraya gəlməyə başladıqda hacib Nuşirəvanın buyurduğu kimi etdi.

Nuşirəvan xaricə çıxıb qəbula başladı. Bir azdan üzünü möbidlərə və böyüklərə çevirib dedi: "Sizdən bir şey soruşacağam, düşünüz, hesablayınız, düzünü deyiniz". Dedilər: "Fərmana tabeyik". Dedi: "Azərbaycanın əmiri olan filankəsin nağd qızıl ilə nə qədər mayası ola bilər?". Dedilər: "İki dəfə min dinar[65]. Onun isə buna ehtiyacı yoxdur". Soruşdu: "Avadanlığı, qab-qacağı?". Dedilər: "Min beş yüz dinar qızıl və gümüş". Soruşdu: "Daş-qaşı?" Dedilər: "Altı yüz min dinar". Soruşdu: "Mülkü, torpağı, tarlası, kənd-kəsəyi?" Dedilər: "Xorasanda, İraq, Fars və Azərbaycanda elə şəhər elə qəsəbə yoxdur ki, onun orada sarayı, gəliri, karvansarası və tarlası olmasın". Soruşdu: "Atı, qatırı?". Dedilər: "Otuz min". Soruşdu: "Qoyunu?". Dedilər: "İki yüz min". Soruşdu: "Dəvəsi?". Dedilər: "Otuz min". Soruşdu: "Qul və kənizləri?". Dedilər: "Min yeddi yüz türk, rum, həbəş qulamı və dörd yüz kənizi vardır".

Dedi: "Bu qədər dövləti olan, gündə iyirmi cür xörək, quzu, halva, yağlı-



downloaded from KitabYurdu.org

şirin təam yeyən belə bir adam, allahından qorxan, yazıq, adamsız bütün dünyada ümidi iki parça qum çörəyə gələn bir qadını incidib onun əlindən bu çörəyi alsa, onun cəzası nə olar?".

Hamı dedi: "Belə bir adama nə cəza verilsə, yenə azdır, ona nə qədər çox pislik edilsə, yenə yeri var".

Nuşirəvan dedi: "İndicə istəyirəm ki, onun dərisini soyasınız, ətini itlərə atasınız, dərisinə saman doldurub, saray qapısından asasınız və yeddi gün car çəkdirəsiniz ki, bundan sonra kim zülm edib bir torba saman, bir dənə cücə, bir dəstə göyərti alsa, ya birisi ondan şikayətə gəlsə, onunla da belə rəftar ediləcəkdir".

Belə də etdilər.

Fərraşa[66] qarını gətirməsini əmr etdi. Qarı gətirildikdə böyüklərə dedi: "Zülm edilən budur, zülm edən də budur ki, cəzasına çatdı, bu da qulamdır kı, Azərbaycana göndərmişdim".

Qulam dedi: "Mən ona görə getmişdim ki, bu qarının şikayətini, o valinin zülmünü yoxlayam, düzünü şaha deyəm".

Nuşirəvan böyüklərə dedi: "Gördünüz ki, mən ona nahaq cəza verməmişəm. Bundan sonra da zalım adamlarla söhbətim ancaq qılıncla olacaqdır. Qoyun-quzunu canavardan qoruyacaq, uzun illəri qısaldacaq, fisq-fəsad qaldıranları yer üzündən təmizləyəcək, dünyanı ədalət, insaf və mürüvvət əsasında abad edəcəyəm, ona görə ki, mən bu iş üçün xəlq olunmuşam. Əgər hər kəsə kefi istədiyini etməyə ixtiyar verilsəydi, böyük allah şahları yaradıb onları hakim təyin etməzdi. İndi çalışın elə etməyin ki, sizin başınıza da bu iş gəlsin".

Orada olanların hamısı Nuşirəvanın zəhmindən elə qorxuya düşdülər ki, az qaldı bağırları çatlasın.

Qarıya dedi: "Sənə zülm edənin cəzasını verdim. İçərisində sənin torpağın olan o malikanə və bağı sənə bağışlayıram. Demişəm sənə xərclik və at versinlər, mənim fərmanımla sağ-salamat öz şəhərinə, vətəninə qayıt və bizi xeyir-dua ilə yad et". Sonra dedi: “Nə üçün sarayın qapıları zalımlara açıq, məzlumlara qapalı olmalıdır? Halbuki qoşun və rəiyyətin hər ikisi bizim rəiyyətimiz və işçilərimizdir, rəiyyət verən, qoşun isə alandır. Qanunsuzluqların, ədalətsizliklərin, doğru olmayan təlimatların biri odur ki, şikayətçi qapıma gələndə onu mənim yanıma buraxmırlar ki, dərdini özümə desin. Qarı bura gələ bilsəydi, ovlağa getməyə ehtiyac hiss etməzdi,,.

Sonra əmr etdi, yeddi yaşlı uşağın əli çatacaq yüksəklikdə zəncir bağlayıb zənglər asdılar ki, şah qapısına şikayətçi gəldikdə hacibə ehtiyac olmasın. Zənciri tərpətdikdə zınqırovlar səslənsin. Nuşirəvan eşidib ərizəsinə qulaq assın. Belə də etdilər. Elə ki valilər Nuşirəvanın yanından qayıdıb öz saraylarına gəldilər, dərhal öz vəkillərini və əlaltılarını çağırıb dedilər: "Baxın görün bu sən iki ildə kimdən nahaq yerə bir şey almış, ya qanına bulamış, ayıq və ya məst halda incitmişsiniz. Nə qədər saraya gedib şikayət etməyiblər, bizli-sizli bülün narazıların könlünü ələ alıb onları yola gətirməliyik,,.



downloaded from KitabYurdu.org

Hamısı dərhal durub, incidilmişləri hömrətlə saraya dəvət etdilər, ya özləri evlərinə getdilər, bəzilərindən üzr istədilər, bəzilərini mal verməklə ələ gətirdilər. Bütün bunlara baxmayaraq əlavə onların hərəsindən yazılı bir iltizamnamə də aldılar ki, filankəsdən razıdır və heç bir şikayəti yoxdur.

**Hekayət.** Yeddi il yarımdan sonra bir gün saray xəlvət olarkən, camaatın hamısının getdiyi, növbətçilərin yatdığı bir vaxtda zınqırovlar səslənməyə başladı. Nuşirəvan eşitdi. Dərhal iki xidmətçi göndərib dedi: "Görün şikayətə gələn kimdir".

Xidmətçilər saray qapısına gəldikdə qoca, arıq, qotur bir eşşək gördülər. Bu eşşək özünü zəncirə sürtür, zınqırovlar səslənirdi.

Hər iki xidmətçi qayıdıb deyir ki, heç kəs şikayətə gəlməyib, bir eşşəkdir, özünü zəncirlərə sürtür.

Nuşirəvan dedi: "Siz düşündüyünüz kimi deyildir, diqqətlə baxsanız görərsiniz ki, bu eşşək də şikayətə gəlmişdir. İstəyirəm ki, hər ikiniz bu eşşəyi götürüb bazara aparasınız, soruşub vəziyyəti öyrənəsiniz".

Xidmətçilər eşşəyi şəhərin ortasına gətirdilər və adamlardan soruşduIar: "Sizdən elə bir adam varmı ki, bu eşşəyi tanıyıb onun əhvalatını danışa?!,, Dedilər: "Rəhmətlik uşağı bu şəhərdə elə adam var ki bu eşşəyi tanımaya!" Dedilər: "Elə tanıyırıq ki, bu filan paltaryuyanın eşşəyidir, iyirmi ilə yaxındır ki, biz bunu onunla görürük. O camaatın paltarını bu eşşəyin dalına yüklər, camaşırxanaya aparar, axşam geri qaytarardı. Nə qədər ki, cavan idi iş görə bilirdi, yemini verirdi. Elə ki qocalıb kardan düşdü, o da evdən qovub özbaşına buraxdı. İndi il yarımdır ki, belə sərgərdan gəzir. Kimin rəhmi gəlirdisə yemini verirdi. İki gecə gündüzdür ki, yem tapmır.

Xidmətçilər gəlib eşitdiklərini şaha bildirdilər. Şah dedi: "Sizə demədimmi bu eşşək də şikayətə gəlmişdir?! Bu gecə də bu eşşəyə yaxşı baxın, sabah palıtaryuyan kişini haman məhəllənin dörd ağsaqqalı ilə yanıma gətirin, nə lazımsa onu da edərəm. Sabahısı elə də etdilər. Nuşirəvan camaşırçıya dedi: "Nə qədər ki, bu eşşək sağdır onun yemini verəcəksən!" Əmr etdi yemini verməsə cəzasını versinlər. Bilməlisən ki, şahların yazıqlara əl tutmaları, valilərinə göz qoymaları bu dünyada yaxşı ad, o dünyada savab qazanmaları üçündür.

Hər iki-üç ildən bir amilləri və iqtidarları dəyişmək lazımdır ki, yerlərini bərkidib mövqelərini möhkəmləndirməsinlər, qürrələnib özlərindən müştəbeh olmasınlar, xalqla yaxşı dolansınlar ki, ölkə viran qalmasın.



downloaded from KitabYurdu.org

### Altıncı fəsil

## QAZİLƏR, XƏTİBLƏR, MÖHTƏSİBLƏR VƏ ONLARIN İŞLƏRİNİ YAXŞILAŞDIRMAQ HAQQINDA

Ölkənin qazilərini birbəbir tanımaq, hansı daha zahid, daha çox nəfsini saxlayandırsa, onları işdə saxlamaq, belə olmayanları isə işdən çıxarmaq, yerlərinə daha layiqli olan başqalarını oturtmaq lazımdır. Xəyanət etməyə ehtiyacı olmasın deyə, onların hərəsinə kifayət qədər yüksək maaş təyin etmək lazımdır, çünki bu mühüm və incə məsələdir. Ona görə ki, müsəlmanların canı, malı onlardan asılıdır. Nadanlıq, tamah, qərəz üzündən biri fitva verib hökm sadir edərsə, başqa alimlərə bəd hökmü imzalamamalı, o barədə şaha məlumat verməlidirlər ki, o adam işdən götürülüb cəzalandırılsın.

Valilər qazilərə kömək etməli, onların hörmətini saxlamalıdırlar. Biri hökmə tabe olmayıb dikbaşlıq etsə və məhkəməyə gəlmək istəməsə, böyük adam olsa belə, onu zor və məcburiyyətlə aparmaq lazımdır. Peyğəmbər ə.s. və əshabələri dövründə qaziliyi başqalarına tapşırmayıb özləri aparardılar ki, işləri düzgün getsin, heç kəs ayağını hökmdən kənara qoya bilməsin. Adəm ə.s. əyyamından tutmuş indiyə qədər bütün ölkələrdə, bütün millətlərdə ədliyyə olmuş, məhkəmə aparılmış, ədalətli hökmlər çıxarılmışdır ki. dünya indiyə qədər qalmışdır. Həmin mənada bir hekayət. Belə deyirlər ki, Əcəm hökmdarlarının adəti bu imiş ki, Mehrqan[68] və Novruz günlərində şah xalq üçün qəbul düzəldər və o gün heç kəsi həbs etdirməzmiş.

Bir neçə gün əvvəl münadi[69] car çəkib deyərdi: "Filan günə hazırlaşın!. Hər kəs o günə öz hazırlığını görərdi. O gün çatdıqda şah münadisi bazarın kənarında durub qışqırardı: "Bu gün ehtiyacını ödəməkdə kim-kimə mane olsa, şah onun qanını axıtdıracaqdır". Sonra şah xalqın ərizələrini oxumağa başlardı, onları bir-bir qabağına qoyub nəzərdən keçirərdi. Orada şahın özündən şikayət vardısa, şah durub taxtdan düşər, onların dilində qazilər qazisi demək olan möbidinin qarşısında iki dizi üstə oturar və deyərmiş: "Hər şeydən əvvəl bu kişi ilə mənim məsələmi ayırd elə, heç şeydən ehtiyat edib çəkinmə". Bu vaxt car çəkilərmiş: "Kimin şahdan şikayəti varsa, hamısı bir tərəfə yığılsınlar ki, ilk növbədə onların ərizəsinə baxılacaqdır". Sonra şah möbidə deyərmiş: "Allah-taala yanında şah günahından daha böyük günah ola bilməz. Çünki allah-taalanın neməti sayəsində, onların vəzifəsi rəiyyət saxlamaq, onların haqqını qorumaq, onlara qarşı uzadılan əli gödəltməkdən ibarətdir. Şah zalım olsa, qoşunu da bütünlüklə zalım olar və allahı unudar, nemətə qarşı nankorluq edərlər; gec-tez onlar allahın qəzəbinə və cəzasına düçar olub zərər çəkər, çox keçməz ki, dünya viran olar. Onların şum günahları üzündən hamı, öldürülən şahlıq o eldən köçürdülər. Ey allahını tanıyan möbid, bax, mənə üzgördülük etmə. Allah məndən nə tələb etsə, mən də səndən tələb edəcək və hamısını sənin boynuna yıxacağam".



downloaded from KitabYurdu.org

Sonra möbid işlərə baxmağa başlar, kimin şaha qarşı tələbi haqlı idisə, onun xeyrinə hökm çıxarar. Kim şaha qarşı əsassız iş qaldırıb sübut gətirə bilməzdisə, ona ən ağır cəza kəsərdi, bilsinlər ki, ölkəyə və ölkə hökmdarına (yersiz) eyib tutmağa cəsarət etmiş adam mükafatı bu olacaqdır.

Şahın mühakiməsi qurtardıqdan sonra o yenə taxta oturar, tacı başına qoyar, üzünü böyüklərə və yaxın adamlarına çevirib deyərmiş: "Mən ona görə özümdən başladım ki, siz başqalarına zülm etmək tamahına düşməyəsiniz, indi kimin sizdən narazılığı varsa könlünü ələ alınız".

O gün ona yaxın adamlar-uzaq, güclü adamlar isə gücsüz olardı. Ərdəşir[70] dövründən Yəzdeord[71] vaxtına qədər belə idi. Yəzdeord əcdadlarının adətlərini dəyişdirdi, dünyaya zülm etmək ənənələrini gətirdi, pisliyi dəb saldı, camaat incidildi, nifrin və qarğış sədaları yüksəlməyə başladı. Birdən onun qərargahına bir at gəldi, orada olanların hamısı atın qəşəngliyinə heyran olaraq onu tutmağa çalışdılar, ama bir şey çıxmadı. At gəlib Yəzdeordun qabağında sakit durdu. Yəzdeord dedi: "Siz uzağa durun, bunu allah-taala mənə hədiyyə göndərmişdir". Yerindən durub yavaş-yavaş ata yaxınlaşdı, yalından tutdu, üzünü sığalladı, dalını tumarladı. At sakitcə durub heç yerindən də tərpənmirdi. Yəzdeord yəhər və cilov istədi, başına cilov vurdu, belinə yəhər qoydu, örkəni çəkdi, dalına keçib quyruq altını bərkitmək istəyirdi ki, at birdən iki dal ayağı ilə şıllaq atıb düz onun ürəyinin başından vurdu, oradaca da öldürdü. Sonra baş götürüb qaçdı, axtardılar tapa bilmədilər, heç kəs bilmədi ki, haradan gəlib haraya getdi.

Adamlar bu fikrə gəldilər ki, o, allah tərəfindən göndərilmiş məlaikə imiş, bizi bu zülmdən qurtarmaq üçün gəlibmiş.

**Haman mənada bir hekayət.** Deyirlər ki, Umarə bin Həmzə xəlifə Vasiqin[73] məclisində oturmuş idi. Şikayətlərə baxılan gün idi. Şikayətçilərdən biri yerindən qalxıb dedi ki, mənim şikayətim Ümarədəndir, o mənim torpağımı zorla qəsb etmişdir. Əmirəlmömin Ümarəyə dedi: "Dur müddənin qarşısında otur, sübut göstər". Ümarə dedi: "Mən onun əleyhdarı deyiləm. Əgər onun torpağıməndədirsə, mən onu qaytararam. Xəlifənin hörmət edib məni oturtduğu yerdən isə duran deyiləm, mən bir parça torpaq xatirinə öz mənsəb və dərəcəmə sədəmə vura bilmərəm".

Onun alicənablığı bütün böyüklərin xoşuna gəldi. Bilmək lazımdır ki, məhkəməni şəxsən şah özü aparmalı, tərəflərə özü qulaq asmalıdır. Şah türk, tacik,[74] ərəb dilini bilməyib, şəriət ehkamlarını oxumamış olduqda işləri aparmaq üçün ona bir köməkçi lazım olar; qazilər elə şahın haman köməkçiləridir. Şah qazilərə böyük ixtiyar verməlidir, onların hörmətini saxlamalı, onlara tam nüfuz qazandırmalıdır, çünki qazilər xəlifənin nümayəndələridir. Onun göstərişi ilə işləyirlər: xəlifələr isə şahın köməkçiləridir, onun işini yerinə yetirirlər.

Eləcə də məscidlərdə cümə namazı qılan xətibləri də diqqətlə seçmək lazımdır ki, pakdamən və Quran bilən olsunlar. Namaz məsələsi incə məsələdir. Müsəlmanların namazı isə imamın[75] namazına bağlıdır. İmam namazı düz qılmasa,



downloaded from KitabYurdu.org

onun dalında duranların da namazı düz olmaz.

Eləcə də hər şəhərə bir möhtəsib təyin etmək lazımdır ki, tərəzilər düz, qiymətlər qaydasında olsun, alış-verişə nəzarət etsin. Başqa yerdən gətirilib bazarda satılan şeylərdə möhtəkirlik, saxtakarlıq olmasın, daşların düzlüyünə, halal-harama fikir versin. Şah və onun valiləri möhtəsibə kömək etməlidirlər, ölkə dolandırmağın, ağıllı olmağın şərtlərindən biri budur.

Belə etməsələr, yoxsullar acınacaqlı hala düşər, bazar adamları mallarını kefi istədiyi qiymətə satar, artıqtamahlıq, möhtəkirlik artar, üst-fücur yayılar, şəriətin rövnəqi gedər. Bu işi yaxın adamlardan birinə ya inanılmış xadimə, ya hamının qorxduğu və onun heç kəsdən çəkinmədiyi bir qoca türkə[76] tapşırmaq lazımdır ki, işlər ədalətlə getsin və islam qayda-qanunu möhkəm qalsın, necə ki, hekayətdə deyilmişdir.

**Bu mənada hekayət.** Deyirlər ki, Sultan Mahmud hər gecə yaxın adamları, nadimlərilə bir yerdə şərab içib, badə qaldırarmış, onun sərkərdəsi olan Əli Nuştəkin və Məhəmməd Ərəbi də bu məclislərdən birində iştirak edirmişlər. Bütün gecəni şərab içib ayıq qalmışdılar. Səhər yeməyi vaxtına yaxın Əli Nuştəkinin başı gicəlləndi, sərxoşluq, yuxusuzluq və şərab içməkdən ifrat öz işini görmüşdü. Evə getmək üçün icazə istədi. Mahmud dedi: "Yaxşı deyil, günün-gündüz vaxtı bu halda gedəsən. Buradaca dincəl, qürub namazından sonra ayıq vaxtı gedərsən. Möhtəsib səni bu halda görsə tutub cəzalandırar, sənin abrın gedər, mənim qəlbim inciyər, heç bir şey də deyə bilmərəm". Əli Nuştəkin əlli min adamın sərkərdəsi idi, şücaətli, dövrünün qorxmaz sərkərdələrindən hesab edilərdi, onu min adama bərabər tutardılar, heç xəyalına da gəlməzdi möhtəsib belə bir iş görsün. Təkəbbürlənib sərkərdəliyinə saldı və dedi: "Mütləq mən gedəcəyəm". Mahmud dedi: "Özün bilərsən". Sonra dedi: "Qoyun getsin".

Əli Nuştəkin ata mindi, böyük bir dəstə silahlı adamları, nökər və qulamları ilə öz evinə yollandı. Yüz atlı və piyada ilə gəzən möhtəsib Əli Nuştəkini belə məst gördükdə əmr etdi onu atdan saldılar, özü də atdan düşdü, öz əli ilə ağına baxmadan harası gəldi vurmağa başladı, o qədər döydü ki, dişi ilə torpağı gəmirirdi. Onun yaxın adamları, qoşunu baxır, heç kəs qorxusundan cınqırını belə çıxara bilmirdi. O möhtəsib türk xadimlərindən biri idi, xidmətdə çox böyük haqqı var idi. O gedəndən sonra Əli Nuştəkini evinə apardılar. Bütün yolu deyirdi: "Şahın əmrinə baxmayanın halı mənim kimi olar". Sabahısı gün Əli Nuştəkin köynəyini çıxarıb kürəyini Mahmuda göstərdi, zolaq-zolaq olmuşdu. Mahmud gülüb dedi: "Tövbə et ki, bir də evdən məst halda çıxmayacaqsan".

Ölkədə qayda-qanun möhkəm, hökmlər düzgün yerinə yetirilsə, deyildiyi kimi işlər ədalətlə gedər.

**Hekayət.** Eşitmişəm Qəzneyndə[79] çörəkçilər dükanlarını bağlamış, çörək tapılmaz olmuşdu. Qəriblər və yoxsullar çətinliyə düşüb saraya şikayətə getdilər. Sultan İbrahimin[80] yanında ağlayıb sızladılar. Əmr etdi hamısını gətirdilər. Soruşdu: "Nə üçün çörəyi qıt edibsiniz?" Dedilər: "Bu şəhərə nə qədər buğda və un



downloaded from KitabYurdu.org

gəlirsə, hamısını sənin çörəkçilərin alıb anbara yığır və deyirlər ki, əmr belədir. Bizi bir batman un almağa da qoymurlar".

Sultan əmr etdi: sarayın çörəkçibaşını gətirib filin ayaqları altına atdılar. Öldükdən sonra onu filin dişinə bağlayıb bütün şəhəri gəzdirdilər və car çəkdilər ki, çörəkçilərdən kim çörək dükanının qapısını açmasa, onunla da belə rəftar ediləcəkdir. Anbarını açıb unu xərclədi. Səhər-axşam hər dükanda əlli batman çörək qalardı, alan olmazdı.

**Yeddinci fəsil**

## AMİL, QAZİ, ŞƏHNƏ, RƏİSLƏRİN İŞLƏRİNƏ NƏZARƏT VƏ CƏZA QAYDASI HAQQINDA

Hər şəhərə baxmalı, orada mömin, allahından qorxan, qərəzsiz kimdirsə, onu tapıb deməlidirlər: "Bu şəhəri, qəsəbəni əmanət olaraq sənin boynuna qoyuruq, allah bizdən nə soruşacaqsa, biz də səndən onu soruşacayıq. Burada amil, qazi, möhtəsib, rəiyyət, böyük, kiçik kim varsa, hamısının vəziyyətini kiçikdən-böyüyə öyrənib həqiqəti bizə bildirməlisən, gizli, açıq nə varsa hamısını göstərməlisən ki, biz lazımi ölçülər üçün əmr verək". Belə bir keyfiyyətə malik adam imtina edib razılıq verməsə, onu məcbur etmək, zorla boynuna qoymaq lazımdır.

**Hekayət.** Deyirlər Əmir Abdullah ibn Tahir adil bir əmir imiş. Məqbərəsi Nişapurda ziyarətgahdır, kim hansı hacət üçün onun qəbrinə gəlsə, o da müstəcəb olar. O, vəzifəni həmişə əməli saleh və mömin adamlara tapşırar, qərəzli işlərlə məşğul olmazdı. Elə edərdi ki, yalnız qanuni vergilər toplansın və xalq əziyyət çəkməsin.

**Hekayət.** Bir gün Əbu Əli Əldəqqaq[81] Xorasanın valisi, sərkərdə, Əmir əbu Əli İlyasın yanına gedib, iki dizi üstə onun qarşısında oturdu. Əbu Əli İlyas dedi: "Mənə öyüd ver". Dedi: "Ya əmir səndən bir məsəl soruşacağam, düzünü deyərsənmi?" Dedi: "Mənə de görüm, sən qızılı daha çox sevirsən ya düşməni?" Dedi: "Qızılı". Dedi: "Bəs necə oldu ki, sən daha çox sevdiyin şeyi bu dünyada qoyub, sevmədiyin düşməni isə özünlə o biri dünyaya aparırsan?"

Əbu Əli İlyasın gözü yaşla doldu və dedi: "Gözəl öyüd verdin, mən bu sözdə hər iki dünyanın xeyri və hikmətini dərk etdim, məni qəflət yuxusundan ayıltdın".

**Bu mənada hekayət.** Belə deyirlər ki, Sultan Mahmud Qazinin[82] üzü gözəl deyilmiş, rəngi sarı imiş. Atası Səbüktəkin öldükdən, özü taxta oturduqdan və Hindistanı tabe etdikdən sonra bir gün şəxsi hücrəsində, canamaz üstə oturub namaz qılırmış, onun qabağına güzgü, ayna qoymuş iki şəxsi qulu isə qarşısında ayaq üstə durmuşdu. Bu vaxt vəziri Şəms-əl-Kufət Əhməd Həsən hücrənin qapısından girib təzim etdi. Mahmud başı ilə oturmasına işarə etdi. Mahmud dua



downloaded from KitabYurdu.org

oxuyub qutardıqdan sonra qəba geyindi, papağı başına qoydu, üzünü güzgüdə gördükdə təbəssüm edib Əhməd Həsənə dedi: "Bilirsənmi, bu saat mənim ürəyimdən nə keçir?" Dedi: "Şah yaxşı bilir". Dedi: "Qorxuram xalq məni sevməsin, çünki mənim üzüm gözəl deyil, xalq isə adətən, gözəlüzlü şahları dah çox sevir". Əhməd Həsən dedi: "Hökmdarım, elə bir iş gör ki, xalq səni arvad-uşağından, öz canından da artıq sevsin, sənin əmrinlə özlərini oda, suya vursun". Dedi: "Nə edim?" Dedi: "Qızılı özünə düşmən bil, xalq da səni özünə dost bilsin".

Söz Mahmuda xoş gəldi, dedi: "Bu sözün altında min məna və fayda gizlənmişdir".

Sonra Mahmud səxavət əlini açıb ehsan və xeyrat verməyi başladı. Xalq da onu sevib dua-səna etdi, işləri yaxşı getdi, böyük qələbələr əldə etdi, Sumnata gedib aldı, Səmərqəndi, İraqı tutdu. Bir gün Əhməd Həsənə dedi: "Mən qızıldan əl çəkən kimi hər iki dünya mənim əlimə keçdi".

Ondan əvvəl sultan adı yox idi. İslam zamanında özünü sultan adlandıran ilk şəxs Mahmud olmuşdur, ondan sonra dəb düşmüşdür. Mahmud adil, elmi sevən, alicənab, sayıq, mömin və ğazi (din yolunda vuruşan) idi.

Zəmanə o zaman yaxşı olar ki, şah ədalətli olsun!

**Rəvayət.** Rəvayət edirlər ki, peyğəmbər demişdir: "Sultanın dünyada izzəti və qüvvəti ədalətlə olur. Xalqın xeyri, əyan-əşrəfin faydası, ordu və rəiyyətin məsləhəti ondandır. Necə ki, allah-taala özü buyurubdur: "Biz kitabı haqq və mizanla nazil etdik". Ən layiqli adam odur ki, onun qəlbi ədalət yurdu, evi möminlər, alimlər, iş bilənlər, münsiflər və düz adamlar məskəni olsun".

**Hekayət.** Füzeyl ibn İyaz[83] deyərmiş: "Mənim duam müstəcəb olsaydı, yalnız ədalətli şaha dua edərdim, çünki onun salamatlığı dünyanın abadlığı deməkdir".

**Rəvayət.** Peyğəmbər ə.s. adından (allah öz mərhəmətini onun üstündən əskik etməsin) belə rəvayət edirlər ki, o deyərmiş: "Bu dünyada ədalətli olanlar, o izzətli və cəlallı allahın mərhəmətindən o dünyada mirvari mənbərlər üstündə oturacaqlar".

Padşahlar ədalət və xalqın mənafeyi naminə həmişə pəhrizkarları və allahdan qorxanları vali təyin etmişlər ki, düz işləsinlər, necə ki, Bağdadda Əmirəlmöminin Əlmötəsim[84] etmişdi.

**Bu mənada hekayət.** Bəni Əbbasi[85] xəlifələrindən səyasət, heybət, hərbi sursat, qoşun çoxluğunda Mötəsimə çatanı olmamışdır, onda olan türk qulları qədər heç kəsin qulu olmamışdır. Deyirlər yetmiş minə qədər türk qulu olmuş, onlardan çoxunu irəli çəkib, əmirlik dərəcəsinə qədər çatdırmışdır. O, həmişə deyərmiş: "Türk kimi nökər ola bilməz. Bir dəfə bir əmir öz vəkilini çağırıb dedi: "Bağdaddan elə bir adam tanıyırsanmı beş yüz dinar mənə borc verə? Vacib bir iş var, məhsul yığıldıqdan sonra qaytararam". Vəkil bir qədər fikirləşdi, bazarda xırda-xuruş alveri edən dostu yadına düşdü, onun altı yüz xəlifə dinarı var idi, uzun müddət ərzində yalnız bunu toplaya bilmişdi. Əmirə dedi: "Mənim bazarda filan



downloaded from KitabYurdu.org

dükanı olan bir tanışımın filan qədəri var, bir adam göndərib, onu çağırtdırsan, yaxşı bir yerdə oturdub hörmət göstərsən, ortalığa qazane-ziyan söhbəti salsan, ola bilər rədd etməsin". Əmir elə də etdi. Adam göndərdi ki, zəhmət çəkib gələsən, səninlə vacib işim var. Kişi dərhal qalxıb Əmirin yanına gəldi, onunla tanışlığı yox idi. İçəri girib salam verdi. Əmir salamını aldı, üzünü öz adamlarına çevirib dedi: "Bu filankəsdir?" Dedilər: "Bəli". Əmir durub onu öz yerində oturtdu, sonra dedi:

Mən sənin alicənab, xoşəxlaq, etibarlı, mömin adam olduğun haqda çox eşitmişəm və görmədən sənə məftun olmuşam.

Deyirlər Bağdad bazarında səndən daha alicənab, borc verməkdə daha əliaçıq heç kəs yoxdur. İndi gərək bizdən çəkinməyəsən, iş buyurab, iş görəsən". Əmir nə deyirdisə o təsdiq edir, vəkil isə hey təkrar edirdi: "Belədir ki, var".

Bir müddət keçdi, süfrə açdılar. Əmir onu öz yanında oturtdu, hörmət göstərdi, qabağına öz əli ilə xörək qoydu. Süfrə yığıldı, əllər yuyuldu, qonaqlar dağılıb getdi. Əmir üzünü o kişiyə çevirib dedi: "Bilirsənmi sənə nə üçün zəhmət vermişəm?" Dedi: "Əmir yaxşı bilər".

Dedi: "Bilirsənmi ki, mənim şəhərdə dostlarım çoxdur, onlara nə işarə etsəm, dərhal yerinə yetirərlər, beş min, on min dinar istəsəm, verərlər, qətiyyən əsirgəməzlər. Ona görə ki, mən onlardan çox müamilə[86] etmişəm. Heç kəs mənim dostluğumdan ziyan çəkməmişdir. İndi isə istəyirəm səninlə mənim aramda dostluq və qardaşlıq olsun, bir-birimizdən çəkinməyək. Doğrudur, mənə borc vermək arzusunda olanlar çoxdur lakin mən istəyirəm ki, indi sən mənə dörd, ya beş aylığa min dinar borc verəsən, məhsul vaxtı geri qaytarar, üstünə bir dəst paltar da qoyaram. Onu da bilirəm ki, sənin bu qədər, iki bu qədər varındır və məndən əsirgəməyəcəksən".

Kişi üzüyola və utancaqlıqla dedi: "Əmirin buyuruğuna söz ola bilməz, lakin mən o dükandarlardan deyiləm ki, min və ya iki min dinarım olsun. Böyüklərə düzdən başqa heç nə demək olmaz. Mənim vur-tut altı yüz dinar sərmayəm var, onunla bazarda çaq-çuq edir, xırda-xuraş şeylər alıb-satıram. Bunu isə çox çətinliklə, uzun müddətdə toplaya bilmişəm". Əmir dedi: "Mənim xəzinəmdə nağd qızıl çoxdur, lakin bu iş üçün o yaramır, səninlə bu müamiləm isə dostluq xatirinədir. Bu qədər çənə vurmağına dəyməz. O altı yüz dinarı ver, yeddi yüz dinarın qəbzini al, ədalət vəsiqəsini də ona əlavə edəcəyəm. Məhsul yığıldıqdan sonra yaxşı bir xələtlə borcumu sənə qaytaracağam. Sonra vəkil dedi: Sən əmiri hələ yaxşı tanımırsan, bütün dövlət idarəsində ondan düz-hesab adam yoxdur".

Kişi dedi: "Razıyam, nə qədər varımdır sizə müzaiqə etmərəm". Qızılı kişidən aldılar.

Vəd edilmiş vaxtdan on gün sonra kişi əmirin görüşünə gəldi, haqqında heç nə demədi, bir saat oturduqdan sonra geri qayıtdı. İki ay keçdi, bu vaxta qədər on dəfə əmiri gördü, lakin əmir heç özünü o yerə qoymadı, guya heç ona borcu yox imiş, ona bir şey verməməli imiş. Kişi əmirin belə etdiyini gördükdə ərizə yazıb



downloaded from KitabYurdu.org

əmirə verdi ki. mənim o qırıq qızıllara ehtiyacım vardır, vəddən də iki ay keçmişdir, mümkünsə, vəkilə göstəriş verin, qızılları bu nökərinizə çatdırsın. Əmir dedi: "Elə bilirsən sənin işini yaddan çıxarmışam, ürəyini sıxma, bir neçə gün səbir et, sənin qızılının fikrindəyəm. Başı möhürlü öz vəkillərimlə sənə göndərəcəyəm".

Kişi iki ay da gözlədi, qızıldan bir xəbər-ətər çıxmadı. Əmirin sarayına gəldi, ərizə yazdı, faydası olmadı. Vədədən səkkiz ay keçdi. Kişi çarəsiz qalıb şəhər adamlarını vasitəçi salmağa başladı. Elə böyük və adlı-sanlı adam qalmadı ki, əmirlə söhbət etməmiş olsun. təsiri olmadı. Qazi qapısından əllidən çox adam gətirdi, nə şər, nə xahişlə ondan bir dirhəm də ala bilmədilər. Vəddən il yarım keçdi. Kişinin ümidi üzülməyə başladı, sələmindən keçib, mayasından da yüz dinar azına razı oldu. Fayda vermədi.

Böyüklərdən ümidini kəsdi, o yan-buyana qaçmaqdan təngə gəldi, allaha pənah apardı. Füzulmənd məscidinə gedib bir neçə rükət namaz qıldı, ah-nalə edib allaha yalvarmağa başladı və dedi: "İlahi, sən özün mənim dadıma çat, haqqımı özümə qaytar!"

Orada bir dərviş oturmuşdu, onun belə ah-zar edib inildədiyini eşitdikdə ürəyi yandı, yalvarışını qurtardıqda dedi: "Ey şeyx[87] sənə nə olmuşdur ki, belə ah-nalə edirsən? Mənə de!" Dedi:

Mənim vəziyyətim elədir ki, adama deməyin faydası yoxdur. ölkə allah-taala özü imdadıma çata". Dedi: "Ey dərvis, bircə xəlifə qalıbdır ki, deməmişəm, ondan başqa hamıya, böyüklərə, seyidlərə, qazilərə müraciət etmişəm, heç bir fayda verməyibdir.

Sənə deməklə nə fayda verəcək". Dərviş dedi: "Faydası olmasa da ziyanı da olmaz. Eşitməmisən ki, ağıllı adamlar deyiblər: "Dərdi olan adam gərək dərdini hamıya deyə, mümkündür onun dərmanını ən kiçik adam bilə... "Sən də öz vəziyyətini danış, heç olmazsa, ürəyini boşaldarsan". Kişi dedi: "Doğru deyirsən, düzü budur ki, danışım". Sonra başına gələn əhvalatı dərvişə nağıl etdi. Dərviş eşitcək dedi: "Ey alicənab adam, budur sənin dərdinə dərman tapıldı. Əgər tapılmasa, hər nə mənə deyirsən de. Özünü ələ al, mən dediyimi etsək, elə bu gün qızıllarına çatarsan". Dedi: "Filan məhəlləyə get, orada minarəli bir məscid, məscidin yanında bir qapı, qapının dalında bir dükan var. O dükanda yamaqlı paltar geymiş bir qoca kişi oturub dərzilik edir, iki uşaq da onun yanında nə isə tikir. O qocanın yanına gedib salam ver, macəranı ona danış, məqsədinə çatdıqda məni dua ilə xatırla. Mən dediyimi mütləq yerinə yetir, tənbəllik etmə".

Kişi məsciddən çıxdıqda öz-özünə fikirləşdi: "Qəribədir, əmirlərdən, böyüklərdən vasitəçi saldım, əleyhdarımla söhbət apardılar, xahiş etdilər, heç bir fayda vermədi, indi məni aciz, qoca bir dərzinin yanına göndərir və deyir ki, məqsədinə çatacaqsan. Bu mənə çox gülünc görünür, lakin, nə etməli, necə varsa, gərək gedəm, hər halda indikindən pis olmayacaq..."

Məscidə qədər getdi, haman dükana girdi, qocaya salam verdi və onun qarşısında oturdu. Bir az oturdu. Qoca əlində nə isə tikirdi, əlindən yerə qoyub o



downloaded from KitabYurdu.org

kişidən soruşdu: "Nə iş üçün gəlibsən?"

Kişi əvvəldən axıra qədər öz başına gələni danışdı. Dərzi onun macərasını eşitdikdən sonra dedi: "Allah bəndələrinin işini bizim əlimizlə düzəldir. Biz də sənin əleyhdarınla danışarıq, ümid edirəm ki, allahın köməyi ilə işin düzələr, məqsədinə çatarsan. Bir dalını divara söykəyib rahat otur. Sonra şagirdinə dedi: "İynəni yerə qoy, get filan əmirin sarayına. Elə ki, səni içəri çağırdı, salam verib deyərsən: "Ustam sənə salam göndərir və deyir ki, filankəs səndən şikayətə gəlib, əlində səndən yeddi yü dinara borc qəbzi vardır, vəd edildiyi vaxtdan da il yarım keçmişdir. İstəyirəm ki, bu kişinin qızılını tamam-kamal verəsən onu razı salasan, heç bir əyər-əskiyə yol verməyəsən. Sonra tez cavabını mənə gətir".

Uşaq cəld yerindən qalxıb, əmirin sarayına yollandı. Mən təəccübə batıb qalmışdım. Heç bir ağa öz quluna belə söz deməzdi ki, o əmirə göndərmişdi.

Bir azdan sonra uşaq qayıdıb ustasına dedi: "Buyurduğunuz kimi etdim, sifarişinizi ona çatdırdım. Əmir dərhal qalxıb dedi: "Mənim salamımı ağana çatdır. De ki, təşəkkür edirəm, necə buyurubdursa, elə də edərəm. Bu saat qızılları da götürüb, xidmətinə gələrəm, səhvim üçün üzr istəyib, sizin yanınızda qızılları sahibinə qaytararam".

Bir saat keçməmişdi ki, əmir gəldi, mehtəri və iki nökəri ilə atdan düşüb salam verdi, qocanın əlindən öpdü, sonra qarşısında diz çökdü, qızıl kisəsini nökərdən alıb mənə verdi və dedi: "Bu da sənin qızılın, elə güman etmə ki, mən sənin pulunu mənimsəmək istəmişəm. Səhv mənim tərəfimdən deyil, vəkillər tərəfindən buraxılmışdır".

Çoxlu üzr istədi, sonra nökərə dedi: "Get bazara, məhəkçini tərəzisi ilə bura gətir". Nökər gedib gətirdi. Məhəkçi qızılı məhək daşına vurdu, ağırlığını yoxladı, beş yüz xəlifə dinarı.

Əmir dedi: "Sabah bargahdan qayıdarkən, onu çağırıb iki yüz dinar verər, keçmiş üçün üzr istəyirəm, könlünü ələ alaram. Elə edərəm ki, günorta namazına qədər təşəkkür etmək üçün sizin yanınıza gələr". Qoca dedi: "Hələlik bu beş yüz dinarı ver ona. Sözündən qaçma, qalanını da sabah ona çatdır".

Əmir dedi: "Belə də edərəm".

Qızılı mənə verdi, dərzinin əlini bir də öpdü və getdi. Mən heyrət və şadlığımdan nə edəcəyimi bilmirdim, əlimi uzadıb tərəzini götürdüm, yüz dinar çəkib qocanın qarşısına qoydum və dedim: "Mən mayamdan da yüz dinar aza razı olmuşdum, indi isə sənin kəramətindən hamısını verir, öz xoşumla yüz dinarı sənə bağışlayıram".

Qoca üz-gözünü turşutdu, qaş-qabağını salladı və dedi: "Bir allah bəndəsi mənim sözümlə rahatlıq tapıb, əziyyətdən xilas olursa mən də rahatlıq tapıram. Bu yüz dinardan bir arpa[88] götürsəm, mən sənə o türkdən daha çox zülm etmiş olaram. Dur tapdığın bu qızıl ilə salamat get sabah o iki yüz dinarı verməsə, mənə xəbər elə və bundan sonra borc verəcəyin adamı yaxşı tanı”.

Nə qədər təkid etdimsə götürmədi. Qalxıb sevincək evimə getdim, o gecə



downloaded from KitabYurdu.org

rahat yatdım. Sabahısı gün evdə oturmuşdum, səhər yeməyi vaxtı bir adam gəlib mənə dedi ki, əmir deyir bir saatlığa zəhmat çəkib yanıma gəlsin. Qalxıb getdim.

Əmir məni görcək durub hörmət göstərdi, məni yuxarı başda oturtdu, öz vəkilini o ki var söydü ki, günah ondadır. Xəzinədara qızıl kisəsi və tərəzi gətirməyi əmr etdi. Düz iki yüz dinar çəkib mənə verdi. Aldım təşəkkür etdim. Qalxmaq istəyirdim ki, mənə dedi: "Bir az da otur".

Sonra süfrə açdılar. Çörəyi yedikdən sonra xidmətçinin qulağına nə isə dedi. Gedib tez qayıtdı, bir ipək bahalı paltar çiynimə saldı, bir zərbaft çalma başıma sarıdı. Əmir mənə dedi: "Könüldən məndən razı qaldınmı dedim: "Bəli". Dedi: "Qəbzimi mənə ver və get o kişiyə de ki, haqqım özümə çatdı, mən amirdən razıyam, onu bağışlayıram”. Dedim: "Belə edərəm, özü də mənə tapşırıb ki, sabah onu görəm". Qalxıb onun evindən çıxdım, dərzinin dükanına gəldim, vəziyyəti ona danışdım və dedim: “İndi bu iki yüz dinarı qəbul et. Nə qədər yalvardım, qəbul etmədi.

Sabahısı gün bir əmlik quzu, bir neçə çolpa qızartdım, bir tabaq halva, şəkərçörəyi götürüb qoca dərziyə apardım və dedim: "Ey şeyx, indi ki, qızıl götürmürsən heç olmasa bu yeməkdən təbərrük üçün qəbul et, öz halal qazancımdandır, gəl könlümü sındırma! Dedi: "Qəbul edirəm". Əlini uzadıb hazırladığım təamdan yedi, təşəkkür etdi, şagirdlərinə də verdi. Sonra qocaya dedim: "Mənim sənə bir işim düşüb, rəva bilsən deyərəm. Dedi: "De". Dedim: "Bütün böyüklər və əmirlar bu əmirlə danışdılar fayda vermədi, necə oldu ki, sənin sözünü qəbul etdi, hər nə dedin vaxtında yerinə yetirdi. Bu hörmət haradandır? Dedi: "Sənin mənimlə əmirəlmöminin arasındakı əhvalatdan xəbərin yoxdur?” Dedim: "Yox". Dedi: "Onda qulaq as deyim".

**Hekayət.** Bil ki, otuz ildir mən bu məscidin minarəsində azan verirəm, dolanacağım isə dərziliklədir, ömrümdə şərab içməmiş, zina etməmiş, lotu-potu işlərlə məşğul olmamışam. Bu küçədə bir əmirin sarayı var idi. Bir gün qürub namazından sonra məsciddən çıxıb bu dükana gəlmək istəyirdim ki, gördüm həmən əmir məst halda cavan bir qadının çadrasından tutub dartır. Qadın isə dad-fəryad qoparır va deyirdi: "Ey müsəlmanlar, mənə kömək edin, mən bu işin sahibi deyiləm, filankəsin qızı, filankəsin arvadıyam. Hamı mənim ismətli və həyalı olduğumu bilir. Bu türk məni zorla aparıb, başıma pis oyun açmaq istəyir, ərim də kabinimizə and içmişdir ki, əgər gec gəlsəm məni boşayacaqdır".

Heç kəs onun köməyinə gəlmirdi. çünki bu türk çox güclü idi. Mən onun üstünə qışqırdım, fayda vermədi, qadını evinə apardı. Bu tərbiyəsizlikdən cin başıma vurdu, təəsüb cuşa gəldi, özümü saxlaya bilməyib mahalla ağsaqqallarını yığdım, əmirin sarayına gedib, hay-küy qaldırmağa və qışqırmağa başladım. Müsəlmanlıq qalmamışdır, Bağdad şəhərində xəlifənin gözünün qabağında xalqın arvadını zorla tutub aparır, başına rüsvayçılıq gətirirlər, bir söz deyən olmayır; bu qadını geri göndərin, yoxsa bu saat Mötəsimin sarayına şikayatə gedəcəyəm".



downloaded from KitabYurdu.org

Türk bizim səsimizi eşitcək öz qulamları ilə evdən çıxdı. Bizi əməlli-başlı əzişdirdilər, əl-ayağımızı sındırdılar. İşi belə gördükdə qaçıb hərəmiz bir tərəfə dağılışdıq. Şam namazı vaxtı idi. Namaz qıldıq. Yatağa girdik. Təhqir, ağrı va qeyrətdən yata bilmirdim. Gecə yarısı oldu. Fikir məni götürmüşdü: "Rüsvayçılıq baş vermişsə, artıq onun qarşısını almaq mümkün deyildir, daha pisi bu idi ki, o qadın evə gec dönərsə, əri onu boşayacağına and içmişdi. Eşitmişdim əyyaş adamlar yuxudan ayılarkən gecədən nə qədər keçdiyini ayırd edə bilmirlər. İndi bircə çarə qalır minarəyə çıxıb azan verəm. Türk elə bilər səhərdir, qadını buraxar, yolu yəqin bu məscidin yanındandır. Elə ki, namaz azanını verdim, dərhal minarədən düşüb məscidin qapısında durar, qadın bura çatcaq götürüb ərinin evinə apararam. Heç olmazsa əri boşamaz.

Elə də etdim, minarəyə dırmaşıb azan verdim. Demə Mötəsim hələ yatmayıbmış. Vaxtsız azan eşitdikdə bərk qəzəblənir və deyir: "Gecə yarısı azan verən kim olursa-olsun müfsid adamdır, çünki azanı eşidən elə biləcək səhərdir, evdən çıxacaq, gecə keşikçisi də onları tutacaq və xalq əzaba düçar olacaqdır. Xidmətçilərdən birini göndərib qapı hacibinə deyir ki, get bu müəzzini bura gətir".

Mən məscidin qapısında durub arvadın yolunu gözlədim. Gördüm qapı hacibi məşəl ilə gəlir. Məni məscid qapısında duran gördükdə soruşdu: "Azan çəkən sən idinmi?" Dedim: "Bəli". Dedi: "Nə üçün vaxtsız azan veribsən, əmirəlmömininin bərk acığına gəlib, sənə qəzəbi tutub, indi məni göndərib ki, səni onun yanına aparım, tərbiyə versin".

Dedim: "Onun fərmanı dünyanın bütün adamları üçün qanundur, lakin tərbiyəni o ədəbsizə versin ki, məni vaxtsız azan çəkməyə məcbur etmişdir". Dedi: "Bu ədəbsiz kimdir? Dedim bu elə bir məsələdir ki, onu əmirəlmömindən başqa heç kəsə deyə bilmərəm. Əgər mən namaz azanını yersiz vermişəmsə, nə cəza versə razıyam

Dedi: "Gəl gedək xəlifə sarayına".

Biz sarayın qapısına çatanda xidmətçi bizi gözləyirdi. Mən qapı hacibinə nə demişdimsə, o da hamısını xidmətçiyə dedi. Xadim də gedib Mötəsimə danışdı. Mötəsim xidmətçiyə məni onun yanına aparmağı əmr etdi. Məni Mötəsimin yanına apardılar. Mənə dedi: "Nə üçün vaxtsız azan veribsən?" Mən əhvalatı danışdım. Eşitdikdən sonra xidmətçiyə dedi:"Qapı hacibinə de, yüz adamla filan əmirin sarayına gedib onu götürsün, qadını çıxarıb arının evinə aparsın, ərini qapıya çıxarıb desin ki, Mötəsimdən sənə salam var və bu qadının günahından keçməyi sənə tapşırır, ondan yaxşı muğayat ol. Sonra əmiri tez mənim yanıma gətir. Mənə dedi: "Sən də bir saatlığa burada otur". Bir saat keçməmişdi ki, əmiri Mötəsimin yanına gətirdilər. Mötəsimin gözü ona sataşacaq dedi: "Ay səni görüm belə-belə olasan, müsəlmançılıqda məndən nə pislik görübsən? Mənim xəlifəlik dövrümdə müsəlmançılığa nə sədəmə dəyibdir? Mən o adam deyiləmmi müsəlmanlıq üstə Ruma əsir düşdüm, Bağdad vuruşuna gedib, Rum qoşununu dannadağın, Qeysəri geri qaçmağa məcbur etdim? Altı il Rumu taladım, Konstəntəniyə[89] od vurub viran



downloaded from KitabYurdu.org

etdim, məscid tikdirdim, ibadətgahlar yaratdım, minlərlə adamı əsirlikdən xilas edib qayıtdım. İndi mənim ədalətimin qorxusundan qurdla qoyun bir bulaqdan su içdiyi zamanda, sən nə cəsarət edib qadını zorla evinə aparıb rüsvay, köməyə gələnləri isə şil-küt eləyirsən?"

Əmr etdi çuval gətirib onu ora saldılar, ağzını möhkəm bağladılar. Sonra gəcdöyən çomaq gətirtdirib onu döydürməyə başladı. O qədər vurdular ki, xurd-xəşili çıxdı. Dedilər: "Ya əmirəlmömin, bütün sümükləri xurd-xəşil olmuşdur". Əmr etdi, Dəcləyə atdılar. Sonra mənə dedi: "Ey şeyx bil ki, allahından qorxmayıb yaramaz iş tutan adamın hər iki dünyada günü qara olar. Bu nalayiq iş gördüyündən cəzasını aldı. Bundan sonra sənə əmr edirəm, kim-kimə zülm etsə, ya biri başqasının haqqını kəssə, şəriətə xor baxsa və sən xəbər tutsan, dərhal minarəyə çıxıb azan ver ki, mən bilib səni çağırım, məsələni öyrənim, övladım, qardaşım olsa belə o adama da bu itə verdiyim cəzanı verim".

Sonra mənə bəxşiş verib yola saldı. Bütün böyüklər , əyan-əşraf bu əhvalatı bilir. O əmir də sənin qızılını mənə hörmət xatirinə deyil, şallaq çubuq və Dəclə xatirinə verdi. Qorxdu sözümdən çıxsa vaxtsız azan verəm, o türkün başına gətirilən bunun da başına gətirilsin ".

Belə hekayətlər çoxdur. Bunu ona görə dedim, dünya hökmdarı bilsin ki, şahlar həmişə necə olmuşlar, qoyunu qurddan necə qorumuşlar, müfsidləri necə cəzalandırmışlar, düzlüyü necə müdafiə etmişlər.

**Səkkizinci fəsil**

## DİN, ŞƏRİƏT VƏ BU KİMİ İŞLƏRİ ÖYRƏNİB NƏZARƏT ALTINA ALMAQ HAQQINDA

Dini ehkamları öyrənmək, adət-ənənələri bilmək, allahın əmrlərini yerinə yetirmək, din alimlərinə hörmət etmək, onların maaşını beytülmaldan[90] vermək, zahidləri, təmiz adamları əziz və girami tutmaq padşaha vacibdir. Həftədə bir və ya iki dəfə din xadimlərinə qəbul düzəltmək lazımdır ki, allah-taalanın əmrini, Quranın təfsirini, peyğəmbərin rəvayətini, adil şahların hekayətini eşitsin, o vaxt dünyanın işindən rahat olub onların sözlərinə diqqətlə qulaq assın.

Əmr etsin, iki yerə ayrılıb mübahisə eləsinlər, aydın olmayanı yenidən soruşsun, başa düşdümü, yadında saxlasın. Bir müddət belə keçdikdən sonra bu adətə çevrilər, az keçməz ki, şəriət qanunları, Quranın təfsiri və peyğəmbər ə.s. rəvayətlərinin bir çoxu ona məlum olar və yadda qalar, din və dünya işləri, onların çarəsi və cavabı yolları onun üzünə açılar, heç bədməzhəb və bəd adam onu yoldan çıxara bilməz, iradəli, ədalətli, insaflı olar, hava-həvəs, onun məmləkətindən yox olmağa başlar, onun əlindən böyük işlər gələr, fitnə-fəsad. qarışıqlıq, pozğunluğun kökü kəsilər, düz adamlar güclü, əyrilər zəif olar, bu dünyada yaxşı ad qoyar, dünyada savab qazanıb yüksək dərəcəyə çatar. Onun dövründə adamlar elm



downloaded from KitabYurdu.org

öyrənməyə böyük rəğbət bəsləyərlər.

**Rəvayət**. İbn Ömər deyir: (allah ondan razı olsun) "Peyğəmbər ə.s. deyib ki, ədalətli adamların behiştdə nurdan sarayları olacaqdır, onlar burada qohum-qardaş və xidmətçiləri ilə birlikdə olacaqlar. Şahlara ən çox lazım olan möminlikdir, çünki ölkə, şah və din iki qardaş kimidirlər. Məmləkətdə qarışıqlıq olanda dində də dolaşıqlıq yaranar, müfsidlər, bədməzhəblər baş qaldırar, şahları hörmətdən salar və könlünə dəyərlər, müxalifət güclənər.

Sufiyan Sövri[91] (Suri) deyir: "Sultanların ən yaxşısı odur ki, elm adamı ilə oturub-dura, alimlərin ən pisi odur ki, soltanla durub-otura".

**Hekayət.** Filosof Loğman demişdir: "Dünyada insan üçün elmdən daha yaxşı dost yoxdur. Elm dövlətdən də yaxşıdır, çünki dövləti sən saxlamalısan, elm isə səni saxlayır". Həsən Bəsri [92] (Allah ona rəhmət eləsin) deyir: "Alim o deyildir ki. ərəbcə çox bilib, qəliz ərəb ifadələrini və sözlərini çox əzbərləmiş olsun, alim odur ki, bütün elmlərdən başı çıxsın, hansı dili bilsə, məqbul sayılar".

Əgər bir adam şəriətin bütün qanunlarını, Quranın təfsirini türk, fars və rum dilində bilir, ərəb dilini bilmirsə, alim sayılar. Lakin ərəbcə də bilsə, daha yaxşı olar.

Allah-taala Quranı ərəb dilində göndərmişdir, Məhəmməd Mustafa ə.s. də ərəbdilli olmuşdur, lakin əgər şahın allah vergisi, dövləti, elmi olsa, hər iki dünyanın səadəti ona nəsib olar, çünki heç bir işi elmsiz görməz, cəhalətə yol verməz. Bax gör, alim padşahların adı dünyada nə qədər böyükdür, onlar elə böyük işlər görmüşlər ki, qiyamətdə adları yaxşılıqla çəkiləcəkdir, məsələn, Firidun, İsgəndər, Ərdəşir, Nuşirəvan adil, Əmirəlmöminin Ömər (allah ondan razı olsun), Ömər ibn Əbdüləziz (allah onun qəbrini nurla işıqlandırsın), Harun, Məmun Mötəsim, İsmail ibn Əhməd Samani və Sultan Mahmudun (allah onların hamısına rəhmət eləsin) gördükləri işlər və rəftarları məşhurdur, onların haqqında tarixlər və kitablar yazılıbdır; oxuyur, onlara dua oxuyurlar.

**Rəvayət**. Deyirlər ki, Ömər ibn Əbdüləzizin[93] (allah ona rəhmət eləsin) hökmranlığı dövründə qıtlıq düşdü, xalq çətinlik çəkdi. Ərəb qəbilələrindən biri onun yanına gəlib sızlayıb dedi: "Ya əmirəlmöminin, biz öz ətimizi, qanımızı qəhətlikdə yedik, yəni yemək tapmadığımız üçün özümüz arıqladıq, rəngimiz saraldı. İndi bizim sizin beytülmala ehtiyacımız vardır.

Bu mal da sənindir, ya allahındır, ya allah bəndələrinin. Əgər allah bəndələrinindirsə, bizimdir, allahındırsa, allahın ona ehtiyacı yoxdur, sənindirsə bir sədəqə et ki, bu çətinlikdən qurtaraq, dərimiz bədənimizdə quruyub, allah-taala da yaxşı iş görənlərə mükafat verəcəkdir.

Ömər ibn Ələzizin ürəyi yandı, gözü yaşla doldu, dedi: "Siz dediyiniz kimi edəcəyəm . Dərhal əmr etdi, onların işini düzəldib, arzularını yerinə yetirdilər. Durub getmək istədikdə Ömər ibn Ələziz (allah ona rəhmət eləsin) dedi: "Ay camaat hara gedirsiniz, adamların sözünü mənə çatdırdığınız kimi mənim də sözlərimi allah-taalaya çatdırın, yəni mənə dua edin".



downloaded from KitabYurdu.org

Ərəblər üzlərini göyə çevirib dedilər: "İlahi, səni and veririk öz izzətinə, Ömər ibn Əziz sənin bəndələrinə nə edibsə, sən də ona elə et!". Duanı tamam edən kimi bulud gəldi, gurşad dolu yağdı, biri Ömərin sarayının kərpiclərindən birinə dəyib onu sındırdı, içərisindən bir kağız çıxdı. Orada yazılmışdı: "Bu cəhənnəm odundan qurtarmaq üçün böyük allahın Ömər Əbdüləzizə göndərdiyi bəraətdir".

Bu mənada hekayət çoxdur, bu qədər deyildi, o da kifayətdir.

## Doqquzuncu fəsil

## MÜŞRİFLƏR VƏ ONLARIN TƏMİN EDİLMƏSİ

İşraf[94] vəzifəsinə ən etibarlı adam təyin edilməlidir, çünki sarayda nə baş verirsə, bu adam hamısını bilməli, istədiyi, ya ehtiyac olduğu vaxt xəbər verməlidir. Bu adam şəxsən hər şəhərə və qəsəbəyə doğru danışan, əlidüz nümayəndələr göndərməlidir ki, onlar da burada baş verən xırda-böyük nə varsa, hamısını öyrənib ona xəbər versinlər. Lakin elə etmək lazım deyildir ki, onları təmin etmək, maaş və hüquqları rəiyyətin üzərinə düşsün, yükləri ağırlaşsın, yeni əziyyətə düşsünlər. Onlara nə qədər lazımsa, beytülmaldan verilməlidir, müzayiqə edilməməlidir ki, xəyanət edib rüşvət almağa məcbur olsunlar. Onların düz işləmələrindən gələn xeyir, vaxtında onlara verilmiş maldan on dəfə və yüz dəfə çox olar.

## Onuncu fəsil

## SAHİBXƏBƏR VƏ ÖLKƏ DOLANDIRMAQ TƏDBİRLƏRİ HAQQINDA

Şah rəiyyət və qoşunun halından xəbər tutmalı, yaxın, uzaq, kiçik, böyük nə varsa hamısını bilməlidir. Belə etməsə, eyib sayılar, onu laqeydlik, ya da ədalətsizlik hesab edərlər və deyərlər: "Ölkədə baş verən zülm və qanunsuzluqları şah bilir, ya da bilmir. Bilib onları aradan qaldırmaq və qarşısını almaq üçün tədbir görmürsə, deməK o özü zalımdır, ona görə də zülmə yol verir; bilmirsə, deməli, başısoyuq və ölkədən xəbəri olmayan adamdır".

Bunların hər ikisi də pisdir. Ona görə labüd olaraq sahib-bəridə[95] ehtiyac doğur. İstər cahiliyyət[96], istərsə islam dövründə bütün şahlar sahib-bəridlər vasitəsilə ölkədə baş verən xeyir-şər haqqında təzə xəbərlər almışlar, belə ki, beş yüz fərsəng uzaq bir yerdə əgər biri-birindən haqsız olaraq bir torba ələf, ya bir toyuq alsa idi, şah bundan dərhal xəbər tutar, ona qulaqburması verərdi ki, başqaları şahın yatmadığını, hər yerdə onun xəbər verənləri olduğunu bilsinlər. Bu zaman zalimlər zülm əllərini qısa edər, camaat əmin-amanlıqda, şahın ədaləti sayəsində güzəranlarını təmin etmək üçün bir sənət və abadlıq işləri ilə məşğul



downloaded from KitabYurdu.org

olarlar. Lakin bu incə və çox məsuliyyətli məsələdir. Bu iş elə adamlara tapşırılmalı, bu işi elə adamlar yerinə yetirməli, elə adamların əli, dili və qələmində olmalıdır ki, onlar haqqında heç kəs pis bir şey deyə bilməsin, onlar özləri qərəzli işlərlə məşğul olmasınlar, çünki ölkənin müqəddəratı, səlahi və fəsadı onlardan asılıdır. Onlar başqaları tərəfindən deyil, şəxsən şahın özü tərəfindən təyin edilməlidir. Onların maaşları, əmək haqqları vaxtında, xəzinədən verilməlidir, onlar rahat, arxayın və ürəkdən işləməlidirlər ki, şah da təzə baş verən hər hadisəni bilib hər kəsin özünə layiq mükafat, cəza və ya qulaqburması versin.

Padşah belə etdikdə camaat həmişə itaətdə olub, şahın qəzəbindən qorxar, heç kəs şaha qarşı qiyam etməyə və ya pis fikirləşməyə cəsarət etməz. Sahib-xəbər və xəfiyyələrin təyin edilməsi, şahın ölkə dolandırmaqda ədalətli, sayıq, qayğıkeş və iradəli olduğunu göstərir.

**Hekayət.** Sultan Mahmud Əraqi zəbt eldikdə elə olur ki, Deir Keçin[97] karvansarasında bir qadının malını oğrular götürüb aparırlar. Bu oğrular Küc və Bülucdan idilər, bu vilayət isə Kirmanın yaxınlığında idi. Bu qadın Sultan Mahmudun yanına gedib şikayət etdi, dedi: "Oğrular Deir Keçində mənim malımı oğurlayıblar, ya malımı geri qaytar, ya pulunu ver". Sultan Mahmud dedi: "Deir Keçin haradır?" Qadın dedi: "O qədər yer tut ki, biləsən nəyin vardır, hesabını aparıb, onu saxlaya biləsən". Dedi: "Doğru deyirsən, lakin oğruların kim və haradan olduqlarını bilirsənmi?" Dedi: "Kirmanın yaxınlığındakı Kuc və Bülucdan idilər".

Dedi: "O yerlər uzaqdadırlar, mən oturduğum vilayətə daxil deyildir, onlara heç bir şey edə bilmərəm". Qadın dedi: "Sən necə dünyanın hökmdarısan ki, öz ölkəni də dolandıra bilmirsən, necə çobansan ki, qoyunu qurddan qoruya bilmirsən?! Mən zəif və köməksizlə, sən qüvvətli və ordu sahibi arasında nə fərq?!"

Mahmudun gözləri yaşardı, dedi: "Sən doğru deyirsən, elə edərəm sənin malını qaytararlar, bu işi də imkanım daxilində qaydasına salaram". Sonra əmr etdi xəzinədən qadına qızıl verdilər. Kirmanın əmiri olan Bu-Əli İlyasa isə belə bir məktub yazdı: "Mənim Əraqa gəlməkdə əsas məqsədim Əraq deyildir, mən Hindistanda həmişə qəzavatla[98] məşğul idim, lakin fasiləsiz olaraq məktub gəlirdi ki, deyləmilər[99] Əraqda fitnə-fəsad törədir, açıq-açığa günah işlərlə məşğul olurlar, yollarda səbatlar[100] düzəldirlər, allah bəndələrini, arvad-uşaqlarını zorla tutub saraya aparır, onların başına rüsvayçılıq gətirirlər, istədikləri qədər saxlayır, istədikləri vaxt buraxırlar; Aişəni ( allah ondan razı olsun) zaniyə[101] adlandırır, peyğəmbər ə.s. bütün əshabələrinə lənət yağdırırlar. İqtidarlar ildə xalqdan iki-üç dəfə vergi toplayır, olmazın zülmlər edirlər. Məcdüdövlə adlanan şah isə razılıq vermişdir ki, ona şahənşah desinlər, kəbinli doqquz arvadı vardır. Xalq hər yerdə, şəhərlərdə və qəsəbələrdə zındıq[102] və batini məzhəbini təbliğ edir, allah və peyğəmbərə nalayiq sözlər deyir, yaradanı açıqdan açığa danırlar, namaz qılmır, oruc tutmur, həcci zəkatı yerinə yetirmirlər, nə iqtidarlar onlara cəza verir, nə deyə



downloaded from KitabYurdu.org

bilirlər ki,"nə üçün peyğəmbər ə s. əshabələrini təhqir edir, onlara əzab və işgəncə verirsiniz". Hər iki dəstə əlbir olubdur. Bu xəbərin doğruluğu mən? çatdıqda, mən daha mühüm hesab etdim, hind qəxavatını buraxıb, Ərağa üz çevirdim, müsəlman, mömin və hənəfi[104] olan türk qoşunlarına tapşırdım ki, deyləmi, zındıq və batinilərin kökünü kəsdilər, bəziləri qılıncdan keçirildi, bəziləri əsir alınıb, zəncir və zindana giriftar oldular, bəziləri qaçıb dünyadan didərgin düşdülər. Bütün vəzifələri hənəfi və şafei olan, pakizə mənsəb xorasanlılara verdim, bunların hər ikisi xəvaricilərin[105] və batinilərin düşmənidir; razı olmadım ki, İraq katibi qələmi kağıza tərəf uzatsın. İraq katiblərinin əksəriyyətinin onlardan olduğunu və türklərə pis münasibət bəslədiklərini bilirdim. Az müddət ərzində böyük allahın köməyi ilə İraq torpağını bədməzhəblərdən təmizlədim. Allah-taala məni ona görə xəlq edib və xalqın üzərində qoyub ki, müfsidləri yer üzündən təmizləyim, düz adamları mühafizə edim, ədalət və səxavət əsasında dünyanın abadlığına çalışdım. İndi mənə xəbər veriblər ki, Kuc-Büluc dəbduzlarından bir qəbilə burada Deir Keçin rabatına basqın edərək mal oğurlamışdır. İndi tələb edirəm ki, onları tutasan, malları alasan, özlərini dara çəkəsən və ya əli-qolu bağlı haman mal ilə birlikdə Reyə göndərəsən. Qoy onlar Kirmandan bir də mənim vilayətimə gəlməyə cəsarət etməsinlər. dediyimi yerinə yetirməsən, Kirman Somnatdan[106] uzaq deyildir, qoşun çəkib onların toxumunu Kirmandan kəsərəm".

Qasid[107] Mahmudun məktubunu Bu-Əli İlyasa çaldırdıqda çox qorxdu, qasidə böyük hörmət göstərdi, sultana ləl-cəvahir, kəniz, daş-qaş, qızıl-gümüş kisələri göndərdi və dedi: "Mən qulam və fərmanı yerinə yetirməyə hazıram, lakin görünür, sultan mənim və Kirmanın vəziyyətindən yaxşı xəbərdar deyildir. Mən heç bir fəsada yol vermirəm, Kirmanın adamları isə sünni, mömin, dini pak düz adamlardır, Kuc və Büluc dağları isə Kirmandan ayrılmışdır, dənizlər dağlar keçilməz, yollar çətindir. Onların əlindən təngə gəlmişəm, canımı boğazıma yığıblar, əksəriyyəti oğru, yolkəsəndir, iki yüz fərsəngdən çox bir yolda quldurluq edirlər, oğurluğa gedirlər, adamları çoxdur, mən onlarla bacara bilmirəm. Dünyanın sultanı daha güclüdür hər yerdə onların öhdəsindən yalnız o gələ bilər, mənə nə buyursa, onu da etməyə hazıram.

Məktubun cavabı və Bu-Əlinin hədiyyələri sultana çatdıqda bildi ki, düz danışır. Onun elçisinə xələt verilməsini əmr etdi, geri göndərdi və tapşırdı Bu-Əliyə desin, qoşununu toplayıb Kirman vilayətini gəzə-gəzə filan ayın başında gəlib Kuc-Bülucların olduqları yerin sərhəddinə çatarsan, orada dayanıb qasidimizi gözlərsən. Elə ki, filan əlamətlə qasid gəldi, dərhal qalxıb onların vilayətinə keçərsən, nə qədər cavan tapdın, aman verməyib öldürərsən, onların qocalarından və qadınlarından malı alıb, bura göndərərsən ki, onlar tərəfindən malları oğurlanmış müddəilərə paylayım. Onlarla əhd-peyman bağlayıb geri qayıt".

Qasidi yola salandan sonra car çəkdirdi: "Yəzd və Kirmana getmək arzusunda olan sovdəgərlər varsa hazırlaşsınlar, yüklərini bağlasınlar, mən onlara müşayiət edən dəstələr verəcəyəm. Kuc və Büluc oğruları kimin malını oğurlayıb



downloaded from KitabYurdu.org

talan etsə, xəzinədən nağd pul ilə qiymətini ödəcəyəm".

Bu xəbər ətrafa yayıldıqda Rey şəhərinə o qədər sövdəgər gəldi ki, saysız-hesabsız...

Sonra Mahmud sövdəgərləri vaxtında 150 süvari ilə yola saldı, ürək-dirək verərək dedi:

"Siz arxayın olun, dalınızca qoşun da göndərəcəyəm". Sonra müşayiətçi dəstənin başçısı əmiri tək yanına çağırıb bir şüşə öldürücü zəhər verdi və dedi:"İsfahana çatandan sonra on gün orda qal, qoy orada sövdəgərlər də hazırlaşıb söhbət üçün sənin yanına gəlsinlər. Bu müddət ərzində sən on xarvar[108] İsfahan alması alıb, on dəvəyə yüklərsən, yola düşəndə haman dəvələri sövdəgər dəvələrinin arasına qatarsan. Elə ki, gedib oğruların sabah çata biləcəkləri mənzil başına yetişdiniz, o gecə almaları çadıra gətirib hər almanı çuvalduzla deşərsən. sonra iynədən də nazik taxtadan çubuq yonub onun vasitəsilə bu zəhərdən hər almaya yeridərsən, beləliklə bütün almaları zəhərlərsən, sonra da yenə əvvəlki kimi pambığa büküb səliqə ilə qəfəslərə doldurarsan, dəvələrə yükləyib o biri dəvələrə qatarsan, sonra yola düzəlib gedərsən. Elə ki, oğrular qalxıb hücum etdilər, sən onlarla davaya girişmə, çünki onlar çox, siz azsınız. Sonra silahlı adamlarını toplayıb yarım fərsəng məsafədən onların dalınca gedin. Bir saata gədər səbr edin, sonra oğruların üstünə hücuma keçin. Şübhə etməyə bilərsən ki, çoxu alma yeməkdən ölmüş olacaqlar. Qılınc çəkib bacardıqca qırın. Onların işini bitirdikdən sonra on nəfər, iki atlı süvarini mənim üzüyümlə Əbu Əlinin yanına göndərib xəbər ver ki, oğruların başına nə oyun gətirmişik. Ona de: "Öz qoşunun ilə filan vilayətə hücum et, ora artıq silah gəzdirə bilən cavan, qaçaqçı, yolkəsən quldurlardan təmizlənmişdir".

İndi sənə nə demişəmsə, onu da et. Karvanı sağ-salamat Kirman sərhədinə apar. Orada Bu Əliyə rast gəlsən ona qoşula bilərsən".

Əmir dedi: "Belə də edərəm, ürəyim deyir ki, şahın dövlətindən bu iş baş tutacaq və o yol qiyamətə qədər müsəlmanların üzünə açılacaqdır".

Mahmudun yanından çıxdı, karvanı götürüb İsfahana gəldi. On dəvəni alma ilə yüklədi, sonra Kirmana tərəf yollandı.

Oğrular İsfahana casus göngərib xəbər tutmuşdular ki, bir neçə min atlı-dəvəli karvan gəlir, o qədər dovlətləri var ki, həddini allah bilir, bu min il ərzində heç kəs belə bir karvan görməyibdir, yalnız yüz əlli türk süvarisi onu müşayiət edir. Sən dərəcə sevindilər. Harada Kuc-Bülucda cavan, silahı ola bilən quldur, yolkəsən var idi, hamısına xəbər verdilər, bir yerə topladılar, dörd min başdan-ayağa silahlanmış atlı ilə gəlib yolu kəsdilər və karvanı gözləməyə başladılar. Əmir karvanla gəlib birmənzilliyə çatdıqda yerli əhali xəbər verdi ki, bir neçə min oğru yolunuzu kəsib, bir neçə gündür ki, sizi gözləyirlər. Qoşunun əmiri soruşdu: "Buradan onların durduğu yerə neçə fərsəng olar?" Dedilər: "Beş fərsəng!"

Karvanda olanlar bunu eşitdikdə çox qəmgin oldular, oradaca köç saldılar.

Əsr namazı vaxtı haman əmir sarban və karvan başçılarını yanına çağırıb



downloaded from KitabYurdu.org

onlara ürək-dirək verdi və soruşdu: "Mənə deyin görüm, can şirindir, yoxsa mal?! Hamı dedi: “Mal nəyə lazımdır, can şirindir". Əmir dedi: "Sizin malınız vardır, biz canımızı sizə qurban verəcəyik, heç qəmlənmirik, siz nə üçün əvəzi veriləcək mal üçün belə kədərlənirsiniz? Axı Mahmud mənə iş tapşırmışdır. Onun sizinlə və mənimlə düşmənçiliyi yox idi ki, bizi ölümə göndərsin. Məqsədi budur ki, o arvadın Deir-Keçində oğurlanmış malımı geri alsın, siz necə düşünürsünüz, o sizin malınızı onlara vermək istəyərmi? Arxayın olun, Mahmud sizin də qayğınıza qalıbdır. O mənə bir iş tapşırıbdır, səhər açıldıqda bəzi adamlar bizə qoşulacaqdır, allah qoysa, hər şey biz istəyən kimi olacaqdır, lakin mən nə desəm, siz də onu yerinə yetirməlisiniz, çünki sizin məsləhətiniz ondadır". Adamlar bu sözü eşitdikdə sevinib ürəkləndilər və dedilər: "Hər nə buyursanız, onu da edəcəyik". Dedi: "Kimin sizlərdən silahı var, vuruşmağı bacarır, mənim yanıma gəlsin". Onun yanına gəldilər, saydı, öz atlılan ilə birlikdə süvarili, piyadalı üç yüz yetmiş nəfər oldular. Dedi: “Bu gecə yola düşdükdə atlılar mənimlə birlikdə karvanın qabağında, piyadalar isə arxasında getməlidirlər. Bu oğruların adəti belədir ki, malı talayar, lakin müqavimət göstərilməsə adam öldürməzlər, adam yalnız vuruşmada ölə bilər. Sabah gün doğanda biz onlara çatacağıq. Onlar karvana hücum etdikdə mən geri qaçmağa başlayacam. Mənim qaçdığımı gördükdə siz də dönüb geri qaçarsınız. Mən onların başını qarışdıraram, elə ki, siz yarım fərsəngə qədər uzaqlaşdınız, atı çapıb sizə qoşularam. Bir saat gözləyəndən sonra hamımız birlikdə qayıdıb onlara hücum edərik, siz onda qəribə şeylər görərsiniz. Mənə belə əmr edilmişdir, burada bir sirr vardır, mən bilirəm, siz yox. Lakin sabah öz gözlərinizlə görəcəksiniz ki, mən düz demişəm. Mahmudun da fəziləti sizə məlum olar".

Hamı dedi: “Belə edərik". Sonra hərə öz yerinə qayıtdı. Axşam olcaq əmir alma yüklərinin ağzını açıb zəhərlədi, sonra yenə də qəfəslərə yığdı. Alma yüklənmiş on dəvəni on nəfərə tapşırdı və dedi: "'Mən qaçdıqda, oğrular daraşıb karvanı soyduqda və yükləri açdıqda siz də alma yüklərinin iplərini kəsin, qəfəslərin ağzını açıb almaları yerə dağıdın və baş götürüb qaçın". Gecə yarısı çatdıqda yola çıxmalarını əmr etdi. Haman qayda ilə yol getdilər, səhər açıldı, günəş yüksəldi, oğrular üç tərəfdən qalxtb, siyirməqılınc karvana hücuma keçdilər. Əmir iki-üç dəfə əks hücum etdi, üç-dörd ox atdı, sonra üz çevirib geri qaçdı. Piyadalar quldurları gördükdə onlar da əmirin dalınca götürüldülər. Əmir piyadaları bir neçə yarım fərsənglikdə tapıb bir yerə toplaya bildi.

Quldurlar mühafizə dəstəsinin az olub qaçdığını, karvan əhlinin baş götürüb hərə bir tərəfə üz qoyduğunu gördükdə kefləri kökəldi, ağına-bozuna baxmadan yükləri yırtıb malları dağıtmağa, talayıb-çapmağa başladılar; alma tayalarına çatdıqda daraşıb hamısını qarət etdilər, hərislik və acgözlüklə qamarlayıb. apardılar, tıx deyincə yedilər, əllərinə alma keçməyənlərə də verdilər. Az adam var idi ki, alma yeməmiş olsun.

Bir saat keçməmişdi ki, bir-bir yerə dəyib ölməyə başlayırdılar. Gündən



downloaded from KitabYurdu.org

iki saat keçdikdə əmir tək bir təpənin üstünə qalxdı, karvana baxdı və bütün səhranı sərələnmiş adamlarla dolu gördü, sanki yatmışdılar. Təpədən aşağı enib dedi: "Ay camaat, muştuluğumu verin, sultanın köməyi çatıb, quldurları öldürmüşlər, diri qalanları o qədər də çox deyildir, ey igid oğlanlar, tez qalxın ki, qalanlarını da biz öldürək".

Öz dəstəsini götürüb karvan tərəfə hücuma keçdi, piyadalar da onun dalınca qalxdılar. Karvana çatdıqda bütün adamların səhrada öldüyünü, qalxan, qılınc, ox, kaman və zubinlərinin[100] bir yana düşdüyünü gördülər. Diri qalanlar qaçmağa başladılar. Əmir dəstəsi, karvan adamları onların ardınca düşüb hamısını öldürdülər və geri döndülər. Bir adam da onlardan canını qurtara bilmədi ki, vilayətlərinə gedib başlarına nə gəldiyini xəbər verə bilsin.

Əmir quldurların silahlarının toplanmasını əmr etdi. Sonra oradan qalxıb karvanı lazım olan yerə apardı, heç kəsə ziyan dəyməmişdi, sevinclərindən dərilərinə sığmayırdılar.

Oradan Bu-Əli İlyasın olduğu yerə qədər on fərsəng olardı. Əmir on qulamla sultanın üzüyünü təcili olaraq ona göndərdi və əhvalatdan xəbərdar etdi. Üzük ona çatcaq dincəlmiş və yorğunluğunu almış ordunu götürüb dərhal Kuc-Büluc vilayətinə hücuma keçdi. Əmir də ona qoşuldu. On mindən çox adam öldürdülər, bir neçə min dinar nağd pul aldılar, o qədər dövlət, nemət, silah, mal-qara, at-dəvə ələ keçirdilər, sayı-hesabı yox idi. Bu-Əli onların hamısını haman əmirlə sultana göndərdi. Mahmud car çəkdirdi: "Mən İraqa gələnə qədər Kuc-Büluc oğruları kimdən nə oğurlayıblarsa, gəlib əvəzini məndən alsınlar”. Müddəilər hey gəlib şad qayıdırdılar.

O əlli ildə kuclulardan heç bir fuzulluq baş vermədi. Bundan sonra sahib-xəbərlər və xəfiyyəçilər təyin etdi. Elə bir vəziyyət yaratdı ki, əgər biri nahaqdan başqasından bir toyuq alsa, ya birinə bir yumruq vursa idi dərhal onun vilayətinə xəbər çatar və o əvəzini alardı. Qədimdən bəri səlcuqilərə qədər şahlar bu qaydaya riayət edərdilər, səlcuqilər buna əhəmiyyət vermir və bu barədə az tədbir görürdülər.

**Hekayət.** Bir gün Əbülfəzl Səkzi[110] şəhid Sultan Alp Arslana'" dedi: "Nə üçün sahibxəbərlərin yoxdur?" Dedi: "İstəyirsən mənim ölkəmi bərbad edəsən, dostları məndən qaçırdasan?" Dedi: "Nə üçün?" Dedi: "Ona görə ki, mən sahibxəbər təyin etsəm ürəkdən mənə səmimi və dost olanlar bu dostluq və səmimilik xatirinə sahibxəbəri saymayacaq və ona rüşvət verməyəcəklər, əksinə, mənə qeyri-səmimi və düşmən olanlar isə sahibxəbərlə dostluq edib, ona rüşvət və bəxşiş verəcəklər. Sahibxəbərlər də məcbur olub dostlardan pis, düşmənlərdən isə yaxşı sözlər çatdırırlar. Yaxşı və pis söz isə oxa bənzər, bir neçə ox atdıqda axırda biri hədəfə dəyər, bizim ürəyimizə hər gün dosta qarşı xal düşər, düşmənə qarşı isə yumşalar. Bir az keçməz ki, dost uzaqlaşmağa başlar, nəhayət düşmən dostun yerini tutar. Elə ki, düşmən dostun yerini tutdu, ondan törəyəcək fəlakətin qarşısını heç nə ala bilməz".



downloaded from KitabYurdu.org

Lakin sahibxəbərin olması olmamasından yaxşıdır, çünki sahibxəbər təyin etmək ölkəni dolandırmaq qaydalarından biridir. Dediyimiz kimi, inam və etimad olsa, narahat olmağına dəyməz.

*On birinci fəsil*

## ƏLAHƏZRƏTİN ƏMRLƏRİ VƏ DƏRGAHDAN GƏLƏN YAZILARIN HÖRMƏTİNİ SAXLAMAQ HAQQINDA

Dərgahdan (şah sarayından - R.S.) yazılan məktubların sayı çox olur, çox olan şeyin isə hörməti olmaz. Ona görə mühüm məsələ olmayınca ali məclisdən bir şey yazılmamalıdır, yazıldımı, onun həşəməti elə olmalıdır ki, heç kəs onu yerinə yetirməməyə cəsarət edə bilməsin. Bir adamın ona alçaq nəzərilə baxdığı, ya onu yerinə yetirməkdə tənbəllik, kahıllıq göstərdiyi meydana çıxdıqda, ən yaxın adam olsa belə, ona ağır qulaqburması vermək lazımdır. Şah yazısı ilə başqa adam yazısının fərqi bundadır.

**Hekayət.** Deyirlər bir qadın Nişaburdan Qəzneynə, Mahmudun yanına şikayətə gedib deyir: "Nişaburun amili mənim torpağımı mənimsəmişdir". Məktub verdilər ki, amil torpağı geri qaytarsın. Demə bu amilin əlində haman torpağın qəbzi varmış. Deyir: "Bu torpaq onunku deyil, məsələni mən şah sarayında bildirərəm". Qadın ikinci dəfə şikayətə gedir. Qulam göndərib amili Nişaburdan Qəzneynə aparırlar. Sultanın qapısına çatdıqda əmr edir saray qapısında ona min çubuq vursunlar. Amil qəbzi göstərir. Beş yüz vasitəçi salır, o min çubuğu min Nişabur dinarına almaq istəyir, baş tutmur. Min çubuq yedikdən sonra ona deyirlər: "Tutaq ki, bu torpaq doğrudan da sənindir, bəs nə üçün formanı yerinə yetirib sonra məsələni aydınlaşdırmadın ki, lazımi göstəriş verilsin?! Ona görə belə etdilər ki, başqaları eşitsin və heç kəsdə şahın fərmanından boyun qaçırmağa, dikbaşlıq etməyə, laqeydlik göstərməyə cəsarət olmasın".

Padşah ixtiyarı çatdığı hər şeyi idarə edə bilir: döydürmək, baş vurdurmaq, əl-qol kəsdirmək, axta etdirmək və bu kimi işlər. Şahın fərmanı olmadan başqası öz nökəri və ya qulu ilə belə rəftar etsə, güzəştə getməyib, onun özünə belə cəza vermək lazımdır ki, başqaları öz yerlərini bilib ibrət dərsi alsınlar.

**Hekayət.** Belə deyirlər ki, Rum padşahı, Pərvizin[112] vəziri Bəhram Çubinə[113] əvvəllər çox hörmət edər, istər kef məclislərində, istər ovda, istərsə tənhalıqda onu yanında saxlardı. Bu Bəhram Çubinin at çapmaqda, qılınc oynatmaqda tayı yox idi.

Bir gün Merat və Sərəxs[114] amili Pərvizə üç yüz qırmızı lük dəvə gətirdi, hər dəvəyə bir xarvar mal azuqə yüklənmişdi. Pərviz əmr etdi hamısını Bəhram Çubinin sarayına aparsınlar. Mətbəxdə azuqə çox olmaq üçün ora versinlər.

Sabahısı gün Pərvizə xəbər gətirdilər ki, dünən Bəhram öz qulamını



downloaded from KitabYurdu.org

uzatdırıb iyirmi çubuq vurmuşdur.

Pərvizin acığı tutdu. Əmr etdi Bəhramı gətirsinlər. Bəhram gəldikdə əmr etdi silahxanadan beş yüz qılınc gətirdilər.

Bəhrama dedi: "Ey Bəhram, bunların içərisindən ən yaxşılarını seç". Bəhram yüz əllisini seçdi. Pərviz dedi: "Bu seçdiklərindən on dənə ən nazik tiyəsini ayır". Bəhram onunu ayırdı. Pərviz dedi: "İndi əmr et, bu iki tiyəni bir qına yerləşdirsinlər". Bəhram dedi: "Şahım, iki tiyə bir qına sığmaz". Pərviz şah dedi: "Bəs iki sərkərdə bir şəhərə necə sığa bilər?" Bəhram bu sözü eşitdikdə səhv buraxdığını başa düşüb dərhal təzim etdi. Pərviz dedi: "Xidmətlərinə görə mənim boynumda haqqın olmasa idi bu günahı sənə bağışlamazdım, bir də ki, öz qaldırdığımı yerə vurmaq istəmirəm. Belə işlərlə qoy özümüz məşğul olaq, çünki allah-taala bizi yerə hakim təyin etmişdir, səni yox. Kimin haqqında hökm lazımdırsa bizə deyilməlidir, biz də düzü necədirsə elə ölçü götürək. Əgər bundan sonra nökər və qulamlarından bir xəta baş versə, əvvəlcə bizə xəbər verməlisən, biz də nə tərbiyə lazımsa, onu da verək, heç kəs layiq olduğundan artıq cəza almasın. Bu dəfə səni bağışladım".Bəhram Çubin sərkərdə olmasına baxmayaraq, ona belə xəbərdarlıq edilmişdi.

*On ikinci fəsil*

## MÜHÜM İŞLƏR ÜÇÜN DƏRBARDAN QULAMLARIN GÖNDƏRİLMƏSİ HAQQINDA

Dərbardan bəzən fərmanla, bəzən fərmansız çoxlu qulam gedir, onlar adamları incidir, mallarını alır, iki yüz dinarlıq iş üçün saxtakarlıq edib, beş yüz dinar istəyilər. Xalq bunun nəticəsində yoxsullaşıb dilənçiləşir. Mühüm iş olmayınca qulam göndərilməməli, göndərilənlər isə mütləq ali fərmanla olmalıdırlar və qulama tapşırılmalıdır ki, bu iş filan qədərlikdir, bundan artıq alma, hər şey öz qaydasında olsun.

*On üçüncü fəsil*

## CASUSLAR GÖNDƏRMƏK, ÖLKƏ VƏ RƏİYYƏTİN VƏZİYYƏTİNİ YAXŞILAŞDIRMAQ TƏDBİRLƏRİ HAQQINDA

Həmişə hər tərəfə sövdəgər, səyyah, sufi, əttar, dərviş libasında casuslar göndərilməlidir; bunlar eşitdiklərini xəbər verməlidirlər, beləliklə, heç bir şey gizli qalmamalıdır; bir iş baş versə, yenidən baş qaldırsa, vaxtında tədbir görülsün.

Çox vaxt olub ki, valilər, iqtidarlar məmurlar və əmirlər qiyam fikrinə düşmüş, şaha qarşı üsyan xəyalında olmuşlar, lakin casus gəlib şaha xəbə



downloaded from KitabYurdu.org

verdikdən sonra şah vaxtında atı minərək hücuma keçmiş, qəflətən onların başının üstünü alaraq həbs etmiş, onların arzularını puça çıxarmışdır. Başqa bir hökmdar xarici qoşunla birlikdə ölkəni tutmaq qəsdində olmuşsa, şah hazırlaşıb onun hücumunu dəf etmişdir. Bundan başqa onlar rəiyyətin vəziyyətindən, xeyir və şərdən də xəbər vermişlər, şahlar isə lazımi qayğı göstərmişlər. Məsələn Əzüddövlə vaxtında olduğu kimi.

**Hekayət.** Deyləm şahlarından başqa padşahlardan da, Əzüddövlə kimi daha sayıq, bacarıqlı, uzaqgörən bir padşah olmamışdır. O, abadlıq işini sevən, alicənab, elmli, zəhmli, siyasətmədar bir padşah idi.

Bir gün xəfiyyə ona yazdı: "Mənə tapşırdığınız işi yerinə yetirmək üçün şəhər darvazasından çıxdıqdan sonra iki yüz addım getməmişdim ki, yol kənarında bir gəncin durduğunu gördüm. Onun rəngi qaçmışdı, üzündə, boynunda yara izləri var idi. Məni gördükdə salam verdi, mən də salamını aldım və soruşdum: "Nə üçün burada dayanıbsan?" Dedi: "Bir bələdçi axtarıram, məni elə bir şəhərə aparsın ki, onun şahı ədalətli, qazisi mürüvvətli olsun". Dedim: "Heç bilirsən nə danışırsan?! Əzüddövlədən daha ədalətli şah, şəhərin qazisindən daha mürüvvətli qazi istəyirsən?,, Dedi: "Şah ədalətli, işdə sayıq olsaydı, hakimi də düz işlərdi. İndi ki hakim düz işləmir, şah ədalətli yox, qafıldir". Soruşdum: "Şahın sayıqsızlığından, qazinin insafsızlığından nə deyə bilərsən?,, Dedi: "Mənim macəram uzundur, lakin bu şəhərdən çıxcaq qısaldı. Dedim: "Gərək mənə danışasan. Dedi: "Onda gedək, yolu söhbətlə qısa edək".

Yola düşən kimi dedi: "Mən tacirin oğluyam, atamın malikanəsi də filan məhəllədədir, necə adam olduğu, mal-dövləti də hamıya məlumdur. Atam vəfat etdikdən sonra mən bir neçə il kef, əyləncə və əyyaşlıqla məşğul oldum, ağır xəstələndim, əlim yaşamaqdan üzüldü. Xəstəlikdə allah-taalaya nəzir etdim ki, bu naxoşluqdan sağalsam, həccə gedəm, cahadda iştirak edəm. Allah-taala mənə şəfa verdi, sağalıb ayağa qalxdım. Qəti qərara gəldim ki, əvvəl həccə gedəm, sonra cahadda iştirak edəm. Kəniz və qulamlarımı azad etdim, hamısına qızıl və torpaq bağışladım, bəzilərinin bir-birinə nişanını elədim, nə qədər ev-eşiyim, mal-dövlətim var idisə, hamısını satdım, əlli min dinar nağd pul etdim. Sonra məni fikir götürdü, qarşıda olan iki səfərimin hər ikisi qorxulu idi, bu qədər qızılı yanımda gəzdirmək doğru olmazdı. Belə qərara gəldim, otuz min dinarı götürüb, qalanını qoyam. Sonra gedib, iki aftafa aldım, hərəsinə on min dinar tökdüm. Dedim indi bunları birinin yanında qoymaq lazımdır. Hamıdan çox ürəyim şəhərin baş qazisinə razılıq verdi. Dedim: "O, hakim və alim bir adamdır, müsəlmanların canı, malı ona tapşırılmışdır, ona etibar edilmişdir. O heç vaxt xəyanət etməz. Getdim və bu məsələni yavaşca ona bildirdim. Razılıq verdi. Mən sevindim, gccə vaxtı qalıb onun evinə getdim və əmanəti ona tapşırdım. Sonra səyahətə çıxdım, həccə geldim, Məkkədən Mədinəyə gəldim. Oradan Ruma gedib, cahadçılara qoşuldum...Bir neçə cahad davasında iştirak etdim. Bir dəfə vuruşma zamanı kafirlərə əsir düşdüm və neçə yerdən yaralandım. Dörd il rumluların əlində zəncir və zindanda qaldım.



downloaded from KitabYurdu.org

Sonra Rum qeysəri xəstələndi, bütün əsirləri azad etdilər, mən də buraxıldım. Oradan dənizçilərin yanına gəlib bir parça çörək qazanmaq üçün onların yanında işləməyə başladım.

Arxayın idim ki, Bağdad qazisinin yanında iyirmi min dinar əmanətim vardır. Bu ümidlə qalxıb yola düzəldim. On ildən sonra əliboş, ac-yalavac, yamaqlı paltar, anq, əzgin, taqətdən düşmüş bir halda qazinin yanına getdim. Salam verib oturdum, bir azdan sonra durub getdim. İki gün də onun yanına beləcə getdim, özünü o yerə qoymadı. Üçüncü gün gedib qarşısında oturdum.Yanı boşaldıqda ehmalca dedim: "Mən filankəs oğlu filankəsəm, həccə getdim, cahadda iştirak etdim, başım çox bəlalar çəkdi, özümlə nə aparmışdımsa hamısı əlimdən çıxdı. İndi bu hala düşmüşəm, bir qırıntı qızıla da gücüm çatmır, sənin yanında qoyduğum əmanətə ehtiyacım vardır".

Qazi azdan-çoxdan mənə heç nə demədi, guya heç dediklərimi də eşitmədi. Sadəcə durub hücrəsinə getdi. Mən qanıqara ordan çıxdım. Halımın pisliyi, üst-başımın cındırlığı və çılpaqlığım üzündən utanıb nə öz evimizə, nə qohumların nə də dostların evinə gedə bildim. Gecələri məsciddə keçirir, gündüzləri özümü dalda yerlərə verirdim. Sözün qısası, iki-üç dəfə onunla bu barədə danışdım. Heç bir cavab vermədi. Yeddinci gün bir az da möhkəm yapışdım. Mənə dedi: "Ağlın çaşıb, yolun toz-torpağından sənin beynin quruyub, başın xarab olubdur, çoxlu hədərən-pədərən danışırsan, nə səni tanıyıram, nə də dediyin şeydən xəbərim vardır. Adım çəkdiyin adama, oğlana gəldikdə isə o, gözəlüzlü, sağlambədənli, qəşəng geyimli bir cavan idi". Dedim: Ey qazi, mən elə haman adamam, ağır yaralar, pis günlər məni bu hala salmışdır". Dedi: "Dur get, başımı ağrıtma, özünü də əziyyətə salma". Dedim: "Allahdan qorx, axirəti yadına sal, hər işin öz savabı və günahı vardır. Qoy o iyirmi min dinarın beş mini də sənin olsun". Cavab vermədi. Dedim: "O iki aftafanın biri sənin halalın olsun, o birini mənə ver, çox ehtiyac içindəyəm. Bununla belə sənə imzalı qəbz verərəm ki, bundan sonra səndən heç bir müddəam, filanın olmayacaqdır".

Dedi: "Dəlilik deyəsən səni narahat edir, istəyirsən səni dəlixanaya salıb, əl-ayağına zəncir vursunlar, nə qədər ömrün var, oradan canını qurtara bilməyəsən!"

Mən qorxdum, bildim ürəyində bu qərara gəlib ki, mənə heç nə verməsin, nə hökm çıxarsa xalq da onu yerinə yetirəcək. Yavaş-yavaş onun qarşısından durub küçəyə çıxdım və öz-özümə dedim: "Atalar yaxşı deyiblər ki, ət iylənəndə ona duz vurarlar, bəs duz iylənsə onun çarəsi nədir?".

Ət iylənsə, tez ona vurarlar,
Duz iylənsə, bəs çarəsi nə olar?

Bütün zülmlər üçün qaziyə şikayətə gedirlər, bəs qazi zülm etdikdə kimə şikayətə getsinlər? Əgər Əzüddövlə ədalətli olsaydı, mənim iyirmi min dirhəmim



downloaded from KitabYurdu.org

qazinin əlində qalmazdı, mən belə ac-yalavac bir halda, malımdan, mülkümdən, şəhərimdən məhrum edilib didərgin düşməzdim.

Xəfiyyə bu əhvalatı eşitdikdə ürəyi ona bərk yandı və dedi: "Ey cavanmərd, bütün ümidlər ümidsizlik arxasındadır. Ümidini allaha bağla ki, o bütün bəndələrinin işini düzəldəndir". Sonra xəfiyyə o adama dedi: "Mənim bu kənddə bir alicənab, qonaqpərvər dostum vardır, indi mən ona qonaq gedirəm. Mənim səndən çox xoşum gəldi, razılıq ver, bu gün və gecəni o dostumun evində qalaq, görək sabah qarşımıza nə çıxacaq".

Onu götürüb dostunun evinə apardı. Evdə allah verəndən nə vardısa gətirib yedilər, sonra yatmağa getdilər. Xəfiyyə bunların hamısını bir kağıza yazıb, bir kəndliyə verdi və dedi: "Əzüddövlənin sarayına aparıb filan xidmətçini çağır və bu kağızı ona ver, de ki, Əzüddövləyə çatdırsın".

Əzüddövlə məktubu oxuyan kimi barmağını dişlədi, dərhal bir adam göndərib xəfiyyəyə dedi ki, haman adamı elə bu gecə mənim yanıma gətir. Xəfiyyə bunu bilcək o kişiyə dedi: "Qalx şəhərə gedək, Əzüddövlə qasid göndərib səni və məni çağırır". Kişi dedi: "Xeyirdir?" Dedi:"Xeyirdən başqa nə olacaq?" Yəqin sən dediklərini onun qulağına çatdırıblar. Ümid edirəm ki, sən öz istədiyinə çatacaq və bu əziyyətdən qurtaracaqsan".

Qalxıb kişini Əzüddövlənin yanına apardı. Əzüddövlə buyurdu məclisi xəlvət etsinlər və onu dindirsinlər. Əvvəldən axıra qədər necə olmuşdusa, elə də təzədən nağıl etdi. Əzüddövlənin ona ürəyi yandı və dedi: "Ürəyini sıxma, təsəvvür et ki, bu iş sənin yox, mənim başıma gəlmişdir, çünki, onu o işə mən təyin etmişəm, tədbirini də mən görməliyəm. Allah-taala məni ona görə yaradıbdır ki, mən xalqı qoruyam, qoymayam bir adam onları incitsin, bu incidən qazi olsa belə. Mən müsəlmanların malını-dövlətini ona tapşırır, maaş və əmək haqqını ona görə verirəm ki, o, müsəlmanların işinə düzlüklə baxsın, şəriətlə hökm versin, zorakılığa salıb rüşvət almasın. Əgər mənim ölkəmdə qoca, təcrübəli, alim bir qazi belə edirsə, gör qorxmaz, cavan qazilərdən nə kimi xəyanətlər baş verər”?! Əvvəllər bu qazi yoxsul, ailəli bir adam idi. Ona təyin etdiyim maaş dolanacağı üçün kifayət edərdi. Bu gün Bağdad və onun ətrafında o qədər torpaq, meyvə bağı, xurma ağacı, bostanı, malikanəsi, ticarət dükanı, cah-cəlalı, dəm-dəstgahı var ki, hədd-hesabı yoxdur. Bu qədər neməti isə o qədər maaşdan toplamaq mümkün deyildir. Deməli müsəlmanların malından olduğu doğrudur".

Sonra üzünü o kişiyə çevirib dedi: "Haqqını sənə çatdırmayınca mən rahat yeyib, rahat yala bilməyəcəyəm, xərcliyini məndən al, bu şəhərdən çıxıb get İsfahana, filankəsi tapıb, biz tələb edənə qədər onun yanında qal. Biz yazarıq o sənə yaxşı baxar.

Sonra iki yüz dinar qızıl, beş dəst paltar verib haman gecə onu İsfahana yola saldı. Əzüddövlə yatmayıb səhərə qədər o malı qazinin əlindən necə almaq haqqında fikirləşdi. Öz-özünə deyirdi: "Əgər zora, ya şahlığıma salıb qazini tutdursam və döydürsəm o heç vaxt etiraf edib xəyanətini boynuna almayacaq, mal



downloaded from KitabYurdu.org

isə batıb gedəcəkdir. Camaat da məni məzəmmət edib deyəcəklər ki, Əzüddövlə qoca və alim bir adamı incitdi, malına tamahı düşdüyü üçün onu bədnam etdi.

Mən elə bir tədbir görməliyəm ki, qazinin bu xəyanətini ona sübut edə bilim, kişi də öz malını ala bilsin".

Bu hadisədən bir-iki ay keçdi. Qazi qızıl yiyəsindən heç bir əsər görmədikdə öz-özünə dedi: “İyirmi min dinar mənə qaldı. Lakin mən səbr etməliyəm. Bəlkə bir adamdan onun ölüm xəbərini eşitdim. O halda ki, mən onu gördüm, daha tez ölər".

İki ay da keçdi.

İsti günlərin birində, istirahət vaxtı Əzüddövlə bi adam göndərib qazini çağırtdırdı, aranı xəlvət edib dedi: "Ey qazi, bilirsənmi sənə nə üçün əziyyət vermişəm”. Dedi: "Şah daha yaxşı bilir". Dedi: "Gələcək haqqında fikir məni götürmüş, yuxum ərşə çəkilmişdi”.

Bu ölkə və dünyanın müqəddəratı məlum deyildir, ömrə də etibar yoxdur. İki haldan biri olacaqdır-Ya bir rəqib bir küncdən baş qaldırıb bu dövləti alacaq, necə ki, biz başqasının əlindən almışıq, özün də bilirsən ki, bu rahatlığa çıxana qədər mən nə qədər əziyyətlər çəkmişəm; ya haqqın fərmanı nazil olub bizi bu dünyadan nakam aparacaq. Heç kəs ölümdən yaxasını qurtara bilməyəcəkdir. Nə qədər ömrümüz qalıbsa, allah bəndələri ilə yaxşı rəftar etsək, xalq bizdən razı qalsa, dünya durduqca bizim adımızı yaxşılıqla yad edəcək, qiyamətdə bəraət qazanıb behiştə gedəcəyik, pis olsaq, xalqla pis rəftar etsək, qiyamətədək bizim adımızı pisliklə yad edəcək, bizə lənət yağdıracaq, qiyamət günü müttəhim hesab edilib cəhənnəmə göndəriləcəyik. Deməli, nə qədər imkan var yaxşılıq etməyə can atıb, xalqa ədalətlə dolanmalı və onlara ehsan verməliyik. Lakin bunları sənə deməkdə məqsədim budur ki, sarayda bir ovuc arvad-uşağım vardır. Oğlanlarımın işi asandır, onlar quş kimidirlər, uçub ölkədən-ölkəyə gedə bilərlər. Lakin üzüörtülülərin işi daha pisdir, onIar zəif və yazıq olurlar. Mən bu işin onlar haqqında bir şey düşünə bilərəm, lakin qorxuram sabah əcəl çata, ya dövlət çevrilişi ola, imkan tapmayam. İndi istəyirəm onlara bir yaxşlıq eləyəm. Bu gün fikirləşmişəm səndən daha mömin, daha pak, daha gözütox, daha etimadlı, daha etibarlı bir adam yoxdur. Mən istəyirəm iki dəfə min-min nağd qızıl və cəvahiri sənin yanında əmanət qoyam. Elə olsun ki, bir sən biləsən, bir mən bilim, bir allah. Əgər sabah mənim başıma bir iş gəlsə, onların vəziyyəti ağırlaşsa, bir parça çörəyə möhtac qalsalar, başqaları xəbər tutmadan gizlicə çağırıb bu dövləti onlar arasında bölüşdürərsən, hərəsini ərə verərsən ki, ismət pərdələri götürülməsin, bir parça çörək üçün xalqa əl açmasınlar. Bunun üçün isə sən belə lədbir gör:- Öz sarayının daxilindəki hücrələri ayır, onların altında bişmiş kərpicdən möhkəm zirzəmilər tikdir. Hazır olacaq mənə xəbər elə. Mən əmr edim, ölümə məhkum iyirmi məhbusu zindandan gətirsinlər, bu malları onların dalına yükləyib sizə göndərsinlər, onlar yükləri zirzəmiyə yığıb sərdabanın ağzını hörsünlər, sonra onları geri qaytarsınlar. Əmr edərəm məhbusların hamısını öldürərlər və bu iş gizli



downloaded from KitabYurdu.org

qalar”.

Qazi dedi: "Əmrə hazıram, nə mümkündürsə hamısını yerinə yetirərəm".

Sonra şah bir xidmətçini çağırıb yavaşca dedi: "Get xəzinədən iki yüz məğrib dinarını kisəyə qoy gəlir. Xidmətçi gedib qızılı gətirdi. Əzüddövlə alıb qazinin qabağına qoydu və dedi: "Bu iki yüz dinarı bu zirzəmi üçün xərclə, çalmasa, yenə göndərərəm". Qazi dedi: "Allah xatirinə götürün, mən bunu öz qızılımla yerinə yetirərəm,,. Əzüddövlə dedi: "Bu düzgün deyil ki, sən mənim işim üçün öz qızılım xərcləyəsən. Bir də ki, sənin qızılın halaldır, bu iş üçün xərclənməsi düz olmaz.

Sənə etimad ediləni yerinə yetirsən, elə böyük iş görmüş olarsan". Qazi dedi: "Şahın buyruğu doğrudur". O iki yüz dinarı ətəyinə doldurub sevincək çıxdı və öz-özünə dedi: "Bu qoca vaxtımda bəxtim yar olmuş, dövlət qapıları üzümə açılmışdır, evim qızılla dolacaqdır. Əgər şaha bir hadisə üz versə, heç kəsin məndə qəbaləsi və sənədi yoxdur, heç nə tələb edə bilməz". Hamısı mənə qalar. O iki aftafa qızıl sahibi sağ ola-ola məndən bir dang ala bilmir, şah öləndən sonra necə ala bilər?!"

Evinə getdi, təcili olaraq sərdabəni tikdirməyə başladı, bir ay çəkmədi ki, çox möhkəm bir sərdabə hazır oldu. Qalxıb gecə namazı vaxtı Əzüddövlənin yanına getdi. Əzüddövlə onu xəlvətə çağırıb soruşdu: "Bu vaxt nə iş üçün gəlibsən?,, Dedi: "Şaha bildirmək istəyirəm ki, buyurduğunuz sərdabə hazırdır” Əzüddövlə dedi: "Allaha şükür, mən sənin haqqında səhv etməmişəm. Bu cəhətdən mənim ürəyimi sakitləşdirdin. Sənə dediyimi, min min və beş yüz min dinar qızıl və cəvahir hazırlamışam. Əlavə olaraq çoxlu paltar, ud, ənbər, müşk, kafur ayırmışam. Gözləyirəm yaxın günlərdə müştərilər gəlib onları da alsınlar. Bu həftəyə tamam olar, bir dəfəliyə hamısını ora gətirərlər. Mən sabah gecə o sərdabəni görmək üçün sənin sarayına gəlib ona baxmaq istəyirəm, görüm necə çıxıbdır. İstəmirəm xərcə düşüb hazırlıq görəsən, çünki o saat qayıdacağam.

Qazini yola salcaq dərhal qızılın sahibini gətirmək üçün İsfahana bir qasid göndərdi.

Sabahısı gün gecə qazinin sarayına getdi, o sərdabəyə baxıb bəyəndi və qaziyə dedi: "Çərşənbə axşamı gəlib vəd edilmiş əmanətlərə baxa bilərsən,,. Qazi dedi: "Baş üstə!" Qazinin sarayından çıxdıqdan sonra xəzinədara əmr etdi ki, yüz qırx aftafa qızıl hazırlasınlar, üç qurrabe mirvari, qırmızı yaqutla dolu bir cam, ləl ilə dolu bir cam, firuzə ilə dolu bir cam da aftafaların qabağına düzsünlər. Xəzinədar bunları hazırlayana qədər çərşənbə axşamı çatdı. Əzüddövlə qazini çağırdı, onun əlindən tutub malların yığıldığı otağa apardı. Qazi malları gördükdə valeh oldu. Şah dedi: "Bu həftəni gecə yarısına qədər gözdə-qulaqda ol, bəlkə malları göndərdim, sonra otaqdan çıxdılar.

Qazi evinə qayıtdı, sevincindən ürəyi köksündən quş qanadı kimi titrəyirdi. Qəzadan sabahısı gün qızıl sahibi də gəlib çıxdı. Əzüddövlə ona dedi: "Get qazinin yanına, ona de ki, mən indiyə qədər dözüb sənin hörmətini



downloaded from KitabYurdu.org

saxlamışam, bundan sonra isə səbr etməyə taqətim yoxdur; bütün şəhər bilir ki, mənim və atamın nə qədər malı var idi, mənim dediklərimi təsdiq edərlər, qızıllarımı versən heç, verməsən gedib Əzüddövləyə şikayət edəcəm, səni elə hörmətdən salacağam ki, bütün dünyaya ibrət olsun. Gör qazi nə cavab verir. Qızılı qaytarsa, daha yaxşı, qaytarmasa, gəlib mənə danışarsan".

Haman adam qazinin yanına getdi, ədəblə yanında oturub o cürə dedi. Qazi fikirləşdi ki, əgər bu kişi gedib mənim haqqımda Əzüddövləyə şikayət etsə, o da məndən şübhələnib malları mənim evimə göndərməz. Yaxşısı budur ki, onun qızılını qaytarım, hər halda yüz əlli aftafa qızıl və filan qədər cəvahir iki aftafa qızıldan daha sərfəlidir, sonra o adama dedi: "Haradasan, səni axtarmaqdan yorulmusam, bir az gözlə". Durub hücrəyə getdi, sonra onu da hücrəyə çağırdı qucaqlayıb dedi: "Sən mənim dostum, özün də oğlum yerindəsən. O işi ehtiyat üzündən edirdim. O gündən də səni axtarıram. Allaha şükür ki, gəlib çıxdın, məni də nigarançılıqdan qurtardım, qızılların da yerində cabəcadır". Qalxıb hər iki aftafa qızılı kişinin qabağına gətirdi və dedi: "Bu da sənin qızılların, götür hara istəyirsən get". Kişi evdən çıxıb iki hambal tutdu, qazinin evinə aparıb o iki aftafanı onların çiyninə qoydu və eləcə də Əzüddövlənin sarayına apardı. Əzüddövlə qızılları gördükdə güldü və dedi: "Allaha şükür, sən haqqına çatdın, qazinin isə xəyanəti aşkara çıxdı. Bilirsənmi, qızılını sənə çatdırmaq üçün mən nə fənd işlətmişəm? Böyüklər əhvalatı soruşdular. Əzüddövlə onlara danışdı, hamısı təəccüb etdilər. Sonra şah baş hacibə əmr etdi: "Get qazinin çalmasını boğazına dolayıb başıaçıq, ayağıyalın yanıma gətir".

Hacib getdi, necə əmr edilmişdirsə elə də etdi. Qazi haman kişini, əlində tutduğu iki aftafanı gördükdə dedi:"Vay yandım". Başa düşdü ki. Əzüddövlənin ona dedikləri və göstərdikləri bu iki aftafa üçün imiş. Sonra Əzüddövlə onun üstünə qışqırıb dedi: "Sən qoca alim və hakimsən, bir ayağın gordadır, bir ayağın burda, sən əmanətə xəyanət edəndə gör başqalarından nə gözləmək olar?! Aydın oldu ki, sənin topladığın bütün var-dövlət xalqın malından və rüşvətdəndir. Bu dünyada mən sənin cəzanı verirəm, o dünyada isə özün öz mükafatını alarsan. Qoca və alım olduğun üçün canını bağışlayıram, lakin malın və nıülkün xəzinənin olacaqdır".

Nə qədər malı-mülkü var idisə hamısını müsadirə etdilər. ondan sonra ona bir daha vəzifə tapşırmadılar. O iki aftafa qızılı isə yiyəsinə verdilər.

**Hekayət.** Buna oxşar bir hadisə Sultan Mahmud Səbüktəkinlə də olmuşdur. Bir kişi gəlib Sultan Mahmuda şikayət edib dedi: "Bir kisəyə iki min dinar tikib şəhərin qazisinin yanında əmanət qoydum və özüm səfərə getdim. Özümlə götürdüklərimi Hindistan yolunda oğrular apardılar, qaziyə tapşırdıqlarımı geri alıb evə gətirdim, kisənin ağzını açdıqda mis dirhəmləri gördüm. Qayıdıb qaziyə dedim: "Mən sənə qızıl kisəsi vermişəm, burda isə mis dirhəmləri görürəm, bu necə olan şeydir?!" Dedi:"Mənə verərkən göstərməmişdin, başı bağlı, ağzı möhürlü kisə vermişdin, mən də sənə elə qaytarmışam. Soruşdum sənin kisəndir.



downloaded from KitabYurdu.org

Dedin bəli. İndi isə həyasızcasına gəlibsən ki, bu mənim deyil?!" Dedim: "İlahi, sən özün mənə kömək elə. Bir parça çörək almağa belə imkanım yoxdur".

Sultanın ona yazığı gəldi, dedi: "Özünü ələ al, mən sənin qızıllarını qaytararam, get o kisəni mənim yanıma gətir".

Kişi gedib kisəni gətirdi, Mahmud kisənin o yan, bu yanına baxdı, sökük izi görmədi. Dedi: "Qoy bu kisə hələlik mənim yanımda qalsın, sən də gündə üç batman çörək, üç batman ət, hər ay bir dinar mənim vəkilimdən alıb, hələlik dolan, görüm mən sənin bu qızıl məsələni necə həll edə bilərəm".

Sonra Mahmud bir dəfə günorta, hamının istirahət etdiyi bir vaxt, haman kisəni qarşısına qoyub diqqətlə nəzərdən keçirməyə, fikirləşməyə başladı ki, axı bu necə ola bilən şeydir. Nəhayət. ürəyində bu qərara gəldi ki, ola bilər bu kisəni söküb qızılları çıxarıb, yenidən tikmiş olalar. Onun sən dərəcə gözəl, zərbaft bir mütəkkə üzü var idi, mütəkkənin üstünə salınmışdı.

Gecə yarısı qalxıb bıçağı götürdü, haman mütəkkənin üzüncləri bir gəz qədər kəsdi, sonra yenə öz yerinə qoydu. Sabahısı gün sübh açılarkən çıxıb ova getdi və üç gün ovda qaldı.

Ona xidmət edən xüsusi fərraş səhər vaxtı gedib mütəkkəni çırpmaq istərkən üzün didildiyini gördü, qanı bərk qaraldı, qorxuya düşüb ağlamağa başladı. Fərraşxanada bir qoca fərraş var idi, onu görüb dedi: "Sənə nə olubdur?" Dedi: "Deməyə qorxuram". Dedi: "Qorxma mənə de". Dedi: "Kimin isə mənimlə düşmənçiliyi var imiş, sultanın istirahət otağına girərək onun mütəkkə üzündən bir gəzə qədər kəsmişdir. Sultan görsə məni öldürər". Dedi: "Səndən başqa görən olubmu?" Dedi: "Yox". Dedi: "Elə isə ürəyini sıxma, mən onun çarəsini bilirəm və sənə də öyrədərəm. Sultan ova getmişdir, bu şəhərdə bir qoca gözətçi var, dükanı filan yerdədir, adı Əhməddir, gözə vurmaqda tayı yoxdur. Bu şəhərdə nə qədər gözə ustası varsa, hamısı onın şagirdidir. Bu mütəkkə üzünü onun yanına apar, nə qədər muzd istəsə ver. Heç bir mahir adam tapa bilməz ki. haradan sökülmüş, haradan tikilmişdir".

Fərraş dərhal mütəkkə üzünü götürüb, gözətçi Əhmədin yanına apardı. O soruşdu: "Nə istəyirsən?" Dedi: "İstəyirəm buna elə gözə vurasan ki, heç kəs bilməsin". Dedi: "Yarım dinar allam". Dedi: "Bir dinar al, lakin bütün ustalığını göstər". Dedi: " Təşəkkür edirəm, arxayın ol".

Fərraş bir dinar verib soruşdu: "Tezmi hazır olar?" Dedi: "Sabah ikindi namazı vaxtı gəlib apara bilərsən".

Vəd olunmuş vaxt gəlib çatdı, o mütəkkə üzünü fərraşın qabağına qoydu. Nə qədər axtardı gözə yerini tapa bilmədi. Fərraş sevincək evə qaçıb necə var idisə elə də mütəkkənin üzünü çəkdi.

Sultan Mahmud ovdan qayıtdıqdan Sonra günorta vaxtı istirahət otağına getdikdə baxıb mütəkkə üzünü düzəldilmiş gördü. Fərraşın çağırılmasını əmr etdi. Fərraş gəldikdə soruşdu: "Bu mütəkkə üzü didilmişdi, bunu kim düzəIdibdir?„ Dedi: "Ey ağam, yalan deyirlər, bu heç vaxt kəsik olmamışdır". Dedi: "Ay axmaq



downloaded from KitabYurdu.org

qorxma, onu mən özüm didmişdim. Bundan mənim öz məqsədim var idi. De görüm, bunu hansı gözətçi belə gözəl düzəltmişdir?!,, Dedi: "Ey ağam filan gözətçi düzəltmişdir. Mən bərk qorxmuşdum, filan fərraş mənə yolu göstərdi". Fərraş gedib gözətçini gətirdi. Gözətçi sultanı tək gördükdə bərk qorxdu. Sultan ona dedi: "Qorxma, ey usta, irəli gəl, bu mütəkkə üzünü sənmi düzəltmisən?", Dedi: "Şahın dövlətindən belə çıxmışdır". Dedi: “Bu şəhərdə səndən ustası varmı?,, Dedi: "Yox". Dedi: "Səndən bir söz soruşsam doğrusunu deyərsənmi?" Dedi: "Şaha doğru söz deməkdən daha savab nə ola bilər?" Dedi: "Bu sən bir ildə heç bir böyük adamın evində yaşıl kisə gözəmisənmi?" Dedi: "Gözəmişəm". Dedi: "Harada?" Dedi: "Şəhər qazisinin evində iki dinar da mənə muzd veribdir". Dedi: "O kisəni görsən tanıyarsan?" Dedi: "Tanıyaram".

Mahmud əlini mütəkkənin altına uzadıb kisəni çıxartdı, gözətçiyə verib soruşdu: "Bu kisədir?" Dedi: "Bəli". Dedi: "Harasını düzəldibsən?" Barmağını qoyub dedi: "Burasını". Mahmud oranın belə qəşəng düzəldiyinə təəccüb etdi. Dedi: "Ehtiyac olsa, qazinin üzünə durub şahidlik edə bilərsənmi?" Dedi: "Nə üçün edə bilmərəm?"

Dərhal qazini gətirmək üçün adam göndərdilər, bir nəfəri də kisə sahibinin ardınca yolladılar.

Qazi içəri girib salam verdi, adəti üzrə keçib yerində oturdu. Mahmud üzünü qaziyə çevirib dedi: "Sən qoca və alim bir adamsan, mən qaziliyi sənə vermiş, müsəlmanların malını və qanını sənə etibar etmişəm. Bu şəhərdə iki min adam varki, səndən daha çox savadlıdır, lakin hamısı zay olub gedir. Rəvadırmı, sən xəyanət edəsən. Əmanət şərtlərini yerinə yetirməyəsən, müsəlman bir kişinin malını yeyəsən, onu isə hər şeydən məhrum edəsən?"

Qazi dedi: "Ey ağam, bu nə sözdür? Kim deyir ki, mən belə edərəm?" Dedi: "Sən belə edirsən murdar köpək!" Sonra kisəni ona göstərdi və dedi: "Budur, sənin yanında əmanət qoyublar, sən kəsib qızılları çıxarmış, yerinə mis doldurmuş, sonra kisəni verib gözətdirmiş, yenə ağzı möhürlü yiyəsinə qaytarmışsan. Budur sənin dəyanətin, əməlin, daxili xasiyyətin". Qazi dedi: "Nə kisəni görmüşəm, nə də bu əhvalatdan xəbərim vardır".

Mahmud dedi hər iki kişini içəri gətirsinlər. Bir xidmətçi gedib kisənin sahibini və gözətçini gətirdi.

Mahmud dedi:"Ay yalançı, bu kisə sahibi, bu da gözətçi, bu kisənin burasını gözəyibdir".

Qazi utandı, qorxudan canına elə tirtətmə düşdü ki, dili söz tutmadı.

Mahmud dedi:"Aparınız köpəyi. Üstündə göz olunuz ki, kişinin pulunu dərhal versin, yoxsa başını vurduraram".

Qazini yarımcan halda sultanın otağından çıxarıb keşikçi otağına saldılar və pulu istədilər. Qazi dedi:"Vəkilimi çağırın". Vəkilini çağırdılar. Qazi göstəriş verdi. Vəkil gedib düz iki min dinar Nişabur qızılı gətirdi və sahibinə verdi.

O birisi gün Mahmud taxta çıxıb, şikayətə baxarkən qazinin xəyanətini



downloaded from KitabYurdu.org

hamıya elan etdi. Sonra da fərman verdi qazini gətirib, dərbarın qülləsindən başı üstə asdılar. Böyüklər vasitəçilik etdilər, dedilər qocadır, alimdir. Qazi əlli min dinara özünü geri almağı təklif etdi. Bu qədər malı ondan aldılar. Özünü də qazilikdən saldılar.

Belə hekayətlər çoxdur.

Yalnız bu qədər deyildi ki, şahların ədalət, insaflı olmağa nə qədər ciddi çalışdığlarını, nə tədbirlər gördüklərini, nanəcib adamları nə üsul ilə yer üzündən təmizlədiklərini dünyanın hökmdarı bilsin.

Şah ağlının güclülüyü ordu güclülüyündən daha yaxşıdır. Allaha şükür şahımızda bunların hər ikisi vardır. Bu fəsil casuslar və xəfiyyələr haqqındadır. Bu işlə məşğul olanlar burada deyilən kimi olmalı və hər yerə göndərilməlidirlər.

### *On dördüncü fəsil*

## QASİD VƏ GÖYƏRÇİNLƏRİN ARDICIL GÖNDƏRİLMƏSİ HAQQINDA

Bir neçə mühüm yollara daimi qasidlər təyin etmək, onlara müvafiq maaş və əmək haqqı vermək lazımdır. Belə olduqda bir gecə-gündüzdə əlli fərsəng məsafədə nə olsa, nə hadisə baş versə, gəlib çatar. Keçmiş adətə görə xüsusi nəqiblərin olmalıdır ki, qasidlərin qayğısına qalsınlar və onlar öz vəzifələrini vaxtında yerinə yetirsinlər.

### *On beşinci fəsil*

## SƏRXOŞLUQDA VƏ AYIQLIQDA ƏMRLƏRİN VERİLMƏSİNDƏ EHTİYATLI OLMAQ LAZIMDIR

Divanxanaya və xəzinəyə göndərilən əmrlər, ölkənin mühüm məsələləri, iqta, vergilər haqqmda olar və onların bəzilərini dərhal yerinə yetirmək lazım gələr. Bu incə məsələdir və bu işdə çox ehtiyatlı olmaq lazımdır. Elə deyilə bilər ki, onda ziddiyyət olar, ya lazımi kimi başa düşülməz. Elə etmək lazımdır ki, bu əmrlər bir adam tərəfindən verilsin və onun dili ilə də başqalarına çatdırılsın, vasitəçidən istifadə edilməsin. Onun da Şərti belədir: “Əmr hazırlandıqda divan onun haqqında bir də rəyi öyrənməli, sonra imzaya göndərilməlidir; bundan sonra isə o, icra edilməlidir. Allahın istəyi ilə.



downloaded from KitabYurdu.org

*On altıncı fəsil*

## XÜSUSİ VƏKİL VƏ ONUN İŞİNİN İRƏLİLƏMƏSİ HAQQINDA

Bizim zəmanədə vəkillik yaman hörmətdən düşübdür. Həmişə bu vəzifə məhrəm və adlı-sanlı adamlara tapşırılmışdır. Mətbəx işləri, şərabxana, mehtərxana, şah, şahzadə və əshabələr sarayı etibar edilən bu adam hər ay, bəlkə hər gün ali məclislərdə olub, şahla söhbət etməli, baş vermiş hadisələr haqqında xəbər çatdırmalı, fikir öyrənməli, alınıb satılan şeylər haqqında məlumat verməlidirlər.

Ona böyük hörmət və nüfuz qazandırmaq lazımdır ki, işlərini yerinə yetirə bilsin, müvəffəqiyyət qazansın.

*On yeddinci fəsil*

## NƏDİMLİƏR, ƏSHABƏLƏR VƏ ONLARIN İŞİNİ NİZAMA SALMAQ HAQQINDA

Şah layiqli nədimləri olmadan, onlarla açıq və yaxından dostluq etmədən keçinə bilməz, çünki böyüklər, əmirlər və ordu başçıları ilə çox oturub-durmağın şahın əzəmət və həşəmətinə ziyanı vardır: onlar get-gedə harınlayarlar.

Bundan əlavə, vəzifə tapşırılana nədimlik, nədim təyin edilənə vəzifə tapşırılmamalıdır. çünki o şaha yaxınlığından sui-istifadə edib əliuzunluğa və camaatı incitməyə başlaya bilər.

Amil həmişə şahdan qorxmalı, nədim isə şahdan çəkinməməli, onunla arası açıq olmalıdır ki, şahı əyləndirib könlünü aça bilsin. Bunun isə öz vaxtı vardır, şah qəbulu qurtardıqdan, böyüklər dağılışıb getdikdən sonra nədimin növbəsi çatar.

Nədimin bir neçə faydası vardır: birincisi, şahın bir qulaq yoldaşı olar; ikincisi, gecə-gündüz şahla bir yerdə olduğundan onun həyatının mühafizəçisi kimi sayılar; üçüncüsü, allah uzaq eləsin, əgər bir təhlükə üz versə, canını qurban edib öz bədənini haman təhlükəyə qalxan edər; dördüncüsü. nədimə min cür söz demək olar: onlar şahın sirdaşı, əməkdaşıdırlar, beşincisi casuslar kimi şahların vəziyyətindən onu xəbərdar edərlər; altıncısı, istər məst, istərsə ayıqlıqda, istər zarafatyana, istərsə ciddi istədikləri zərərin, xeyirin sözləri deyərlər ki, bunda da böyük hikmət və məsləhət olar.

Nədim təbiətən müdrik, təmizəxlaq, üzügülər, təmizməzhəb, sirr saxlayan, pak məslək, yaxşı nağıl danışan, lətifə, ciddi hekayələr söyləməyi bacaran, əzbərdən çoxlu rəvayət bilən, həmişə şirin deyib, şirin gülə bilən, nikbin, xoşxəbər olmalıdır; nərd və şahmat oynamağı bacarmalıdır, rud çalmağı, silah oynatmağı bilsə daha yaxşıdır. Şaha tərəfdar çıxmalıdır, şahın ağzından nə çıxsa afərin,



downloaded from KitabYurdu.org

mərhəba deməlidir, müəllimlik edib göstəriş verməməlidir: "Bunu elə, onu eləmə,onu nə üçün etdin, bunu etmək lazım deyildir...,, Bu şaha ağır gələr, nəhayət, nifrətə səbəb olar. Yaxşı olar nədimlər şərab məclisi, eyş-işrət, əyləncə, məhrəmanə məclis,ov, çövkan oyunu buna oxşar nə varsa hazırlasınlar, çünki nədimlər elə bunu üçündürlər. Ölkə dolandırmaq, yürüş, rəyasət, siyasət, ehtiyat toplamaq, vergi yığmaq, səfərə çıxmaq, məskən salmaq, ordu və xalqa aid nə varsa vəzir, əyan-əşraf və dünyagörmüş qocaların məsləhəti ilə görülsə daha yaxşı olar, işlər öz qaydasında gedər. Şahların bəziləri təbibi və münəccimləri nədim etmişlər ki, hərəsinin nə məsləhət görəcəklərini öyrənsinlər, nə edəcəklərini, səhhətlərini necə qoruyacaqlarını bilsinlər. Münəccim isə vaxtı və saatı təyin etməli, görüləcək iş üçün uğurlu gün seçməli, nəticəni əvvəlcədən xəbər verməli idi.

Bəzi şahlar bunların hər ikisinin əleyhinədirlər. Onlar deyirlər ki, təbib bizi dadlı xörəklərdən və xoş ləzzətlərdən məhrum edir, xəstə olmadığımız halda nahaq yerə dava-dərman verib bizi incidir. Münəccim də işlərimizə mane olur, tədbirlərimizi həyata keçirməyə qoymur, kefımizi pozur, qanımızı qaraldır.Yaxşısı budur ki, bunlar ehtiyac olduqda çağırsınlar.

Lakin nədim səfərə çıxmış, dünyagörmüş təcrübə qazanmış, böyüklərə xidmət etmiş olsa, daha yaxşıdır. Adamlar şahın adətini, xasiyyətini bilmək istədikdə onu nədimi ilə müqayisə edirlər. Nədimləri xoşxasiyyət, xoştəbiət, alim, təvazökar, səbirli olduqda sahın da bədxasiyyət, bədbin, və bədtəbiət adam olmadığı bilinər.

Bundan əlavə, hər nədimin öz yeri, öz mövqeyi vardır: bəziləri oturmalı, bəziləri ayaq üstə durmalıdır, məsələn qədimdən bəri şahlar, xəlifələr məclisində belə bir qayda olmuş, indi də bu adət qədim xəlifə xanədanında qalmışdır; hər xəlifənin nədiminin sayı əcdadlarının nədimlərinin sayına bərabər olur. Qəzneyn Sultanın həmişə iyirmi nədimi olarmış, onu oturar, onu da ayaq üstə durarmış. Bu adət saminlərdən qalmadır. Şah nədimləri tam mənada təmin edilməli, əyan-əşraf arasında onlara böyük hörmət yaradılmalıdır. Onlar təmkinli, sədaqətli və şahsevən olmalıdırlar.

***On səkkizinci fəsil***

## PADŞAHIN ÖZ İŞLƏRİ BARƏSİNDƏ ALİM VƏ HİKMƏT SAHİBLƏRİ İLƏ MƏŞVƏRƏT ETMƏSİ HAQQINDA

Məsləhətləşmək iradənin möhkəmliyinə, ağlın kamilliyinə və uzaqgörənliyə dəlalət edər. Hər kəsin bir biliyi, hər adamın bir peşəsi olar; biri az bilər, biri çox; birinin elmi olar, lakin təcrübəsi olmaz, birinin həm elmi olar, lakin təcrübəsi olmaz, birinin həm elmi olar, həm də təcrübəsi.

**Misal.** Bu ona oxşar ki, biri tibb kitabından bir xəstəliyi və onun dərmanlarını oxuyub öyrənə vəssəlam. Başqa birisi isə həm dərmanları, həm də



downloaded from KitabYurdu.org

müalicəsini bilə və dəfələrlə təcrübədən keçirmiş ola. Bunu heç vaxt o birisinə bərabər tutmaq olmaz. Məsələn, biri çoxlu səfər edib dünyagörmüş ola, isti-soyuq dada, başına müxtəlif hadisələr gələ, bir başqası heç evdən xaricə çıxmamış ola, bunu o birisinə bərabər tutmaq olmaz. Buna görə deyiblər: "Bütün məsləhətləri alimlər və dünyagörmüş qocalarla etmək lazımdır".

**Başqa bir misal.** Biri tez başa düşən, tez iş görən, başqa birisi küt, gec başa düşən, ağır işləyən ola, bunlar o birilərinə bərabər tutula bilməz. Ona görə deyiblər: "Bir adamın məsləhəti-bir adamın gücü, on adamın məsləhəti-on adamın gücü kimidir". Bütün dünya adamları bu fikrə şərikdirlər ki, peyğəmbər ə.s. daha tədbirlisi yoxdur. O, sərvərin bütün biliyinə, hər şeyin axırını görə bilməsinə, göylər, yerlər, behişt, cəhənnəm, lövhə və qələm, fələk və taxt, bu qəbildən olan hər şeyin ona baş əyməsinə, Cəbrail ə.s. hər saat nazil olub xəbər gətirməsinə, müjdə verməsinə, olmuşlar və olmamışlar haqqında xəbər verməsinə, bu qədər fəzilət və möcüzə göstərməsinə baxmayaraq allah-taala ona buyurur: “İşlərdə məsləhətləşin". "Ya Məhəmməd, qarşına bir iş çıxanda əshabələrinlə məsləhətləş". Ona məşvərət etməyi buyurmuşdur, çünki onun da məsləhət və məşvərətə ehtiyacı var imiş. Onu da bilmək lazımdır ki, ondan daha az ehtiyacı olan heç kəs ola bilməz. Deməli, şah bir iş görmək istədikdə, ya qarşısına bir iş çıxdıqda qocalar və tərəfdarları ilə məsləhətləşməli, məşvərət etməlidir ki, hər kəs o barədə düşündüyünü desin, şah öz fikirləri ilə onların hər birini müqayisə edər, onlar da bir-birlərinin fikirlərini eşidib götür-qoy edərlər. Nəticədə işin doğru yolu meydana çıxar. Ən düz tədbir və doğru yol o hesab edilə bilər ki, hamının fikri bir olsun. İşdə məşvərət etməmək ağlın zəifliyinə dəlalət edər və belə adamı özbaşına adlandırarlar. Məqsəd olmadan heç bir iş görmək mümkün ola bilmədiyi kimi məşvərət etmədən də heç bir tədbiri yaxşı həyata keçirmək olmaz.

Allaha şükür, dünyanın hökmdarı həm möhkəm iradəli, həm ağıllıdır, həm də tədbirli, işgüzar adamları vardır. Buradakı yalnız kitabın tələbinə görə deyilmişdir.

*On doqquzuncu fəsil*

## MÜFRİDLƏR, ONLARIN YARAQLANDIRLMASI VƏ İŞLƏRİNİN NİZAMA SALINMASI HAQQINDA

Həmişə dərgahda iki yüz adam saxlanmalıdır ki, bunlara da müfrid deyilir. Bunlar xüsusi seçilməli, həm qəşənglik, həm qədd-qamət, həm mərdlik, həm də qoçaqlıqda kamil olmalıdırlar; yüzü xorasanlı, yüzü deyləmli.

Bunlar istər səfərdə, istərsə düşərgədə həmişə xidmətdə olub dərgahı tərk etməməlidirlər. Onların paltarları gözəl, silahları mükəmməl, qaydasında olmalıdır. Bunlar ehtiyac olduqda verilməli, vaxtı çatdıqda yenə geri alınmalıdır.



downloaded from KitabYurdu.org

Bu silahların iyirmisinin həmayil və süpəri qızıldan, yüz həştadının həmayil və süpəri (qalxanı) isə gümüşdən, nizələri Xətdən[121], minikləri hazır, paltarları sahman olmalıdır. Hər əlli adanıa biri başçı olmalıdır ki, onların qayğısına qalıb təmin olunmaları haqqında göstəriş versin. Hamısı atlı və yaraqlı olmalıdır ki, bir hadisə baş verdikdə, bir iş qarşıya çıxdıqda öz vəzifələrini yerinə yetirə bilsinlər. Bunlarla yanaşı hər zümrədən olan dörd min piyada olmalıdır və onların siyahısı divanda saxlanmalıdır. Bunlardan min nəfər seçilmişi şahın, üç mini də əmirlərin ixtiyarında olmalıdır ki, ehtiyac olduqda onlardan istifadə etsinlər.

*İyirminci fəsil*

## DƏRGAHDA BƏZƏK- DÜZƏKLİ, DAŞ-QAŞLI SİLAHLARIN SAXLANMASI HAQQINDA

Həmişə xəzinədə daş-qaşa tutulmuş, bəzək-düzəkli iyirmi dəst hazır silah saxlanmalıdır ki, başqa ölkələrdən elçi (səfir) gəldikdə fəxri libaslar geyinmiş iyirmi qulam haman silahları götürüb taxtın ətrafında dursunlar. Hərçənd bizim hökmdar, allaha şükür elə dərəcəyə çatmışdır ki, belə təşrifata ehtiyacı yoxdur, lakin ölkənin zinəti, şahlığın şövkəti hökmdarın əzəmətinə müvafiq olmalıdır.

Bu gün dünyada hökmdarımızdan, allah onun mülkünü əbədi etsin, daha böyük şah yoxdur, heç kəsin ölkəsi onunkundan böyük deyildir, lakin yaxşı olar ki, başqa şahlarda bir dənə olandan hökmdarımızda on dənə olsun, başqa şahlarda on dənə olandan hökmdarımızda yüz dənə olsun; silah, qoşun, ədalət, əzəmət, iradə, qüdrət və sairəyə gəldikdə isə onların hamısı hökmdarımızda vardır.

*İyirmi birinci fəsil*

## ELÇİLƏRİN GƏLMƏSİNİN MƏNASI VƏ ONLARIN İŞLƏRİNİ NİZAMA SALMAQ HAQQINDA

Başqa ölkələrdən gələn elçilər dərgaha çatmayınca heç kəsin onlardan xəbəri olmur, onların gəlib getməsi üçün heç kəs məsul olmur və bu barədə xəbər vermir. Bunu sayıqsızlıq və işlərə xor baxılması kimi yoza bilərlər. Sərhəd valisinə tapşırmaq lazımdır: xaricdən kim gəlsə dərhal çapar göndərib xəbər verməlidir ki, kimdir, haradan gəlir, neçə piyadədir, yaraq və təmtəraqları necədir, nədən ötrü gəlir...

Məsul bir adam qoşmalıdır ki, onları müəyyən şəhərə çatdırsın, orada başqa bir inanılmış adama tapşırsınlar ki, onları o biri şəhər və qəsəbələrə qədər müşayiət etsinlər, bu minvalla aparıb dərgaha yetirsinlər.

Onları harada düşsələr hörmətlə qəbul etməli, yaxşı yedirdib-içirməli, hörmətlə də yola salmalıdırlar. Qayıdanda da belə rəftar edilməlidir. Onlara yaxşı,



downloaded from KitabYurdu.org

pis nə etsalər, şahlarına edilmiş kimi sayılar. Şahlar isə həmişə bir-birinin hörmətini yüksək tutmuş, elçilərini isə nəvazişlə qarşılamışlar. Beləliklə, öz qədir-qiymətlərini, şan-şövkətlərini də artırmışlar. Şahlar arasında düşmənçilik olduqda da elçilər vaxtlı-vaxtında gəlmiş, onlara tapşırılan vəzifəni yerinə yetirərək yazılanları vermişlər; heç kəs onları incitməmiş, adi vaxtlarda olduğundan az hörmət göstərməmişlər, çünki belə iş məqbul sayılmaz. Quranda da deyilmişdir: "Elçinin xəbəri çatdırmaqdan başqa heç bir vəzifəsi yoxdur". (atalar isə deyiblər: "Elçiyə zaval yoxdur"- R.S.)

**Başqa fəsil.** Bilmək lazımdır ki, şahlar bir-birinə səfir göndərdikdə məqsədləri yalnız məktub və peyğamlarda yazdıqları açıq sözlərdən ibarət olmur, onlara yüzlərlə xırda və gizli iş tapşırılır; məsələn: onlar yolların vəziyyətini, keçidlərin yerini, su, otlaqların necəliyini, ordunun keçib-keçə bilməyəcəyini, ələfin harada olub-olmamasını, valilərin kimi olduğunu, ölkədəki qoşunun sayını, silahların miqdar və sazlığını, süfrə və məclisinin dəstgahını, mənsəblərin dərəcələrini, oturub-durmalarını, çövkən oyununu, ov qaydalarını, əxlaq və xasiyyətlərini, görünüş və qədd-qamətlərini, işgüzarlıq və rəftarlarını, səxavət, zülm və ədalətlərini, qoca və ya cavan, alim və ya cahil olduqlarını, vilayətinin xarab və ya abad olduğunu, qoşunun razı və ya narazı olduğunu, rəiyyətin varlı ya yoxsul olduğunu, işdə sayıq ya başısoyuq olduğunu, xəsis və əliaçıq olduğunu, vəzirlərin layiqli ya layiqsiz olduğunu, dindar, xoşxasiyyət olduğunu, sərkərdələrin təcrübəli, sınaqdan çıxmış olub-olmadığını, nədimlərinin alim olub-olmadığını, nəyi sevib, nəyi sevmədiklərini, şərab içdikdə rəhmli ya qəzəbli olduğunu, qayğıkeş ya laqeyd olduğunu, zarafata, yoxsa ciddiliyə daha çox meyl etdiyini, qulamlara yoxsa kənizlərə çox rəğbət bəslədiyini öyrənməlidirlər.

Bir gün onu ələ gətirmək və ya onunla düşmənçilik etmək, yaxud ona irad tutmaq lazım gəldikdə onun vəziyyətinə uyğun rəftar edib, yaxşısını, pisini bildikdən sonra lazımi tədbir görərlər.

Necə ki, xoştale Sultan Alp Arslanın dövründə mənim də başıma belə bir hadisə gəlmişdi.

Dünyada iki yaxşı məzhəb vardır: biri Bu-Hənifə, biri şafeidir. Xoştale sultan isə, allah ona rəhmət eləsin, öz məzhəbində möhkəm adam idi və dəfələrlə ağzından qaçırmışdı ki: "Kaş mənim vəzirim şafei məzhəb olmayaydı". O, çox müstəbid, zəhmli, dinpərəst idi və şafei məzhəbini eyib hesab edərdi, ona görə qorxumdan heç vaxt boynuma almaz və ondan ehtiyat edərdim.

Bir dəfə iş belə gətirdi ki, şəhid Sultan Şəmsülmülk Nəsr ibn İbrahim[122] ona tabe olmadığı, boyun əymədiyi üçün Mavərənnəhrə getmək qərarına gəldi, qoşun topladı, Şəmsülmülkün yanına elçi göndərdi. Mən də öz tərəfimdən alim Əştəri sultanın elçisinə qoşdum və hər nə olsa mənə xəbər verməsini tapşırdım.

Sultanın elçisi gedib məktub və pəyamı çatdırdı. Xan oradan öz elçisini sultanın elçisi ilə bura göndərdi. Adət olduğu kimi, elçilər vaxtlı-vaxtsız vəzirlərin yanına gəlib məqsəd və xahişlərini bildirər ki, vəzir onu şaha çatdırsın. Onlar



downloaded from KitabYurdu.org

qayıdıb gedənə qədər bu qaydaya riayət edərlər. Təsadüfən bir neçə dostumla evimdə oturub şahmal oynayırdıq. Biri şahmat da apamırşdı, girov olaraq üzüyünü almışdım, sol əlimin barmağına gen olduğundan, sağ əlimin baş barmağına taxmışdım. Bu vaxt dedilər ki, Səmərqənd xanının vəziri qapıdadır. Dedim içəri gətirsinlər, əmr etdim şahmatı yığışdırsınlar. İçəri girib oturdu, nə sözü vardı dedi. Mən haman üzüyü barmağımda oynadırdım. Elçinin gözü ona sataşdı, sozünü deyib qurtardıqdan sonra durub getdi. Sultan əmr etdi, xanın elçisini yola salsınlar, özü isə cavab aparmaq üçün başqa bir elçi təyin etdi, mən ikinci dəfə də cəld kişi olan alim Əştəri elçiyə qoşdum.

Elçilər Səmərqəndə çatan kimi Şəmsülmülkün yanına gedirlər. Sözarası o öz elçisindən soruşur: "Sultanın ağlını, kamalını necə gördün, qoşunu nə qədərdir, onların silah və hərbi ləvazimatı nə vəziyyətdədir (onlann dərəcələri, dövlət qanunları, divan qaydaları necədir?") Elçi deyir: "Ey ağam sultanın qiyafəsinə, igidlik və siyasətinə, gözəlliyinə, zəhimli və tədbirliyinə söz ola bilməz, ordunun sayını allah bilir, silah, hərbi ləvazimat, şan-şövkətinin həddi-hüdudu yoxdur, divan, dərbar, məclis, dərgah qaydaları da yaxşıdır, onların ölkələrində hər şey qaydasındadır, lakin bircə eyibləri var, onların bu eyibləri olmasaydı, heç kəs onlara çata bilməzdi.” Şəmsülmülk soruşur: "Bu eyib nədir?" Deyir: "Sultanın vəziri rafizidir[123]". Deyir: "Nədən bildin?" Deyir: "Ondan bildim ki, zöhr namazı qılıb söhbət üçün onun yanına getdim, gördüm üzüyü sağ əlinin barmağına keçirib. Mənimlə söhbət edə-edə hey barmağında fırladır. Alim Əştər dərhal mənə yazdı: "Burada Şəmsülmülkün yanında sənin haqqında belə deyildi, belə mən sultanın qorxusundan çox təşvişə düşdüm. Dedim: "Şafei məzhəbinə nifrət edir, onu başıma vurur, qulağma çatsa ki, çikililər[124] mənə rafizi adı qoyublar, Səmərqənd xanı qarşısında belə bir söz deyilib, məni salamat qoymayacaqdır".

Mən otuz min dinar xərclədim, yalvar-yaxar elədim, çoxlu bəxşiş, nə mümkün idisə, hamısını etdim ki, bu xəbər sultanın qulağına çatmadı.

Bunu ona görə nağıl edirəm (biləsiniz ki,) elçilər nəhayət dərəcədə eyib axtaran olurlar, hər şeyə fikir verərlər. Şahlıqda və ölkədə nəyin pis, nəyin yaxşı olduğunu yadda saxlayar, yeri gəldikdə isə şahların eybini söyləyərlər.

Buna görə ağıllı və sayıq şahlar əxlaqlarının təmizliyinə, xasiyyətlərinin yaxşı olmasına xüsusi diqqət yetirmiş, ləyaqətli və düz adamları işə götürərək onlara vəzifə tapşırmış, çalışmışlar ki, elçilər ona eyib tuta bilməsinlər.

Elçiliyə o adam yarayır ki, şahlara xidmət etmiş olsun, hafizəli, uzaqgörən olsun və hər bir elmdən xəbəri olsun, dilli-dilavər olsun, arlıq söz söyləməsin, çox səfər etmiş, qədd-qamətli, yaraşıqlı olsun, alim və qoca olsa, daha yaxşı olar.

Bu iş üçün nədim göndərilsə etimadı çox olar. Əgər mərd, igid, qoçaq, at çapmağı, qılınc oynatmağı yaxşı bacaran adam göndərilsə, daha doğru olar, onlara elə görünsün ki, guya bizim adamların hamısı belədir! Elçi şərafətli, əsl nəcəbli olsa, daha yaxşıdır, çünki belə adamın hörməti də çox olar.

Şahlar çox vaxt elçini hədiyyə, çoxlu nadir şey, silah, var-dövlətlə



downloaded from KitabYurdu.org

göndərmiş, özlərini zəif və yumşaq göstərmiş, fürsət əldə edərək qoşun toplamış, təcrübəli sərkərdələri hücuma keçərək düşmənə qələbə çalmışlar.

Elçi şahın xasiyyətinə və biliyinə dəlalət edir.

*İyirmi ikinci fəsil*

## MƏNZİL BAŞINDA YEMİN EHTİYAT EDİLMƏSİ HAQQINDA

Şahın ali məiyyəti (mühafizə dəstəsi) yola düşdükdə, hər mənzilə çatdıqda, orada yem hazırlanmış olmasa, gündə nə qədər lazımsa zorla əldə edilməli, ya xalqdan bölgü ilə alınmalıdır. Bu isə insafdan deyildir. Ona görə keçilməsi nəzərdə tutulan bütün yollarda, düşünüləsi ehtimal edilən bütün kəndlərlə, onun ətrafında, istər iqta olsun, istərsə xas torpaqlar, (yemin) hamısını almaq lazımdır.

Ribat və kənd olmayan yerlərdə, yaxınlığında olan kənddən yenə də (yemi) almaq lazımdır. Məhsulu yığıb saxlamalı, ehtiyac olsa, işlənməli olmasa, taxıl satılıb pulu başqa mallar kimi xəzinəyə verilməlidir. Beləliklə, hənm rəiyyət əziyyətdən qurtarar, həm yem azlıq etməz, həm şahın qərara aldığı vacib iş təxirə salınmaz.

*İyirmi üçüncü fəsil*

## BÜTÜN QOŞUN MALININ MÜƏYYƏN EDİLMƏSİ HAQQINDA

Qoşunun malını müəyyən etmək lazımdır. İqta sahiblərinin malları mütləq və qəti şəkildə onların əlində olmalıdır, iqtası olmayan qulamların isə malları müəyyən edilməlidir. Elə ki, aydın edildi, qoşunun sayı, onlara çatacaq malın miqdarı müəyyənləşdi, bunu vaxtında onlara çatdırmaq lazımdır. Elə etmək lazımdır ki, o xəzinəyə təhvil verilsin və ya onlar şahı görmədən gedib oradan alsınlar. Ona görə daha yaxşısı budur ki, şah öz əli ilə pulu onun ətəyinə töksün. Bu, onların qəlbində Şaha qarşı məhəbbət və sədaqət yaradar, xidmət və döyüşdə yaxşı çalışıb, möhkəm iradəli olarlar. Qədim şahlarda qayda belə idi: onlar iqta verməz, xəzinədən ildə dörd dəfə hər kəsin özünə müvafiq nağd maaş verərdilər, onlar həmişə pullu-paralı olardılar; buna bistqani[125] deyərdilər. Bu qayda Mahmudun [126] xanədanında hələ indi də qalmaqdadır.

İqtaçılara tapşırmaq lazımdır ki, istər ölüm, istərsə başqa səbəbə görə dəstədən kim əskik olarsa, gizlətməyib dərhal xəbər versinlər. Dəstə başçısına tapşırmalıdır ki, öz maaşlarını aldıqdan sonra hər iş olsa, hamısı onu yerinə yetirməyə hazır olmalıdır. Əgər birisinin üzürlü səbəbi olsa, dərhal xəbər verilməlidir ki, onun azad olunması haqqında əmr sadir olsun. Əks halda, onlara cəza verilib malların cəriməsi alınmalıdır.



downloaded from KitabYurdu.org

*İyirmi dördüncü fəsil*

## HƏR NÖVDƏN QOŞUN SAXLAMAQ HAQQINDA

Bütün ordu bir növdən olsa, onda təhlükə törəyər, ciddi səy göstərməz, pozğunluq yaradarlar. Hər tayfadan qoşun saxlanmalıdır. Belə ki, iki min deyləmli və xorasanlı sarayda olmalıdır. Çatmasalar əlavə etmək olar, bəziləri gürcü, ya pars şəbankarları da ola bilər, çünki bunlar yaxşı adam olurlar.

**Hekayət.** Sultan Mahmudun adəti belə imiş ki, hər tayfadan qoşun saxlarmış. Məsələn, türk, xorasanlı, ərəb, hind, deyləmi, quri, səfərə çıxdıqda, yürüş etdikdə hər gecə hər tayfadan keşikçi təyin edərdi. Hər tayfanın düşərgəsi də göz qabağında olardı. Səhərə qədər heç bir tayfa o birisinin qorxusundan tərpənməyə belə cəsarət etməzdi. Müharibə günü olsa idi hər tayfa öz heysiyyətini qorumaq üçün ürəklə vuruşardı, istəməzdi desinlər ki:"filan tayfa döyüşdə süstlük göstərdi". Hamı çalışardı ki, bir-birindən üstün olsun”.

Döyüşçülər arasında belə bir ənənə yarandıqda hamısı qəhrəmanlıq göstərib şöhrət qazanmağa çalışırlar, silaha əl atdılarmı, düşmən ordusunu darmadağın etməyincə addım geri qoymazlar. Elə ki, ordu bir dəfə, iki dəfə qələbə çalıb düşmənə üstün gəldi, ondan sonra belə ordunun yüz atlısı düşmənin min atlısını vecinə almaz, heç nə bu müzəffər orduya müqavimət göstərə bilməz, ətrafda olan qoşunların hamısı bu şahın qoşunlanndan qorxub itaət edər.

*İyirmi beşinci fəsil*

## HƏR TAYFADAN SARAYDA GİROV QOŞUN SAXLAMAQ HAQQINDA

Ərəb, kürd, deyləm, rum əmirləri və itaətdə olan bütün şəxslərə demək lazımdır ki, hərəsi oğlundan, qardaşından birini saraya göndərsin, bunların ümumi sayı heç bir vaxt beş yüzdən az olmamalıdır. Bir il tamam olduqda onların əvəzinə başqaları gəlməli, bunlar isə öz yerlərinə qayıtmalıdırlar. Əvvəl gəlməyincə bu adamları buraxmaq olmaz. Beləliklə, girovun qorxusundan heç kəs şaha qarşı üsyan edə bilməz. Deyləmlilər, dağlılar, təbəristanlılar, şəbankarələr və bu kimi tayfaların iqtaları, bir parça çörəkləri vardır, ona görə onlardan beş yüz adam sarayda saxlanılmalıdır ki, ehtiyac olduqda saray döyüşçüsüz qalmasın.



downloaded from KitabYurdu.org

*İyirmi altıncı fəsil*

## TÜRKMƏNLƏRİ TÜRK VƏ BAŞQA QULAMLAR KİMİ XİDMƏTDƏ SAXLAMAQ HAQQINDA

Doğmdur, türkmənlərdən qanıqaralıq əmələ gəlmişdir, lakin onların sayı çoxdur, bu dövlətin boynunda onların haqqı vardır, çünki dövlətin yaranmasında çoxlu xidmət göstərmiş, əziyyətlərə dözmüşlər, qohumluqları çatır. Onların övladlarından min adamın siyahısını tutub, saraya qulam vəzifəsinə götürmək lazımdır ki, həmişə xidmətdə olsunlar, silah oynatmağı, qulluq etməyi, xalqla yola getməyi öyrənsinlər, sözə qulaq assınlar; qəlblərində olan kin soyuyub getsin. Ehtiyac olduqda xidmətdə olanlardan beş min, on min ayırıb ata mindirməli, qulamlar kimi əllərinə silah verməli, əyinlərinə libas geyindirməlidir ki, bu dövlətdən onların da payına bir şey düşsün, şan-şöhrət qazansın, onlar razı qalsın.

*İyirmi yeddinci fəsil*

## QULLARIN XİDMƏT VAXTI İNCİDİLMƏMƏSİ VƏ ONLARIN İŞİNİN NİZAMA SALINMASI HAQQINDA

Ehtiyac olmayınca xidmətdə olan qulları incitmək lazım deyildir. Həmişə ox atmayacaqlar ki! Onlar tez dağılışdıqları kimi, tez də toplaşarlar. Qəti əmr verildikdə, bir də təkrar edilməlidir ki, onlar necə etmək lazım olduğunu anlayıb elə də yerinə yetirsinlər. Bütün qulamların, məsələn, suverən, şərab paylayan, sudaşıyan, paltarsaxlayan, ya böyük əmirin ixtiyarında olan qulamların hər gün saraya gəlmələri məcburi deyildir. Demək lazımdır ki, hər otaqdan lazım olan qədər qulam gəlsin əyan-əşraflar da bunun kimi, beləliklə, başqa qulamlara nahaq yerə zəhmət verilməsin.

Qədim vaxtlarda qulamların saxlanması və tərbiyə edilməsində, alınan gündən qocalana qədər yaxşı bir qayda var idi, bu gün o qayda unudulmuşdur. Kitabın məqsədinə uyğun olaraq bir-iki kəlmə danışıldı.

**Saray qulamlarının saxlanması haqqında.** Samanilərin[126] dövrünə qədər də belə bir qaydaya riayət edilərdi: xidmət, istedad və ləyaqətlərinə görə qulamların dərəcələri artırılırdı. Qulam alındıqda o bir il piyada xidmət etməli, rikabda[127] zindənic qəbasi[128] geyməli idi. Bu qulamlara bu bir il içərisində ya gizli, ya aşkar ata minməyə icazə verilməzdi, minsəydilər cəza alardılar. Bir il xidmət etdikdən sonra visaqbaşı[129] hacibə deyərdi, hacib isə ona bir türk atı, cilov və sadə örkən verilməsini əmr edərdi. Bir il at və qamçı ilə xidmət etdikdən sonra belinə bağlamaq üçün qaracur (qurşaq) verərdilər. Beşinci il bəzəkli yəhər, ulduzlu cilov, darai qəba[130] və halqalı toppuz alardı. Altıncı il rəsmi libas, yeddinci il birnəfərlik



downloaded from KitabYurdu.org

on altı mıxlı çadır alar, üç qulam da onun ixtiyarına verərdilər, başına qara gümüşü keçə papaq qoyar, əyninə Gəncə libası geyər, visaqbaşı ləqəbi alardı. Sonra hər il cah-cəlalını, mənsəbini, dəstəsinin sayını artırardılar, olardı dəstəbaşı və hacib. Əgər hər yerdə şöhrət tapıb istedad və ləyaqətli olsaydı, böyük bir iş yerinə yetirsəydi, adamlarla yola getməyi bacarıb ağasını sevən olsaydı, otuz beş yaşına çatmayınca ona əmirlik verməz, vilayət tapşırmazdılar.

Samanilərə qul olub, onların tərbiyəsini görmüş Alptəkin otuz beş yaşında Xorasan sərkərdəliyni aldı. O çox mətanətli, sədaqətli, qoçaq, tədbirli, xalqla yola getməyi bacaran, dəstəsinin hayına qalan, səxavətli, süfrəsi açıq, duz-çörək verən, allahdan qorxan, samani xislətli bir adam idi. İllərlə Xorasanın valisi olmuş, iki min yeddi yüz qul və türk qulamı var idi.

Bir gün otuz türk qulu almışdı, onlardan biri də Mahmucnun atası Səbüktəkin idi. Alınmasından üç gün sonra o qulamların arasında durmuşdu, bu zaman hacib irəli gəlib dedi: "Visaqbaşı olan filan qul rəhmətə getdi, onun çadırını, pal-paltarını, dəstəsini, mirasını hansı qulama verməyi əmr edirsiniz?"

Alptəkinin gözü Səbüktəkinə sataşdı və dedi: "Bu qulama bağışladım". Hacib dedi: "Ey ağam, hey üç gün olmaz ki, siz bu qulamı almısınız, hələ bir il də xidmət etməyib, halbuki rütbəyə çatmaq üçün yeddi il xidmət etməlidir. Bunu ona necə vermək olar?"

Alptəkin dedi: "Mən dedim, qulamcığaz eşidib baş əydi, bağışladığımı geri götürən deyiləm".

Visaqbaşının var-yoxunu ona verdilər. Sonra Alptəkin öz-özünə fikirləşdi: Bu necə oldu ki, yeddi illik bir xidmətin dərəcəsi təzə alınmış, yeniyetmə, kiçik bir qulama çatdı? Görünür, bu əsil-nəsəbli Türküstan zadəganlarındandır, ya işdir gətirib gələcəkdə xoşbəxt olacaqdır. Sonra onu sınaqdan keçirməyə, müxtəlif adamlara sifariş göndərməyə başladı və dedi: "Mənim dediklərimi təkrar et!" Hamısını təkrar etdi, bir dənə də səhv buraxmadı. Sonra dedi: "Get cavabını gətir". Cavabını vaxtında gözlənildiyindən daha yaxşı cavab gətirdi. Gündən-günə onun imtahandan daha yaxşı çıxdığını görən Alpləkin get-gedə ürəyində onu daha çox sevməyə başladı, suçuluğu ona tapşırdı, öz yanında xidmətdə saxladı, on qulam da onun ixtiyarına verdi. Hər gün onu irəli çəkirdi. Səbüktəkin on səkkiz yaşına çatdıqda artıq onun dəstəsində iki yüz igid qulam var idi. Hamısı da Alptəkinin xasiyyətini götürmüşdülər

Bir gün Alptəkin Xələc[131] və türkmənlərə gedib onlardan alınacaq vergiləri toplamaq üçün iki yüz qulam ayırdı, Səbüktəkin də onların içərisində idi. Oraya çatdıqda xələc və türkmənlər vergini bütünlüklə ödəmirdilər. Qulamlar qəzəblənib qılınca əl atdılar, vuruşub vergini zorla almaq istədilər. Səbüktəkin dedi: "Mən vuruşmayacağam və bu işdə sizinlə yoldaşlıq etməyəcəyəm". Yoldaşları soruşdu: "Nə üçün?" Dedi: "Ağamız bizi müharibəyə göndərməyib, deyib gedin mal gətirin.Vuruşsaq məğlub olsaq böyük biabırçılıq olar, ağamızın əzəmətinə xələl gələr. Bir də ağamız deyər ki, əmr olmadan nə üçün vuruşurdunuz?



downloaded from KitabYurdu.org

Ölənə qədər bu məzəmmətdən qurtara bilmərik, bu danlağa davam gətirə bilmərik".

Alptəkin Səbütəkindən soruşdu: "Nə üçün vuruşmadın və nə üçün qoymadın qulamlar vuruşsunlar?" Səbüktəkin dedi: "Ona görə ki, ağamız bizə buyurmamışdı, əmrsiz vuruşsaydıq onda hərəmiz qul deyil, bir ağa olardıq. Qulluğun şərti odur ki, ağa nə buyurdu onu da edəsən. Məğlub olsaydıq, mütləq ağamız soruşacaqdı: "Sizə kim demişdi dava edəsiniz?" Bizim isə ağanın danlağına taqətimiz yoxdur. Müharibə buyurursunuzsa, bu saat gedib dava edək, ya mal alarıq, ya canımızı qurban verərik".

Alptəkini xoşuna gəldi, dedi: "Doğru deyirsən".

Sonra onu hey irəli çəkdi, axırda dəstəsinin sayı üç yüz qulama çatdı. Bu zaman Xorasan Əmiri Nuh bin Nəsr öldü. Alptəkin Nişaburda idi. Buxara əyan-əşrafları Alptəkinə yazdılar ki, iş belə gətirdi, Xorasan əmiri vəfat etdi. Onun otuz yaşlı qardaşı və on altı yaşlı oğlu qalmışdır. Məsləhət bilirsinizsə. onlardan birini onun yerinə oturdaq. Ölkənin ixtiyarı sizin əlinizdədir".

Dərhal qasid göndərdi və bildirdi ki, bunların hər ikisi şahın taxtına layiqdir, bizim ağamızın nəslindəndir. Lakin qardaşı daha kamildir, isti-soyuq görmüşdür, hamını yaxşı tanıyır, hərənin öz yerini bilir, hörmətini saxlayır, oğlu isə hələ uşaqdır, dünya görməyib, qorxuram adamları yola verməyi bacarmasın, lazımi əmrlər verə bilməsin. Yaxşı olar ki, qardaşını taxta oturdasınız. Haman məzmunda başqa birisi ilə də məktub göndərdi. Beş gündən sonra bir qasid gəlib xəbər verdi ki, şahın oğlunu taxta oturtdular.

Göndərdiyi o iki məktub haqqında narahat olmağa başladı və dedi: "Bu qoçaqlar öz bildiklərini edəcəkdirlərsə bəs mənim fikrimi niyə soruşurdular. Bu şahzadələrin hər ikisi mənim gözlərimin işığıdır, lakin ondan qorxuram ki, mən qardaşını məsləhət görmüşəm, əgər məktubum ora çatsa, şahın oğluna xoş gəlməyə bilər, elə güman edər ki, mənim şahın qardaşına meylim daha çoxdur, ürəyi sinar, qəlbində mənə kin bəsləyər. Qərəz, adamlar araqızışdıran sözlər deyib onu mənə düşmən edərlər". Dərhal beş itiqaçan dəva hazırlatdırdı və dedi: “iki qasid Ceyhunu keçməmiş tapıb geri qaytarın!" Dəvə çaparları sürətlə çapıb qasidlərin birinə, Amuyə[132] səhrasında çatdılar, o birisi artıq Ceyhunu keçmişdi.

Alptəkinin məktubu Buxaraya çatdıqda onun təklif (yazdıqları) şah oğlu tərəfdarlarının xoşuna gəlmədi. Dedilər: "Qardaşını məsləhət görməkdə yaxşı etməmişdir, miras qardaşa deyil, oğula çatar".

Hər gün belə sözlərdən çox dedilər, şah oğlunun ürəyinə xal saldılar. O, Alptəkinə nifrət etməyə başladı. Alptəkin çoxlu üzr istədi, hadiyyələr göndərdi, qulluq göstərdi, fayda vermədi, bu qubar şah oğlunun ürəyindən silinmədi. Badxah adamlar hər gün aranı qızışdırır, şah oğlu get-gedə daha pis olur, Alptəkinə qarşı qəzab və kini artırdı. Əhməd ibn İsmayıl[133] Alptəkini ömrünün son vaxtlarında almışdı.

Alptəkin bir neçə il Əhmədin oğlu Nəsrə[134] xidmət etmiş, Xorasan



downloaded from KitabYurdu.org

sərkərdəliyini isə Nuhun[135] vaxtında almışdı. Nuh öldükdən sonra onun yerinə bu Mənsur ibn Nuhu[136] oturtmuşdular. Onun şahlığından altı il keçməsinə, Alptəkinin isə bəxşişlər verib hədiyyələr göndərməsinə, mümkün olan bütün cəhdlərinə baxmayaraq, araqızışdıran adamların üzündən, Mənsur ibn Nuhun ürəyini ələ ala bilmədi. Buxara sarayında nə baş verdisə, Alptəkinin vəkili də onu yazırdı.

Sonra Mənsura dedilər: "Alptəkini öldürməyincə şahlıq edə bilməyəcək, hakimi-mütləq ola bilməyəcəksən. O əlli ildir ki, Xorasanda şahlıq edir, ordu onun sözündən çıxmır. Onu həbs etsək, var-dövləti sənin xəzinəni doldurar, ürəyin də sakit olar. İndi məsləhət budur ki, onu saraya dəvət edəsən, guya: "Biz şahlıq taxtına oturandan sən xidmətə gəlib andı təzələməyibsən, biz səni görmək arzusundayıq, sən bizim üçün vətənin atası yerindəsən. Sən bizim dövlət və məmləkətimizin bəzəyisən, onun ixtiyarı sənin əlindədir, arada gəzən bu söz-söhbət isə yalnız ona görədir ki, sən mənim yanıma gəlmirsən. Nə qədər dərgaha tez gəlib, burada yaradılmış qayda-qanunsuzluğu aradan qaldırsan, yenidən nizama salsan, bizim etimadımız o qədər artar, rəqiblərin dili gödələr, söz aradan yığışar.

Elə ki, bura gəldi, xəlvətə çağır, əmr et başını vursunlar".

Əmir Mənsur elə də etdi. Onu saraya çağırdı. Sahib-xəbərlər nə üçün çağırıldığını yazdılar. Alptəkin şayiə yaydı ki: "Hazırlaşın Buxaraya gedirik". Sonra Nişaburdan çıxıb təqribən otuz min atlı ilə Sərxəsə gəldi. Xorasan əmirlərinin hamısı onunla idi. Üç gündən sonra qoşun əmirlərini yığıb dedi: "Sizə sözüm vardır, lazım olanları dedikdən sonra fikrinizi söyləyin, hansının doğru olduğunu mənə deyin. Bilim ki, sizin və bizim xeyrimiz nədədir". Dedi: "Siz Əmir Mənsurun məni nə üçün çağırdığını bilirsinizmi?" Dedilər: "Səni görməklə əhdü-peymanı təzələmək üçün. Sən onun və əcdadlarının atası yerindəsən". Dedi: "Yox, siz düşündüyünüz kimi deyildir. Bu şah məni çağırır ki, mənim başımı bədənimdən ayırsın, o uşaqdır, adam qədri bilmir. Siz bilirsiniz altmış ildir Samani dövlətini mən qoruyuram. Türküstan xanları onlara hücum etdilər, mən məğlub etdim hər tərəfdə qaldırılan üsyanları, mən yatırtdım bir an da olsa onların sözündən çıxmamış bu şahlığı onun babası və atasına saxlamışam. Axırda da mükafatım bu olmuşdur ki, başımı bədənimdən ayırmaq istəyir. Bunu bilmir ki, onun ölkəsi bədən, o bədənin başı isə mənəm. Baş gedəndən sonra bədən qala bilərmi? İndi nə məsləhət görürsünüz? Bu bəlanın qarşısını necə almaq olar?" Əmirlər dedilər: "Onun çarəsi qılıncdır. O sənin haqqında belə düşünəndə, biz ondan nə gözləyə bilərik? Sənin yerinə başqası olsaydı şahlığı çoxdan onun əlindən almışdı. Biz hamımız yalnız səni tanıyırıq, nə onu tanıyırıq, nə də onun atasını. Hamımız yalnız sənin sayəndə bir parça çörəyə, vəzifə, şan-şövkət, cah-cəlal və nemətə çatmışıq. Səndən daha layiqli bir adam yoxdur. Biz hamımız sənin əmrinə tabeyik: Xarəzm, Xorasan və Nimruz da qanunən sənindir. Mənsur ibn Nuhun daşını atıb özün şahlıq taxtına otur. İstəyirsən Buxara və Səmərqəndi ona bağışla, istəyirsən onlan da tut".

Əmirlərin tam səmimiyyətlə belə söylədikərini görən Alptəkin dedi:



downloaded from KitabYurdu.org

"Allah əfv etsin, mən sizi sınamaq istəyirdim. Bilirəm ki, dediklərinizin hamısı səmimi və təmiz inamla deyilən sözlərdir. Mən də elə sizdən bunu gözləyirdim. İzzət və calallı allah bu xeyirxahlığınız üçün sizə kömək olsun. Bu gün gediniz, görək sabah nə olacaqdır".

Bu əhvalatda Alptəkinin yanında otuz min süvari var idi, istəsəydi yüz min atlı çıxara bilərdi.

Sabahısı gün bütün əmirlər bərgaha toplandılar. Alptəkin dışarı çıxıb ata mindi, üzünü əmirlərə çevirib dedi: "Mənim sizə dediyim sözlərdən məqsəd sizi yoxlamaq, mənimlə həmfikir olub-olmadığınızı bilmək, bir hadisə baş verərsə, mənə sadiq qalaraq tərəfimi saxlayıb-saxlamayacağınızı öyrənmək üçün idi.

İndi isə sizin hamınızdan eşitdiyim sözlər sədaqətli olduğunuzu, yaxşılıqları itirmədiyinizi göstərdi. Sizdən çox razıyam, lakin bilib agah olmalısınız ki, bundan sonra mən bu oğlanın şərini qılıncdan başqa heç bir şeylə özümdən dəf etməyəcəyəm. Uşaqdır, heç kəsin qədrini bilmir, bir neçə bədxah və nanəcib adamın sözünə uyub, yaxşını pisdən, şəri xeyirdən ayırmağı bacarmır. Onların xanədanını qoruyub saxlamış mənim kimi bir adamı məhv etmək istəyir, onun bədbəxtliyini, ölkəsinin fəlakətini arzulayan kiçik bir hadisə baş verərsə, qarşısını almağa qadir olmayan bir ovuc nanəcibləri dost bilir, mənim həyatıma isə qəsd edir.

Mən ölkəni alıb, əmisini yerinə oturda bilər ya öz əlimdə saxlaya bilərəm, lakin qorxuram adamlar desinlər ki, Alptəkin altmış il öz ağası olan samanilərin xanədanını mühafizə etdi, axırda ömrü həştada çatanda ağasının övladlarına ağ olub dövləti onların əlindən aldı, özü isə nankorluq etdi. Mən ömrüm boyu yaxşı əməl ilə yaşamışam, indi bir ayağım burda, o biri ayağım gorda ikən bədnam olub pis ad qazanmaq mənə yaraşmaz. Doğrudur, günah ondadır, lakin bunu hamı bilmir. Bir dəstə deyər ki, günah əmirdədir, bir başqası deyər ki, təqsir Alptəkindədir. Onların məmləkətinə göz dikməsəm də, onlara pislik istəməsəm də mən Xorasanda qaldıqca bu dedi-qodu aradan qalxmayacaqdır. Hər gün məndən əmirə bir söz deyəcək, onda mənə qarşı olan kin və nifrəti artıracaqlar. Əgər mən Xorasanı tərk edib, onun məmləkətindən getsəm bədxahların ağzı bağlanar, deməyə söz tapmazlar. Bundan əlavə, əgər bir parça çörək əldə etmək üçün bundan sonra mən qılınc vurmalıyamsa, yaxşısı budur ki, kafirə qarşı qılınc vurum, həm savab qazanım, həm rüsvay olmayım.

İndi biliniz ki, Xorasan, Xarəzm, Nimruz, Mavərənnəhr əmir Mənsurundur və siz hamınız da onun ixtiyarındasınız. Mən sizin hamınızı onun üçün saxlamışam. Qalxıb hamınız onun sarayına gedin, şahı görüb andınızı təzələyin, öz vəzifələrinizdə qalıb borcunuzu yerinə yetirin. Mən Hindistana gedib cahad və qəzavatla məşğul olacağam. Ölsəm, şəhid sayılacaq, qalib gəlsəm, behişt və allah xatirinə küfr evini islam evinə çevirəcəyəm. İşlərim yaxşı getsə, bəlkə əmirin də ürəyi mənim tərəfimdən rahat oldu. Dedi-qodu aradan yığıldıqda nə edəcəyini özü yaxşı bilər".



downloaded from KitabYurdu.org

O Xorasan qoşununa və rəiyyətinə belə müraciət etdikdən sonra ayağa qalxdı, əmirlərə dedi: “ İndi bir-bir gəlin sizinlə vidalaşım,,.

Əmirlər nə qədər dedilərsə, fayda vermədi. Onlar qəhərləndilər. Ağlaya-ağlaya gəlib onunla vidalaşdılar və geri döndülər. Alptəkin yataq çadırına getdi, lakin heç kəs inanmırdı ki, o Xorasanı buraxıb Hindistana gedə bilər, çünki Xorasan və Mavərənnəhrdə onun beş yüz kəndi var idi, elə bir şəhər tapmaq olmazdı ki, orada onun malikanə, bağ, karvansara, hamamı olmasın. Samani torpaqlarında onun çoxlu taxıl anbarı, min-min qoyunu, yüz min atı, dəvəsi və qatırı var idi.

Bir gün köç təbillərinin çalındığını eşitdilər. Alptəkin bütün bunları buraxıb öz qulam və yaxın adamları ilə köçüb getdi. Xorasan əmirləri Buxaraya üz qoydular. Alptəkin Bəlxə çatdıqda belə qərara gəldi ki, bir ay orda qalsın, cahad əzmində olanlar Mavərənnəhr, Xottəlan[137] və Bəlx ətrafında gəlib ona qoşulsunlar.

Bədxahlar araqızışdıranlar hey Mənsurun qulağını doldurub və deyirdilər. "Alptəkin qoca qurddur, öldürməyincə sən ondan arxayın ola bilməzsən. Onun ardınca qoşun göndərmək lazımdır ki, tutub sənin yanına gətirsinlər".

O Alptəkini tutmaq üçün bir əmiri on altı min qoşunla Buxaradan Bəlxə göndərdi. Qoşun Termezə çatıb Ceyhundan keçdikdə Alptəkin də köçüb Xolma tərəf üz qoydu.

Xolm ilə Bəlx arasında dörd fərsənglik dar bir dərə vardır, onun da adına Xolm dərəsi deyilir. Alptəkin orada düşərgə saldı. Onun iki yüz igid və sədaqətli qulamı var idi, səkkiz yüz adam da cahad davası üçün onlara qoşulmuşdu. Xorasan əmirlərinin qoşunları ora çatdıqda dərədən keçə bilməyib səhrada düşərgə salmalı oldular. İki ay bu vəziyyətdə qaldılar, iki aydan sonra keşik çəkmək növbəsi Səbüktəkinə çatdı. Səbüktəkin dərənin ağzına yetişdikdə bütün səhranın qoşunla dolu olduğunu və keşikçilərin hazır durduğunu gördü. Dedi: "Eh, mənim ağam var-dövlətini Xorasan əmirinə qoyub özün cahad davasına gedirsən, onlar isə sənin canına qəsd edirlər. Mənim ağam nankorluq etmək istəmədiyindən onlarda hörmətini saxlayır, qorxuram həm özünü, həm də bizi güdaza verə. Bu işi qılıncdan başqa heç bir şeylə həll etmək olmaz. Biz susduqca onlar bizi təqib etməkdən əl çəkməyəcəklər. Böyük allah məzlumların tərəfindədir". Sonra üzünü öz dəstəsində olan qulamlara çevirib dedi: "Bizim öhdəmizə belə bir iş düşmüşdür. Onların əli bizə çatsa, birimizi də, salamat buraxmazlar. Ağam razı qalsa da, qalmasa da mən bu gün onlara əl qatacağam. Hər çe bada bad! (Hər nə olur-olsun)".

Bunu deyib, üç yüz qulamı ilə onların keşikçilərinə hücum etdi, onları məğlubiyyətə uğradıb ordugaha hücuma keçdi. Onlar silahlanıb ata minənə qədər mindən yuxarı adam yerə sərdi. Onlar zor gəldikdə tez qayıdıb dərəyə çəkildi. Alptəkinə xəbər verdilər ki, Səbüktəkin belə bir iş tutmuş, onlardan çoxlu adanı öldürmüşdür.

Alptəkin onu çağırtdırıb dedi: "Nə üçün tələsdin, bir az səbr etmək lazım



downloaded from KitabYurdu.org

idi". Dedi: "Ey ağam nə qədər səbr edək, artıq səbr tükənmiş, canımız boğaza yığılmışdır. Biz öz canımızın hayına qalmalıyıq. Bu işə səbr ilə deyil, yalnız qılıncla son qoymaq olar. Nə qədər canımız var, ağamızın yolunda qılınc vurmalıyıq. Görək axırı nə olar".

Alptəkin dedi: "İndi ki onları yerindən oynadıbsan, daha ağıllı tədbir görmək lazımdır. De, çadırları yığıb yükləri bağlasınlar, yatmaq namazı vaxtı yükləri götürüb dərədən çıxsınlar. Tuğan min adamla gedib dərənin sağında, sən isə filan dərənin sonunda gizlənməlisən. Mən min süvari və hərbi sursatla bu dərədən çıxıb səhrada duracağam. Sabah onlar gəlib dərənin girəcəyində keşikçi görmədikdə deyəcəklər ki, Alptəkin qaçmışdır. Dərhal hamısı atlanıb bizim dalımızca çapacaq və dərənin içərisinə girəcəklər. Yandan çoxu o biri tərəfdən səhraya çıxıb məni orada dayanmış gördükdə sağ və soldan pusqudan çıxıb onlara hücum edin. Hay-küy qalxdıqda, dərədən çıxıb mənim qabağımda dayanmış ordunun bir hissəsi nə olduğunu bilmək üçün dərəyə dönəcək, dərədə olanlar isə geri qaçacaqlar. Bir qismi sizin qılıncınızla qarşılaşacaqlar. Mən qabaqdan həmlə edərəm, siz arxadan. Dərədə olanları araya alarıq, müqavimət göstərənləri qırarıq; gecə çatdıqda onlara qaçaq yeri qoyarıq. Elə ki, qaçdılar, dərədən çıxıb onların düşərgələrinə hücum edərik, əlimizə keçəni qənimət götürərik". Elə də etdilər. Dərədən çıxdılar.

Sabahı gündən sökülərkən Xorasan əmiri silahlanıb vuruşmaq üçün dərənin ağzına gəldikdə heç kəsi görmədi. Elə güman etdilər ki, qaçıblar. Qoşuna dedilər: “Tez olunuz, təqib ediniz, arxalarınca sürətlə çapınız! Dərədən çıxıb səhraya çatsaq, bir saat keçməmiş Alptəkini tutarıq!".

Qoşun sürətlə çapmağa başladı, igid cavanlar qabağa düşdülər. Dərədən çıxdıqda Alptəkinin min atlı və bir az piyada ilə səhrada durduğunu gördülər.

Qoşunun yarıya qədəri dərədən çıxdıqda Tuğan da sol tərəfdən pusqudan çıxıb min atlı ilə hücuma keçdi, qılınc çalıb dərədə olan hissəni qaçmağa məcbur etdi, xeyli adam öldürüldü. Səbüktəkin sağdan çıxıb hücuma başladı, o tərəfdən də Tuğan gəlib ona qoşuldu, hər ikisi dərədən düşmən ordusunun arxasına çıxdılar. Alptəkin qarşıdan hücuma keçdi. Bir saat keçməmiş düşməni yerə sərdilər, qoşun əmirini qanından nizəyə keçirdilər, nizənin başı kürəyindən çıxdı. Qoşun qaçmağa başladı. Harada bir deşik görürdülərsə, özlərini ora soxurdular.

Sonra Alptəkinin qulamları dərədən çıxıb özlərini düşmən ordugahına vurdular. Nə qədər at, qatır, dəvə, gümüş, qızıl dinar, qulam əllərinə keçdisə, hamısını qənimət aldılar, çadır, fərş və buna oxşar nə qədər var idisə, hamısını orada qoyub qayıtdılar. Bir aya qədər Bəlx kəndliləri o hərbi düşərgədən mal yığdılar. Ölənləri saydılar, yaralanandan başqa dörd min yeddi yüz əlli döyüşçü oldu.

Sonra Alptəkin köçüb Bamyana gəldi. Bamyan əmiri onunla müharibəyə başladı, əsir alındı. Alptəkin onu bağışladı, xələt verdi, oğlum dedi. Bu bamyan əmirinin adı Şir Barik idi.



downloaded from KitabYurdu.org

Sonra Alptəkin oradan Kabula getdi. Kabul əmirini məğlub edərək oğlunu əsir götürdü. Onu da əzizbyərək atasınm yanına göndərdi. Kabul əmirinin oğlu Ləvikin[138] kürəkəni idi. Sonra Alptəkin Qəzneynə üz qoydu. Qəzneyn əmiri Sərəxsə qaçmalı oldu. Alptəkin Qəzneyn qapısına yaxınlaşdıqda Ləvik onun qarşısına çıxıb dava etdi. İkinci dəfə Kabul əmirinin oğlu əsir düşdü. Qəzneyn əmiri isə məğlubiyyətə uğradı. Şəhəri mühasirəyə aldılar. Zavilistan əhalisi ondan qorxurdu. Əmr etdi, car çəksinlər, heç kəs başqasından zorla pulsuz bir şey almasın, xəbər tutsam cəzalandıracağam. Bir dəfə Alptəkinin gözü öz qulamlarından birinə sataşdı, tərkibindən bir torba saman və bir toyuq sallanmışdı. Dedi:"O qulamı mənim yanıma gətirin". Gətirdilər. Soruşdu: "Bu toyuğu haradan gətirirsən?" Dedi: "Bir kəndlinin əlindən almışam'". Dedi: "Məndən maaş almırsanmı?" Dedi: "Alıram'". Dedi: "Onda bəs nə üçün pulla deyil, zorla alırsan?!" Dərhal əmr etdi, o qulamı iki şaqqa etdilər, haman yerdə yol başında haman saman torbası ilə asdılar və üç gün car çəkdilər ki, kim zona müsəlmanların malını alsa, onunla da öz qulamımla etdiyim kimi rəftar edəcəyəm. Onun qoşunu qorxdu, qara camaat isə arxayınlaşdı. Kəndlilər hər gün düşərgəyə o qədər mal gətirdilər ki, sayı-hesabı yox. Lakin şəhərə bir alma da aparmağa qoymurdu.

Şəhərin adamları belə əmin-amanlıq və ədalət gördükdə dedilər: "Bizə elə adil padşah lazımdır ki, özümüz, arvad-uşağımız, mal-dövlətimiz əmin-amanlıqda olsun, şahın türk ya tacik olmasının əhəmiyyəti yoxdur”.

Sonra hamısı şəhərin qapılarını açıb Alptəkinin yanına gəldi. Ləvik işi belə gördükdə qaçıb qalaya girdi. İyirmi gündən sonra çıxıb Alptəkinin hüzuruna gəldi. Alptəkin ona bir parça çörəyi əsirgəmədi. Heç kəsə də əziyyət vermədi. Qəzneyndə yurd saldı.

Oradan Hindistana hücum edir, qənimət gətirirdi. Qəzneyndən kafirlərin olduğu yerə on iki günlük yol var idi. Xorasan, Mavərənnəhr və Nimruzə xəbər yayıldı ki, Alptəkin Hindistan bəndinin qapısını açmış, çoxlu qızıl, gümüş, mal-qara və qul qənimət almışdır. Hər tərəfdən onun yanına adamlar axışmağa başladı və onun atlılarının sayı altı minə çatdı. Çoxlu ölkə aldı, hətta Bikapura qədər gəldi, o vilayəti də ələ keçirdi.

Hindistan padşahı yüz əlli min atlı və piyada, beş yüz fil ilə hücuma keçib, Alptəkini Hind torpağından qovmaq və ya onu qoşunları ilə birlikdə məhv etmək qərarına gəldi. O biri tərəfdən ordusunun Bəlx və Xulm qapılarında məğlub edilməsindən qəzəblənmiş Xorasan əmiri də Bu-Cəfər adlı birisini iyirmi beş min atlı ilə Alptəkinin üstünə göndərdi.

Alptəkin Bu-Cəfəri[140] Qəzneynin bir fərsəngliyinə qədər buraxdı, sonra özünün altı min süvari dəstəsi ilə Qəzneyndən çıxıb düşmən qoşununa hücum etdi. Bir saat içərisində iyirmi beş min atlını öldürdü. Bəlx qapısında etdiyindən min dəfə artıq divan tuldu. Bu-Cəfər qaçdı, kəndlilər onu tanıyıb tutdular, atını aldılar, paltarını çıxartdılar. O pay-piyada, qiyafəsini dəyişmiş halda Bəlxə gəldi.

Xorasan əmiri Alptəkinin üzərinə hücuma cəsarət etmədi. Alptəkinin



downloaded from KitabYurdu.org

uzaqlaşması Samanilər xanədanının və dövlətinin kəskin zəifləməsinə səbəb oldu. Türküstan xanları hücuma başlayıb onların çoxlu vilayətlərini tutdular.

Alptəkinin başı Bu-Cəfərdən ayıdıqdan sonra hindlilərin şahı tərəfə yollandı. Xorasana və bütün başqa şəhərlərə məktub yazdı, kömək istədi. Qənimət ələ keçirmək tamahı ilə o qədər adam gəldi ki, sayı-hesabı yox idi. Qoşunu saydılar, on beş min piyada və on beş min atlı olduğu məlum oldu. Hamısı cavan və silahlı idi. Hind şahına qarşı getdi. Qəflətən onların keşikçilərinə hücum edib çoxlu adam öldürdü, lakin qənimət almadı, geri qayıtdı. Hind şahı onun ardınca at çapdı, lakin tapa bilmədi.

Bir uca dağ var idi, iki dağın arasında bir dərə var idi. Hind şahının yolu bu dərədən idi. Alptəkin dərənin ağzını tutdu. Hind şahı ora çatdıqda keçə bilməyib düşərgə salmalı oldu. İki ay orada qaldı. Alptəkin hərdənbir dərədən çıxıb hindlilərə hücum edir və çoxlu adam öldürürdü.

Səbüktəkin bu müharibələrdə xüsusi səy göstərirdi və bir neçə müvəffəqiyyət də qazanmışdı.

Hind şahı heç bir iş görə bilmirdi, irəli gedə bilmir, geri dönə də bilmirdi, bu rüsvayçılıq olardı. Axırda çarəsiz qahb onlara dedi: "Siz Xorasandan bura bir parça çörək üçün gəlmişsinizmi? Mən bu parça çörəyi sizə verərəm. Qalaları sizə tapşıraram. Siz mənim ordumla olun, yeyin-için, istədiyiniz kimi güzəran keçirin" .Onlar buna razı oldular.

Hind şahı gizlində qala rəislərinə demişdi ki, mən qayıdandan sonra qalaları onlara verməyin.

Elə ki geri qayıtdı, Alptəkin qala qapılarına yaxınlaşdı, qalanı ona təslim etmədilər. Alptəkin dedi: "Deməli onlar məni aldatmışlar". Yenidən hücum etməyə, şəhərlər almağa başladı. Bu zaman əcəl gəldi, vəfat etdi. Onun qoşun və qulamları özlərini itirdilər, ətraf isə kafir qoşunları ilə dolu idi.

Sonra onlar oturub tədbir tökməyə başladılar, Alptəkinin oğlu yox idi ki, onun yerinə oturtsunlar. Dedilər: "Bizim Hindistanda şan-şöhrətimiz vardır, hindlilərin ürəyinə böyük qorxu salmışıq, əgər indi biz onunla məşğul olsaq, biri deyə: "Mən daha böyüyəm", o biri deyə: "Mən daha üstünəm", onda bizim şərəfimizə sədəmə toxunar, düşmən qalib gələr. Aramızda ixtilaf yarandımı, düşmən üzərinə endirilən bu qılınclar bir-birimizin üzərinə qalxar, ələ keçirdiyimiz bu vilayətlər əldən gedər. Məsləhət odur ki, aramızdan bir layiqli adamı sərkərdə seçək, hər nə desə, onu da edək. Elə düşünək ki, belə bir adam Alptəkindir.

Hamısı razı oldu.

Sonra böyük vəzifəli qulamların adını çəkdilər, hərəsinə bir eyib tutub,"əmma" qoydular. Səbüktəkinin adı gəldikdə hamı susdu. Bu aralıqda biri dedi: "Səbüktəkindən daha əvvəl alınan və daha çox xidməti olan bir qulam hanı?!" Digəri dedi:

"Sayıqlıqda, vuruşda, ədalətdə, səxavətdə, rəftarda, yoldaşlarla yola getməkdə Səbüktəkin hamıdan irəlidədir, onu bizim ağamız tərbiyə etmiş, işlərini



downloaded from KitabYurdu.org

bəyənmişdir. Alptəkinin bütün xüsusiyyətləri onda vardır, bizi yaxşı tanıyır, qədir-qiymətimizi yaxşı bilir. Mən bildiklərimi dedim, qalanlarını siz daha yaxşı bilirsiniz".

Bir müddət hər şeydən danışdılar, axırda yekdilliklə belə qərara gəldilər ki, Səbüktəkini özlərinə əmir etsinlər.

Səbüktəkin çox etiraz etdi, əl çəkmədilər, onda dedi: "Başqa çarə yoxdursa, bir şərtlə bu işə razı olaram ki, hər nə etsəm, hər nə desəm, əksinə getməyəsiniz, kim mənə müxalif çıxsa, ya üsyan qaldırsa, ya əmrimi yerinə yetirməkdə kahallıq göstərsə, siz mənə yekdil olub onu öldürəsiniz".

Hamı and içdi, söz verdi, əhd-peyman bağladı. Sonra onu aparıb Alptəkinin balışı üzərində oturtdular, əmir kimi salam verib təzim etdilər, ayağına qızıl-gümüş səpdilər.

Səbüktəkin nə tədbir görürdüsə hamısı xeyirli olurdu. Sonra o Zavülüstan əmirinin qızına evləndi. Ona görə Mahmud zavülü deyirlər. Mahmud böyüdükdə atası ilə birlikdə çoxlu döyüşdə iştirak etmiş, yürüşlərdə olmuşdur. Bir çox böyük işlər gördükdən və Hind ölkəsində ağır müharibələrdə qələbə qazandıqdan sonra Bağdad xəlifəsindən "Nəsrəddin" ləqəbini almışdır.

Səbüktəkin öldükdən sonra Mahmud atasının yerində oturdu. O şahlıq tədbiiiərini yaxşı öyrənmişdi, həmişə şahlar haqqındakı rəvayətlərə qulaq asar, doğruluğa və yaxşı xasiyyətli olmağa can atardı.

Sonra o gedib Nimruz vilayətini ələ keçirdi, Xorasanı tutdu. Hind şahını öldürdü. İşi o yerə çatdı ki, onu dünyanın sultanı adlandırırdılar.

Bu hekayəti danışmaqda məqsədim odur ki, şahımız bilsin ki (allah onun dövlətini əbədi etsin), yaxşı qul necə olar. Qul xoşagələn xidmətlər göstərdi, heç vaxt xəyanət, başıdiklik etmədi, məmləkət onun sayəsində möhkəmləndi, dövlət onun ucbatından çiçəkləndi, belə bir qulun ürəyinə toxunmaq, onun haqqında deyilən sözlərə inanmaq olmaz, gündən-günə ona inam artmalı, etimad çoxalmalıdır. çünki sülalələrin, şəhərlərin, ölkələrin zəbt edilib mühafizə olunması Alptəkin kimi mərd adamlardan asılıdır. O isə qul idi, Samani xanədanı onun sayəsində yaşayırdı. Onun qədrini bilmədilər, həyatına qəsd etdilər. O Xorasandan getdikdən sonra dövlət də samanilərin əlindən getdi.

Layiqli və təcrübəli bir qul ələ gətirmək üçün uzun ömür, münasib şərait lazımdır. Ağıllı adamlar deyiblər: "Layiqli nökər və qul oğuldan yaxşıdır". “Yaxşı qul və nökəri əldən buraxmaq olmaz”.

Şair deyir:

Yüz bişüur övladdansa, yaxşıdır bir müti qul,
Bu ömr istər ağasına, ölüm dilər o oğul!



downloaded from KitabYurdu.org

*İyirmi səkkizinci fəsil*

## ƏYAN-ƏŞRAF VƏ BAŞQALARININ QƏBULU HAQQINDA

Qəbulun öz qaydası olmalıdır: əvvəl qohum-qardaş, sonra adlı-sanlı adamlar və əshabələr, daha sonra isə başqa təbəqədən olanlar gəlməlidirlər. Hamısı birlikdə gəlsə, kiçiklə böyük, hörmətsizlə hörmətli arasında fərq olmaz.

Qəbul əlaməti odur ki, pərdə qaldırılar, dəvət olunmuşlardan başqa heç kəs qəbul edilmədikdə isə salınmış olar.

Böyüklər, ordu başçıları saraya adam göndərib bu əlamətlərdən qəbulun olub-olmadığını öyrənər, qəbul varsa gələr, yoxsa gəlməzlər. Böyüklər üçün ən ağır odur ki, saraya gəlib şahı görməmiş qayıtsınlar. Dəfələrlə gəlib şahı görmədikdə onun haqqına bədgüman olar və şübhəli fikirlərə düşərlər.

Şah gec-gec qəbul düzəltdikdə xalqın işi axsayar, mərdüməzarlar ürəklənər, xasü-amin vəziyyəti örtülü qalar, qoşun inciyər, əziyyət çəkər.

Şah üçün tez-tez qəbul düzəltməkdən, görüş təyin etməkdən daha yaxşı bir qayda ola bilməz.

Şahın qəbulu olmayan günlərdə ətraf vilayətlərin sahibləri, əmirləri, seyidləri, imamları onun görüşünə gəlməlidirlər. Kənardan gələnlərin görüş qaydası belədir: böyükləri şahı görüb getdikdən sonra onlarm adamları da gedərlər, orada yalnız şahın yaxın adamları qalar. İşə lazım olan qulamlar, məsələn: silahsaxlayanlar, supaylayanlar, xörəkdaşıynlar mütləq qabaqcadan hazır olmalıdırlar.

Bir neçə dəfə belə edildikdən sonra adətə keçər, çətinlik aradan qalxar, pərdə endirməyə, qapı bağlamağa ehtiyac qalmaz.

Başqa cür etsələr razı qalmazlar.

*İyirmi doqquzuncu fəsil*

## ŞƏRAB MƏCLİSİ DÜZƏLTMƏK QAYDALARI VƏ ONUN ŞƏRTLƏRİ HAQQINDA

Şadlıq və kef həftəsi çatdıqda bir və ya iki gün ümumi qəbul düzəltmək lazımdır, adətə görə, kim istəyir gəlsin, heç kəsin qarşısı alınmamalı, əksinə, xəbər edilməlidir ki, hamının gələn günüdür. Əyan-əşraf üçün ayrılan günlərdə başqaları bilər ki, onların günü deyil, özləri gəlməzlər, daha birini buraxıb, o birini buraxmamağa ehtiyac qalmaz.

Xüsusi məclisə layiq görülmüş adamların kimlər olduğunu əvvəlcədən bilmək lazımdır, bu üzürlü sayılar. Hər gələn özü ilə yalnız bir qulam gətirə bilər, hər kəsin sürahi və saqi gətirməsi yaxşı deyil. Heç vaxt belə bir adət olmayıb və bu çox eyib sayılar. Yemək, şirniyyat, şərab həmişə şahların sarayından evlərə



downloaded from KitabYurdu.org

aparılmalıdır, evlərdən saray məclislərinə gətirilməməlidir, çünki sultan dünyanın ağası, dünya adamları isə onun ailəsi və qulu hesab edilər.

Yaxşı olmaz ki, evindən çörək yeyib şərab içdiyin bir evə çörək və şərab aparasan.

Saray şərabdarı mənə yaxşı şərab vermir, -deyə öz şərabını gətirirsə, şərabdara qulaqburması vermək lazımdır, ona demək lazımdır: "Yaxşı, pis şərabların hamısı sənin ixtiyarindadır, nə üçün pisini verirsən?" Onda bu bəhanə ortalıqdan qalxar.

Şah layiqli nədimləri olmadan keçinə bilməz, o vaxtının çoxunu qullarla keçirsə, şövkətinə xələl gətirər, hörməti aşağı düşər, onlar xırdaçı olduqlarından xidmətə yaramazlar.

Böyüklər, sərkərdələr, valilər, adlı-sanlı adamlar da çox gəl-get etsələr, şahın əzəmətinə ziyanı olar, buyruqlarının icrasında dikbaşlıq edərlər, pərdə aradan qalxar.

Vəzirlə ölkənin mühüm işləri, ordu, vergi, tikinti, düşmənlərin qarşısını almaq və bu kimi məsələlər haqqında danışmaq lazım gələr. Bunların isə hamısı narahatlıq, fikir, iztirab və təşviş artıran məsələlərdir. Ona görə işin mahiyyəti özü imkan vermir ki, şah belə adamlarla əylənib kefini aça bilsin.

Nədimdən başqa heç kəs şahın könlünü açıb onu əyləndirə bilməz. Şah daha sərbəst yaşamaq istəyirsə, zarafatı doğruya qata bilər, nədimə hər cürə nağıl, rəvayət, lətifə danışa bilər. Nədimlə şahın əzəmətinə, şan-şövkətinə zərər vurmaz, çünki onları yalnız bu məqsəd üçün saxlarlar. Əvvəllər də bu barədə bir fəsil yazmışıq.

***Otuzuncu fəsil***

## XİDMƏT VAXTI QULLARIN VƏ NÖKƏRLƏRİN YERLƏRİNDƏ DURMALARI HAQQINDA

Gərək hamısı görünsünlər, hərəsinin də özünəməxsus durub-oturma yerləri olmalıdır. Şah qarşısında bunların hər ikisi eyni sayılar. Durmaqda qayda belədir: ən məşhur əshabələr, məsələn silahsaxlayanlar. şərabpaylayanlar və bu qəbildən olan adamlar ləxtin ətrafında yaxında durmalıdırlar. Biri onların arasında durmaq istəsə, saray hacibi onu uzaqlaşdırmalıdır, eləcə də yad bir adam görsə, qışqırıb onu orada durmağa qoymamalıdır.



downloaded from KitabYurdu.org

*Otuz birinci fəsil*

## ORDU VƏ XİDMƏTÇİLƏRİN EHTİYAC VƏ XAHİŞLƏRİ HAQQINDA

Ordunun nə ehtiyacı olsa, sərkərdələr, dəstəbaşıların dili ilə bildirilməli, əgər qəbul edilərsə, onların əli ilə ödənilməlidir. Bu üsul ilə onların hörməti artar.

Qoşun əhlinin ehtiyacı bilavasitə dinlənilib, bilavasitə ödənilsə, onda dəstəbaşıların hörməti qalmaz.

Dəstədən biri öz başçısına diliuzunluq etsə, ya hörmətini saxlamasa, həddini aşsa, cəza vermək lazımdır ki, böyük-kiçik məlum olsun.

*Otuz ikinci fəsil*

## MÜHARİRƏ VƏ YÜRÜŞ LƏVAZİMATINI, SİLAHINI VƏ DƏM-DƏSTGAHINI HAZIRLAMAQ HAQQINDA

Bahalı paltar geyən adlı-sanlı adamlara tapşırmaq lazımdır ki. təmtəraqlı yaraqlar, müharibə üçün keytiyyəlli silahlar hazırlasınlar, qulamlar alsınlar. Onların gözəllik, yaraşıq, şan-şövkəti evlərinin bəzək-düzəyində, dəm-dəstgahında deyil, məhz bunlarda olar. Kimin bu cəhətdən imkanı çox olsa, şah yanında daha çox bəyənilər, tay-tuşları içərisində, ordu içərisində, ordu arasında hörmətli, daha şövkətli sayılar.

*Otuz üçüncü fəsil*

## SƏHV, GÜNAH ETDİKDƏ İRƏLİ ÇƏKİLMİŞ ADAMLARA TÖHMƏT VERMƏK HAQQINDA

Bir adamı irəli çəkib böyütmək üçün çox vaxt və zəhmət tələb olunur. Onlardan bir xəta baş verdikdə açıq töhmət edilsə, rüsvay olanlar, sənlə nə qədər əzizləyib tərifləsən də əvvəlki yerini tuta bilməzlər. Ona görə daha yaxşısı budur: belə bir adam səhv etdikdə dərhal onu çağırtdırıb sözarası deməlidir ki, nə üçün belə edirsən, biz öz irəli çəkdiyimizi yerə vurmur, öz qaldırdığımızı yıxmırıq. Bu səfər səni bağışlayırıq, bundan sonra özünə fikir ver, bir daha səhv buraxma, yoxsa, mövqeyini itirər, hörmətdən düşərsən. Onda təqsir özündədir, bizdə yox.

**Hekayət.** Əmirəlmöminin Əli ə.s.-dan soruşurlar: "On igid adam kimdir?„ Dedi: "Ən igid adam odur ki, hirslənəndə özün ələ ala bilə, elə bir iş tutmaya ki, hirsi soyuyandan sonra peşiman ola. O da fayda verməyə". Adamın ağlının kamilliyi hirslənməməkdə, hirsləndikdə isə hirsin ağıla deyil, ağlın hirsə üstün



downloaded from KitabYurdu.org

gəlməsindədir. Kimin hissi ağlına üstün gəlsə, hirslənəndə qəzəb ağlının gözünü tutar, onun bütün varlığına hakim olar, nə əmr etsə, adam da dəlivari onu yerinə yetirər. Əksinə, kimin ağlı hissinə qalib gəlsə, hirsləndikdə ağıl hissi boğar, hamı onun hirsləndiyini görsə də, o, ağıllıların bəyəndiyi işləri görər və əmrləri görər.

**Hekayət.** Əlinin oğlu Hüseyn (allah ondan razı olsun) bir neçə əshabə və hörmətli adamla süfrəyə oturub çörək yeyirdilər. O, bahalı paltar geymiş, başına sən dərəcə gözəl bir əmmamə qoymuşdu. Bir qulam onun qabağına xörək qoymaq istəyirdi, başının üstündə durmuşdu. Birdən kasa qulamın əlindən aşıb Hüseynin baş-gözünə töküldü. Onun əmmaməsi xörəklə bulandı. Hüseynin təbiəti yerindən oynadı, üzü qəzəb və xəcalətdən qızardı, başını qaldırıb qulama baxdı. Qulam vəziyyəti belə gördükdə cəzalanacağından qorxdu və dedi: "Bağışlayan adamlara qəzəb də yaraşar, allah da rəhm edənləri çox sevir".

Hüseyn gülümsündü və dedi: "Ey qulam, həmişəlik qəzəb və cəza qorxusundan asudə olmaq üçün səni azad edirəm".

**Hekayət**. Deyirlər Müaviyə çox səbirli bir adam imiş. Bir dəfə qəbul vaxtı böyüklər onun qabağında oturmuş olduğu halda köhnə paltar geymiş cavan bir oğlan icazəsiz girib salam verdi, nümayişkaranə onun qabağında oturdu və dedi: "Ya əmirəlmöminin, bu gün çox vacib bir iş üçün sənin yanına gəlmişəm, yerinə yetirməyə söz versən, deyərəm". Müaviyə dedi: "Nə mümkünsə hamısını edərəm". Oğlan dedi: "Bil ki, mən qərib adamam, arvadım da yoxdur, sənin ananın da əri yoxdur. Onu ver mənə, mənim arvadım olsun, onun əri, savabı da sənə çatsın". Müaviyə dedi: "Sən cavan bir oğlan, o qoca bir qarı, ağzında bir dənə də dişi yoxdur, onun nəyi sənin xoşuna gəlibdir?,, Dedi: "Eşitmişəm ki, onun kəfəli böyükdür, mənim də böyük kəfəldən yaman xoşum gəlir". Müaviyə dedi: "Vallah elə atam da anamı buna görə almışdı, yoxsa onun heç bir başqa hünəri yoxdur, atam elə bu arzu ilə öldü. Mən sənin sözünü anama çatdıraram, meyli olsa, belə dəllallığa heç kəs mane olmaz".

Müaviyənin üzündə heç bir dəyişiklik əmələ gəlmədi, özündən çıxmadı. Hamı təsdiq etdi ki, dünyada ondan daha səbirli bir adam ola bilməz.

Müdrik adamlar demişlər: "Səbr yaxşıdır, lakin məqsədə nail olan vaxt daha yaxşıdır; nemət yaxşıdır, lakin naşükürlük olmasa daha yaxşıdır; itaət yaxşıdır, lakin şüurla və allahın qorxusu ilə olsa daha yaxşıdır.

*Otuz dördüncü fəsil*

## KEŞİKÇİLƏR, NÖVBƏTÇİLƏR VƏ QAPIÇILARIN İŞİ HAQQINDA

Sarayın xüsusi keşikçiləri, növbətçiləri və qapıçılarının işi haqqında çox ehtiyatlı olmaq lazımdır. Bu adamlara nəzarət edən gərək onların hamısına yaxşı qayğı bəsləsin, yaxşı tanısın, açıqda, gizlində onların nə etdiklərini yoxlasın, hər



downloaded from KitabYurdu.org

gün onlan nəzarət altında saxlasın; çünki onlar əksər halda tamahkar, boşxasiyyət olar, qızıla aldanarlar.

Onların arasında yabancı gördükdə kim olduğunu öyrənmək lazımdır.

Hər gecə növbəyə gəldikdə gözdən keçirmək lazımdır. Nə gecə, nə gündüz bu işdə sayıqlığı itirmək olmaz. Bu vəzifə çox incə və məsuliyyətlidir.

*Otuz beşinci fəsil*

## ŞAHLARDA YAXŞI SÜFRƏ AÇMAQ QAYDALARI HAQQINDA

Yaxşı süfrə açmaq haqqında şahlar həmişə səhərdən tədbir görməlidirlər ki, səhər xidmətə gələnlər orada bir şey yesinlər. Əgər saray adamlarının səhər yeməyə meyli olmasa, sonra vaxtı gəldikdə onlar üçün açılmış bu süfrədən yeməyə ehtiyat etməzlər. Hər halda, səhər süfrəsi açmaq zəruridir.

Sultan Toğrul[141] hər səhər süfrə açdırar, cürbəcür ləzzətli və təmiz xörəklər hazırlatdırardı, mümkün qədər bol və yaxşı olmasını tapşırardı. Ata minib gəzinti və ya ova çıxdıqda elə xörəklər hazırlatdırıb səhraya göndərərdi ki, bütün əmirlər, əyan-əşraf, qara camaat təəccüb edərdilər.

Türküstan xanlarının hamısında belə bir adət vardır: onlar mətbəxdə çox xörək bişirtdirərlər ki, xidmətçilər də yesinlər, dövlətin də süfrəsi bərəkətli olsun.

Biz Səmərqənd və Yüzkəndə[142] getdikdə eşitdik, sözgəzdirənlər çikilli və mavərənnəhrlilərin adından danışırlar ki, guya onlar həmişə deyirmişlər: "Sultanın gəlib getdiyi bu müddətdə biz bir dəfə də olsun onun süfrəsindən bir tikə çörək yemədik'".

Hər kəsin əliaçıqlığı və səxavəti onun ağalığına müvafiq olmalıdır. Sultan dünyanın ağası və zamanın şahları ona tabe olduğundan gərək onun süfrəsi, əliaçıqlıq və səxavəti, bəxşiş və xələti öz ağalığına müvafiq olsun, özündən əvvəlki şahların hamısından daha dəbdəbəli, daha təmtəraqlı çıxsın. Rəvayətdə deyilmişdir ki, çörək süfrəsini xalq üzünə açıq saxlayan hökmdarın ömrü uzun, dövləti möhkəm, ölkəsi abad olar.

**Rəvayət.** Ənbiya[143] ə.s. tarixində belə yazılmışdır: "İzzət və cəlal sahibi allah möcüzələr, kəramət və fəzilətlər sahibi olan Musa ə.s.- Firona qənim göndərdi.

Fironun süfrəsində hər gün dörd yüz qoyun, dörd yüz inək, iki yüz dəvə və buna müvafiq olaraq müxtəlif xuraş, çərəz, şirniyyat və başqa şeyləri olardı.

Misirin bütün əhalisi və qoşunu onun süfrəsindən xörək yeyərdi. O dörd yüz il allahlıq iddiası edirdi. Həmişə də belə süfrə açırdı.

Musa ə.s. dua edib dedi: “İlahi, Fironu məhv et!"

Allah Musanın duasını qəbul etdi və dedi: "Onu suda batıracağam, bütün dövlətim, arvadlarım, qoşunlarım sənə və sənin ümmətlərinə bağışlayacağam".



downloaded from KitabYurdu.org

Bir neçə il bu vədədən keçdi, Firon yenə də allahlıq iddiası ilə haman cah-calalla gün keçirirdi.

Musa ə.s. tələsirdi, istəyirdi allah-taala nə qədər mümkünsə Fironu tez məhv etsin, artıq səbri qalmamışdı, qırx gün oruc tutdu. Sina[144] dağına gedib yalvarmağa və dua etməyə başladı, münacat vaxtı allah-taalaya dedi: "İlahi, Fironu məhv etməyə söz verdin, o isə küfr və iddiasını heç azaltmır, bəs nə vaxt məhv edəcəksən?!"

Allah-taaladan nida gəldi ki: "Ya Musa, sənə lazımdır ki, nə qədər mümkünsə onu tez məhv edim, hər gün min bəndəyə lazımdır ki, onu saxlayım, çünki onun nemətini yeyir, onun sayəsində güzəran keçirirlər...And olsun mənim izzətimə, nə qədər ki, o xalqa çörək verir, dövlətini əsirgəmir, onu məhv etməyəcəyəm".

Musa dedi: "Bəs onun vədinin müddəti nə vaxt qurtaracaq?".

Cavab gəldi: "O, çörək verməyi azaltdıqda, bil ki, onun əcəli çatmışdır".

İş elə gətirdi ki, bir gün Firon Hamana [145] dedi: "Bu Musa bəni İsraili başına toplayıb bizə əziyyət verir, bilmirəm onunla bizim işimizin axırı nə olacaqdır. Xəzinəni dolu saxlamaq lazımdır ki, heç vaxt başqasına ehtiyacım olmasın. Hər gün payların yarısını kəsib xəzinəyə qoymaq lazımdır ki, ehtiyat yığılsın".

Elə də etdilər, hər iki-üç gündən bir payları azaltdılar. Musa ə.s. bildi ki, haqq-taalanın verdiyi vədin vaxtı yaxınlaşır, çünki mal toplamaq çox zaman bədbəxtlik və fəlakətə səbəb olar.

Tarix yazanlar belə qeyd edirlər ki, Firon qərq olan günü onun mətbəxində cəmi iki qoyun kəsilmişdi.

Allah-taala İbrahim ə.s. çörək verən, qonaqsevən olduğu üçün onu tərifləmişdir, Hatəmi Taini səxavəti və qonaqpərvərliyi xatirinə cəhənnəm odundan azad etmişdir. Dünya durduqca onun alicənablığından danışılacaqdır; namaz üstə üzüyünü dilənçiyə vermiş əmirəlmöminin Əli (allah kəramətini ondan əksiltməsin), çox acların qarnını doydurmuş və onları razı salmışdır; qiyamətə qədər onun da şücaəti və comərdliyindən söhbət ediləcəkdir. Dünyada səxavət, xeyirxahlıq və süfrəsi açıqlıqdan yaxşı iş ola bilməz. Çörək vermək bütün insanlığın və bütün alicənablığın əsasıdır.

**Şer**

Səxavətdir on yaxşı iş dünyada,
Peyğəmbərlər layiq olmuş bu ada,
İki dünya comərd üçün yaranmış,
Əliaçıq ol sənin olsun onlar da.

Dövləti olan bir şəxs şahdan fəxri fərman almaq, xalq içərisində hörmət qazanıb "böyük", "ağsaqqal", çağırılmaq istəyirsə, ona de ki, hər gün süfrə



downloaded from KitabYurdu.org

açsın.  Dünyada kim ad qazanıbsa, çoxlu çörək verməkdən qazanıbdır. Xəsis, simic adamı həriki dünyada məzəmmət edərlər. Rəvayətdə deyilir ki, xəsis behiştə getməyəcəkdir. Bütün zamanlarda istər islam, istərsə qeyri-islam, əliaçıqlıqdan gözəl adət olmamışdır. Haqq-taala bütün comədləri onların əliaçıqlığına müvafiq mükafatlandırmışdır.

### *Otuz altıncı fəsil*

## LAYİQLİ XİDMƏTÇİLƏR VƏ QULAMLARIN QƏDİR-QİYMƏTİNİ BİLMƏK HAQQINDA

Xidmətçilərdən kim yaxşı bir iş gördüsə, dərhal onu təriflətmək və mükafatlandırmaq, kim səbəbsiz olaraq səhv etsə, nöqsan buraxsa, qulaqburması vermək lazımdır ki, qulların işə həvəsləri artsın, günahkarın canına qorxu düşsün, işlər düz getsin.

**Hekayət.** Bir Haşimi[140] oğlu bir dəstə adamı söyüb təhqir etmişdi. Atasının yanına gedib ondan şikayət etdilər. Atası cəzalandırmaq istədikdə oğul dedi: "Ey ata mən səhv etmişəm ağlım başımda olmayıb, gəl, sən mənə cəza vermə, sənin ki, ağlın başındadır".

Bu söz atasının xoşuna gəldi və onu bağışladı.

**Hekayət.** Xordadbeh belə nağıl edir: "Pərviz[148] şahın yaxın adamlarından birinə acığı tutdu, onu zindana saldırdı. Mütrib Bazeyddən[149] başqa heç kəs onun yanına getməyə cəsarət etmirdi. Bazeyd hər gün ona yemək və içmək aparırdı. Pərvizə xəbər verdilər, Bazeydi çağırtdırıb dedi: "Mənim həbs etdirdiyim adama sən necə cəsarət edib qayğı göstərirsən? Bilmirsənmi, bizim qəzəbləndiyimiz və zindana atdığımız adama qayğı göstərmək olmaz?!"

Bazeyd dedi: "Şahim, sənin ona bağışladığın mənim ona verdiyimdən çoxdur". Şah dedi: "Mən ona nəyi bağışlamışam?" Dedi: "Həyatını, həyat isə mənim ona göndərdiyimdən çox-çox bahadır".

Şah dedi: "Afərin! Gözəl dedin. Onu sənə bağışladım".

**Hekayət.** Samani[150] xanədanında belə bir adət var imiş: kim onların qarşısında xoşagələn bir söz dedikdə, ya hünər göstərdikdə onların ağzından afərin sözü çıxsaymış xəzinəçi dərhal min dirhəm o adamın qabağına qoyarmış. Kəsra[151] şahları ədalət, səxavət və insafla başqa şahlardan daha irəlidə olmuşlar, Ənuşirəvan adil xüsusilə fərqlənmişdir..

**Hekayət.** Deyirlər bir gün Nuşirəvan ata minib yaxın adamları ilə ova gedirmiş. Bir kəndin kənarından keçəndə doxsan yaşlı bir kişinin qoz ağacı əkdiyini görüb, təəccüb etdi, çünki qoz ağacı yalnız iyirmi ildən sonra bar gətirir. Dedi: "A qoca qoz əkirsən?" Dedi: "Bəli, ağam". Soruşdu: "Nə qədər yaşamaq fikrindəsən ki, barını da yeyəsən?!" Qoca dedi: "Əkiblər yemişik, əkirik yesinlər!" Nuşirəvanın xoşu gəldi, dedi:"Afərin!"



downloaded from KitabYurdu.org

Dərhal xəzinəçiyə əmr etdi, qocaya min dirhəm versin.

Qoca dedi: "Ey ağam, heç kəs sənin nökərindən qabaq bu qozu yemədi". Soruşdu: "Bu necə olur?" Qoca dedi: "Mən bu qoz ağacını əkməsəydim, ağam burdan keçməsəydi, mənə çatan mənə çatmasaydı, bu qulunuz o cavabı verməsəydi, bu min dinarı haradan tapardım?!"

Nuşirəvan dedi: "Afərin! Afərin!" Xəzinəçi dərhal iki min dirhəm də qocaya verdi, çünki Nuşirəvanın ağzından iki "afərin” çıxmışdı.

**Hekayət.** Məmun bir gün şikayətlərə baxırdı. Nəyi isə xahiş etmək haqqında ona bir ərizə verdilər. O da ərizəni Fəzl Səhlə uzadıb dedi: "Bunun xahişini yerinə yetir, bu çərxi-fələk ona görə belə iti dövran edir ki, heç bir adama həmişə cəfa etməsin, bu dünya ona görə belə sürətlə fırlanır ki, heç kəs bir dosta həmişə vəfa etməsin. Bu gün yaxşılıq etməyə imkanımız vardır, sabah elə gün gələ bilər ki, birinə yaxşılıq elmək istəsək də, acizlikdən bacara bilməyək.

### *Otuz yeddinci fəsil*

## İQTİDARLARIN İQTALARI VƏ RƏİYYƏTİN HALI BARƏDƏ EHTİYATLI OLMAQ HAQQINDA

Bir vilayətin rəiyyətinin dağıldığı, özünün xaraba qaldığı haqqında xəbər versələr, bu xəbəri yayanların qərəz üzündən belə dedikləri güman edilsə, dərhal yaxın adamlardan birini bir bəhanə ilə ora göndərmək lazımdır. Heç kəs bilməməlidir ki, o hansı iş üçün göndərilir. Bir ay orada qalıb şəhərin, kəndın vəziyyətini, abadlıq və xarabazarlığını nəzərdən keçirər, iqtidar və amillər haqqında camaatın nə dediyini eşidər, həqiqətin necə olduğunu xəbər gətirər. Vəzifə adamları həmişə üzürlü səbəblər və bəhanələr göstərib deyə bilərlər ki,"bizim düşmənlərimiz vardır".

Onların sözünə çox da inanmaq lazım deyildir, yoxsa həddlərini aşıb bildiklərini edərlər, bundan əlavə, xəbər gətirənlər, etibar edilənlər də, şah və iqtidarlar yanında qərəzçi kimi tanınmasınlar deyə, məsləhət verməkdən özlərini saxlayırlar. Beləliklə, dünya get-gedə xarab olur, rəiyyət yoxsullaşır, nahaq vergilərin sayı çoxalır.

### *Otuz səkkizinci fəsil*

## ÖLKƏ İŞLƏRİNDƏ ŞAHLARIN TƏLƏSMƏSİ HAQQINDA

Tələsmək lazım deyildir. Bir xəbər eşitdikdə, ya bir hadisə baş verdikdə təmkinli olub həqiqətin necə olduğunu meydana çıxarmaq, yalanla doğrunu bir-birindən ayırmaq lazımdır. İki düşmən gəlib bir-birinin əleyhinə danışdıqda şah hansının tərəfində olduğunu bildirməməlidir ki, haqlı tərəf qorxub özünü



downloaded from KitabYurdu.org

çaşdırmasın, haqsız tərəf isə ürəklənib cəsarətlənməsin.

Haqq-taalanın əmri belədir: "Kim nə deyir-desin, həqiqəti bilməyincə cavab verməyin. Allah-taala buyurmuşdur: "Ay möminlər, bir aravuran gəlib yalandan sizə bir xəbər gətirsə, siz ondan həqiqətin necə olduğunu öyrənin,,.

Nə üçün tələsəsən, sonra peşimançılıq çəkəsən onun da faydası olmasın?!

**Hekayət.** Herat şəhərində məşhur bir alim var idi. Bu haman qoca idi ki, Bökrək[152] onu hökmdarın yanına gətirmişdi. Təsadüfən bir dəfə şəhid sultan (allah ona rəhmət eləsin) Herata getdikdə bir müddət orada qalmalı oldu, dayısı Əbdürrəhman həmən alimin evinə düşmüşdü. Bir gün sultanla şərab içərkən dedi: "Bu qocanın xüsusi bir otağı vardır, gecələr ora gedir və bütün gecəni namaz qılır. Bir gün mən o otağın qapısını açdım, şərab kuzəsi və bürünc bül gördüm; deməli, o, tamam gecəni şərab içib, bütə sitayiş edir".

Əbdürrəhman şərab kuzəsini, bürünc bütü özü ilə gətirmişdi və elə güman edirdi ki, bu sözü deyən kimi haman saat sultan əmr edəcək, qocanı öldürəcəklər.

Sultan qocanı çağırmaq üçün bir qulam göndərdi. Bir qulam da mənim yanıma göndərdi ki, sən də bir adam göndərib qocanı çağırtdır.

Mən qocanı nə üçün çağırtdığını bilmirdim. Sonradan bir adam gəlib dedi ki: "çağırtdırma". O biri gün sultandan soruşdum: "Dünən o qoca alimi gah çağırıb, gah da çağırmamağının mənası nə idi?" Dedi: "Əbdürrəhman dayımın qorxmazlığı. Bu əhvalatı mənə danışdı. Sonra Əbdürrəhman dayısına dedi: "Hərçənd sən bu sözü mənə dedin, şərab kuzəsini, bürünc bütü gətirib mənə göstərdin, lakin mən həqiqəti bilməyincə ona bir şey etməyəcəyəm. İndi əlini ver mənə və canıma and iç ki, dediklərin doğrudur, ya yalan".

Əbdürrəhman dedi: "Yalan demişəm".

Sultan dedi: "Ay namərd, nə üçün o qoca alim haqqında yalan danışıb onun qanına bais olmaq istəyirdin?" Dedi: "Ona görə ki, onun gözəl mülkü var, mən də ora düşmüşəm. Sən onu öldürsəydin, mülkünü mənə bağışlayardın".

Din xadimləri deyiblər: "Tələsmək şeytandan, təmkinlilik allahdandır".

Bozorcmehr [153] deyir: "Tələsmək yüngülbeyinlik əlamətidir. Tələsən və təmkinli olmayan adamlar həmişə peşiman və qəmli olarlar, çünki tələsmək müvəffəqiyyətin düşmənidir. Hövləki adam həmişə özünü danlar, tövbə edər, üzr istər, əzab çəkər. Əmirəlmöminin (allah ondan razı olsun) deyir: "Hər işdə təmkinli olmaq yaxşıdır".

***Otuz doqquzuncu fəsil***

## MİRQƏZƏB, ÇUBUQVURAN VƏ CƏZA ALƏTLƏRİ HAQQINDA

Mirqəzəblik bütün zamanlarda ən böyük vəzifələrdən biri olmuşdur: böyük əmir hacib nəzərə alınmasa, sarayda mirqəzəbdən böyüyü olmamışdır; çünki onun vəzifəsi cəza verməklə əlaqədardır. Şahın birinə acığı tutduqda boynunu



downloaded from KitabYurdu.org

vurmağı, əl-ayağını kəsməyi, dara çəkməyi, çubuq vurmağı, zindana aparmağı, quyuya salmağı əmr edər. Adamlar canlarının qorxusundan mal-dövlətlərini qurban verməyi əsirgəməzlər.

Mirqəzəbin həmişə təbili, bayrağı, carçıları[154] olmuşdur. Xalq padşahdan çox ondan qorxmuşdur. İndi bu vəzifə kiçildilmiş, onun rövnəqi qaçmışdır.

Heç olmasa, həmişə sarayda ən azı əlli nəfər çubuqvuran olmalıdır, iyirmisi qızıl çubuqlu, iyirmisi gümüş, onu çomaqlı. Mirqəzəbin silahı, yarağı, təmtərağı sən dərəcə yaxşı, nüfuzu sən dərəcə yüksək olmalıdır. Belə etmək mümkün deyilsə, onu başqa adamla əvəz etmək lazımdır.

**Hekayət.** Xəlifə Məmun bir gün öz nədimlərinə dedi: "Mənim iki mirqəzəbim var. Hər ikisinin işi səhərdən axşama qədər boyun vurmaq, əl-ayaq kəsmək, adam döymək və həbs etməkdən ibarətdir. Adamlar həmişə birini tərifləyir, ondan razılıq edir, o birini pisləyir, adını eşitdikdə lənət oxuyur, həmişə ondan gileylənirlər. Bilmirəm səbəbi nədir? Bir adam öyrənib mənə deməlidir ki, görüm nə səbəbə bunların hər ikisinin vəzifəsi eyni olduğu halda, xalq birindən razılıq, o birindən narazılıq edir".

Nədimlərdən biri dedi: "Mənə üç gün möhlət versən bunu səbəbini öyrənib ağama deyərəm". Dedi: "Verdim".

Bu nədim evinə gedib bacarıqlı nökərlərindən birinə dedi: "Gərək sən mənə bir iş görəsən. İndi Bağdad şəhərində iki mirqəzəb vardır. Biri qoca, biri ahıldır. Sabah səhər tezdən durub qocanın evinə getməlisən. Bu kişi öz hücrəsindən çıxandan sonra gör nə edir, necə oturur, necə işləyir, nə danışır. Xalq onun yanına gəldikdə, günahkarları onun yanına gətirdikdə nələr olur, əmrləri necə verir. Hamısına diqqət yetir, yadında saxla, gəlib mənə de. Sabah yox o birisi gün ahılın evinə get, hər nə görsən-oturuşundan, duruşundan, danışığından, rəftarından əvvəldən axıra qədər hamısını yadında saxla, mənə de".

Sabahısı gün nökər səhər sübhdən yerindən durub qoca mirqəzəbin evinə getdi. Bir az keçdikdən sonra bir fərraş gəldi, şamı taxçaya qoydu, canamazı saldı, canamazın başına bir neçə cüzv Quran və dua qoydu. Sonra qoca evdən çıxıb bir neçə rükət namaz qıldı. Adamlar gəldilər, salam verdilər. Günəş çıxdı. Bu vaxt soruşdu: "Heç günahkar gətiriblərmi?,, Dedilər: "Bir cavan oğlan gətiriblər, adam öldürmüşdür". Dedi: "Bunu görən olubmu?" Dedilər: "Yox, özü etiraf edir". Dedi: "La hövlə vəla qüvvətən illah billah əliyyül əzim (yəni: böyük allahın qüdrətindən daha güclü ola bilməz). Cavanı gətirin görüm".

Cavanı gətirdilər.

Onu görcək dedi: "Budur?" Dedilər: "Bəli" Dedi: "Bu görünüşündən caniyə oxşamır, üz-gözündən müsəlmanlıq nuru yağır, inanmıram onun əlindən xata çıxa. Güman edirəm yalan deyirlər, mən heç kəsdən onun haqqında bir söz eşitmək istəmirəm. Belə bir cavandan heç vaxt elə bir iş baş verə bilməz. Görürsünüzmü, onun qiyafəsi günahsız olduğuna şahidlik verir?!"

Cavan da bu sözləri eşidirdi.



downloaded from KitabYurdu.org

Biri dedi:"Özü günahını boynuna alır".

Qoca onun üstünə qışqırıb dedi: "Nahaq yerə bir müsəlmanın qanına bais olursan, bu cavan o qədər də ağılsız deyildir ki, özünün ölümünə səbəb ola biləcək sözlər desin".

Qocanın belə deməkdə məqsədi o idi ki, cavan qatilliyini inkar etsin.

Sonra üzünü cavana çevirib dedi: "Sən nə deyə bilərsən? " Oğlan dedi: "Allah-taalanın qəzasından belə bir xəta əlimdən çıxmışdır. Bu dünyadan başqa bir dünya da vardır. Mənim o dünyada allahın əzabına taqətim yoxdur. Allah nə buyurubsa, o cəzanı da mənə verin".

Mirqəzəb özünü karlığa vurdu, üzünü ətrafdakılara çevirib dedi: "Mən onun nə dediyni eşitmirəm, etiraf edir ya inkar?" Dedilər: "Bəli etiraf edir". Qoca dedi: "Ey oğul, sən heç qatilə oxşamırsan, bəlkə düşmənlərindən biri səni məhv etmək məqsədilə belə deməyə məcbur edir. Bir yaxşı fikirləş". Cavan dedi: "Ey əmir, heç kəs məni bu işə məcbur etmir. Mən qatiləm, allahın əmri necədirsə, elə də rəftar et” .

Mirqəzəb gördü ki, oğlan dediyindən dönmür, təlqin ona təsir etmir, ölməyi qərara almışdır. Cavana dedi: "Sən nə danışırsan?" Cavan dedi: "Belədir ki, var".

Qoca dedi: "Belə isə, allah necə buyurubdursa elə də hökm çıxardaram". Sonra üzünü adamlara çevirib əlavə etdi: "Siz bunun kimi allahından qorxan bir cavan görübsünüz?! Mən görməmişəm. Onun üzündən xoşbəxtlik, müsəlmanlıq və nəciblik nuru yağır. İzzət və calal sahibi allahın qorxusundan boynuna alır və ölmək lazım olduğunu bilir. O, cəlal və izzət sahibi olan allahın yanına şəhidlər kimi, təmiz və üzüağ getməyi daha üstün tutur. Onun huriyə və behiştin qəsrinə çatmağına bir addımlıq yol qalmışdır".

Sonra üzünü oğlana çevirib dedi: "Get yaxşıca yuyun, iki rükət namaz qıl, tövbə elə; mən də allah-taalanın hökmünü icra edim".

Cavan elə də etdi.

Mirqəzəb dedi: "Görürəm indi bu cavan behiştə gedəcəkdir". Qoca belə sözlər deməklə ölümü cavanın gözündə elə şirinləşdirmişdi ki, o mümkün qədər tez öldürülməsini xahiş edirdi.

Sonra əmr etdi onu soyundurdular, mehribanlıqla gözlərini bağladılar, qoca isə xoş sözlər deməkdə davam edirdi. Bu zaman əlində su damlası kimi parlaq qılınc olan cəllad xəbərsiz gəlib ehmalca cavanın başı üstə dayandı, cavan bunu heç hiss də eləmədi. Mirqəzəb gözü ilə işarə verdi, cəllad süfətlə qılıncı endirdi, cavanın başı bir zərbə ilə bədənindən ayrıldı. Sonra cinayət etmiş başqa bir neçə adamı zindana göndərdi ki, işin doğruluğunu yoxlaya bilsin. Qalxıb hücrəsinə qayıtdı.

Nökər nə görmüşdüsə, gəlib hamısını olduğu kimi ağasına danışdı.

Sabahısı günü qalxıb, o biri mirqəzəbin sarayına getdi. Adamlar və köməkçilər gəlməyə başladılar, saray doldu. Günəş yüksəldikdə mirqəzəb



downloaded from KitabYurdu.org

sarayından çıxıb qəbula başladı, üzünü turşutdu, qaşını çatdı. Köməkçiləri onun qarşısında hələ də ayaq üstə durmuşdular. Xeyli zamandan sonra soruşdu: "Heç adam-zad gətiriblərmi?" Dedilər: "İki-üç sərxoş cavan gətiriblər". Dedi: "Sürüyünüz bura!" Sürüdülər. Gözü onlara sataşacaq dedi: "Çoxdandır ki, mən bunları axtarıram. Bu haramzadanın biridir, fitnə-fəsad törətməkdə Bağdadda tayı yoxdur. Bunun boynunu vurmaq lazımdır, camaatın uşaqlarını yoldan çıxarmaqdan başqa əlindən heç bir iş gəlmir, heç elə gün olmur ki, bunun əlindən mənim yanıma şikayətə on adam gəlməsin. Çoxdandır ki, buna göz qoyuram". O qədər belə dedi ki, cavan canını onun sözlərindən qurtarmaq üçün başının vurulmasına razılıq versin.

Sonra əmr etdi taziyanə gətirdilər. Dedi: "Üzü üstə yıxıb başının vo ayağının üstündə oturun, qırx taziyanə vurun!"

Doyunca bu qədər döydürdükdən sonra zindana göndərmək istəyirdi ki, əllidən çox hörmətli ağsaqqal gəlib haman cavanın sakit, tərbiyəli uşaq olduğuna şəhadət verdilər, vasitəçilik etdilər, bağışlanmasını xahiş etdilər, əvəzində xidmət göstərəcəklərini dedilər. Fayda vermədi, cavanı həbsxanaya göndərdi. Ağsaqqallar incik halda qayıtdılar, ona nifrət etdilər. Mirqəzəb qalxıb hücrəsinə getdi. Nədimin nökəri gəlib əhvalatı ağasına danışdı. Nədim üçüncü gün Məmunun xidmətinə getdi, hər iki mirqəzəbin xasiyyət və hərəkəti haqqında nə eşitmişdisə, hamısını ona danışdı. Əmirəlmöminin Məmun təəccüb etdi, qocaya dua oxudu, o itə isə lənət yağdırdı və dedi: "Lənət olsun ona o, şərab içmiş bir azad adamla belə rəftar edirsə, gör qan tökmüşə rast gəlsə nələr edər?"

Sonra əmr etdi onu mirqəzəblikdən çıxartdılar. Cavanı zindandan buraxdılar, qoca mirqəzəbi isə öz vəzifəsində saxlayıb ona yeni xələt geyindirdilər.

### *Qırxıncı fəsil*

## ŞAHIN ALLAH BƏNDƏLƏRİNƏ BƏXŞİŞ VERMƏSİ, HƏR İŞ VƏ ADƏTİ QAYDAYA SALMASI HAQQINDA

Hər dəfə göydən bəla yağdıqda, dövlətə bədnəzər baxdıqda hökumət dəyişər, hakimiyyət əldən-ələ keçər, fitnə qalxar, qarmaqarışıqlıq düşər, bədxah qılınclar qınından çıxarılar. Bu qarmaqarışıqlıqda adlı-sanlı adamlar sıxışdırılar, müfsidlər iş başına keçib qudurar, istədiklərini edərlər. Düz adamların işi çətinləşər, vəziyyətləri ağırlaşar. Alçaq adamlar əmirliyə yüksələrlər, nəciblər məhrum qalarlar. Heç bir alçaq öz üzərinə vəzir, şah adını götürməkdən boyun qaçırmaz. Türklər özünə "xacə" ləqəbi götürər, xacələr isə türklərə xas olan ləqəbləri özlərinə bağlarlar. Şahın adından fərman verərlər. Şəriət zəifləyər, ordu əliuzunluğa, rəiyyət dikbaşlığa başlar, əyri, düzlüyü təyin etmək olmaz, heç kəs işi düzəltməyə can atmaz. Bir türk on tacikə ağalıq edə bilər, bir tacik on türkə ağalıq edə bilər. Ölkədə hərc-mərclik yaranar. İğtişaş, müharibələrin çoxluğundan şah



downloaded from KitabYurdu.org

belə işlərlə məşğul olmağa, onlar haqqında fikirləşməyə belə vaxt tapmaz.

Elə ki, xoşagəlməz günlər keçdi, əmin-amanlıq dövrü gəldi, asayiş bərpa oldu, haqq-taala ağıllı bir padşah meydana çıxardar, ona bilik verər ki, hər şeyi aydınlaşdırmağa başlasın, hamıdan keçmiş şahların necə dolandıqlarını soruşsun, şahlıq qayda-qanunlarını öyrənsin. Sonra qüdrət, dövlət verər ki, düşmənlərini məhv etsin. Sonra o, kitabları oxuyub, şahlara məxsus bütün qayda-qanunlarını ortaya çıxarar, özlərinə layiq vəzifə tapşırar. Düşmənlərin kökünü kəsər, dinsevən olub, allah-taalanın izni ilə küfrü aradan qaldırar. Bu barədə çox danışsaq, daha çox aydın olar ki, nələr, hansı adət-ənənələr ortalıqdan getmişdir. Şah da bunları nəzərə alıb onlar haqqında ayrı-ayrılıqda ölçü götürər fərman verər.

Şahların riayət etdikləri qaydalardan biri də köhnə sülalələrə hörmət etmək, onların övladlarını əzizləmək və hakimiyyətləri dövründə onların ehtiyaclarını rəf etmək, ailələrini dolandırmaq üçün lazımi qədər şərait yaratmaqdan ibarətdir.

O biriləri: xidməti olanları, alimləri, seyidləri, sərhəd qoruyanları, Quran oxuyanları dövlət malından məhrum etməməkdir, onların xeyir-duası, naz-niyazı hökmdara bəsdir. Vəssəlam.

**Bu mənada bir hekayət.** Deyirlər ehtiyacı olan adamlardan bir dəstə yığışıb Harunnərrəşidə ərizə yazdılar ki: "Biz allah bəndələriyik, böyük adamların övladlarıyıq, bəzilərimiz Quran əhli, bəzilərimiz alimik, bəzilərimiz şərəf sahibiyik, bəzilərimizin əcdadlarının bu dövlətdə haqqı vardır, hamımız müsəlmanıq, dinimiz pakdır, bizə də dövlət malından bəzi şey çatmalıdır; sən isə hər gün öz şəhvətini söndürmək üçün dövlət pulunu xərcləyir, bizə isə bir qara quruş da vermirsən. Bizim də payımızı ayırmalısan, əks-halda o, izzət və cəlal sahibi allaha pənah aparıb ona yalvarırıq ki, onun müsəlmanlara rəhmi gəlsin".

Ərizəni oxuduqda Harunnərrəşidin halı dəyişdi, xüsusi sarayına çəkilib həyəcan və iztirab keçirməyə başladı.

Zübeydə onuı qanıqara olduğunu gördükdə soruşdu: "Nə olubdur?" Əhvalatı Zübeydəyə danışdı. Zübeydə dedi: "Bax gör, səndən qabaqkı xəlifələr və böyük adamlar allah bəndələri ilə necə rəftar ediblərsə, sən də elə et. Lakin şübhəsizdir ki, dövlət malı müsəlmanlarındır. Sən isə ondan çox xərcləyirsən. Sən müsəlmanların malı ilə elə rəftar et ki, necə müsəlmanlar sənin malın ilə rəftar edirlər. Onlar səndən şikayət edirsə, haqları vardır"

Təsadüfən o gecə hər ikisi yuxuda gördü ki, qiyamətdir, xalq hesab çəkilən yerə toplanmışdır, adamları bir-bir irəli çağırırlar, peyğəmbər ə.s. və s. şəfaqət edir, sonra behiştə sarı aparırlar. Bu zaman bir mələikə onların əlindən tutdu. Dedilər: "Hara aparırsan?" Dedi: "Məni peyğəmbər ə.s. göndərdi, buyurdu ki, nə qədər burdayam, qoyma onları mənim yanıma gətirsinlər, utanaram, onların haqqında vəsatəq edə bilmərəm, çünki onlar xalqın malını öz malları bilmiş, müstəhəqləri məhrum etmişlər, özləri də mənim yerimdə oturmuşdular".

Hər ikisi yuxudan diksindi. Ayıldıqda Harun Zübeydədən soruşdu: "Sənə



downloaded from KitabYurdu.org

nə oldu?" Dedi: "Mən yuxuda belə və belə gördüm və qorxdum". Harun dedi: "Mən də elə görmüşəm".

Hər ikisi şükr etdi. Sabahısı gün xəzinənin qapısını açdılar, car çəkdilər ki, kim müstəhəqdirsə gəlsin payını verək.

Hər tərəfdən camaat axışıb gəlməyə başladı, gələnlərin sayı-hesabı yox idi. Əmr etdi, yemək-içmək və dolanmaq üçün camaata üç dəfə min dinar verdilər.

Sonra Zübeydə dedi: "Xəzinə, dövlət malı sənin əlindədır, onun cavabını da qiyamətdə səndən soruşacaqlar. Sən məndən qabağa düşüb, allahın köməyi ilə bəzilərinin könlünü ələ ala bildin. Lakin verdiklərinin hamısı xalqın malı idi. Mən isə nə etsəm, allah-taala xatirinə qiyamət günü nicat tapmaq üçün öz malımdan edəcəyəm."

Sonra Zübeydə öz malından bir neçə dəfə min-min dinar payladı, əmr etdi Kufə qapısından, Məkkə yolunda hər mənzilbaşı bir quyu qazdılar. Bu quyuların hamısı daş, kəc və bişmiş kərpicdən idi. Heç kəs belələrini qazdırmamışdı. Bunların hamısını ehsan tikdirirdi. Hələ indi də bunlardan çoxu durur.

Sonra əmr etdi sərhədlərdə qala və istehkamlar tiksinlər, döyüşçülər üçün silah və al alsınlar, torpaqlarının çoxunu vəqfə versinlər. Qalan malından Kaşğər sərhəddində möhkəm bir şəhər tikdirdi, adını Bədəxşan qoydu. O ətrafda bir neçə karvansara tikdirdi. Xarəzm yolunda, İskəndəriyyə qapısında və başqa yerlərdə hasar çəkdirdi, qala saldı, yenə də malından çox qaldı. Əmr etdi Mədinə və Beytülmüqəddəsdə xütdamlar arasında paylasınlar.

**Bu mənada bir hekayət.** Zeyd bin Əsləm[155] nağıl edir ki, bir gecə əmirəlmöminin Ömər (allah ondan razı olsun) şəxsən özü keşikçiləri yoxlayırdı, mən də onunla birlikdə idim. Mədinədən çıxdıq. Səhrada uçuq bir ev var idi, onun divarı arxasından işıq gəlirdi. Ömər ibn Əlxəttab (allah ondan razı olsun) mənə dedi: "Ya Zeyd, gəl gedək görək, oradakı kimdir".

Getdik, yaxınlaşanda bir qadın gördük. Odun üstünə qazan qoyulmuşdu, qarşısında iki körpə yatırdı, özü isə deyirdi: "İlahi mənim qisasımı Ömərdən sən al, o doyunca yemişdir, biz isə acından ölürük". Ömər qadının sözünü eşitcək Zeydə dedi: "Bütün adamlardan yalnız bu qadın məndən allaha şikayət edir. Sən burada dayan, mən qadından soruşum görüm nə olmuşdur?!"

Qadının yanına gedib soruşdu: "Bu gecə yansı bu çöldə nə bişirirsən?"

Qadın dedi: "Mən yoxsul bir qadınam. Mədinədə sığınacaq bir yerim yoxdur, əlimdən də bir iş gəlmir, iki körpəm acından ağlayır, qışqırır. Mənim də heç bir şeyim yoxdur ki, verim ovunsunlar. Ona görə mən də çıxıb bu səhraya gəldim ki, qonum-qonşu onların nə üçün ağladıqlarını bilməsinlər. İndi onlar hər dəfə acından ağlayıb yemək istədikdə mən də bu qazanı su ilə doldurub bu ocağın üstünə qoyuram, elə bilsinlər bir şey bişirirəm. Bu ümid ilə də yatırlar. İndi iki gündür ki, nə mən, nə onlar sudan başqa bir şey yeməmişik."

Ömər (allah ondan razı olsun) dedi: "Öməre qarğış etməkdə sən haqlısan. Bir az burada gözlə, mən bu saat gəlirəm".



downloaded from KitabYurdu.org

Sonra Ömər qayıdıb tələsik evlərinə qaçdı. Bir saat keçməmişdi ki, çiynində iki xurcun geri qayıtdı. Mənə dedi: "Qalx, yenə gedək o qadının yanına". Mən ona dedim: "Ya əmirəlmöminin, heç olmazsa ver bu xurcunları mən götürüm". Ömər dedi: "Ya Zeyd, indi sən götürsən, bəs qiyamət günü mənim yükümü kim götürəcəkdir?!"

Qaça-qaça qadının yanına gəldi. Gətirdiyinin hamısını qadının qarşısına qoydu. Xurcunun biri un, biri düyü, quyruq yağı ilə dolu idi.

Mənə dedi: "Ya Zeyd, bir az odun tap gətir." Mən odun dalınca getdim. Ömər də gedib su gətirdi, qadının qarşısına qoydu. Qadın yağlı bir fətir bişirdi, şorba hazırladı, sevincindən ağlayırdı. Elə ki hər şey hazır oldu uşaqları yuxudan oyatdı. Uşaqlar oturub doyunca yedilər, anaları ilə oynamağa başladılar.

Ömər qadını və uşaqları evinə apardı və dedi: "Daha Ömərə qarğış etmə, bağışla, sənin belə olduğundan xəbəri yox idi."

Qadın ona baxıb dedi: "Allah haqqı sən Ömərsən." Dedi: "Bəli,, Yazıq, miskin qadın dedi: "Allah səni bağıslasın, bizi diriltdin."

**Rəvayət.** Bu mənada belə rəvayət edirlər ki, Musa ə.s. hələ çoban olduğu vaxtlar, vəhy gəlməmişdən əvvəl bir dəfə qoyun otararkən təsadüfən onlardan biri dalda qaldı. Musa onu sürüyə qatmaq istədi, qoyun qaçmağa başladı. Musa da onun dalısınca götürüldü. Axırda qoyun yorulub taqətsizlikdən yerə yıxıldı. Musa dedi: "Ay yazıq, axı niyə qaçırdın?!" Sonra qaldırıb çiyinlərindən aşırdı, iki fərsənglik yolu boynunda gətirib sürüyə qatdı.

Qoyun sürünü görcək qaçıb onlara qoşuldu. Bu çəkdiyi zəhmətə, qoyunu incitmədiyinə görə Musaya allahdan nida gəldi: "And olsun izzətimə, mən onu yüksəldib, özümə həmsöhbət edəcəyəm, peyğəmbərlik verəcəyəm." Sonra bunların hamısını ona verdi.

**Bu mənada hekayət.** Mərvrud şəhərində bir kişi var imiş, adı Rəşid Hacı imiş, çox hörmətli, varlı, hikmətli adam imiş, ondan dövlətlisi yox imiş. Sultan Mahmud və Sultan Məsuda çoxlu xidmət göstərmiş, ölkələr çapmış, qəddarlıqlar etmişdir. Bu adam ömrünün axırında tövbə edir, başqaları ilə işi olmur, hər qəsəbədə cümə məscidləri tikdirir, hətta həccə gedir. Həccdən qayıtdıqda bir neçə gün Bağdadda qalır. Bir gün bazardan keçərkən bir qotur itə rast gəlir. İt qoturluqdan taqətdən düşmüş imiş. Nökərlərindən birinə deyir: "Bu iti götür apar evə." Elə ki, evə gətirirlər, onu doyuzdurur, öz əli ilə yaralarına yağ sürtür. O iti saxlayıb müalicə edir, it sağalır. Ondan Sonra dəfələrlə təzədən həccə gedir, ehsanlar verir, qurbanlar kəsir. Sonradan evinə qayıdır və Mərvrudda ölür.

Bir müddət keçdikdən sonra onu yuxuda görürlər kefi kök, damağı çağ!

Soruşurlar:"Allah sənə nə elədi?"

Deyir: "Rəhm edib məni bağışladı. O qədər Məkkəyə getdiyimin, dua etdiyimin, ehsan verdiyimin faydası olmadı, yalnız öz əlimlə yarasına yağ sürtdüyüm o it mənə kömək oldu. Nida gəldi ki: "Səni o itə görə bağışladım". Bu qədər itaətdən mənim əlimdən tutan yalnız o il oldu."



downloaded from KitabYurdu.org

Bu barədə ona görə danışıram dünyanın hökmdarı bilsin ki, yaxşılıq çox yaxşı şeydir.

Onlar qoyuna və itə yaxşılıq etdikləri üçün o dərəcəyə çatmışdılar.

Deməli bilmək lazımdır ki, allah bəndəsinə yaxşılıq edən yüksək mənsəbə çatar, böyük savab qazanar, çünki allah yanında bəndə hörməti yerdən və göydən də böyükdür.

Zamanın hökmdarı allahından qorxan və gələcəyini düşünən olsa, ədalətli olar, qoşun da ona baxıb özünü elə aparar: zülm etməzlər.

Bu mənada bir fəsil. Sayıq şahların adəti belə olmuşdur: qocalara hörmət etmiş, iş bacaranların, müharibə işində təcrübəsi olanların qayğısına qalmış, hərəsinə özünə layiq vəzifə və mənsəb vermişlər.

Ölkənin xeyri üçün mühüm bir tədbir görmək, o biri ilə sazişə girmək, bir şahın vəziyyətini bilmək, dini məsələləri öyrənmək və bu kimi məsələlərdə alimlər dünyagörmüş adamlarla məsbhətləşmişlər, ona görə də, müvəffəqiyyət qazanmışlar.

Müharibə baş verdikdə elə bir adamı sərkərdə etmişlər ki, o çoxlu dava görmüş, düşmənlər basmış, qalalar almış, dünyada şöhrət tapmış olsun. Bununla belə, yenə də onunla birlikdə dünyagörmüş, məsləhətçi bir qoca göndərdilər ki, səhvə yol verməsin.

İndi də belə bir şeyə fikir verilsə, daha doğru və zərərsiz olar.

### *Qırx birinci fəsil*

## LƏQƏBLƏR HAQQINDA

İndi ləqələr yaman çoxalıbdır, çoxaldıqca da qədir-qiymətdən düşübdür.

Şahlar ləqəb verməkdə həmişə ehtiyatlı olmuşlar, çünki yaxşı məmləkət dolandırmaq qaydalarından biri də ləqəblərin verilməsi, hər kəsin öz mövqeyini, öz yerini bilməsidir. Bazar adamı[156] ilə dehqanın [117] ləqəbi eyni olsa fərqləri aradan qalxar, məşhur adamla qeyri-məlum adam eyni olar. Alimlə cahilin ləqəbi eyni olsa, onları tanımaq olmaz, ölkədə belə işlərə yol vermək yaxşı deyildir.

Eləcə də əmirlərin və türklərin ləqəbi Hüsaməddin[158], Seyf əd-dövlə[159], Əmin əd-dövlə[160] və buna bənzər ləqəblər olmuşdur. Xacələrin[161], əmidlərin[162], dövlət məmurlarının ləqəbləri: Əmir üd- dövlə[163], Zahirəlmülk[164], Qəvamülmülk[165] və buna oxşar ləqəblər olmuşdur.

İndi belə fərqlər aradan çıxmışdır. Türklər xacələrin ləqəblərini götürür, xacələr də türklərin və bunu eyib hesab etmirlər, halbuki ləqəblər həmişə əziz tutulmuşdur.

**Hekayət.** Sultan Mahmud sultanlığa çatdıqdan sonra əmirəlmöminin Əlqadir Billahdan[166] ləqəb istədi, ona Vəminəddövlə [116] ləqəbini göndərdi.

Mahmud Nimruzu, Xorasanı, Somnata qədər Hindistanı və bütün İraqı



downloaded from KitabYurdu.org

tutduqdan sonra xəlifəyə çoxlu hədiyyə və bəxşiş göndərməklə ləqəbinin artırılmasını istədi, qəbul etmədi.

Deyilənlərə görə, Mahmud on dəfə elçi göndərdi, fayda vermədi. Səmərqənd xaqanına isə üç ləqəb vermiş imiş: Zəhirəddövlə, Moin Xəlifətullah[168], Məlik Əşşərq Vəssin[169]. Mahmuda isə bu çox ağır gəlirdi. Bir dəfə də elçi göndərdi ki, mən bütün küfr ölkələrini fəth etmişəm, sənin adından qılınc vuraram, mənim təyin etdiyim xaqana üç ləqəb veribsən, bu qədər xidmətlərimə baxmayaraq mənə bir ləqəb?! Cavab gəldi ki: "Ləqəb şərəf üçündür, onu adama verirlər ki, şərəfi artsın, şöhrət tapsın. Sən isə özün şərəf və şöhrətsən, sənə bir ləqəb də kifayətdir. Lakin xaqan azbilikli, nadan türkdür. Ona görə xahişini yerinə yetirib ləqəblərini artırmışam. Sən isə bütün elmlərə vaqifsən, bizə daha yaxınsan, biz sənin haqqında düşündüyündən daha yaxşı fikirdəyik."

Mahmud bu sözü eşitdikdə bərk incidi. Onun evində bir türk qadın var idi. Bu qadın savadlı dilbilən idi. O, vaxtının çoxunu Mahmudun sarayında keçirir, Mahmudla söhbət edir, zarafatlaşır, onu əyləndirir, cürbəcür əhvalatlar danışır və oxuyurdu.

Bir gün Mahmudun qarşısında oturub onun könlünü açmağa çalışırdı. Mahmud dedi: "Nə qədər əlləşirəm ki, xəlifə mənim ləqəbimi artırsın, faydası olmur, mənim rəiyyətim olan xaqanın isə bir neçə ləqəbi vardır. Bir adam lazımdır ki, xaqanın evindən xəlifənin onun haqqındakı fərmanı gətirsin, nə istəsə verərəm".

Qadın dedi: "Mən gedib bu fərmanı gətirərəm, lakin nə istəsəm, gərək verəsən."

Mahmud dedi:"Verərəm."

Ona getmək üçün hər şeyi verdi. Arvad oğlunu götürüb Qəzneyndən Kaşğərə gəldi. Bir neçə türk qulamı, Xəta, Çindən gətirilə bilən zərif şeylər, ipək, gözəl kəniz, tərğu [170] və bu kimi çoxlu mal aldı, sövdəgərlə birlikdə Səmərqəndə gəldi. Üç gündən sonra xatunun görüşünə getdi. Çoxlu bilərzik və boyunbağı taxmış gözəl bir kənizi xanımın yanına aparıb dedi: "Ərim sövdəgər idi, hara getsə idi məni də özü ilə aparardı - xətaya getmək fikrində idi. Xotənə yetişdikdə əcəl çatdı. Mən geri qayıdıb Kaşğərə gəldim, Kaşğər xaqanının yanına töhfə apardım və dedim: "Mənim ərim böyük xaqanın xidmətçilərindən idi, mən isə xaqanın xatununun kənizi idim. Məni azad edib ona ərə verdilər. Bu uşaq da ondandır. Xotəndə əcəli çatdı, ondan nə qalıbsa, hamısı böyük xaqan və xatunun verdiyi mayadan ibarətdir. İndi xahişim budur ki, öz mərhəmət əlini mənim və bu yetimin üzərindən əskik etməsin, bizi yaxşı adamlarla Yüzkəndə və Səmərqəndə göndərsin ki, gəlib sizi ziyarət edək və nə qədər sağıq, sizin ömrünüzə dua oxuyaq. O, xatunu çox təriflədi, xaqanı da. Sonra bizi yola saldı. Yüzkənd xaqanına buyurdu ki, bizi yaxşı adamlarla Səməqəndə göndərsin. İndi sizin dövlətinizdən özümü Səmərqəndə salmışam. Ərim deyərdi: "Özümü Səmərqəndə sala bilsəm, daha oradan heç yerə getməyəcəyəm.

İndi məni oradan çəkib bura gətirən sizin adınız olubdur. Məni qulluğa



downloaded from KitabYurdu.org

qəbul edib, mərhəmət əlinizi mənə uzatsanız, burada qalaram, daş-qaşımı satıb bir parça torpaq alaram. Həm sizin xidmətinizdə olaram, həm bu oğlumu böyüdərəm. Ümid edirəm ki, sizin bərəkətinizdən allah-taala onu xoşbəxt edər."

Xatun dedi: "Ürəyini sıxma, yaxşılıq, qayğıkeşlikdən nə mümkünsə, heç birini əsirgəmərəm, sənə bir parça çörək yeri düzəldərəm, elə edərəm ki, ürəyincə olar, bir saat da qoymaram öz yanımdan uzaq olasan. Xaqana deyərəm, nə istəsən sənə verər."

Xatuna baş əyib dedi: "İndi mənim xanımım sənsən, başqa heç kəsi tanımıram, gərək məni xaqanın yanına aparasan ona da sözümü deyəm."

Xatun dedi: "Sabah gələrsən."

Sabahısı gün getdi. Onu xaqanın yanına apardı. Bir türk qulamı və bir yaxşı at verib dedi: "Yəqin mənim haqqımda bir az xaqana deyilmişdir. Qısası budur ki, ərim öldükdən sonra şəriki dedi ki, xəta üçün nəzərdə tutulmuş şeyləri geri qaytarmağına dəyməz. Bəzilərini Kaşğər xanına verdik, qalanını yolda xərclədik. İndi bir mən qalmışam, bir də bu yetim. Əgər böyük xaqan da xanımı kimi mənu kənizliyə qəbul etsə, mən qalan ömrümü bu şərəfli xidmətdə səna vurmağa hazıram."

Xaqan qəbul etdi, ona çoxlu hörmət görstərdi, ondan sonra hər gün xatunun qarşısına bir hədiyyə qoydu, maraqlı əfsanələr söylədi. Xatun və xaqanı elə məftun etdi ki, onsuz üzləri gülmür, könülləri açılmırdı. Həm də bərk utanır və xəcalət çəkirdilər, çünki kənddən, torpaqdan, mal-dövlətdən ona hər nə təklif edirdilərsə, qəbul etmirdi. Hər üç-dörd gündən bir onun üçün ayrılmış saraydan çıxıb ata minir, şəhərdən üç-dörd fərsəng kənara gedirdi və deyirdi ki, torpaq alıram, mülk tikdiririəm. Üç-dörd gün qalır, sonra geri qayıdıb üzr istəyirdi.

Xatun və xaqan adam göndərib onun nə üçün gecikdiyini soruşduqda xəbər gətirdilər ki, filan kənddə mülk alır. Xatun və xaqan sevinib deyirdilər: "Bura ürəyinə yatıbdır."

Altı ay bu minvalla keçdi.

Bu müddət ərzində dəfələrlə üzr istəmiş, peşkəş, hədiyyə təklif etmişdilər. Həmişə rədd edib demişdi: "Dünyada mənim üçün ağalarımı görməkdən daha əziz heç bir şey yoxdur, allah-taala mənə ruzi veribdir, gündən-günə hiss edirəm ki, bir gün də olsun sizsiz dolana bilmərəm. Əgər ehtiyacım olsa, özüm sizdən istəyəcəyəm." Beləliklə, onları daha məftun edir, heyran qoyurdu.

Qızıldan-gümüşdən nəyi vardısa, hamısını Səmərqəndlə Qəzneyn arasında sövdəgərlik edən bir tacirə vermişdi. Bəlx yolu ilə beş adam göndərmiş və demişdi ki: "Hərəniz bir atla məni mənzil başında gözləyin."

Sonra xatun və xaqanın yanına gəldi, hər ikisinə salam verib dedi: "Bu gün sizə bir işim düşüb, bilmirəm deyim, deməyim..." Xatun dedi: "Səndən qəribə şey eşidirəm. İndiyə qədər sən yüz xahiş etməli idin. Nəyə ehtiyacın var, de..."

Dedi: "Bütün dünyada mənim bircə oğlum var, ona Quran və ədəbiyyat öyrətmişəm. Ümid edirəm ki, sizin dövlətinizdən xoşbəxt olacaqdır. Allahın və



downloaded from KitabYurdu.org

peyğəmbərin yazısından sonra, yer üzərində əmirəlmöminin yazısından daha böyük bir yazı, onu yazmış xəttatdan isə daha bilikli bir münşi ola bilməz. Ağalarımızın razılığı olarsa onu iki-üç günlüyə mənə versinlər ki, oğlum onu müəlliminə göstərsin."

Xatun və xaqan dedilər: "Bu çox qəribə xahişdir edirsən, nə üçün bizdən şəhər və ya vilayət istəmirsən? Bizdə belə yazılar əllidən çoxdur, tökülüb ora. İstəyirsən hamısını sənə verək."

Qadın dedi:"Elə biri mənə bəsdir."

Bir xidmətçiyə buyurdu, xəzinəyə getsin, hansı yazını istəyirsə, ona versin.

Sonra xəzinəyə gedib, fərmanı götürərək evə gətirdi.

Sabahısı günü bütün atlarını yəhərləməyi əmr etdi, dəvələri yüklətdi və xəbər yaydı ki, filan kəndə torpaq almağa gedirəm və bir həftə orda qalacağam.

Birbaşa çapıb haman kəndə gəldi. Əvvəlcədən fərman almışdı ki, hara çatsa, hörmət etsinlər, yer düzəltsinlər. Gecə yarısı köçüb şəhərdən üç fərsənglik məsafədə dincəldi, sonra yola düzəlib beşinci gün Tennezə çatdı. Harada istəyirsə, orada fərmanı göstərirdi, lazımi hörmət edirdilər, beləliklə gəlib Bəlxə çatdı. Xatun onun Bəlxə getdiyini bilmirdi.

Bəlxdən Qəzneynə getdi, xəlifənin fərmanını Mahmuda yetirdi. Mahmud haman fərmanı bir alimlə Qadirin yanına göndərdi, bir məktub da özündən yolladı. Orada yazırdı: "Mənim xidmətçilərimdən biri Səmərqəndə getmişdi, bir məktəbin yanından keçərkən bu fərmanı hələ ağılları bir şey kəsməyən şagirdlərin əlində görür, oxuyurmuşlar. Mənim adamım bunu uşaqların əlindən alıb mənim yanıma gətirmişdir, biləsən fərman o adama göndərilməlidir ki, qədir-qiymətini bilsin, onu başının tacı hesab etsin.

Haman elçi-alim Bağdada gəldi, əhvalatı danışdı, məktubu verdi. Xəlifə təəccüb etdi, xaqana "məzəmmətnamə" yazılmasını əmr etdi. Mahmudun elçisi altı ay xəlifənin sarayında qaldı, ərizələr yazdı, lakin aydın bir cavab ala bilmədi.

Bir gün belə bir şəri sual yazdı: "Bir şah meydana çıxıb islam xatirinə qılınc vursa, ya kafirlərlə vuruşsa, küfr evini islam evinə çevirsə, xəlifə isə ondan uzaq olub baş verən hadisələri həll edə bilməsə, başqa bir hörmətli əbbasini seçib ona beət etmək olar, ya yox?,,

Bu şəri sualı baş qaziyə göndərdi. Baş qazi dedi:" Olar." Mahmudun elçisi qazinin imza etdiyi fitvanın üzünü çıxardıb bir nüsxə ərizənin içərisinə qoydu. O, ərizədə yazırdı: "Mənirn burada qalmağım uzun çəkdi. Mahmud yüz qulluq müqabilində bir neçə ləqəb xahiş edir, dünyanın ağası isə bunu ona çox görür. Əgər Mahmud baş qazi tərəfindən təsdiq olunmuş və ona görə də şəri qanun hesab edilən bu fitva əsasında hərəkət etsə, üzürlü hesab edilər ya yox?!"

Xəlifə ərizəni oxuyan kimi dərhal dərbar hacibini vəzirin yanına göndərdi ki: "Bu saat Mahmudun elçisini çağırıb könlünü ələ al, əmr etdiyim xələt və ləqəbi hazırla, xoşluqla yola sal."



downloaded from KitabYurdu.org

Bununla belə, bu qədər vəsatət, xahiş və Mahmudun xoşa gələn xidmət və səylərinə baxmayaraq, ona Əminülmillə[171] ləqəbini verdilər. Mahmudun ləqəbi ömrünün axırına qədər Yəminüddövlə[172], Əmünilmillə idi.

Bu gün isə ən kiçik vəzifəli adamın ləqəbini on dənədən az yazanda acığı tutur, inciyir.

Uzun müddət şahlıq etmiş samanilərin hərəsinin ancaq bir ləqəbi olmuşdur. Nuhunki-Şahənşah, atasınınki-Əmiri-Sədid [173], babasınınkı-Əmiri Həmid[174], İsmail bin Əhmədininki-Əmiri-Adil olmuşdur.

Qazi, imam və alimlərin ləqəbləri: Məcdəddin[175], Şərifülislam, Seyiüssünnə[176], Zeynəşşəriə[177], Fəxrülüləma[178], və s. olmuşdur. Çünki bunlar şəriətlə əlaqədardır. Alim olmayan adamlar belə ləqəblər götürdükdə şah onları cəzalandırmalı və icazə verməməlidir. Eləcə də ordu başçılarına, iqtidarlara "dövlət ləqəbi vermişlər. Məsələn: Seyf üd-dövlə, Hüssam üd-dövlə, Zəhir əd-dövlə və bu kimi ləqəblər. Dövlət xadimlərinə, hökumət adamlarına "mülk" ləqəbi verilməlidir, məsələn-şərəfülmülk[179], əmidülmülk[180], nizamülmülk[181], kəmalülmülk[182] və s.

Sultan Səid Alp Arslanın (allah ona rəhmət eləsin) dövründən Sonra qayda-qanun pozulmağa başladı, fərqlər aradan qalxdı, ləqəblər bir-birinə qarışdı. On kiçik adam hansı ləqəbi istəyirdisə, onu da verirdilər. Beləliklə ləqəb hörmətdən düşdü.

İraqda ən böyük hesab edilən quniyaların[183] ləqəbi Əzüddəd-dövlə[184] və Rükn üd-dövlə[185] idi, vəzirlərin ləqəbi isə "cəlil"[186], "ostad xətir"[187] idi. Bütün vəzirlərin ən müdriki və ən hörmətlisi Sahibəbbad[188] idi, ona kafiülküfat[189] ləqəbi verilmişdi. Sultan Mahmud Qəznəvinin vəzirlərinin ləqəbi şəmsülküfat idi.

Bundan əlavə, şahların ləqəbində "dünya" və "din" ləqəbi olmazdı. Əmirəlmöminin Əlmüqtədi Biəmrillah Sultan Məlikşahın
(allah ona rəhmət eləsin) ləqəbinə Müizzəddünya vəddin[191] artırmışdı. Onun ölümündən Sonra dəb düşdü. Börkyaruka[192]- Rükn əd-dünya vəddin, Mahmuda-Nasir əd-dünya vəddin, İsmailə Məhy id-dünya vəddin, Sultan Mahmuda-Qiyas üd-dünya vəddin ləqəbləri verildi; şah arvadlarına da bu "Əddünya vəddin" ləqəbi verilməyə başladı.

Belə bəzək və zinət şah övladlarının ləqəblərinə də artırıldı. Bu onlara layiqdir, çünki dövlət və məmləkətin varlığı şahların varlığına bağlı olduğu kimi, din və dünyanın da məsləhəti onların məsləhətindən asılıdır.

Qəribə burasıdır ki, din və məmləkətdə min fisqü-ficur yaradan, dinsizlikdə tayı olmayan ən miskin bir qul və ya türk özlərinə "müinəddin","tacəddin" ləqəbi qoyurlar. İlk dəfə ləqəbində "mülk" sözü olan "nizamülmülk" idi ki, ona Qəvamülmülk[193] ləqəbi verilmişdir.

Deyilənlərə əsasən nəticə çıxarmaq olar ki, "din", "islam", "dövlət" ləqəbləri dörd dəstəyə yarayar: biri şah, biri vəzir, biri alim, dördüncü isə əmirdir ki, həmişə dini davada olub, islama qələbə qazandırar. Bunlardan başqa kim "din" və “islam" ləqəbi götürsə, ona cəza vermək lazımdır ki, başqaları qüvvət alsın.



downloaded from KitabYurdu.org

Ləqəb ona görədir ki, adamı o ləqəbə görə tanısınlar. Məsələn, yüz adam oturmuş bir məclisdə on nəfərin adı Məhəmməd olsa biri çağırsa "Ya Məhəmməd!", onu da qışqırar. ləbbeyk", elə başa düşərki, onu çağırırlar.

Lakin birinə "müxtəs” [195], birinə "müvəffəq", birinə "kamil” birinə "sədid” [196] birinə "rəşid" ləqəbi verib bunlarla çağırsalar, dərhal bilinər kimi çağırırlar.

Vəzir, toğral[197], mustofi, sultan arizi [198], Bağdad əmidi[199] Xorasan əmididindən başqa heç kəsə "əlmülk" ləqəbi vermək olmaz. Başqalarına tərkibində "əlmülk" sözü olmayan "xacə", "rəşid", "müxtəs", "nəcib", "sədid", "ostad xətir", "təkin" və bu kimi ləqəblər vermək olar ki, böyüklə-kiçiyin, əyan-əşrafla adi adamın dərəcəsi məlum olsun, divanın rövnəqi yerində qalsın, məmləkətin işləri nizama düşsün, adil və sayıq şahlar öyrənmədən, götür-qoy etmədən heç bir iş görməzlər, sələflərin adət-ənənələrini soruşar, kitablar oxuyar, işləri öz nizam-intizamı ilə aparmağı əmr edərlər, ləqəbləri qaydaya salarlar, yeni, zərərli dəbləri güclü rəy, təsirli fərman və iti qılıncla aradan qaldırarlar.

*Qırx ikinci fəsil*

## İKİ İŞİ BİR ADAMA TAPŞIRMAMAQ, İŞSİZLƏRƏ İŞ VERMƏK, ONLARI MƏHRUM ETMƏMƏK, PAKDİN VƏ LAYİQLİ ADAMLARI İRƏLİ ÇƏKİB BƏDMƏZHƏB, BƏDƏQİDƏ ADAMLARA VƏZİFƏ TAPŞIRMAYIB, ONLARI ÖZÜNDƏN UZAQLAŞDIRMAQ HAQQINDA

Sayıq şahlar, ayıq vəzirlər işləri düz getsin, müvəffəqiyyət qazansınlar, deyə- heç zaman iki işi bir adama tapşırmamışlar, çünki iki işi bir adama tapşırdıqda həmişə qayda pozular, bu iki işdən biri həmişə nöqsanlı olar, ya səhvə yol verirlər. Yaxşı diqqət etsən görərsən ki, iki işi olan adam da belədir, onun da həmişə bir işi axsar, üzü danlanar, əziyyət çəkər, müqəssir olar. Bu barədə bir məsəl də vardır deyərlər:"İki xanımı olan ev süpürülməz, dağılar."

Vəzirin bacarıqsızlığının, şahın sayıqsızlığının birinci əlaməti odur ki, bir divan işçisinə iki vəzifə tapşıralar. İndi elə adam vardır, heç bir ləyaqəti olmadan on vəzifə tutur, başqa bir vəzifə ortaya çıxdıqda onun da verilməsini xahiş edir və buna nail olmağa çalışır.

Daha fikir vermirlər ki, adamın qabiliyyəti var ya yox, işi bacarır, ya yox, kargüzarlığı, təsərrüfat işini, maliyyə əməliyyatını bilir, ya yox, üzərinə götürdüyü bu qədər vəzifənin öhdəsindən gələr, ya yox?!

Bir çox bacarıqlı, istedadlı, ləyaqətli, sədaqətli, inanılmış, tanınmış adamları məhrum etmiş, onlar evlərində işsiz oturmuşlar.

Bir ayırd edən yoxdur ki, nə üçün heç kəsin tanımadığı bir adam bu qədər vəzifə ələ keçirsin, tanınmış etibar qazanmış adamların isə bir vəzifəsi də olmasın, xüsusilə bu dövlətin boynunda haqqı olan, ləyaqətləri, cəsarətləri, sədaqətləri sübut



downloaded from KitabYurdu.org

edilmiş adamlar məhrum qalsınlar. Hamısından təəccüblüsü budur ki, bütün zamanlarda vəzifəni etiqadı təmiz, əsli-nəsəbi məlum, əlidüz, gözütox adama tapşırmışlar, o razılıq vermədikdə, boyun qaçırdıqda, üzr istədikdə, xoşla, zorla onun boynuna qoymuşlar, nəticədə dövlətin malı zay olmamış, şah isə arxayın və rahatlıqla ömür sürmüşdür. İndi bu qayda aradan qalxmışdır, bir yəhudi türklərin ağası olub, onların vəzifəsi ilə yaşasa yarayar, istərsə, tərsa, gəbr, ya karmat olsun, yenə də yarayar. İndi laqeydlik hamıya hakimdir; nə dinə əhəmiyyət verirlər, nə mala, nə də rəiyyətə rəhm edirlər. Dövlət kəmala çatmışdır, mən bədnəzərdən qorxuram, bilmirəm bu işin axırı hara çatacaqdır.

Mahmud, Məsud, Toğrul və Alp Arslanın dövründə heç bir atəşpərəst, yəhudi, tərsa və rafizi cəsarət etməzdi ki, səhraya çıxsın, ya bir böyüyün yanına getsin. Bütün türk ağaları bilikli, təsərrüfatçı, namuslu körgüzar idilər. Türklər İraqın bədməzhəb qulamlarını heç vaxt yaxına buraxmaz, onlara vəzifə tapşırmaz və deyərdilər: "Bunlar deyləmilərlə bir məzhəbdədirlər, onların tərəfdarıdırlar, ayaqlarını bərkitsələr, türklərə ziyan vurarlar, müsəlmanlara əziyyət verərlər, aramızda düşmən olmasa yaxşıdır."

Buna görə o sultanlar rahat yaşarmışlar. İndi isə iş elə yerə çatıbdır ki, dərgah və divan onlarla doludur, hər türkün qarşısında onlardan on, iyirmi nəfər yüyürür, çalışırlar ki, bir xorasanlını belə dərgaha buraxmasınlar, qoymasınlar onlar bir parça çörək sahibi olsunlar.

Sultan Toğrul və Alp Arslan (allah onlardan razı olsun) (allah onların qəbrini nurlandırsın) eşidəndə ki, bir türk və ya bir türk əmiri rafizini öz yanına buraxmışdır, ona töhmət verərdi.

**Bu mənada bir hekayət**. Bir gün şəhid Sultan Alp Arslanın (allah onun ruhunu şad etsin) qulağına çatdırdılar ki, Ərdüm[200] dehxuda Yəhyanı özünə dəbir etmək fikrindədir. Acığı gəldi, çünki demişdilər ki, dehxuda batini məzhəbdir. Qəbul vaxtı bargahda Ərdümə dedi: "Sən mənim düşmənim, vətənin düşmənisən.,, Ərdüm bunu eşitcək yerə yıxılıb dedi: "Ey ağam, bu nə sözdür, mən ağanın kiçik quluyam. Mən qulluqda, şahı sevməkdə nə günah etmişəm?"

Sultan dedi: "Mənim düşmənim sən deyilsənsə, bəs nə üçün mənim düşmənimi işə götürürsən? " Ərdüm dedi:"O kimdir?" Sultan dedi: "Dəbir götürdüyün abəli dehxuda." Dedi: "O kim olur-olsun, gedin o kişini buraya gətirin." Dərhal gətirdilər. Sultan dedi:"Ay kişi sən deyirsən ki, Bağdad xəlifəsi haqq deyil? Sən rafızisən[201]". Kişi dedi:"Mən şiəyəm." Sultan dedi: "Ay oğraş, şiə məzhəbi məgər yaxşıdır ki, sən onunla batinilər məzhəbinin üstünü basdırasan, bu pisdir, o daha pisdir." Əmr etdi, çavuşlar onu döyüb, yarımcan halda saraydan bayıra saldılar. Sonra üzünü türklərə çevirib dedi: "Günah bu kişiciyəzdə deyil, günah Ərdümdədir ki, bu kafiri işə götürmüşdür. Mən dəfələrlə demişəm ki, biz burada biganəyik, bu vilayəti zorla almışıq. Biz hamımız pakizə müsəlmanlarıq, bu bağdadlılar isə bədməzhəb və deyləmilərin tərəfdarıdırlar. Bu gün allah-taala türkləri ona görə belə hörmətli etmişdir ki, onlar təmis müsəlmanlardır, bidət və



downloaded from KitabYurdu.org

natəmiz işlərlə məşğul olmurlar".

Sonra əmr etdi bir at tükü gətirdilər. Ərdümə bir tük verib dedi:"Qır!" Ərdüm alıb qırdı. Onunu verdilər alıb qırdı. Sonra çoxlu tükü bir yerdə hörüb dedi: "Qır!" Ərdüm qıra bilmədi. Sonra sultan dedi: "Düşmən də belədir, bir-bir, iki-iki qırmaq olar, elə ki, çoxaldı, qırmaq olmaz. Bu sənin dediyin: "Bu heyvərənin nə mövqeyi var ki, dövlətə də bir şey edə bilsin?" sualına cavab idi."

Düşmən ilə sazişə gələn özünə və şaha xəyanət etmiş olar. Özün hər nə etməyə ixtiyarın olsa da, şah haqqında sayıqlıq və ehtiyatı əldən verib, xaini salamat buraxmaq olmaz. Mən sizi qorumalıyam, siz də məni, çünki izzət və calal sahibi olan allah məni sizin üzərinizdə böyük təyin etmişdir, sizi mənim üstümə yox. Bilməlisiniz ki, şahın düşməni ilə dostluq edən, şahın düşmənləri sırasında hesab edilər, oğru və müfsidlərlə oturub-duram da o dəstədən saymaq lazımdır.

Sultan bu sözləri deyərkən xacə imam Müşəttəb və qazi imam Əbubəkr[202] də orada idilər, üzünü onlara çevirib dedi: "Mənim dediklərim haqqında siz nə fikirdəsiniz?" Dedilər: "Sizin buyurduqlarınız allah və peyğəmbər kəlamıdır."

**Rəvayət.** Sonra Müşəttəb dedi: "Əbdüllah bine Əbbas[203] deyir ki, bir gün peyğəmbər ə.s. və s. Əliyə (allah ondan razı olsun) dedi: "Əgər rafizi adlanan dəstəyə rast gəlsən, bil ki, onlar müsəlmançılıqdan əl çəkiblər, onları ələ keçirsən, hamısını öldürməlisən, çünki kafirdirlər."

**Rəvayət.** Qazi Əbubəkr dedi:"Əbu Ümamə[204] rəvayət edir ki, peyğəmbər ə.s. və s. demişdir: "Axır zamanlarda rafizi adlanan bir dəstə adam meydana çıxacaqdır, harada görsəniz öldürünüz onları."

**Rəvayət.** Sonra Müşəttəb dedi:"Sufiyan ibn Übeydə[205] rafizləri kafir adlandırdıqda bu ayəni sübut gətirmişdir: "Kafirlər ürəklərində qeyz bəslər, kafirlərə qarşı amansız olun" və deyərdi ki, kim peyğəmbər ə.s. əshabələrini təhqir etsə, bu ayəyə əsasən kafirdir. Peyğəmbər ə.s. demişdir: "Allah-taala mənə əshabələr, vəzirlər və damadlar bəxş etmişdir. Kim onları təhqir etsə, allahın, mələikələrin və adamların lənətinə gələcəklər, allah-taala heç vaxt bu təhqiri bağışlamaz, tövbə etsə də, allah-taala Əbubəkr (allah ondan razı olsun) haqqında deyir: "Onlar mağarada ikisi olanda, ikilərdən o ikincisi idi." Təfsir belə olar: "Heç kəs bizə kömək etməsə, ey Əbubəkr, qəm yemə, allah bizimlədir."

**Rəvayət.** Qazi Əbubəkr, Oqba bine-Amir[206] adından peyğəmbər ə.s. və s. demişdir: "Bizdən Sonra peyğəmbər gəlsəydi, Ömər Əlxəttab olardı."

**Rəvayət.** Müşəttəb dedi: "Cabir ibn Əbdullahın (allah ondan razı olsun) adından nağıl edirlər ki, peyğəmbər ə.s. və s. yanına bir cənazə gətirdilər, onun namazını qılmadı. Dedilər: "Ya rəsuləllah, biz indiyə qədər başqa cənazəyə namaz qılmadığınızı görməmişik."

Peyğəmbər ə.s. və s. dedi: "Bu kişi Osmanın düşməni idi, allah-taala da onun düşmənidir."

**Rəvayət.** Qazi Əbubəkr dedi: "Əbuddərda[207] (allah ondan razı olsun) rəvayət edir ki, peyğəmbər ə.s. Əlinin ( allah ondan razı olsun) şəni haqqında



downloaded from KitabYurdu.org

deyibdir: "Xaricilər[208] sənin üçün cəhənnəm köpəkləridir."

**Rəvayət.** Müşəttəb dedi: "Əbdüllah bin Əbbas və Əbdüllah bin Ömər (allah onlann hır ikisindən razı olsun) belə rəvayət edirlər ki, peyğəmbər ə.s. demişdir: "Qədərilər və rafizilərin islamda payları yoxdur."

**Rəvayət.** Qazi Əbubəkr dedi: "İsmail bin Səd (allah ondan razı olsun) razı olsun rəvayət edir ki, peyğəmbər ə.s. demişdir: "Qədərilər mənim ümmətimin gəbriləridir"'. Xəstələnsələr, onların yanına getməyin, ölsələr cənazələrini yola salmayın. Bütün rafızilər qədəri məzhəb olarlar".

**Rəvayət.** Müşəttəb dedi:"Üm Səlma[209] rəvayət edir: "Bir gün peyğəmbər ə.s. mənim yanımda idi, Fatimə Əli (allah onların hər ikisindən razı olsun) ilə onun yanına gəldilər. Bir şey soruşmaq istəyirdilər ki, peyğəmbər ə.s. başını qaldırıb dedı: "Ya Əli təbrik edirəm, sən və əyalın behiştə gedəcəksiniz. Lakin səndən sonra rafizi adlanan bir tayfa əmələ gələcəkdir, onlar kafirdirlər, rast gəlsən öldür."Əli dedi:"Ya rəsulullah, onların əlaməti necə olar?" Peyğəmbər dedi:"Cümə namazına gəlməz, cəmaat namaza durmaz, sələflər haqqında pis danışırlar."

Bu barədə rəvayət və ayə çoxdur, hamısını yada salsaq, özü böyük bir kitab olar.

Lakin rafızilərin vəziyyəti belə olanda, gör onlardan daha pis olan batinilərin halı necə olar?

Onlar meydana çıxdıqda dövrün şahının onları yer üzündən götürüb öz ölkəsini onlardan silib təmizləməkdən daha vacib heç bir işi ola bilməz.

**Bu mənada bir rəvayət.** Ömər Əmirəlmömінin ( allah ondan razı olsun) Mədinədə məsciddə oturmuşdu. Obu Musa Əşəri ( allah ondan razı olsun) onun qarşısında İsfahan barədə hesabat verirdi, hesab gözəl xətlə yazılmış, düz hesablanmışdı, hamının xoşuna gəldi. Əbu Musadan soruşdular: "Bu kimin xəttidir?" Dedi:"Mənim dəbirimin." Dedilər: "Bir adam göndər, bura gəlsin, biz də onu görək." Dedi: "Məscidə gələ bilməz." Əmirəlmöminin Ömər ibn Əlxəttab (allah ondan razı olsun) dedi: "Nə üçün məgər murdarlanıbdır?" Dedi: "Yox, lakin tərsadır."

Ömər Əbu Musanın buduna elə bir dümsük vurdu ki, Əbu Musa deyir:"Elə bildim, budum qırıldı." Ömər dedi: "Böyük allahın kəlamını və fərmanını oxumamısanmı, orada buyurmuşdur ki: "Ey möminlər, yəhudi və nasraniləri özünüzə qulluqçu tutmayın, onların bəzisinin övliyası da müştərəkdir."

Əbu Musa deyir:"Dərhal onun çıxarılması haqqında göstəriş verdim."

**Şer**

Düşmənin dostundan qaçsan yaxşıdır,
Dostunun dostuyla dostluq eylə sən,
İki cür adamdan arxayın olma,
Düşmənin dostundan, dost düşmənindən.



downloaded from KitabYurdu.org

Ərdüm öz təsərrüfat işlərini rafiziyə tapşırdığı üçün sultan Alp Arslan bir ay onunla danışmadı, onu görəndə qaş-qabağını salladı. Axırda Ərdüm rafizini işdən çıxartdı kef məclisində Alp Arslandan xahiş etdilər, ürəyini ələ aldılar, o, Ərdümü bağışladı. İndi qayıdaq mətləb üstünə.

Nə vaxt əsli olmayan, naməlum, istedadsız adamlara vəzifə tapşırılıb, məruf və fazil adamlar işsiz qalsalar, birinə beş-altı vəzifə, birinə heç nə çatmasa, bu vəzirin nadanlığına və bacarıqsızlığına dəlalət edər. Ən pis düşmən odur ki, birinə on iş tapşırıla, on adama isə bir iş də verilməyə. Belə ölkədə o qədər məhrum edilmiş, işsiz qazlmış adam olar ki, bunu tayını heç yerdə tapmaq olmaz.

**Hekayət.** Bu ona oxşayır ki, biri ölkənin dağılmasına çalışa, lakin zahirdə qənaət etdiyini bildirə, hökmdarı inandıra ki, dünyada sakitlikdir, heç yerdə işə mane ola biləcək düşmən və rəqib yoxdur, dörd yüz minə qədər süvari yemək və geyim istəyir, halbuki yetmiş min də bəsdir; lazım olduqda, mühüm bir iş baş verdikdə başqalarına tapşırmaq olar; yeməyə və geyimə qənaət lazımdır; bu hər ildə bir neçə yüz min dinar edər, az keçməz ki, xəzinə dolar.

Hökmdarın ağzından belə bir söz eşitdikdə, dərhal bildim kimin sözüdür, bununla ölkəni dağıtmaq isləyir. Əgər dörd yüz min adama geyim verir, - demək Xorasan, Mavərənnəhr, Kaşğər, Balasağun, Xarəzm, Nimruz, İraq, Pars, Şam, Azəbaycan, Ermənistan, Əntakiya, Beytülmüqəddəs hökmdarın əlindədir. Əgər dörd yüz min əvəzinə yedi yüz min olsaydı, vilayətlərin sayı çox olardı. Sind, Hind, Türküstan, Çin, Maçin hökmdarın olardı, hətta Həbəşistan, Bərbər, Rum, Misisr və Məcrib ona tabe olardı. Əgər dörd yüz min süvaridən yetmiş minin saxlasalar, üç yüz otuz min adamın adı siyahıdan silinər. Hər halda, üç yüz otuz min adam da başqalarının üzərinə artırılar.

Elə ki, bu dövlətdən ümidləri kəsildi, əlləri üzüldü, bir başıpapaqlı tapıb, özbrinə başçı edərlər, hər tərəfdə basqına başlarlar, o qədər iş açarlar ki, miras qalmış xəzinə də bu iş üstə boşalar.

Ölkəni adamlarla, adamı isə qızılla saxlamaq olar. Bir adam şaha desə ki, "Qızılı tut, adamı əldən ver" ölkənin əsil düşməni odur, şər-fəsad fikrindədir, çünki qızıl da adam vasitəsilə əldə edirlər. Belə adamın sözünə qulaq asmaq lazım deyildir. İşsiz qalan amillərin də vəziyyəti belədir. Xüsusilə yüksək dövlət vəzifələrində olmuş, böyük işlər görmüş, şöhrət tapmış, ad qazanmış, xidmətləri qarşısında mükafatlar almış adamların haqqını unutmaq olmaz, buna nə insaf yol verər, nə mürvət. Onlara elə vəzifə vermək lazımdır ki, ehtiyaclarını ödəmək üçün bir parça çörək sahibi olsunlar, bəziləri öz hüquqi ixtiyarından, bəziləri dövlətdən binəsib olmasınlar. Bir başqa dəstə də vardır ki, bunlar alimlər, fazillər, gözəl xətt, qüdrətli qələm sahibləri, şərəf əhlidirlər; onların da dövlət malından payları var, onlara əl tutub kömək etmək lazımdır. Bir kəs onlara iş verməsə, mərhəmət nəzəri ilə baxmasa, maaşdan məhrum, dövlətdən binəsib olarlar. Elə bir gün gələ bilər ki, şahın etibar etdiyi adamlar etinasız bədxah olduqlarından bu adamların vəziyyəti haqqında şaha xəbər verməz, işsizlərə vəzifə tapşırmaz, şərəf



downloaded from KitabYurdu.org

əhlinə və alimlərə kömək etməzlər. Bu adamların dövlətdən ümidləri kəsildikdə dövlət haqqında pis fikrə düşər, divan adamlarının, dövlət məmurlarının dalınca qiybət etməyə başlar, şahın yüksək vəzifəli şəxslərini dolaşdırarlar, silahı, ordusu, dövləti, hörməti olan bir adamı ələ alıb şaha qarşı qaldırarlar, ölkədə qarışıqlıq salarlar. Necə ki, Fəxrəddövlənin[213] vaxtında etmişdilər.

**Hekayət.** Vəziri Sahib əbbad olan Fəxrəddövlənin dövründə Bozorcəmid adlı dövlətli bir gəbr var idi, o, Təbərək[214] dağında özünə bir sotudan[213] tikdirmişdi, bu gün də orada durur, indi adına "dideyi-süpəhsalaran"[216] deyirlər, Fəxrəddövlə günbəzinin yuxarısına qoyulmuşdur. Bozorcomid o sotudanı, o dağın kəlləsində o örtüklə hazırlamaq üçün çoxlu qızıl xərcləmiş, böyük əmək sərf etmişdi. Bir kişi var idi, adına Baxorasan[217] deyərdilər. Sotudan hazır olan günü bir bəhanə ilə onun üstünə çıxıb ucadan namaz qılmağa başladı. Sotudan batil[218] oldu. Ondan Sonra sotudanın adını "dideyi-süpəhsalaran" qoydular. İş belə gətirdi ki, Fəxrəddövlə zamanının sonlarında xəbərçilər xəbər verdilər ki, hər gün qırx adam şəhərdən çıxıb bu "dideyi-süpəhsalaran"a gəlir, gün batana qədər orada qalır, sonra enib şəhərə dağılışırlar. Biri onlardan soruşanda ki:"Axşama qədər siz orada nə edirsiniz?" Cavab verirdilər ki:"Tamaşaya gedirik.,,

Fəxrəddövlə əmr etdi: "Onları mənim yanım gətirin! Onlardan hər nə görsəniz, mənə xəbər verin."

Saray adamlarından bir dəstə gedib o dağa çıxmaq istədilər, bacarmadılar. O "didenin" altında qışqırdılar. Onlar eşidib aşağı baxdılar, Fəxrəddövlənin hacibini bir neçə yaxın adamı ilə gördülər. Nərdivan salladılar. Hacib və adamları yuxarı qalxdılar. Baxdılar, şahmatın düzüldüyünü, nərdin açıldığını, ortada davat[219], qələm, kağız, süfrə, su kuzəsinin olduğunu gördülər. Hacib dedi:"Sizi Fəxrəddövlə çağırır." Fəxrəddövlənin yanına gəldilər. Qəzadan Sahib Kafi[220] də orada idi. Onlardan soruşdu:

"Siz kimsiniz və nə üçün hər gün bu didenin üstünə çıxırsınız?" Dedilər:"Tamaşaya." Dedi:"Tamaşa bir gün, iki gün olar. Siz çoxdan bu işi gizli saxlayırsınız. Doğrusunu deyin görək, siz nə işlə məşğulsunuz?" Dedilər:" Heç kəsdən gizli deyildir, biz nə oğruyuq, nə qatilik, nə bir adamın arvadını, nə övladını aldatmışıq, nə də bir adam bizdən Fəxrəddövlənin yanına şikayətə getmişdir. Əgər şah bizə aman versə, biz deyərik ki, kimik". Fəxrəddövlə dedi:" Canınıza və malınıza aman verirəm." Sonra and içdi. Onlar dedilər: "Biz dəbirlər və təsərrüfatçılarıq. Bu dövlətdən məhrum olub işsiz qalmışıq, heç kəs bizə bir vəzifə vermir. Hayımıza qalmır. Eşidirik Xorasanda Mahmud adlı bir şah meydana çıxıbdır, alimlərin, fazillərin xəridarıdır, onları məhv olmağa qoymur. İndi biz könlümüzü ona vermişik, ümidimizi bu ölkədən üzmüşük. Hər gün ora gedib dünyadan şikayətimizi orada müzakirə edir, dərdimizi bir birimizə deyirik. Kim yoldan keçirsə, ondan Mahmudu xəbər alırıq. Xorasanda olan yoldaşlarımızla yazışır, onlardan xahiş edirik ki, kömək etsinlər, Xorasana gedək, külfətimiz çox, vəziyyətimiz ağırdır. Zərurət üzündən doğma vətəni tərk edirik. İndi fərman



downloaded from KitabYurdu.org

hökmdarındır."

Fəxrəddövlə bu sözü eşitdikdə üzünü Sahibə çevirib dedi:"Bu barədə nə deyə bilərsən, indi biz onlara nə etməliyik?" Sahib dedi: "Şah onlara aman vermişdir. Qələm sahibidirlər, məşhur adamdırlar, nəcib aibdəndirlər. Bəzilərini tanıyıram. Bunlar mənə aiddir, onları mənə tapşırın, nə lazımsa hamısını edər və sabah xəbərin şaha çatdıraram".

Fəxrəddövlə hacibə buyurdu ki, onları aparıb Sahibin sarayına tapşırsın. Hacib hamısını götürüb Sahibin sarayına apardı və geri qayıtdı. Onlar hamısı əllərini canlarından üzmüşdülər. Sahib gəlcək dərhal onları çağırdı, gördü başa düşdü. Bir az keçmişdi ki, bir fərraş gəlib onları çox qəşəng bəzədilmiş bir otağa apardı, gözəl yerlərdə oturtdu. Bir azdan Sonra şərabdarlar cullab[221] gətirdilər. Cullab içdikdən sonra süfrə açıldı, çörək yedilər, əllərini yudular. Şərab gətirildi, mütriblər gəlib rud[222] çalmağa başladılar, şəraba əl atdılar.

Fərraşdan başqa heç kəsi o evə buraxmırdılar, heç kəs bilmirdi ki, onların vəziyyəti necədir. Bütün şəhər kişili-arvadlı onların qəmini çəkir, övladları, qohum-qardaşları isə qan-yaş tökürdülər.

Üç-dörd gün keçdikdən Sonra Sahibin haciblərindən biri gəlib dedi: "Sahib buyurur ki, mənim evim həbsxana olmağa layiq deyil, siz bu günü və bu axşamı mənim qonağımsınız, kefinizi kök, damağınızı çağ edin. Sabah sahib divandan qayıtdıqdan sonra sizin işinizi sahmana salacaqdır."

Sonra hacib dərzinin çağırılmasını əmr etdi, iyirmi ipək cübbə biçdirdi, iyirmi ədəd çalma hazırlatdı, iyirmi yəhərli, yaraqlı at gətirtdi.

Sabahısı günəş dağın arxasından doğarkən, bunların hamısı hazır idi.

Sonra sahib onların hamısını öz yanına çağırdı, hərəsinə bir cübbə və çalma geydirdi, at və yaraq verdi, hərəsinə bir vəzifə tapşırdı, bəzilərinə təqaüd təyin etdi, hamısına bəxşiş verib, razılıqla evlərinə yola saldı. Sabahısı hamısı geyimli-keçimli halda Sahibin görüşünə getdi. Sahib dedi: "İndi daha Sultan Mahmuda xahişnamə yazmayın,ölkəmizə qarğış etməyin, deyinib şikayətlənməyin."

Sahib Fəxrəddövlənin yanına getdikdə soruşdu: "O adamlarla nə etdin?" Dedi: "Şahım, hamısına at, yaraq, cübbə və çalma bağışladım, kimin bu divanda iki vəzifəsi var idisə, birini alıb onlara verdim, hamısını işlə təmin edib evlərinə yola saldım. İndi hamısı sizə dua edirlər.,,

Fəxrəddövlənin xoşuna gəldi, bəyəndi və dedi: "Başqa cür etsəydin yaxşı olmazdı, kaş bu il etdiyini iki il bundan əvvəl etmiş olaydın ki, onlar bizim düşmənlərə meyl göstərməyəydilər. Bundan sonra iki vəzifə bir adama tapşırılmamalıdır, hər adama bir iş tapşırılmalıdır ki, bütün mütəxəssislərin vəzifəsi olsun, bütün işlər qaydasında getsin. Bir adama iki vəzifə tapşırıldıqda mütəxəssislərin vəziyyəti ağırlaşar, rəqiblər deyərlər ki, onların şəhərində kişi qalmamışdır. Görmürsənmi, böyüklər deyiblər: "Hər işin bir adamı, hər adamın bir işi var." Ölkədə böyük, kiçik və orta vəzifələr olar. Hər amilə mütəsərrifə, onun



downloaded from KitabYurdu.org

ləyaqətinə, biliyinə və imkanatına görə bircə vəzifə tapşırmaq lazımdır. Bir vəzifəsi olan ikinci vəzifə eşqinə düşərsə, imkan vermə, qoyma ki, bu zərərli iş dəb şəklini alsın. Hər mütəsərrifin (təsərrüfatçının) bir işi olsa, ölkə abadlaşar, işlər öz qaydasında gedər. Vəzifə tapşırılmış bütün mütəxəssislərin və məmurların başı vəzirdir. Vəzir əliuzun, xain, zalim olduqda amillərin də hamısı onun kimi və ya daha pis olarlar. Əgər bir amil təsərrüfat işini yaxşı bilib, maliyyə məsələsində bacarıqlı olsa, lakin yəhudi, tərsa, gəbr kimi bədməzhəb olsa, vəzifəsini yerinə yetirmək, hesabı qaydaya salmaq bəhanəsi ilə camaatı incitsə, onları adam yerinə qoymasa, müsəlmanlar o bədməsləkdən şikayəl edib ah-nalə qoparsalar, belə adamı işdən qovmaq lazımdır. Əgər onun tərəfdarları desə ki, bütün dünyada belə dəbir, belə bir mühasib yoxdur, o getsə əvəz edən tapılmaz, yalan deyirlər, belə sözlərə qulaq asmayıb, onu başqası ilə əvəz etmək lazımdır. Necə ki, Əmirəlmöminin Ömər (allah ondan razı olsun) etmişdi.

**Hekayət.** Səd ibn Vəqqasıır[223] (allah ona rəhmət eləsin) dövründə Bağdad, Vasit, Ənbar, Xuzistan, Bəsrəyə baxan bir yəhudi amil var idi. Bir gün bu yerlərin əhalisi Əmirəlmöminin Ömərə (allah ondan razı olsun) ərizə yazıb bu amildən şikayət etdilər. Dedilər: "O vəzifəsini bəhanə edərək bizi incidir, bizi ələ salır, adam yerinə qoymur. Artıq dözməyə taqətimiz qalmamışdır. Olmaz ki, bizim üzərimizə bir müsəlman amili təyin edəsiniz həmdin olduğumuz üçün qanunsuzluq edib bizi incitməsin. Əgər bunun əksini etsə, yenə də müsəlmandan təhqir və istehza eşitmək yəhudidən yaxşıdır."

Əmirəlmöminin bu ərizəni oxucaq dərhal dedi:"Yəhudinin yer üzərində səlamət yaşaması bəs deyil ki, hələ bir müsəlmanlar üzərində ağalıq edib onlara əziyyət də verir."

Dərhal əmr etdi, Sədi ibn Vəqqasa məktub yazsınlar ki, o yəhudini işdən götürüb yerinə bir müsəlman təyin etsin.

Sədi ibn Vəqqas məktubu oxucaq dərhal bir atlı göndərdi ki, bu yəhudi harada olsa, Kufəyə gətirsin. Başqa süvariləri də göndərdi ki, Əcəm vilayətində nə qədər müsəlman amil varsa, yığıb Kufəyə gətirsinlər. Yəhudini və başqa amilləri topladıqdan sonra məlum oldu ki, heç bir ərəb bu işi bilmir, ərəb olmayan müsəlmanlar içərisində də elə bir amil tapılmadı ki, yəhudidə olan bacarıq və qabiliyyət onda olsun. Heç kəs maliyyə işini onun qədər bilmirdi, gümüş hasil etməyi, adam tanımağı, mədaxili, məxarici hesablamağı bacarmırdı. Sədi ibn Vəqqas nə edəcəyini bilmədi, yəhudini öz vəzifəsində saxlamağa məcbur oldu. Əmirəlmöminə belə bir məktub yazdı:"Yəhudini gətirtdim, ərəblərdən heç kəs maliyyə və təsərrüfat işini bu yəhudi qədər bilmədi, işin xatiri üçün onu vəzifəsində saxlamağa məcbur oldum".

Məktub əmirəlmömininə çatdıqda oxuyub qəzəbləndi və dedi: "Bu çox qəribədir, ixtiyarıma qarşı ixtiyar, məsləhətimə qarşı məsləhət çıxarırlar." Qələmi götürüb məktubun üzərində yazdı. "Yəhudi öldü". Haman məktubu yenə Sədi ibn Vəqqasa göndərdi, mənası bu idi ki, "İnsan ölə bilər. Amilin işdən çıxarılması



downloaded from KitabYurdu.org

ölümdür. Amil ölsə, ya onu vəzifədən çıxarsalar, iş bundan axsamamalı, bu vəzilə dərhal başqasına tapşırılmalıdır. Nə üçün belə acizlik və iradəsizlik göstərirsən? Fərz et ki, bu yəhudi ölmüşdür." Məktub Sədə çatcaq, dərhal yəhudini haman işdən götürdü, o vəzifəyə bir müsəlman göndərdi. Bir il keçdikdən sonra gördülər ki, müsəlman bu işi daha yaxşı yerinə yetirir, həm pul var, həm camaat razıdır, həm məhsul boldur, həm də ölkə abad. Sonra Sədi ibn Vəqqas ərəb əmirlərinə dedi:"Əmirəlmöminin Ömər böyük şəxsiyyətdir, biz o yəhudi haqqında uzun bir sicilləmə yazdıq, o iki kəlmə ilə cavab verdi, o deyən kimi də oldu."

İki adam iki söz demişdir, hər ikisi bəyənilmişdir, qiyamətədək ərəb və əcəmdə o məsəl olaraq qalaracaqdır. Biri odur ki, Əbubəkr (allah ondan razı olsun) Məhəmməd s.ə.və s. ölərkən minbərdən demişdir: "Kim Məhəmməd üçün ibadət edirdisə, Məhəmməd ölübdür, kim Məhəmmədin allahına ibadət edirdisə, Məhəmməd onlar üçün sağdır.,, Təfsiri belədir: "Məhəmmədə sitayiş edirdinizsə, o öldü. Məhəmmədin allahına sitayiş edirdinizsə, o ölməyib və ölməyəcəkdir. Bu söz müsəlmanların xoşuna gəldi, ərəblərdə məsəl oldu. Biri də odur ki, Ömər ( allah ondan razı olsun) demişdir:" Yəhudi öldü,,.

İşini yaxşı bilən, lakin əliuzunluq edən, ya bədməslək olan bir amili vəzifədən götürmək istədikdə deyərlər:" Yəhudi öldü".

Qayıdaq mətləb üstünə. Dedik ki, amillər və onların işi vəzirə aiddir. Yaxşı vəzir şahın adını yaxşıya çıxarar, ona yaxşı xasiyyətlər aşılayır. Adları qiyamətə qədər yaxşılıqla çəkiləcək bütün böyük şahlar o şahlardır ki, yaxşı vəzirləri olmuşdur. Peyğəmbərlər də belədir: Süleyman ə.s.-ın Asəf bine Bərxiyası; Musa ə.s.-ın Harun ə.s. kimi qardaşı, İsa ə.s.-ın Şəmuni, Mustafa ə.s. və s.-ın Əbubəkr-sədiqi (allah ondan razı olsun) padşahlardan: Keyxosrovun-Güdərz; Mənuçöhrin-Sam; Əfrasiyabın-Piranu Veysə; Gəştasibin-Camasi; Rüstəmin-Zivade; Bəhram Gurun-Xorderuz; Nuşirəvanın-Büzürcmehr; Bəni Əbbas xəlifələrinin-bərməkilər: samanilərin-bələmilər: Sultan Mahmudun-Əhməd ibn Həsən; Fəxdəddövlənin-Sahib İsmayıl bin Əbdad; Sultan Toğrulun Əbu Nəsr Kəndəri, Alp Arslan və Məlikşahın- Nizamülmülk kimi vəzirləri var idi. Belələri çoxdur.

Lakin vəzir xeyirməslək, hənəfi, ya şafeiməzhəb, mömin, ləyaqətli, maliyyəşünas, səxavətli, padşahpərəst olmalıdır. Əgər vəziroğlu olsa daha yaxşı olar. Ərdəşir Babəkandan başlamış əcəm şahlarının axırıncısı olan Yəzdgürdün dövrünə qədər şah oğlu şah ola bildiyi kimi, vəzir oğlu da vəzir olmalı idi. Şahlıq əcəmlərin əlindən çıxdıqda vəzarət də vəzirlər ailəsinin əlindən çıxdı.

**Hekayət.** Belə nağıl edirlər ki, bir gün Süleyman bin Əbdülməlik qəbul düzəllmişdi, dövlət böyükləri, nədimlər də burada idilər. Birdən ağzından qaçırtdı ki: "Mənim dövlətim Süleyman ibn Davud ə.s.-ın dövlətindən artıq olmasa da, əskik deyil, yalnız vəhşilər, divlər, pərilər onun fərmanında idilər, məndə yoxdur; məndə olan xəzinə, cah-calal, məmləkət, hökmranlıq bu gün dünyada heç kəsdə yoxdur."



downloaded from KitabYurdu.org

Orda olan böyüklərdən biri dedi: "Ölkəyə lazım olan və ən yaxşı şahlardan olmuş bir şey bizim ölkədə yoxdur". Soruşdu: “O nədir?" Dedi: "O sənə layiq olan vəzirin yoxluğudur." Dedi: “Nə demək istəyirsən?" Dedi: "Sən şah və şahzadəsən, sənə elə layiqli bir vəzir - lazımdır ki, onun da on arxası vəzir olsun." Soruşdu: "Dünyada sənin dediyin bu xasiyyətdə bir vəzir tapmaq olarmı?" Dedi: "Olar." Soruşdu: "Harada?" Dedi: Bəlxdə." Soruşdu: "O kimdir?" Dedi:"Cəfər ibn Bərməkidir.[224]" Onun əcdadları Ərdəşir Babəkanın dövrünə qədər vəzir olmuşlar, qədim atəşgədələrdən hesab edilən Nobahar onların vəqfidir. İslam ortaya çıxdıqda, hakimiyyət əcəm xanədanının əlindən çıxdıqdan sonra onlar özlərinə Bəlxdə yurd saldılar və orada da qaldılar. Vəzirlik irsi olaraq onlara keçmişdir. Onlarda vəzirlik qayda-qanunları haqqında yazılar vardır. Elə ki, övladları yazı-pozu öyrəndilər, o kitabları onlara verərlər ki, oxuyub yadda saxlasınlar, əcdadların ruhunda tərbiyə olunsunlar. Bütün dünyada sənin vəzirliyinə ən layiq odur. Əlbəttə əmirəlmöminin özü yaxşı bilər."

Bəni üməyyə və bəni mərvan xəlifələri içərisində Süleyman bin Əbdülməlikdən daha böyük və qüdrətli bir şah olmamışdır. Bu sözü eşitdikdə onda Cəfər Bərməki Bəlxdən gəlirmək və vəzirlik kürsüsündə oturtmaq arzusu oyandı. Elə bildi hələ də gəbrdir (atəşpərəstdir). Soruşdu. Dedilər ki, müsəlman olub, sevindi. Əmr etdi, Bəlxin valisinə yazsınlar ki, Cəfəri Dəməşqə göndərsin, xəzinədən yüz min dinar vermək lazım olsa belə versin, onu tam hörmətlə xidmətə yola salsın. Bəlxin valisi fərmanı oxucaq, Cəfəri Dəməşqə tərəf yola saldı. Hansı şəhərə çatırdısa, böyüklər onun pişvazına çıxır, təntənə ilə yola salırdılar. Beləliklə, gəlib Dəməşqə yetişdi.

Süleyman əmr etdi, bütün böyüklər, sərkərdələr onu qarşılamağa çıxdılar, mümkün ola biləcək ən hörmətli, cah-calallı, dəbdəbəli bir şəkildə şəhərə gətirdilər və yaxşı bir sarayda düşürdülər. Üç gündən Sonra onu Süleymanın xidmətinə apardılar. Süleymanın gözü ona sataşcaq, qədd-qaməti, xarici görünüşü xoşuna gəldi. Elə ki, Cəfər eyvana çıxdı, hacıblər onu irəli apardılar, oturcaq Süleyman ona iti bir nəzər saldı, üzünü turşutdu və dedi: "Rədd ol mənim qabağımdan." Hacıblər onu qamarlayıb dərhal oradan çıxartdılar. Heç kəs bunun səbəbini bilmədi. Günorta namazına qədər şərab məclisi düzəltdi, böyüklər gəldilər, nədimlər oturdular. Qədəhlər dolduruldu, badələr qaldırıldı. Bir neçə kuzə boşaldıqdan Sonra nəşə gəldi, Süleymanın kefi kökəldi. Bunu görən nədimlərdən biri dedi: "Şah böyük bir vəzifə üçün Cəfəri çox böyük hörmət və şövkətlə gətirtdi, lakin əmirəlmöminin qarşısında oturub ağzını açmamış onu geri qovdunuz. Bütün böyüklər təəccüb etdilər. Bunun səbəbi nə idi?"

Süleyman dedi:"Əgər uzaq yoldan gəlməsəydi, böyükzadə olmasaydı, deyərdim dərhal boynunu vurardılar. Onda öldürücü zəhər var idi, ilk dəfə mənim qabağıma zəhər gətirmişdi". Böyük nədimlərdən biri dedi: "İcazə verin gedim onun yanına, görüm bu məsələni boynuna alır yoxsa danır." Dedi: "Get." O saat durub Cəfərin yanına getdi, soruşdu: "Sən bu gün Süleymanın yanına gedəndə yanında



downloaded from KitabYurdu.org

zəhər var idi?" Dedi: "Bəli, elə indi də vardır, budur, üzüyün qaşının altındadır. Atamdan miras qalmışdır. Hələ indiyə qədər bu üzüyün sayəsində bir qarışqa da məndən inciməyibdir, necə ola bilər ki, mən öz cinsimdən olan bir adamın ölümünə razı olam. Bəli mən bunu öz işimin xatirinə, ehtiyat üçün gəzdirirəm. Mənim ata-babalarım mal-dövlət üstündə çox incidilmiş, çox əziyyət görmüşlər. Süleyman məni çağıranda mən nə üçün çağırıldığımı bilmirdim. Qorxdum məndən xəzinə qəbaləsi, ya elə bir şey istəyə ki, yerinə yetirə bilməyəm. Onda özümü bu əzab-əziyyətdən qurtarmaq üçün üzüyün qaşını çıxarıb, zəhər içəcəkdim."

O kişi bu sözü eşitcək dərhal qayıdıb Süleymanın yanına getdi, əhvalatı ona danışdı. Süleyman Cəfərin belə ehtiyatlı, sayıq və uzaqgörənliyinə təəccüb etdi, ürəkdən onu bəyəndi, üzr istədi, əmr etdi, şah atlarından birini aparıb onu böyük cah-calal, hörmət və izzətlə dərgaha gətirdilər. Cəfər Süleymanın qarşısına çatdıqda baş əyib təzim etdi. Süleyman ona hörmət göstərib əlindən tutdu, yolu necə gəldiyini soruşdu, çoxlu xoş sözlər dedi, oturtdu, çiyninə vəzirlik xələti saldı, qarşısına mürəkkəbqabı qoydu, öz yanında bir neçə fərman yazdırdı. Süleymanı o günkü kimi şən görən olmamışdı.

Süleyman qəbul otağından çıxdıqdan sonra könlünə şərab içmək düşdü. Qızıl, cəvahir, zərbaftla bəzənmiş elə bir məclis düzəltdilər ki, heç kəs onun tayını görməmişdi.

Şərab məclisi qurdular. Kefinin kök vaxtında dəm çağında Cəfər Süleymandan soruşdu: "Bir neçə min adamın içərisində şah haradan bildi ki, məndə zəhər vardır?" Süleyman dedi:"Məndə elə bir şey vardır ki, o mənim üçün bütün xəzinələrdən və mal-dövlətdən əzizdir. Onu həmişə özümlə gəzdirirəm. O cəza[225] oxşayan, lakin cəz olmayan on möhrədən (gözmuncuğu) ibarətdir ki, şahlar xəzinəsindən əlimə keçmişdir, qoluma bağlamışam. Onun xasiyyəti budur: birində zəhər olduqda, ya şəraba, xörəyə zəhər qatıldıqda o saat hərəkətə gəlib özlərini bir-birinə dəyməyə titrəməyə başlayırlar. Mən zəhəri onlarla bilirəm. O vaxt ki, sən mənim yanıma gəldin, möhrələr hərəkətə başladılar, sən yaxınlaşdıqca onlar da sürətlə titrəyirdilər. Elə ki oturdun onlar bir-birinə dəyməyə başladılar. Zəhərin səndə olduğuna məndə heç bir şübhə qalmadı, sənin yerinə bir başqası olsaydı, sağ buraxmazdım. Elə ki, sən durub mənim yanımdan getdin, möhrələr sakit oldular."

Sonra qolundan iki möhrə açıb ona göstərdi və dedi: "Dünyada bundan əcayib bir şey görmüsənmi?"

Cəfər və böyüklər təəccüblə baxdılar. Sonra Cəfər dedi: "Mən dünyada iki təəccüblü şey görmüşəm ki, onların mislini nə görmüşəm nə də eşitmişəm. Biri bu saat şahın bizə göstərdiyidir, birisini də Təbəristan şahında gönnüşəm." Süleyman soruşdu: "O nə idi de?!" Cəfər dedi: "Mənim Dəməşqə göndərilməm haqqında şahın fərmanı Bəlx valisinə çatdıqda mən dərhal yol hazırlığımı gördüm, xidmətinizə gəlmək üçün yola düşdüm. Nişaburdan Təbəristana gəldikdə Təbəristan şahı mənim pişvazıma çıxdı. Amoldakı [226] sarayına apardı, təam göndərdi. Hər gün bir yerdə yeyib-içirdik. Bir gün kefimizin kök çağında mənə



downloaded from KitabYurdu.org

dedi: "Heç dənizə tamaşa edibsən?" Dedim:"Yox." Dedi: "Dəniz tamaşasında da mənə qonaqsan." Dedim: "Fərman sizinkidir."

Sonra əmr etdi dənizçilər gəmiləri düzəldib hazır olsunlar. Sabahısı gün məni dəniz kənarına apardı, gəmiyə mindik. Mütriblər çalıb-oxumağa, dənizçilər gəmi sürməyə, saqilər şərab tökməyə başladılar. Şah və mən yan-yana oturmuşduq, aramızda heç kim yox idi. Onun barmağında bir üzük var idi, qaşı çox təmiz yaqutdan idi, rəngi elə duru idi ki, mən ömrümdə ondan yaxşısını görməmişdim. Mən gözümü üzükdən ayıra bilmirdim. Axırda şah hiss etdi ki, ürəyim üzüyün yanındadır. Barmağından çıxarıb qabağıma qoydu. Mən baş əydim, üzüyü öpüb, şahın qabağına qoydum. Dedi: "Bəxşiş və hədiyyə verilmək üçün mənim barmağımdan çıxarılmış üzük bir daha barmağıma taxılmaz." Dedim: "Bu üzük şah barmağına layiqdir." Mən üzüyü şahın qarşısına qoydum, o qabağıma itələdi. Üzük çox gözəl və bahalı olduğundan öz-özümə dedim: "Bu şah mey içib kefləndiyi üçün bunu mənə bağışlayır, sabah ayılanda birdən peşiman olub ürəyində məndən inciyə bilər." Üzüyü yenə onun qarşısına qoydum. Şah üzüyü götürüb dənizə atdı. Mən dedim:"Vay, heyif, bilsəydim ki, şah onu bir daha barmağına keçirməyəcək, götürərdim. Mən ömrümdə belə yaqut görməmişdim." Şah dedi:"Mən bir neçə dəfə onu sənin qabağına qoydum, gördüm ki, gözünü ondan ayıra bilmirsən, sənə bağışladım. Doğrudur üzük çox qiymətli idi, lakin o sənin gözündə düşündüyümdən daha qiymətli olmasaydı, onu sənə bağışlamazdım. Günah səndədir ki, götürmədin, indi isə təəssüf edirsən. Lakin o üzüyü sənə qaytarmaq üçün bir çarə taparam. Bir qulama dedi: "Bir qayığa otur, elə ki, sahilə çatdın, bir ata minib çapa-çapa saraya get, xəzinədara de, filan gümüş sandıqçanı istəyirlər, alıb tez bura gətir." Gəmiçiyə əmr etdi: "Ləngər sal, gəmini dayandır, Sonra deyərəm nə edərsən." Biz hələ də şərab içirdik, qulam gəlib sandıqçanı şahın qarşısına qoydu. Şahın kəmərində qaytanlı bir kisə vardı, onun içindən bir gümüş açar çıxartdı, sandığın ağzını açdı, əlini salıb oradan bir qızıl balıq çıxartdı, dəryaya atdı. Balıq suya batıb dəryanın dibinə daldı, bir az keçdikdən sonra balığın başı suyun üzərində göründü, haman üzüyü ağzında tutmuşdu. Şah üzüyü balığın ağzından alıb mənim qabağıma atdı. Mən baş əydim, üzüyü barmağıma keçirdim. Şah da balığı sandıqçaya qoyub, ağzını qıfılladı, açan kisəyə qoydu. Sandıqçanı evə göndərdi. Biz hamımız mat qaldıq.

Sonra Cəfər üzüyü barmağından çıxarıb Süleymanın qarşısında qoydu və dedi:"Budur üzük." Süleyman götürüb diqqətlə baxdı, sonra yenə özünə qaytarıb dedi: "Belə kişinin yadigarını zay elmək olmaz.,,

Bu kitabın məqsədi belə hekayətlər deyildir. Lakin çox maraqlı və qəribə olduğundan yeri düşdüyü üçün danışıldı. Onu xatırlatmaqdan məqsəd bunu deməkdir ki, zəmanə yaxşılığının, dövran sağlamlığının əlaməti adil şahın meydana gəlməsi, fisq-fəsad törədənlərə divan tutması, yaxşı və işgüzar vəzirlərin olmasıdır; onlar hər işi başı çıxan bir adama tapşırar, iki vəzifəni bir adama verməzlər. Şah rəiyyətin halına qalar, uşaq-muşağı irəli çəkməz, ağıllı qocalar və



downloaded from KitabYurdu.org

dünya görmüş adamlarla məsləhətləşər, işi qaydasında aparar, din və dünya nizama düşər, hər kəsin vəzifəsi öz qabiliyyətinə görə olar, bu adəti pozmaq istəyənlərə qulaqburması verər, bütün əməlləri düz işləyən ədalət və siyasət tərəzisində çəkər. Böyük allahın köməyi ilə.

*Qırx üçüncü fəsil*

## HİCAB ƏHLİ[227], ORDU BAŞÇILARI VƏ SƏRKƏRDƏLƏRİN RÜTBƏLƏRİ HAQQINDA

Şah əlaltılarının başçı olmalarına imkan verilməməlidir. Bundan böyük zərərlər törəyər, şah qədir-qiymətdən, şan-şövkətdən düşər, xüsusilə "hicab əhli" sayılan arvadlardan. Çünki bunların ağlı kamil olmaz. Bunlar nəsli davam etdirmək üçündür, nə qədər əsl-nəsəbli olsalar, o qədər dəyərli, nə qədər həyalı, ismətli olsalar o qədər tərifəlayiq hesab edilərlər. Şah arvadları fərman verdikdə qərəzli adamların ona təlqin etdiyi kimi verərlər, çünki kişilər hadisələrin xaricdə necə cərəyan etdiklərini öz gözləri ilə görə bildikləri halda, qadınlar görə bilməz, ona görə yanlarında işləyən xadimə, sahib, xadimlərin dedikləri sözlərə əsasən fərman verərlər, bunlar da əlbəttə, həqiqətin əksinə olar, onlardan fəsad törəyər, şahın əzəmətinə xələl gələr, xalq ağır vəziyyətə düşər, dövlətə, dinə ziyan dəyər, camaatın malı tələf olar, dövlət başçıları neynəyərlər. Qədim zamanlarda da şahın arvadı şaha ağalıq etdikdə fitnə-fəsad, şur və şərdən başqa bir şey etməmişlər. Bu barədə az xatırladaq ki, çoxları da yada düşsün.

Arvadın əmrinə tabe olan, ondan zərər çəkib əziyyət və məşəqqətə düşən birinci kişi Adəm ə.s. olmuşdur. O, Həvvanın felinə uyaraq buğda yemiş və cənnətdən qovulmuşdur. Adəm iki yüz il ağladıqdan sonra allahın ona rəhmi gəlib onu bağışlmışdır.

**Hekayət.** Keykavusun arvadı Südabə Keykavusun üzərində hökmranlıq edirdi. Keykavus bir adam göndərib Rüstəmə dedi ki, tərbiyə etdiyin, boy-buxuna çatdırdığın oğlum Siyavuşu[228] göndər gəlsin, onu görmək arzusu məni öldürür. Rüstəm Siyavuşu Keykavusun yanına göndərdi. Siyavuş çox gözəl idi. Südabə onu pərdə arxasından görmüş və gözü düşmüşdü. Keykavusa dedi: "Siyavuşa əmr et Şəbistana"[229] gəlsin, bacıları da onu görsünlər." Keykavus Siyavuşa dedi: "Şəbistana get bacıların səni görmək istəyirlər." Siyavuş dedi: "Fərman hökmdarındır, lakin onlar Şəbistanda, mən divanda olsam yaxşıdır." Keykavus dedi:"Getmək lazımdır."

Şəbistana getcək Südabə onu qarşılayıb xəlvət otağına apardı, qucaqlayıb xəlvət ağuşuna çəkməyə başladı. Suyavuşun yanına gəldi, özünü onun əlindən qurtarıb, Şəbistandan xaricə qaçdı və öz sarayına qayıtdı. Südabə Siyavuşun atasına xəbər verəcəyindən qorxub öz-özünə dedi: "Qabaqdan gəlmişlik etsəm yaxşıdır." Ərinin yanına gedib dedi: "Siyavuş mənə əl atdı, zorlamaq istədi, güclə



downloaded from KitabYurdu.org

əlindən qaça bilmişəm."

Keykavusun Siyavuşa qəzəbi tutdu, o dərəcəyə çatdı ki. Siyavuşa dedi: "Gərək sən oda and içməklə öz günahsızlığını sübut edəsən, yalnız bundan sonra mənim sənə ürəyim yatar." Siyavuş dedi: "Fərman şahındır, nə əmr edərsə, mən ona hazıram."

Sonra səhrada od qaladılar ki, yarım fərsəng məsafəni tutdu, od vurdular, qızışdıqda alov dağ qədər yüksəyə qalxdı. Bu zaman Siyavuşa dedilər: " Buyur oda gir." Siyavuş Şəbrəngə[230] minmişdi, allaha təvəkkül deyib, atı oda vurdu, görünməz oldu. Bir az keçmişdi ki, alovun o biri tərəfindən sağ-salamat çıxdı, allahın əmri ilə nə bədənində bir tükü yanmış, nə ata bir ziyan dəymişdi. Möbidlər o oddan götürüb atəşgədəyə apardılar, hələ indi də bu od yanmaqdadır, çünki həqiqətə hökm vermişdi. Bu hökmdən Sonra Keykavus Bəlxin əmrliyini Siyavuşa verdi, ora göndərdi.

Südabənin məsələsinə görə Siyavuşun ürəyi atasından incimişdi, iztirab çəkir, ürəyindən İrandan qaçmaq, Hindistan, Çin, Maçinə keçmək arzusu keçirdi. Əfrasiyabın vəziri Piran Siyavuşun ürək sirrindən xəbər tutduqda onun yanına gedib Əfrasiyabın dilindən Siyavuşu dəvət etdi, ona yaxşı vədələr verdi, razı saldı, əhd-peyman bağladı və dedi: "Ev bir, hər iki inci birdir."

Əfrasiyab onu bütün övladlarından artıq əzizləyəcək, nə vaxt atası ilə barışıb İrana getmək istəsə, Əfrasiyab vasitəçilik edəcək, Keykavusla sazişə gələcək, Sonra onu min hörmət və izzətlə atasının yanına göndərəcəkdir."

Siyavuş Bəlxdən Türküstana getdi. Əfrasiyab qızını ona verdi və onu əzizlədi, buna Əfrasiyabın qardaşı Kərsivəzin paxıllığı tutdu, Siyavuşu Əfrasiyabın yanında günahkarlandırdı. Siyavuş günahsız idi və Türküstanda öldürüldü. İrana ah-şivən düşdü, göz yaşları axıdıldı, pəhləvanlar qəzəblənməyə başladılar. Rüstəm Sistandan paytaxta getdi, icazə almadan Keykavusun Şəbistanına gedib Südabənin saçlarından tutdu, sürüyə-sürüyə küçəyə çıxarıb, bədənini doğram-doğram etdi. Heç kəs də cəsarət etmədi, desin ki, pis hərəkət etdin.

Sonra müharibə kəmərini belinə bağlayıb Siyavuşun intiqamını almağa getdi. Uzun illər vuruşdu, hər iki tərəfdən minlərlə baş vurulub yerə töküldü. Bunların hamısı ərinin üzərində ağalıq edən Südabənin ucbatından oldu.

İradəli kişilər, qüdrətli şahlar həmişə düz yol seçmiş, elə etmişlər ki, qadınlar və zəitlər onların sirlərindən xəbər tuta bilməmişlər. Elə etmişlər ki, onların məsləhət, əmr və şıltaqlıqlarının qarşısı alınmış, ağalıq etməyə imkanları olmamışdır. Necə ki, İsgəndər haqqında damşırlar.

**Hekayət.** Tarixdə yazılmışdır ki, İsgəndər Rumdan gəlib, əcəm şahı Dara oğlu Daranı məğlub etdikdən, Dara qaçmağa məcbur olduğundan və öz xidmətçiləri tərəfindən öldürüldükdən sonra ondan bir qız qalmışdı. Həddən artıq gözəl idi. Bacısı, eləcə də onun ailəsindən olan bir neçə saray qızının hamısı gözəl və qəşəng idilər.

İsgəndərə dedilər: "Bəlkə Daranın Şəbistanına gedib oradakı pəri kimi



downloaded from KitabYurdu.org

ayüzlülərə, xüsusilə gözəllikdə misli olmayan qızına tamaşa edəsən?" Bunu deyənlərin məqsədi o idi ki, İsgəndər Daranın qızını görüb ona evlənsin.

İsgəndər dedi:"Mən onların kişilərini məğlub etmişəm, yaxşı olmaz ki, qadınları bizi məğlub etsin."

Razılıq vermədi. Daranın Şəbistanına getmədi.

**Başqa bir hekayət.** Xosrov, Şirin, Fərhad əfsanəsi gözəl və məşhurdur. Xosrov Şirini çox sevdiyindən cilovunu Şirinin əlinə vermişdi, Şirin nə deyirdisə, o da yerinə yetirirdi. Nəticədə Şirin həddini aşdı, elə bir şahdan üz döndərib, Fərhada meyl göstərdi.

**Hekayət.** Büzürcmehrdən soruşdular: "Nə səbəbə sasanilər sülaləsi darmadağın oldu, sən onun məsləhətçisi idin, hələ indi də ağılda, tədbirdə, bilikdə dünyada sənin tayın yoxdur?"

Dedi: "İki səbəbi var idi. Biri bu idi ki, sasanilər böyük işləri uşaq-muşaq və nadan adamlara tapşırmışdılar, ikincisi o idi ki, elm adamlarının, təcrübə sahiblərinin qədir-qiymətini bilmirdilər. İşləri arvad və uşaqların öhdəsinə buraxımşdılar, bunların hər ikisində də ağıl və bilik olmaz. Elə ki, iş arvad və uşaq-muşağa düşdü, bil ki, şahlıq o xanədanın əlindən çıxacaqdır."

**Rəvayət.** Arvadlar nə desə, əksini etmək lazımdır ki, düz olsun. Əgər arvadların ağlı kamil olsaydı, peyğəmbər ə.s.-in dilindən deməzdilər. Onlarla məsləhətləşin, lakin əksini edin."

**Rəvayət.** Hədisdə deyilir: xəstəlik peyğəmbər ə.s. elə zəiflədib əldən salmışdı ki, yeriməyə taqəti qalmamışdı. Camaat namazının vaxtı çatmışdı, əshabələri məscidə yığılıb gözləyirdilər ki, o, gəlib camaat namazını qılsın.

Aişə və Həfsə peyğəmbərin başının üstündə oturmuşdular. Aişə peyğəmbər ə.s. dedi: "Ey allahın peyğəmbəri, namaz vaxtı çatmış, camaat məscidə yığılmışdır, sənin də ora getməyə taqətin qalmamışdır. Camaat qabağında durub imamlıq etməyi kimə tapşırırsan?!" Dedi:"Əbubəkrə." Bir də soruşdu:""Kimə tapşırırsan?" Dedi :"Əbubəkrə."

Aişə Həfsəyə dedi:"Mən iki dəfə dedim, sən də bir dəfə de ki, Əbubəkr zəif və ürəyiyuxa adamdır, əshabələrinin hamısından çox o səni istəyir, namaza durub sənin yerini boş gördükdə ağlamağı tutacaq, namazı həm öziinə, həm də camaata haranı edəcəkdir. Bu Ömərin işidir, ürəyi bərk, özü də möhkəm adamdır, buyurunuz imamlığı o etsin, ziyanı olmaz."

Aişə və Həfzə peyğəmbər ə.s. belə dedilər. Peyğəmbər ə.s.-in qəzəbi tutdu, üzü qızardı və dedi: "Siz Yusif və Kərsif kimisiniz. Mən siz istəyəni etməyəcəyəm, onu edəcəyəm ki, müsəlmanlar xeyrinə olsun. Gedin Əbubəkrə deyin, camaat namazını başlasın." Aişənin (allah ondan razı olsun) bu qədər böyük elmli, mömin və pak olmağına baxmayaraq, peyğəmbər ə.s. Aişənin istədiyinin əksini etməyi buyurdu. İndi görünüz, başqa arvadların bilik və məsləhətləri nə dərəcədə olar. Yusif və Kəsrif haqqında hekayət belədir.

**Hekayət.** Deyirlər Bəni-İsrail dövründə belə bir əqidə var imiş ki, kim



downloaded from KitabYurdu.org

qırx il özünü böyük günahlardan saxlasa, oruc tutsa, vaxtlı-vaxtında namaz qılsa, heç kəsi incitməsə, onun üç arzusu allah tərəfindən yerinə yetiriləcəkdir. O vaxt Bəni-İsrail tayfasından olan Yusif adlı mömin, yaxşı bir kişi var idi, onun özü kimi mömin, həyalı, ismətli bir arvadı var idi, adı Kəsrif idi. Bu Yusif qırx il allah-taalaya ibadət etdi, bütün şərtləri yerinə yetirdi. Sonra öz-özünə düşündü ki, bəs indi mən allahdan nə istəyim, qərara gəldi, bir dost tapıb məsləhətləşsin, ən yaxşı şey istəsin. Nə qədər fikirləşdi, müvafiq bir dost tapa bilmədi. Evə gəldi, arvadını görcək ürəyində dedi:"Dünyada mənə bundan daha yaxın bir dost ola bilməz. O mənim arvadım, uşaqlarımın anasıdır, mənim xeyrim onun xeyridir, onunla məsləhətləşsəm, hamıdan yaxşıdır."

Sonra arvadına dedi: "Bil ki, mən qırx illik ibadətimi yerinə yetirmişəm, indi mənim üç arzum yerinə yetməlidir, dünyada isə mənim səndən daha yaxın bir xeyirxahım yoxdur. De görüm, indi mən allah-taaladan nə istəyim?"

Arvadı dedi: "Bilirsən ki, dünyada mənim səndən başqa heç kəsim yoxdur, sən mənim gözümün işığısan. Onu da bilirsən ki, qadın kişinin tamaşasıdır, mən də sənin tamaşanam, könlün açılmaq üçün mənə baxırsan, kefin kökəlmək üçün mənimlə söhbət edirsən. Allah-taaladan mənim üçün elə bir gözəllik istə ki, onu heç bir qadına verməmiş olsun. Onda sən hər vaxt qapıdan içəri girəndə mənim gül camalımdan zövq alar, ürəyin şadlıqla dolar, qalan ömrümüzü şənliklə keçirərik."

Arvadın sözü kişinin döşünə yatdı, dua edib dedi: "İlahi, mənim bu arvadıma elə bir hüsn-camal ver ki, onu heç bir qadına verməmiş olasan!" Böyük yaradan Yusifin duasını müstəcəb etdi.

Sabahısı onun arvadı yuxudan ayılanda artıq dünən yatan arvad deyildi. Elə gözəl idi ki, heç kəs onun mislini görməmişdi.

Yusif onu bu gözəllikdə gördükdə təəccüb etdi, sevincindən qanad açıb uçmaq istədi. Hər gün arvadın gözəlliyi artırdı, həftənin axırında o dərəcəyə çatdı ki, heç kəsdə ona baxmağa taqət qalmadı. Onun gözəlliyinin xəbəri dünyaya səs saldı, kişili-arvadlı hamı ona tamaşaya gəlməyə başladı, adamlar uzaq yerlərdən gəlir, ona baxıb geri qayıdırdılar.

Arvad bir gün aynaya baxdı, özünün gözəlliyni görüb heyran qaldı, qəlbində qürur və təkəbbür hissləri baş qaldırdı. Dedi:"Bu gün dünyada mənim tayım hanı? Məndə olan bu hüsn, bu camal kimdə vardır? Mən gör kimə qismət olmuşam. Arpa çörəyi ilə dolanan, eyş-işrəti olmayan, qoca, dünya nemətindən məhrum, yoxsul bir zavallıya! İndi yalnız şah mənim ərim olmağa layiqdir, o məni qızıla, daş-qaşa tutar, ipək-zərbaft geyindirib əzizləyə bilər."

Arvadın ürəyindən çox belə şeylər keçdi, arvad çox belə xəyallara düşdü, kişi ilə pis dolanmağa, söyüş söyməyə başladı, söz deyəndə qulaq asmadı, harınlıq edib qudurdu, iş o yerə çatdı ki, ərinə əl qaldırdı.

Çırtbaşı sərki vurub deyirdi: "Mən necə sənin xörəyin ola bilərəm ki, doyunca yeməyə sənin heç çörəyin də yoxdur."



downloaded from KitabYurdu.org

Bu Yusifın üç-dörd körpə uşağı var idi. Arvad uşaqlara baxmaqdan imtina etdi. Arvadın yaramazlıqları o yerə çatdı ki, Yusifin canı boğazına yığıldı, səbri tükəndi, nə edəcəyini bilmədi. Üzünü göyə tutub dedi: "İlahi, bu arvadı ayı elə!" Arvad o saat çevrilib ayı oldu, qəzəbə gəldi. O bu şəkildə qapı, həyət və dam-divarın başına fırlanır, lakin evdən uzağa getmirdi, həmişə gözlərindən yaş axırdı. Bu Yusifə sözü deməyə özü də təəssüf edirdi. Çünki uşaqların ucbatından ibadət və itaətdən qalmış, namazı fövtə vermişdi. Çarəsi kəsildi, zərurət üzündən əllərini yuxarı qaldıraraq dedi: "İlahi bu ayıya dönmüşü yenə də əvvəlki kimi arvada çevir, elə et ki, əvvəlki kimi mehriban olsun, uşaqlara yaxşı baxsın, mən də ibadətlə məşğul olum."

Ayı dərhal həmin mehriban, uşaqların qayğısına qalan, mərhəmətli arvada çevrildi. Heç o halı yada da salmırdı, başına gələnləri sanki yuxuda görmüşdü. Lakin arvadın tədbiri və şıltaqlığı üzündən Yusifin qırx illik ibadəti bada getmiş, puça çıxmışdı.

Ondan sonra bu hekayət məsəl oldu ki, dünyada heç kəs arvadın hökmündə olmasın.

**Hekayət.** Xəlifə Mömin bir dəfə dedi: “Heç vaxt o gün olmasın ki, bir padşah örtük əhlinə icazə versin, onlar ölkə, ordu, xəzinə haqqında şaha söz desin, işə qarışsın, birini himayə edib, birini işdən qovsun, birinə cəza versin, birini vəzifəyə qoysun.

Belə olduqda istər-istəməz camaat onların xidmətinə gedər, öz ehtiyaclarını deyərlər. Onlar adamların bu rəğbətini sarayda çoxlu qoşun və rəiyyət topladığını gördükdə iştahları daha artar, başqa xəyallara düşərlər. Pis adamlar, bədxah mərdüməzarlar onlara tez yol taparlar. Bundan sonra şahın əzəməti gedər, dərbar və dərgahın hörməti azalar, şahın sözü hörmətdən düşər, hər tərəfdən məlamət və və məzəmmət yağmağa başlar, ölkədə həyəcan və iztirab əmələ gələr, vəzir öz təmkinliyini saxlaya bilməz, orduda narazılıq törəyər." Bəs bunun çarəsi nədir, bu narahatlıqdan xilas olmaq üçün nə etmək lazımdır.

Padşah özündən əvvəlki adəti bərpa etməli, qüdrətli, iradəli şahların etdikləri kimi, izzət və cəlal sahibi olan allahın dediyi kimi etməlidir. O buyurubdur: "Kişiləri qadınlardan üstün yaratdıq ki, onları dolandırsınlar."

Əgər onlar özlərini dolandıra bilsəydilər, onları kişilərin ixtiyarına verməz, kişiləri onlardan üstün yaratmazdı.

**Hekayət.** Keyxosrov belə demişdir: "Hansı şah istəyirsə evi yerində qalsın, ölkəsi viran olmasın, şan-şövkətinə xələl toxunmasın, örtük əhlinə icazə verməməlidir ki, öz əlaltıları və nökərlərindən başqa işə qarışsınlar. Beləliklə, qədim adəti saxlayıb, narahatlıqdan azad olarlar."

**Hekayət.** Ömər ibn Əlxəttab (allah ondan razı olsun) demişdir: "Qadınların üzü örtülü olduğu kimi sözləri də örtülü olmalıdır, onların özlərini açıq göstərmək mümkün olmadığı kimi, sözlərini də açıq demək olmaz."

Bu barədə bu qədər danışıldı, bəsdir; başqalarına da nəzər salınsa, bilərlər



downloaded from KitabYurdu.org

ki, məsləhət bundadır.

Tabelər haqqında. Böyük yaradan padşahı hamının üstündə höyük yaratmışdır. Bütün insanlar ona tabedir, onun sayəsində bir parça çörək sahibi olur, böyük vəzifələrə çatırlar. Onları elə saxlamaq lazımdır ki, həmişə öz yerlərini bilsinlər, qulaq sırğasını qulaqlarından çıxarmasınlar. Onların yaxşı və pis işlərini həmişə bir-birinə göstərmək lazımdır ki, kim olduqlarını yaddan çıxarmasınlar, bir də öz bildiklərini etmələrinə yol verilməməlidir. Onlar hərəsi öz yerini bilməli, bir-birinin halından xəbər tutmalı, ayaqlarını cızıqlarından kənara qoymamalıdırlar, onlara nə deyilibsə, onu da yerinə yetirməlidirlər.

**Hekayət**. Büzürcmehr bir gün Ənuşirəvana dedi: "Vilayət şahındır, şah vilayəti qoşuna tapşırır, adamları tapşırmır. Əgər qoşun şahın vilayətinə mehriban olmayıb, vilayətin adamlarına şəfəqqəl və mərhəmət göstərməsə, hərə öz kisəsini doldurmağa çalışsa, vilayətin halına qalmasa, rəiyyəti yaxşı saxlamasa, qoşun həmişə vilayətdə cəza versə, zindana salsa, işdən qovsa, qəzəblənsə, xəyanət törətsə, şahla qoşun arasında nə fərq? Belə işlər həmişə şahların ixtiyarında olmuşdur, qoşunun yox. Orduya belə hüquq və ixtiyar vermək olmaz. Bütün dövrlərdə qızıl tac, qızıl üzəngi, qızıl cam olmuşdur; taxt qurdurmaq, sikkə basdırmaq hüququ şahlardan başqa heç kəsdə olmamışdır. Bir də deyiblər: "Şah fəzilət və şücaətdə bütün şahlardan üstün olmaq istəyirsə, əxlaqını təmiz saxlamalıdır." Dedi: "Necə?" Dedi: "Pis xasiyyətləri özündən uzaqlaşdırmalı, yaxşılarını özünə aşılamalıdır. Pis xasiyyətlər bunlardır: kin, həsəd, təkəbbür, qəzəb, şəhvət, hərislik, xəsislik, inad, yalançılıq, paxıllıq, bədxahlıq, zülm, xudpəsəndlik, tələsmək, naşükür olmaq, yüngülbeyinlik. Yaxşı xasiyyətlər bunlardır: həya, xeyirxahlıq, həlm, alicənablıq, bağışlamaq, təvazö, səxavət, sədaqət, səbr, qədirdanlıq, rəhmdillik, elm, ağıl, ədalət.

Bu xüsusiyyətlərə bu tərtib üzrə yiyələnib onların hamısını həyata keçirə bilsən, dövlət işlərində heç bir məşvərətçiyə ehtiyac qalmaz."

### *Qırx dördüncü fəsil*

## ŞAH VƏ İSLAMIN DÜŞMƏNİ OLAN BƏDMƏZHƏBLƏRİN ORTAYA ÇIXARILMASI HAQQINDA

Qulunuz xəvaricilərin[233] xürucu haqqında bir neçə fəsil yazmaq qərarına gəldi ki, dünya adamları bu qulunuzun Səlcuq dövlətinə, xüsusilə dünyanın bugünkü hökmdarına (allah onun dövlətini əbədi etsin, övladlarını, dumanını, dövranını bəd nəzərlərdən saxlasın) nə qədər sadiq və havadar olduğunu bilsin.

Bütün dövrlərdə xəvaricilər olmuşlar. Adəm ə.s. zamanından başlamış indiyə qədər dünyada olan bütün ölkələrdə şah və peyğəmbərlərə qarşı xüruc etmişlər. Bu tayfadan daha rəzil, daha bədfel, daha bədbin bir dəstə tapmaq olmaz. Onlar divar arxasında, küncdə-bucaqda bu ölkənin pisliyi haqqında tədbirlər



downloaded from KitabYurdu.org

düşünür, dini fəsadlar axtarırlar.

Qulaqları səsdə, gözləri yoldadır. Allah eləməsin, əgər bu qüdrətli dövlətə (allah onu daha möhkəm etsin) bir bədbəxtlik üz versə, ya da bir zərər baş qaldırsa, allah onun qarşısını alsın, bu köpəklər pusqulardan çıxıb, bu dövlətə qarşı xüruc edər, şiəliyə çağırarlar, bunlar rafizilər, xürrəmdinilərdən[234] də güclü olarlar. Nə lazımsa: fisq-fəsad, hay-küy, araqarışdırma, pozğunluq hamısını edərlər, heç şeydən çəkinməzlər. Sözdə müsəlmanlıq iddiası edər, əməldə kafirlər kimi iş görərlər; onların batini (allah onlara lənət etsin) zahirlərinin əksinə olar, sözləri əməllərinin ziddinə. Məhəmməd Mustafa ə.s. dininə onlardan daha qəddar, daha murdar bir düşmən ola bilməz, dünya hökmdarının məmləkətində onlardan daha dəhşətli bir yağı tapıla bilməz.

Bu gün heç bir qüvvətə malik olmayan, camaatı şiəliyə çağıran adamlar bu dəstədəndirlər. Onlar gizlində bu dəstənin işlərini düzəldir, qüvvəllənmələrinə çalışır, təbliğat aparır, dünya hökmdarını, bəni əbbasilər xanədanını dağıtmağa təhrik edirlər.

Əgər qulunuz bu qazanın ağzından qapağını qaldırsa, çox rüsvayçılıqlar çıxar.

Lakin dünya hökmdarı onların tamaşalarından vergi aldığından, onlar şahı tərifləyib şirnikləşdirmiş, onu pula həris etmiş, məni qərəzçi kimi qələmə vermişlər, ona görə mənim nəsihətim bu vəziyyətdə ürəyə yata bilməz. Onların hiyləgərlik və fitnəkarlığı mən ortalıqdan getdikdən sonra məlum olar. Şah mənim bu məğlubedilməz dövlətə nə qədər sədaqətli havadar olduğumu onda bilər ki, mən bu dəstənin fikrindən vaxtında xəbər tutmuş, onları gizlətməmiş və həmişə şahın ali xidmətinə (allah daha ali etsin) ərz etmişəm. Lakin indi bu barədə dediklərimin qəbul edilmədiyini gördüyümdən təkrar etməyi lazım bilmədim.

Bu kitabda onlardan qısa şəkildə bir fəsil yazıldı, çünki çox mühüm məsələdir, bu batinilərin necə adam olduqlarını, hansı məzhəbə və əqidəyə qulluq etdiklərini və hər dəfə şahın əli ilə necə məğlub edildiklərini demək lazımdır ki, mənim ölümümdən sonra şaha, ölkəyə və dinə bir yadigar olsun.

Bu məlun tayfa Şam, Yəmən, Əndəlis torpaqlarında xüruclar etmiş, qətl-qarətlər düzəltmişdir. Lakin mən bunların hamısından danışmayacağam. Əgər biri onların hamısının gördüyü işləri öyrənmək istəsə, tarixlər oxumalıdır, xüsusilə İsfahan tarixini.

Mən dünya hökmdarının məmləkətinin bir hissəsi olan Əcəm torpağında onların etdiklərinin yüzdən birini xatırladacağam ki, şahın ali düşüncəsi, (həmişə ali olsun) əvvəldən axıra qədər işindən xəbərdar olsun.



downloaded from KitabYurdu.org

*Qırx beşinci fəsil*

## MƏZDƏKİN XÜRUCU, ONUN MƏZHƏBİ VƏ NUŞİRƏVAN ADİL TƏRƏFİNDƏN ÖLDÜRÜLMƏSİ HAQQINDA

Dünyada ilk qondarma məzhəb yaradan adam Əcəm torpağından meydana çıxmışdır. Ona möbidlər möbidi [235] -deyərdilər. Adı Məzdəke-Bamdadan[236] idi. O, Nuşirəvan adilinin atası, Firuzun oğlu Qubad dövründə atəşpərəstlik dininə zərbə vurmaq, dünyaya pis yol açmaq istədi. Səbəbi o idi ki, bu Məzdək nücum elmini yaxşı bilirdi, ulduzların hərəkətindən belə nəticə çıxarırdı ki, bu yaxınlarda bir adam zühur edib, atəşpərəstlərin, yəhudilərin, xaçpərəstlərin, bütpərəstlərin dini batil edəcək və öz dinini xalqa qəbul etdirəcək və bu din qiyamətə qədər davam edəcəkdir. Birdən belə bir təmənnada oldu ki, bu adam elə onun özü olsun. Sonra ürəyində camaatı necə yoldan çıxarmaq və hansı din icad etmək haqqında fikirləşməyə başladı. Baxıb şah məclisində, böyüklər yanında tam hörmət sahibi olduğunu gördü. Peyğəmbərlik iddiası edənə qədər heç kəs Məzdəkdən yersiz bir soz eşitməmişdi.

Məzdək qulamlarına əmr etdi, gizli lağım atıb yeraltı yol qazmağa başlasınlar. Yavaş-yavaş o yolun ağzı gəlib atəşgahın ortasına çıxdı. Atəşgahın düz ortasında bir baca qoydular. Sonra Məzdək peyğəmbərlik iddiasına başladı və dedi: "Məni göndəriblər ki, Zərdüşt dinini təzələyim. Camaat Zənd-Avestanın mənasının unudubdur, allahın buyurduqlarını Zərdüştün dediyi kimi yerinə yetirmirlər. Bəni-İsrail tayfası da bir vaxt Musa ə.s.-ın allah-taala tərəfindən Tövratda[237] yazdıqlarını düz yerinə yetirməyib, əksini etdikdə, Tövratda deyildiyi kimi, allalı yeni peyğəmbər göndərdi. Bəni-İsrail tayfasının səhvini düzəltdi. Tövratın hökmlərini təzələdi, onları doğru yola qaytardı."

Bu söz Qubad şahın qulağına çatdı. Sabahısı gün böyüklərin, möbidlərin toplanmasını əmr etdi, məhkəmə qurdu, Məzdəki çağırıb ucadan soruşdu: "Sən peyğəmbərlik iddiası edirsən?!"

Dedi: "Bəli, mən ona görə gəlmişəm ki, Zərdüşt dinində çoxlu ziddiyyət vardır, onda çoxlu şübhəli yerlər meydana çıxmışdır. Mən onlan düzəltməli, təshih etməliyəm. Zənd-Avestanın mənası icra edildiyi kimi deyildir, mən onun mənasını açıb göstərməli, camaatı başa salmalıyam."

Qubad soruşdu: "Sənin möcüzən nədir?" Dedi: "Möcüzəm odur ki, sizin qiblə və mehrab sayılan odu dilə gətirərəm, allah-taaladan diləyərəm ki, oda əmr etsin, mənim peyğəmbərliyimə şəhadət versin, bunu elə ucadan desin ki, şah və camaat onun səsini eşitsin."

Şah dedi: "Ey böyüklər və möbidlər, bu barədə nə deyə bilərsiniz?" Möbidlər dedilər: "Əvvələn, o bizi öz dinimizə, öz kitabımıza dəvət edir, Zərdüştün əleyhinə getmir, Zənd-Avestada elə sözlər var ki, hərəsinin on mənası var, hər alim, hər möbid onu iyirmi cürə şərh və izah edir; ola bilər Məzdək bir



downloaded from KitabYurdu.org

sözü daha düzgün, bir ibarəni daha gözəl şərh etsin. Lakin indi ki, deyir bizim pərəstiş etdiyimiz odu dilə gətirəcək, bu insan gücündən xaricdir, yaxşısını şah özü bilər."

Bundan sonra şah Məzdəkə dedi: "Sən odu dilə gətirsən, mən də sənin peyğəmbərliyinə şəhadət verəcəyəm."

Məzdək dedi: "Şah-vaxt təyin etsin, haman vaxt möbidlər və böyüklərlə atəşgaha gəlsin, allah-taala mənim duama görə odu dilə gətirsin. İstəyir bu gün, lap bu saat gedək." Şah dedi: "Qərara gəldik ki, sabah hamımız atəşgaha toplaşaq."

Sabahısı gün Məzdək haman bacaya bir rahib göndərib dedi: "Nə vaxt mən ucadan allahı çağırmağa başlasam, sən yeraltı yoldan bacanın altına gəlib deyərsən: "Yer üzərində allaha sitayiş edənlərin borcu Məzdəkin dediklərinə qulaq asmaqdır, onda hər iki dünyada xoşbəxt olarlar."

Sonra Qubad, böyüklər və möbidlər atəşgədəyə getdilər. Məzdəki çağırdı. Məzdək gəldi, odun yanında durub, ucadan allahı çağırmağa başladı, Zərdüştə həmd-səna oxudu və susdu. Odun ortasından, dediyimiz kimi, səs yüksəlməyə başladı, şah və böyüklər bu səsi eşidib heyran qaldılar. Qubad ürəyində ona beət etmək qərarına gəldi. Onlar atəşgədədən qayıtdıqdan sonra Qubad Məzdəki yanına çağırdı, hər saat onunla daha çox yaxınlaşmağa başladı, axırda beət gətirdi; onun üçün qızıl kürsü qayıtdırdı, daş-qaşla bəzətdirdi, bargahda öz taxtının yanına qoydurdu.

Qəbul vaxtı Qubad taxta oturanda Məzdəki də bu kürsünün yanında oturtdu, Qubaddan xeyli yüksək oldu. Adamların bəziləri maraq və məqsəd, bəziləri şahın xətrinə Məzdəkin məzhəbini qəbul etdilər. Vilayətlərdən, şəhər və kəndlərdən camaat paytaxta axışmağa başladı. Açıq-gizli Məzdəkin məzhəbini qəbul edənlərin sayı çoxalırdı. Hərbçilər az maraq göstərir, lakin şahın qorxusundan bir şey demirdilər. Möbidlərdən heç kəs Məzdəkin dinini qəbul etməmişdi. Onlar deyirdilər: "Görək Zənd-Avestadan nə çıxır?"

Şah bu məzhəbi qəbul etdiyinə görə camaat uzaqdan-yaxından Məzdəkə beət cdir, mal-dövlətlərini birləşdirir və bölüşdürürlər. Çünki Məzdək deyirdi malı adamların arasında birləşdirib bölüşdürmək lazımdır, hamı allah-taalanın bəndəsi, Adəmin övladlarıdır, bir-birlərinin malım xərcləməlidirlər ki, heç kəs azuqəsiz qalmasın. Hamının vəziyyəti eyni, imkanları bərabər olmalıdır.

Qubadın buna razı olub malı bölüşdürməyə razılıq verdiyini görən Məzdək dedi: "Arvadlarınız da sizin malınız kimidir, ona görə arvadları da bir-birinizin malı bilməlisiniz ki, heç kəs dünyanın ləzzət və şəhvətindən binəsib qalmasın, murad qapısı hamının üzünə açıq olsun. Malın və qadının ümumiləşməsinə görə xalq, xüsusilə avam adamlar onun məzhəbinə daha çox rəğbət göstərirdilər."

Belə bir qayda qoyulmuşdu: "Əgər biri evinə iyirmi adam da aparıb çörəyə, noğula, şəraba, ətə, musiqiyə qonaq etsəydi, axırda gərək onların hamısı bir-bir onun arvadı ilə də əlaqədə ola idi. Bu eyib sayılmazdı."Adət belə idi: "Kim



downloaded from KitabYurdu.org

qadınla əlaqədə olmaq üçün içəri girsəydi, papağını qapıda qoyardı.

Başqasının könlü istədikdə qapıda qoyulmuş papağı görər, qayıdar, o çıxıb gedənə qədər gözlərdi."

Sonra Ənuşirəvan gizli olaraq bir adamı möbidlərin yanına göndərib dedi: "Nə üçün belə susursunuz, Məzdəkin qarşısında nə üçün acizlik göstərirsiniz? Məzdəkin nə olduğu haqda heç kəs danışmır. Nə üçün nəsihət verib atama demirsiniz ki, bu nə işdir tuturuq. Nə üçün bu fırıldaqçının yalanlarını ifşa etmirsiniz? Bu köpək xalqın malını dağıdır, arvadlarının örtüklərini götürərək rüsvay edir, bütün qara camaatı bu işə cəlb etmişdir. Heç olmazsa, deyin görək, bu nə üçün belə edir, kimin əmrini yerinə yetirir. Siz bundan artıq sussanız, arvadlarınız, mal-dövlətiniz əldən gedəcək, şahlıq, hakimiyyət bizim əlimizdən çıxacaqdır. Gərək siz hamınız mənim atamın yanına gedib məsələni ona başa salasınız, nəsihət edib, məsləhət verəsiniz. Görün nə dəlil gətirəcəkdir."

Adlı-sanlı böyük adamlara da belə xəbər göndərdi: "Atama ağır bir xəstəlik üz vermişdir, başına hava gəlmiş, ağlını çaşdırmışdır. O, xeyrini zərərindən ayıra bilmir, onun müalicəsi haqqında bir tədbir görün, elə edin, Məzdəkin sözünə qulaq asmasın, onun məsləhəti ilə iş görməsin. Siz də mənim atam kimi aldanmayın. Məzdək haqq deyil, nahaqdır; nahaq isə uzun sürə bilməz. Geciksəniz sabah onun faydası ola bilməz."

Böyüklər Ənuşirəvanın sözündən təşvişə düşdülər. Hərçənd ki, bəziləri Məzdəkin dinin qəbul etmək qərarına gəlmişdirlər. Ənuşirəvanın sözünü eşitcək ayaqlarını geri çəkdilər, onun məzhəbini qəbul etmədilər. Dedilər: "Baxaq görək Məzdəkin işi hara gedib çıxacaq, Nuşirəvan bu sözü hardan deyir?!" O zaman Nuşirəvanın on səkkiz yaşı var idi.

Sonra böyüklər və möbidlər yığışıb Qubadın yanına getdilər və dedilər: "Biz ən qədimdən bəri çox tarix kitabları oxumuş, nə onlarda, nə də Şamda olmuş peyğəmbərlərin sözlərində Məzdəkin dediklərinə rast gəlməmişik, bizə bunlar çox şübhəli görünür." Qubad dedi: “Məzdəkdən soruşun görün nə deyir?

Məzdəki çağırıb soruşdu: "Bu deyib elədiyin işləri nəyə əsasən görürsən?"

Məzdək dedi: "Zərdüşt belə buyurmuş, Zənd-Avesta belə yazmışdır. Camaat onun təfsirini bilmir, mənə inanmırsınız, oddan soruşun."

İkinci dəfə atəşgədəyə getdilər, oddan soruşdular, odun ənasından səs gəldi ki, Məzdək deyən kimidir, siz deyən kimi deyildir. İkinci dəfə möbidlər utanıb geri qayıtdılar. Sabahısı gün Nuşirəvanın yanına gedib, əhvalatı ona danışdılar. Nuşirəvan dedi: "Bu Məzdək iddia edir ki, onun məzhəbi tam mənasında Zərdüşt məzhəbidir. Yalnız bu iki mənada (mal və qadın iştirakı) məsələsində ondan ayrılır.

Bu hadisədən bir müddət keçdi. Bir gün Qubadla Məzdək söhbət edərkən sözarası Məzdək dedi: "Camaat böyük həvəslə bu məzhəbi qəbul edir. Nuşirəvan da razılıq verib bu məzhəbi qəbul etsəydi çox yaxşı olardı." Qubad soruşdu: "O bu məzhəbdə deyil?" Dedi: "Xeyr." Qubad əmr etdi Nuşirəvanı nə qədər mümkünsə



downloaded from KitabYurdu.org

tez tapıb gətirsinlər. Gəlcək dedi: "Ey mənim canım, sən Məzdək məzhəbində deyilsən?" Dedi: "Allaha şükür ki, yox." Dedi: "Nə üçün?" Dedi: "Ona görə ki, yalan deyir, böhtançıdır." Dedi: "Necə böhtançı ola bilər ki, odu dilə gətirir." Dedi: "Dörd şey əsas sayılır, su, od, torpaq, külək. Əmr edin odu dilə gətirdiyi kimi, su, torpaq, küləyi də dilə gətirsin, onda mən də aldanıb dinə-gələrəm." Dedi: "O hər nə deyir, Zənd-Avestaya əsasən deyir." Nuşirəvan dedi: "O buyurur ki, camaatın malı, arvadı bir-birinə halaldır. Zərdüşt dövründən başlamış indiyə qədər alimlərdən heç kəs belə bir təfsir verməmişdir. Din mal və arvadı başqalarına haram xatirinə yaranmışdır; bunların hər ikisi halal sayılsa, heyvanla adam arasında nə fərq ola bilər? Bu adət heyvan adətidir, heyvanlar birlikdə yeyib, birlikdə əlaqədə olarlar, heyvanlar mənim-sənin bilməz, ağıllı insanlar yox." Dedi: "Hər halda, mən sənin atanam, mənim əleyhimə olma." Dedi: "Mən bunu səndən öyrənmişəm, doğrudur, heç vaxt belə bir adət olmamışdır. Lakin gördüm sən öz atanın əksinə getdin, mən də sənin əksinə oldum, indi sən öz atanın yoluna qayıt, mən də sənin yoluna qayıdım."

Axırda Qubadla Ənuşirəvanın sözləşməsi o yerə çatdı ki, Qubad qətiyyətlə dedi: "Ya elə bir sübut gətir ki, bu məzhəbi rədd etsin, Məzdəkin dedikləri batil olsun, ya elə bir adam tap ki, onun dəlilləri Məzdəkin sübutlarından daha güclü, daha inandırıcı olsun. Əks halda səni cəzalandıracağam ki, başqalarına ibrət olsun." Nuşirəvan dedi: "Mənə qırx gün vaxt verin, ya sübut gətirərəm, ya elə bir adam taparam ki, Məzdəkin cavabını verər." Dedilər: "Yaxşı vaxt verdik." Bununla da dağılışdılar. Nuşirəvan atasının yanından qayıtdı, elə həmin gün məktub yazdı, qasidlə Parsa, Kövəl şəhərində yaşayan, qoca və ağıllı bir möbidə göndərdi ki, durma, nə qədər mümkünsə tez gəl, mənimlə atam və Məzdək arasında belə bir əhvalat baş vermişdir.

Qıx gün başa çatdıqda Qubad qəbul düzəltdi, taxta çıxdı. Məzdək də gəlib taxtın yanında kürsüdə oturdu. Nuşirəvanı gətirdilər. Məzdək Qubada dedi: "Soruş gör nə cavab gətiribdir?" Qubad soruşdu: "Nə cavab gətiribsən?,, Nuşirəvan dedi: "Hələ fıkirləşirəm." Qubad dedi: "İş fikirləşməkdən keçibdir." Məzdək dedi: "Tutun onu cəzalandırın." Qubad heç nə demədi. Camaat tökülüb Nuşirəvanı tutdu. Nuşirəvan əli ilə eyvanın məhəccərindən tutaraq atasına dedi: "Məni öldürməyə nə yaman tələsirsiniz, mənə verilmiş vaxt hələ bitməmişdir." Dedi: "Necə?" Dedi: "Mən sizdən qırx gün istəmişdim. Bu gün qırxıncı gündür, o mənim ixtiyarımdadır, bu gün bitdikdən sonra istədiyinizi edə bilərsiniz."

Sonra ordu başçıları, möbidlər hər tərəfdən qışqırdılar ki, düzdür, doğru deyir. Qubad dedi: “Bu gün də buraxın.,, Nuşirəvandan əl çəkdilər. Məzdəkin cəngindən xilas oldu. Elə ki, Qubad yerindən qalxdı, möbidlər dağılışdılar, Məzdək getdi, Nuşirəvan öz sarayına qayıtdı. Bu tərəfdən də Nuşirəvanın Parsdan çağırdığı möbid löhləm dəvə üstündə gəlib Nuşirəvanın qapısında düşdü. Saraya girib xidmətçiyə dedi:

"Nuşirəvana xəbər elə ki, Pars möbidi gəlibdir." Xidmətçi tələsik otağa



downloaded from KitabYurdu.org

girdi, Nuşirəvana xəbər verdi. Nuşirəvan sevincindən qarşısına yüyürüb onu qucaqladı və dedi: "Ey möbid, elə bu gün o dünyanı görüb gəlmişəm." Sonra əhvalatı möbidə danışdı. Möbid dedi: "Heç ürəyini sıxma, hər şey sən deyən kimidir. Sən haqlısan, Məzdək nahaq, sənin əvəzinə Məzdəkin cavabını mən verəcəyəm. Qubadı onun məzhəbindən geri döndərəcəyəm. Lakin bir tədbir gör ki, Məzdək mənim gəlməyimdən xəbər tutmamış mən şahla görüşə bilim." Dedi: "Bu asandır."

Əsr namazından sonra Nuşirəvan atasının sarayına getdi, qəbul edilməsini xahiş etdi. Atasını gördükdə salam verib dedi: "Məzdəkin cavabını verəcək möbidim Parsdan gəlmişdir. Lakin əvvəlcə şahla görüşüb, xəlvətdə onu dinləməsini xahiş edir." Dedi: "Olar. Onu gətir bura." Nuşirəvan qayıtdı. Hava qaraldıqda möbidi atasının yanına apardı. Möbid Qubada afərin dedi, babalarını təriflədi, sonra şaha dedi: "Məzdək səhv edir, bu onun işi deyil, mən onu yaxşı tanıyıram, biliyinə də bələdəm. Nücum elmindən balaca başı çıxır, lakin hökm verməkdə o səhvə yol verir, ulduzların göstərdiyinə görə bir adam zühur edib peyğəmbərlik iddiası etməli, qəribə bir kitab gətirməli, əcayib möcüzələr göstərməli, ayı göydə iki yerə bölməli, xalqı haqq yoluna dəvət etməli, pak din gətirməli, atəşpərəstlik və başqa məzhəbləri aradan qaldırmalı, cənnət vəd etməli, cəhənnəmlə qorxutmalı, dövlət, arvad məsələsini şəriətə görə qaydaya salmalı, xalqı divin əlindən qurtarmalı, Süruşla[238] dostlaşdırmalı, atəşgədə və bütxanələri dağıtmalı, onun dini bütün dünyaya yayılmalı, qiyamətə qədər davam etməli, yer, göy onun peyğəmbərliyinə şahidlik etməlidir. İndi Məzdəkin başına düşmüşdür ki, bu adam guya onun özüdür. Lakin bu adam əvvəla Əcəm olmamalıdır. Məzdək əcəmdir, bundan əlavə camaatı atəşpərəstlikdən saqındırmalı, Zərdüştü inkar etməlidir. Məzdək həm Zərdüştü, həm də atəşpərəstliyi təbliğ edir; o icazə verməyəcək, bir adam başqa bir adamın arvadının həndəvərinə dolansın, ya başqasının malını zorla alsın, o oğurluq üstə əl kəsdirəcək, Məzdək isə xalqın malını, arvadını halal buyurmuşdur; o peyğəmbərin fərmanı göydən məlaikə ilə göndəriləcəkdir; Məzdəkinki isə oddan gəlir. Məzdəkin məzhəbinin heç əsli yoxdur, mən sabah onu şahın qarşısında rüsvay edəcəyəm, o əyri yoldadır. O istəyir şahlıq sənin əlindən çıxsın, xəzinələrin tələf olsun, səni ən zavallı bir adam kökünə salsın, hakimiyyəti öz əlinə alsın."Möbidin sözü Qubada xoş gəldi, ağlına batdı, ürəyinə yatdı. Sabahısı gün Qubad barigaha gəldi. Məzdək də gəlib öz kürsüsündə oturdu. Nuşirəvan taxtın qarşısında durdu. Möbidlər, böyüklər yığışdılar, bu vaxt Nuşirəvanın da möbidi gəldi, Məzdəkə dedi: "Əvvəl sən sual verirsən, yoxsa mən?" Məzdək dedi: "Mən soruşum, sən cavab ver."[239] Möbid dedi: "Onda sən düş yerə, mən qalxım sən oturduğun yerə." Məzdək pərt oldu. Dedi: "Məni bura şah oturtmuşdur, yaxşı sən soruş, mən cavab verim." Möbid dedi: "Sən malı halal edib hamını ümumiləşdirirsən, de görüm, karvansaraları, körpüləri, atəşgədələri tikdirib xeyrat verərkən bunu o dünya xatirinə etmirlərmi?" Dedi: "Bəli". Dedi: "Malı birləşdirib hamıya halal etsən,



downloaded from KitabYurdu.org

ehsanın savabı kimin olar?" Məzdək cavab verə bilmədi. Möbid dedi: "Arvadları hamıya halal edibsən, iyirmi kişi bir qadınla əlaqədə olsa və qadın hamilə olub uşaq doğsa atası kim olar?!" Möbid dedi: "Bu hökmdar ki, burada oturubdur, özü şahdır, Firuz şahın oğludur, şahlıq ona atasından miras qalmışdır, atasına da öz atasından. On adam şahın arvadı ilə əlaqədə olsa, oğlan doğsa, o oğlan kimin nəslindən hesab edilər? Şahın nəsli kəsilər. Elə ki, nəsil kəsildi, şahlığın da kökü kəsilər. Böyüklük və kiçiklik dövlət və yoxsulluğa bağlıdır. Adam yoxsul olanda çarəsizlikdən gedib bir dövlətlinin yanında xidmətçi işləyir, ya muzdurluq edir. Malı ümumiləşdirəndə böyüklük-kiçiklik aradan qalxar, şahlıq məhv olar. Sən əcəm xanədanının şahlığını məhv elmək üçün gəlibsən."

Məzdək heç nə demədi, susmağında davam etdi. Qubad dedi: "Cavabım ver." Dedi: "Cavabı odur ki, buyurasan bu saat boynunu vursunlar." Qubad dedi: "Səbəbsiz heç kəsin boynunu vurmaq olmaz." Dedi: "Onda oddan soruşaq görək nə deyir, mən özümdən söz demirəm."

Nuşirəvanın öldürülə biləcəyindən kədərlənən camaat onun xilas olduğunu gördükdə çox sevindi. Möbidi öldürməyib Məzdəkin sözünü yerə saldığı üçün Məzdəkin Qubada acığı tutdu və öz-özünə dedi: "Bu gün canımı qurtarsam, mənim rəiyyət və qoşun içərisində çoxlu silahım var, sabah bir tədbir görüb, Qubadı aradan qaldıraram."

Sonra Nuşirəvan və bütün müxaliflərə dedi: "Sabah hamınız atəşgədəyə gəliniz, görək od nə deyir." Bununla da hamı dağılışdı. Gecə olcaq Məzdək öz rahiblərindən və həməqidələrindən ikisini çağırıb onlara qızıl bağışladı, vədə verib dedi: "Sizi sərkərdəliyə çatdıraram." And içdirdi ki, bu sözü heç kəsə deməsinlər. Sonra onlara iki qılınc verib dedi: "Sabah Qubad böyüklər və möbidlərlə atəşgədəyə gəldikdə od Qubadın öldürülməsini əmr etsə, hər ikiniz o saat qılınclarınızı siyirib Qubadı öldürün, qorxmayın, heç kəs qılıncla atəşgədəyə gəlməz." Dedilər: "Əmrə tabeyik."

Sabahısı gün böyüklər və möbidlər atəşgədəyə yollandılar. Qubad getdi. Möbid Nuşirəvana dedi: "Əmr et, yaxın adamlarından on nəfəri paltar altında qılınc gizlədib səninlə atəşgədəyə gəlsin."

Məzdək həmişə atəşgədəyə gedərkən gizlin yoldan bacada olana nə isə öyrədərdi. Sonra özü də atəşgədəyə gəlib möbidə dedi: "Sən oddan soruş gör nə deyir." Möbid soruşdu, oddan cavab çıxmadı. Sonra Məzdək dedi: "Ay od, bizim aramızda hakim ol, mənim düzlüyümə hökm ver!" Oddan səs gəldi: "Mən dünəndən bəri çox zəifləmişəm, əvvəlcə Qubadın ürək və ciyərini mənə verin ki, gücə gəlim, deyim ki, nə etmək lazımdır.

O dünyada əbədi rahatlıq tapmaq üçün Məzdək sizə rəhbər göndərilmişdir."

Sonra Məzdək dedi: "O da güc verin!"

O iki adam qılıncını siyirib Qubada hücum etdi. Möbid Nuşirəvana dedi:"Atanı xilas et." On nəfər qılınclarını çəkib o iki nəfərin qabağını kəsdi və



downloaded from KitabYurdu.org

Qubadı öldürməyə qoymadılar. Məzdək isə elə hey qışqırırdı: "Od allahın əmri ilə deyir!" Camaat iki dəstəyə bölündü.

Bir dəstə deyirdi: "Qubadı ya diri, ya ölü oda atmaq lazımdır." O biri dəstə deyirdi: "Bir az gözləmək lazımdır."

Günün axırında dağılışmalı oldular.

Qubad dedi: "Mən nə günah etmişəm ki, od ruzi olaraq məni istəyir?! Hər halda, bu dünyada odda yanmaq, o dünyada odda yanmaqdan yaxşıdır." Möbid ikinci dəfə Qubadla xəlvəti görüş istədi. Keçmiş möbidlərdən, şahlardan, söhbət saldı, hərəsi haqda bir misal gətirib Məzdəkin peyğəmbər deyil şah səllənətinə düşmən olduğunu sübut üçün dəlil göstərməyə başladı. Dedi: "Əvvəl Nuşirəvanı öldürmək istədi, baş tutmadıqda sənə əl atdı. Mən tədbir görməsəydim, bu gün səni məhv etmişdi. Sən nə üçün ona inanırsan? Ona görə ki, oddan səs gəlir?! Mən bu kələyin üstünü açmaq üçün tədbir görərəm, şaha sübut edərəm ki, od heç kəslə danışmaz."

Axırda şahı elə inandırdı ki, o tutduğu işdən peşman oldu. Möbid dedi: "Sən Nuşirəvana uşaq gözü ilə baxma. O bütün dünyanı idarə edə bilər. Nə məsləhət görsə, elə də et. Ölkənin sizin xanədanın əlindən çıxmasını istəmirsənsə, ürəyinin sirrini heç vaxt Məzdəkə vermə."

Sonra möbid Nuşirəvana dedi: "Çalış Məzdəkin xidmətçilərindən birini ələ gətir, onu mal ilə şirnikləndirib od məsələsini aydınlaşdırsın, birdəfəlik atanın ürəyi şəkk-şübhədən qurtarsın."

Nuşirəvan bir adam ələ gətirdi, o da gedib bir rahiblə dostluğa başladı, götürüb bir yol ilə onu Nuşirəvanın yanına gətirdi. Nuşirəvan rahibi xəlvətə çəkdi, qabağına min dinar qoyub dedi: "Sən bundan sonra mənim dostum və qardaşımsan, nə qədər yaxşılıq mümkünsə, hamısını sənin haqqında edəcəyəm. İndi səndən bir şey soruşacağam, düzünü desən bu min dinarı sənə bağışlayıb öz yaxın adamlarımdan edəcəyəm, yüksək dərəcəyə qaldıracağam, yalan danışsan başını bədənindən ayıracağam."

Kişi qorxub dedi: "Düzünü desəm, indi dediklərinə əməl edəcəksən?" Dedi: "Edəcəyəm, özü də artıqlamasilə." Sonra Nuşirəvan soruşdu: "De görüm Məzdək nə kələk qurmuşdur ki, od onunla danışır?"

Kişi dedi: "Desəm sirri gizli saxlamağı bacararsanmı?" Dedi: "Atəşgədənin ətrafında bir yer var, onun ətrafına divar çəkilmişdir, odun ortasında isə çox xırda bir baca düzəldilmişdir. Hər dəfə ora bir adam göndərib öyrədir ki, ağzını odun altında o bacaya qoyub Məzdək nə istərsə onu desin. Eşidənlər də elə bilir ki, oddan səs gəlir."

Nuşirəvan bu sözdən çox sevindi, bildi ki, düz deyir, o, min dinarı ona bağışladı.

Gecə olcaq atasının yanına apardı, o da əhvalatı olduğu kimi danışdı. Qubad Məzdəkin cəsarətinə və hiyləgərliyinə təəccüb etdi. Sonra birdəfəlik ürəyi şəkk-şübhədən azad oldu. Bir adam göndərib möbidi çağırtdırdı, onu təriflədi,



downloaded from KitabYurdu.org

afərin dedi, sonra əhvalatı danışdı. Möbid dedi: "Mən şaha demişdim ki, bu adam fırıldaqçıdır." Qubad dedi: "İndi məlum oldu, onu necə öldürmək lazımdır?" Möbid dedi: "O sənin peşiman olduğunu bilməməlidir. Bir də məclis düzəlt, qoy mən onunla mübahisə edim, axırda aciz qaldığımı deyim, təslim olduğumu boynuma alım, sonra öz yerimə qayıdım. Ondan sonra Ənuşirəvan nə məsləhət görsə, onu da etmək lazımdır ki, bu işə son qoyulsun."

Bir neçə gündən sonra Qubad böyükləri toplayıb möbidləri çağırdı və əmr etdi ki, Parsdan gəlmiş möbidlə bir olsunlar.

Sabahısı hamısı hazır oldıı. Qubad taxta oturdu. Məzdək kürsüyə əyləşdi. Möbidlərin hər birisi danışmağa başladı. Parslı möbid dedi: "Odun danışması mənə çox təəccüblü göründü."

Məzdək dedi: "Qüdrətin sayəsində bu təəccüblü deyildir. Bilmirsənmi, Həzrət Musa ə.s. əsasını əjdahaya çevirmiş, daş parçasından on iki bulaq axıtmış və allaha demişdir: "İlahi, Fironu bütün qoşunu ilə suda batırıb boğ", allah da onu batırmış, hətta torpağı da Musanın ixtiyarına vermişdir. O: "Ey toıpaq, Qarunu kamına çək!" dedikdə Qarunu udmuş, İsa ə.s. ölüləri diriltmişdir?! Bunların hamısı insan qüvvəsindən xaricdir, allahın əmri ilə edilir. Məni də göndərəndə odu ixtiyarıma vermişdir. Mən də deyirəm, od nə deyirsə, hamısına əməl edin, yoxsa allahın qəzəbi tutub, hamınızı məhv edər."

Parsdan gəlmiş möbid ayağa qalxdı və dedi: "Allahın və odun adından danışan və oda hakim olan bir adama mənim heç bir sözüm ola bilməz, mən onun qarşısında acizəm, artıq cəsarətim çatmır, mən getdim, özünüz bilərsiniz."

Sonra möbid oradan çıxıb Parsa yola düşdü.

Qubad bargahdan durdu, möbidlər dağılışdılar. Məzdək sevindiyindən atəşgədəyə getdi ki, yeddi gün oda xidmət etsin.

Gecə olduqda Qubad Nuşirəvanı çağırıb dedi:" Möbid məni sənə həvalə edib getdi, dedi: "Bu məzhəbi aradan qaldırmağı Nuşirəvan bacarar. Bunun üçün nə etmək lazımdır?" Nuşirəvan dedi: "Əgər hökmdar bu işi mənim öhdəmə buraxıb, heç kəsə bir söz deməsə, mən elə bir tədbir görər, onu elə yerinə yetirərəm ki, Məzdək və Məzdəkçilərin kökünü dünyadan yox edərəm." Qubad dedi: "Mən bu barədə səndən başqa heç kəslə danışmayacağam." Nuşirəvan dedi: "Parsdan gəlmiş möbid getdi, Məzdəkin əshabələrinin kefı kökəldi, arxayınlaşdılar. İndi biz nə istəsək, onu da edə bilərik. Məzdəki öldürmək asandır. Lakin onun silahlı tərəfdarları çoxdur, onu öldürsək, adamları qaçıb ətrafa dağılar, adam toplayıb özlərinə möhkəm bir qala tapar, sonra bizə, bizim məmləkətə başağrısı olarlar. Biz elə bir tədbir görməliyik ki, hamısını birdən öldürək. bir nəfər də canını bizim qılnıcdan xilas edib diri qalmasın." Qubad dedi: "Sən bu barədə nə tədbir görmək fikrindəsən?" Nuşirəvan dedi: "Tədbir belədir. Məzdək atəşgədədən çıxıb, şahın xidmətinə gəldikdə şah onun dərəcəsini artırmalı, əvvəlkindən daha çox əzizləyib hörmət etməlidir. Xəlvətdə ona deməlidir ki, Nuşirəvan o möbid təslim olduqdan sonra xeyli yumşalmışdır, sənə beət etmək meyli var, dediklərindən peşiman



downloaded from KitabYurdu.org

olmuşdur."

Həftə başa çatdıqdan sonra Məzdək Qubadın yanına gəldi, onu çox böyük hörmətlə qarşıladı, əzizlədi, hədsiz-hüdudsuz təriflədi və Nuşirəvanın tapşırdığı kimi danışdı. Məzdək dedi: "Adamların çoxunun gözü-qulağı onun him-siminə bənddir, o, bu məzhəbə gəlsə, bütün dünya bu məzhəbə gələr. Mən özüm odu vasitəçi salmışdım ki, yozdan[240] onu bu məzhəbə gətirsin."

Qubad dedi: "Doğru eləmisən, o mənim vəliəhdimdir. Qoşun və rəiyyət onu sevir, o bu məzhəbə gəlsə, daha heç kəsin bəhanəsi qalmaz; mən onun üçün daşdan minarə tikdirib orada Gəştasibin [241] Zərdüşt üçün düzəltdiyi kimi elə bir qızıl qüllə düzəltdirəcəyəm ki, günəşdən də parlaq olsun."

Məzdək dedi: "Sən nəsihət et, mən dua, yəqinimdir ki. allah qəbul edər."

Nə olmuşdusa gəlib hamısını gecə Nuşirəvana danışdı. Nuşirəvan gülüb dedi: "Həftə başa çatdıqda şah Məzdəki çağırıb deməlidir ki, Nuşirəvan dünən gecə yuxu görüb qorxmuş, səhər tezdən yanıma gəlib belə demişdir: "Gördüm böyük bir alov məni bürüyür, mən sığınacaq bir yer axtarırdım. Son dərəcə gözəl bir adam mənim qabağıma çıxdı. Mən ondan soruşdum: "Bu od məndən nə istəyir?" Dedi: "Bu odun sənə qəzəbi tutmuşdur, sən onu yalançı adlandırıbsan." Dedim:"Sən hardan bilirsən?" Dedi: "Hər şeydən xəbəri vardır." Yuxudan ayıldım. İndi Nuşirəvan atəşgədəyə getməyə hazırlaşır; müşk, ənbər, ud yandırmaq, üç gün oda xidmət, Yəzdana sitayiş etmək fikirindədir."

Qubad Məzdəkə belə dedi. Nuşirəvan elə etdi, Məzdəkin kefi yaman kökəldi.

Bu əhvalatdan bir həftə sonra Nuşirəvan atasına dedi: "Məzdəkə de ki, Nuşirəvan mənə etiraf etmişdir, bu məzhəbin doğru olduğu ona sübut olunmuşdur, Məzdəkin Yəzdan tərəfindən göndərildiyinə şübhəsi yoxdur, lakin deyir, adamların çoxu bu məzhəbin əleyhinədir, qorxuram xüruc edib zorla ölkəni bizim əlimizdən alsınlar. Kaş bu məzhəbi qəbul etmiş adamların sayını, kimlər olduqlarını biləydim. Gücləri varsa, özləri çoxsa, mən də qəbul edərəm, güclənib çoxalsınlar, nə lazımsa, onlara verə bilərəm, silah, hərbi sursatla təmin edərəm, elə ki, tam qüvvətləndilər, bu məzhəbi açıq təbliğ edib zorla xalqın boynuna qoya bilərik. Məzdək dedi: "Bizim sayımız çoxdur." Sən deyərsən: "Siyahısını tut, elə et ki, bir adam da yaddan çıxmasın, mən hamısını tanımalıyam."

Məzdək deyilən kimi edib siyahını Qubadın yanına gətirdi. Şəhərli, qoşunlu on iki min adamın adı var idi. Qubad dedi: "Mən bu gecə Nuşirəvanı çağırıb siyahını ona göstərərəm, məzhəbə gəlsə, şərtləşək, sənə belə bildirərəm: əmr edərəm təbil vurarlar, şeypur çalarlar. Elə hay-küy qopardarlar ki, sən öz sarayında olsan belə, şeypur və təbil səsini eşidib Nuşirəvanın dinə gəldiyini bilərsən."

Məzdək evinə qayıtdıqdan, gecə çatdıqdan sonra Qubad Nuşirəvanı çağırıb dedi: "Onunla belə şərtləşmişik."

Nuşirəvan dedi: "Çox gözəl şərt qoyubsan. Əmr et ki, təbil vursunlar.



downloaded from KitabYurdu.org

Sabah Məzdəki görcək deyərsən: "Nuşirəvan sənə iman gətirdi, çünki adamların siyahısını öz gözü ilə gördü. Beş min olsaydı, qənaətləndirməzdi, indi ki, on iki min nəfərdir, bütün dünya bizim düşmənimiz olsa da, indi ki, üçümüz birləşdik, bizə zaval yoxdur."

Gecədən bir müddət keçmiş Məzdək təbil və şeypur səsi eşitdi, çox sevindi, dedi: "Nuşirəvan imana gəldi."

Sabahısı Məzdək bargaha gəldi. Nuşirəvan necə demişdisə, Qubad da onları Məzdəkə dedi. Məzdək şad oldu. Bargahdan qayıtdıqdan sonra Qubad gizlicə Məzdəki yanına çağırdı, Nuşirəvan da gəldi, Məzdəkin qabağına qızıl, daş-qaş və başqa nadir şeylər qoydu, bəxşişlər verdi, keçmişlər üçün üzr istədi. Sonra müxtəlif tədbirlər haqqında söhbət açdılar, axırda Nuşirəvan atasına dedi: "Sən bu tayfanın hökmdarı, Məzdək allahın peyğəmbəridir, bu tayfanın sərkərdəliyini də mənə ver, elə edərəm, dünyada bu məzhəbə gəlməmiş bir adam belə qalmaz. "Dedi: "Əmr səninkidir." Nuşirəvan dedi: "İndi məsləhət belədir ki, Məzdək ona beət etmiş şəhər və qəsəbələrə adam göndərməli, xəbər verməlidir ki, bu gündən başlayaraq üç aya qədər, yaxından-uzaqdan filan həftənin filan günündə bizim saraya toplansınlar. Biz onları silahlandırıb yaraqlandırmaq haqqında tədbir görək. Bizim nə ilə məşğul olduğumuzu heç kəs bilməməlidir. Vəd edilmiş gün çatdıqda camaatın qabağına süfrə açılmalıdır ki, çörək yedikdən sonra başqa saraya gedib şərab məclisində otursunlar. Hərəsi yeddi qədəh şərab içdikdən sonra, əlli-əlli, iyirmi-iyirmi mənim paltarlarımdan alıb geysinlər, atlanıb yaraqlansınlar, hamısı xələt alsınlar. Sonra hamımız birdən, hazır halda xüruc edib, məzhəbi aşkara çıxaraq, dinə gələnlərə aman verək, gəlməyənləri qılıncdan keçirək."

Qubad və Məzdək dedilər: "Bu düz yoldur." Belə razılığa gəldikdən sonra qalxıb getdilər.

Məzdək hər tərəfə məktub göndərdi, yaxın və uzağa xəbər yolladı ki, filan ayın filan günündə hamınız xidmətə gəlməlisiniz. Hamınıza xələt, silah, at, yaraq veriləcəkdir, artıq bizim arzumuza çatmaq vaxtımız yetişmişdir, başçımız şahın özü olacaqdır.

Müəyyən edilmiş vaxtda on iki min adamın hamısı gəlib şah sarayına toplandı, gördülər elə bir süfrə açılıbdır ki, heç kəs onun mislini görməmişdir.

Qubad taxta oturdu, Məzdək kürsüyə əyləşdi, Nuşirəvan kəmər bağlayıb ayaq üstə durmuşdu. Bununla göstərmək istəyirdi ki, "süfrə açan mənəm". Məzdəkin sevincinin hüdudu yox idi.

Nuşirəvan hərəni bir süfrənin başında oturtdu, hamıya yer elədi. Çörək yedikdən sonra qalxıb o biri saraya keçdilər. Elə bir şərab məclisi düzəlmişdi ki, ömürlərində görməmişdilər.

Qubad taxta oturdu, Məzdək kürsüyə əyləşdi, qalanlar da qayda ilə oturdular. Mütriblər çalmağa, xanəndələr gözəl havalar oxumağa başladılar. Saqilər şərab gətirdilər, məclis qızışdı. Bir neçə qədəh boşaldıqdan sonra iki yüzə qədər qulam və fərraş əllərində ipək və zərbafta bağlamalar gəlib məclisin



downloaded from KitabYurdu.org

qarşısında durdular. Bir az keçdikdən sonra Ənuşirəvan dedi: "Paltarları o biri saraya aparın, bura tünlükdür. İyirmi-iyirmi, otuz-otuz ora gedib xələt geysinlər, orada qalsınlar. Elə ki, hamısı geyib qurtardı, o zaman şah və Məzdək gəlib onlara tamaşa edər, onları nəzərdən keçirərlər, sonra qapını açıb silah paylayarlar."

Nuşirəvan əvvəldən kəndə bir adam göndərib üç yüz biyar adam istəmişdi ki, bel və külünglə gəlib bağ-bağatı təmizləsinlər.

Bu adamlar gəlcək onlan bir meydana yığıb darvazalarını möhkəm bağladı və onlara dedi: "İstəyirəm bu gün, bu gecə, bu meydanda bir-iki gəz dərinliyində çala qazasız, torpağını da yanında saxlayasınız." Qapıçılara əmr etdi, çalalar hazır olduqda hamısını tutub saxlasınlar, heç kəsi kənara buraxmasınlar.

Gecə dörd yüz adamı silahlandırıb, meydandakı sarayda gizlətmiş və onlara tapşırmışdı: "Elə ki, məclisdən iyirmi, otuz nəfər göndərməyə başladım, siz onları götürüb meydana aparın, hamısını lüt eləyib torpağa basdırın." Paltarsaxlayanlar o saraya getcək qızıl-gümüşlə bəzədilmiş iki yüz yaraqlı at, qalxan, zərli kəmər və qılınc gətirdilər. Nuşirəvan dedi: "O biri saraya aparın!" Apardılar. Sonra iyirmi-iyirmi, otuz-otuz ayırıb o biri saraya yollayırdı. Oradan da meydana aparıb başı üstə torpağa basdırırdılar. Beləliklə bu üsulla hamısını məhv etdilər.

Bundan sonra Nuşirəvan atasının yanına gəldi, atasına və Məzdəkə dedi: "Hamısına xələt geyindirmişəm, meydanda bəzəkli halda durmuşlar. Qalxınız. Onlara tamaşaya gediniz, dünyada bundan daha gözəl bir mənzərəni heç kim görməmişdir."

Qubad və Məzdək qalxıb o biri saraya getdilər. Meydana gəlib diqqətlə baxdıqda meydanın havaya qalxmış ayaqlarla dolu olduğunu gördülər.

Nuşirəvan üzünü Məzdəkə çevirib dedi: "Qabaqda gedəni sən olan qoşunun xələti bundan yaxşı ola bilməz. Sən gəlmişdin ki, malımızı, canımızı məhv edib şahlığı bizim əlimizdən alasan?! Dayan, bu saat sənə də xələt verəcəyəm!"

Meydanın ortasında bir təpə düzəltdirmiş, onun ortasında bir quyu qazdırmışdı. Əmr etdi, Məzdəki başı üstə haman quyuda basdırıb, torpaqla doldurdular. Dedi: "Ey Məzdək, öz ümmətlərinə baxıb onlara tamaşa et!"

Sonra atasına dedi: "Müdriklərin tədbirini gördünmü? İndi məsləhət belədir ki, ordu və camaat sakitləşənə qədər sən bir az evdə oturasan, çünki bu fəsad sənin ağılsızlığının üzündən qalxmışdı."

Atasını evdə oturtdu. Əmr etdi, çala qazmağa gətirilmiş kəndliləri buraxsınlar. Meydanın darvazalarını açdılar ki, qoşun əhli, şəhər, kənd camaatı gəlib ona tamaşa etsinlər.

Nuşirəvan atasını zəncirlədi, böyüklərini çağırıb şahlıq taxtına oturdu, səxavət əlini, ədalət qapısını açdı.

Bu hekayət ondan yadigar qaldı ki, ağıl sahibləri oxuyub yadlarında saxlasınlar.



downloaded from KitabYurdu.org

*Qırx altıncı fəsil*

## GƏBR SUNBADIN NİŞABURDAN REYƏ-MÜSƏLMANLARA HÜCUMU VƏ ONUN FİTNƏSİ HAQQINDA

Ondan sonra Harun Ərrəşidin[242] dövrünə qədər bu tayfadan heç kəs baş qaldırmadı. Belə məlum oldu ki, Məzdəkin arvadı Fadənin qızı Xorrəmə, iki adamla Mədaindən qaçıb Rey yaxınlığına gəldi və camaatı ərinin məzhəbinə dəvət etməyə başladı. Gəbrlərdən bəziləri onun məzhəbini qəbul etdi. Camaat onlara "xorrəmdinlər" ləqəbi verdilər. Onlar xüruc etmək və bu dini aşkar təbliğ etmək üçün münasib gün gözləyir, müvafiq fürsət axtarırdılar.

Peyğəmbər ə s. hicrətindən yüz otuz il keçdikdən sonra Əbu Cəfər Əlmənsur Bağdad şəhərində dəvət sahibi ləqəbli Əbu Müslimi öldürdükdə Nişabur şəhərinin rəisi Sunbad bir gəbr idi. Onun qədimdən Əbu Müslimlə dostluğu var idi, Əbu Müslim onu irəli çəkmişdi. Əbu Müslim öldürüldükdən sonra o xüruc etdi. Nişaburdan Reyə gəldi. Təbəristan gəbrlərini köməyə çağırdı. O, Kuhistan camaatının əksəriyyətinin rafizi, müşəbbehi[243] məzdəki olduğunu bilirdi, açıqdan təbliğat aparmaq istəyirdi. Əvvəlcə Mənsur tərəfindən Reyə amil təyin edilmiş Obeydə Hənifəni [244], öldürdü, Əbu Müslimdən qalmış xəzinələri ələ keçirdi. Elə ki güclændi, Əbu Müslimin intiqamını almağı tələb etdi, Əbu Müslim tərəfindən vəkil edildiyini irəli sürdü. İraq və Xorasan əhalisinə deyirdi: "Əbu Müslimi öldürməmişlər, Əbu Mənsur onu öldürmək istərkən, o allah-taalanın adını çəkmiş, ağ göyərçinə dönmüş, uçub getmişdir. İndi misdən qayrılmış bir qalada Mehdi[245] və Məzdəklə bir yerdə oturmuşlar. Hər üçü zühur edəcək, Əbu Müslim əvvəl gələcək, Məzdək onun vəziri olacaqdır. Mənə məktub göndərmişdir.,,

Rafizilər Mehdinin, Məzdəkin adını eşitdikdə onun başına çoxlu adam toplandı. Dəstəsi get-gedə böyüdü, axırda yüz min adam onun başına toplaşdı. Gəbrlərlə xəlvət söhbət etdikdə deyərdi: "Ərəblərin dövlətinin axırı çatıbdır. Mən bunu sasani tayfalarının kitablarından tapmışam. Kəbəni viran qoymayınca geri qayıdan deyiləm. Onu günəşin əvəzinə tikiblər, biz də qədimdə olduğu kimi, yenə də günəşi özümüzə qiblə edərik."

Xürrəmdinlərə deyirdi: "Məzdək şiə idi, mən sizə əmr edirəm, şiələrlə əlbir olunuz, Əbu Müslimin qanını alınız.,,

Hər üç dəstənin könlünü alardı. O, Mənsurun bir neçə sərkərdələrini öldürdü, ordular məğlub etdi, yeddi ildən sonra Cümhur İcli[246] davaya gəlməli oldu. Cümhur Xuzistan fars qoşunlarını toplayıb İsfahana gəldi, İsfahan könüllülərini onlara qoşub Reyə yollandı. Üç gün Sunbadla bərk vuruşdu. Dördüncü gün Cumhur Sunbadı öldürdü. O tayfa dağıldı, hərə öz evinə qayıtdı. Xorrəmdin və Məzdək məzhəbi qarışdı. Onlar gizlində sözü bir yerə qoyur, hər gün bu məzhəbləri təkmilləşdirir və bir-birinə daha çox yaxınlaşdırırdılar.

Cumhur Sunbadı öldürdükdən sonra Reyə girdi, gəbrlərdən əlinə keçənin



downloaded from KitabYurdu.org

hamısını öldürdü, mallarını qarət etdi, arvad-uşaqlarını əsir edib, qul apardı.

*Qırx yeddinci fəsil*

## KUHİSTAN, İRAQ VƏ XORASANDA QƏRMƏTİ VƏ BATİNİLƏRİN ƏMƏLƏ GƏLMƏSİ HAQQINDA

Qərməti məzhəbinin səbəbi bu idi: "Cəfər əs-Sadiqin (allah ondan razı olsun) İsmayıl adlı bir oğlu var idi. İsmayıl atasından qabaq öldü. İsmayılın bir oğlu qaldı, adı Məhəmməd idi. Bu Məhəmməd Harun ər-Rəşidin dövrünə qədər yaşamışdı. Zübeyrilərdən[247] biri şayiə yaydı ki, Cəfər əs-Sadiq (allah ondan razı olsun) xüruc eşqinə düşmüşdür, gizlində təbliğat aparır, xilafəti ələ keçirmək arzusundadır.

Rəşid Cəfəri Mədinədən Bağdada gətirdi, həbs etdi, ondan qorxurdu. Məhəmmədin hicazlı bir qulamı var idi, adı Mübarək idi. O “müqərmət" deyilən çox rizə bir xətlə yazardı, buna görə onu "qərmətuye,,- deyə çağırardılar, sonralar bu ləqəblə məşhur oldu. Əhvazlı bir kişi bu Mübarək ilə dostluq edərdi, onun adı Əbdullah bin Meymun Qəddah idi. Bir gün təklikdə oturub söhbət edəndə dedi: "Ay Məhəmməd, bu ağa Məhəmməd bin İsmayıl mənim dostum idi, sirrini məndən gizlətməzdi. “Mübarəki maraq götürdü, o sirri bilmək həvəsinə düşdü. Əbdullah bin Meymun Mübarəkə and içdirdi ki, onun deyəcəklərini inandığı yaxın adamlardan başqa heç kəsə deməsin. Sonra ona qarmaqarışıq bir dildə imamlar, təbiət alimləri, filosoflar, peyğəmbər, məlaikə, gecə-gündüz, yer-göy haqqında dolaşıq ibarələr deyib ayrıldı. Mübarək Kufəyə, Əbdullah Kuhistana getdi.

Bu zaman Musa bin Cəfər (allah ondan razı olsun) həbs edildiyinə görə şiələr bərk narazı idilər. Mübarək gizlində təbliğat aparır, dinə dəvət edirdi. Nəhayət, onlar Kufənin ətrafına yayılmağa başladılar. Onun dəvətini qəbul edənlər sünnilər idilər, bəzilərini "mübarikilər", bəzilərini isə "qərmətilər" adlandırmağa başladılar.

Əbdullah bin Meymun isə Kuhistanda camaatı bu məzhəbə dəvət edirdi, o, gözbağlayıcılıqda çox mahir bir adam idi. Məhəmməd Zəkəriyyə[248] özünün "Məxariqül-Ənbiya,,[249] kitabında onun adını çəkmişdir. Sonra Xələf adlı birisini özünə canişin təyin edib ona dedi: "Sən Reyə get, çünki Rey, Abe, Qum Kəşan, Tətəristan və Kuhistan əhalisi rafizidirlər, şiəliyi təbliğ edirlər, sənin tərəfinə keçərlər." Özü qorxusundan Bəsrəyə qaçdı.

Xələf Reyə gəldi, Nişabuye nahiyəsində Qolbon adlr[250] bir kənd var, orada özünə məskən saldı. Orada məşhur bir dərzi var idi, dərzilik edərdi, bir müddət burada yaşadı, sirrini heç kəsə deyə bilmirdi. Min əziyyətdən sonra bir adamı ələ keçirib öz məzhəbini ona öyrətdi, elə qələmə verdi ki, "bu peyğəmbər övladı məzhəblərindəndir. Mehdi zühur edənə qədər gizli saxlanmalıdır. Onun zühuru isə bu yaxındadır, o zaman açıq demək olar. İndi hələlik öyrənib yadda



downloaded from KitabYurdu.org

saxlamaq kifayətdir. Mehdi zühur edəndə bundan xəbəriniz olsa, yaxşıdır."

O kəndin adamları bu məzhəbi öyrənməyə başladılar.

Günlərin birində Qolbon kəndinin böyüyü kəndin kənarından keçərkən, xaraba bir məsciddən səs gəldiyini eşitdi, ora yaxınlaşıb qulaq asmağa başladı. Xələf camaata məzhəb dərsi verirdi.

Kəndə qayıtdıqda dedi:"Ay avam camaat, onun sözünə aldanmayın, onun başına toplanmayın. O sözləri ki, mən ondan eşitmişəm, qorxuram bu kənd xaraba qala".

Xələfın dili pəltək idi, səlis danışmağı bacarmırdı, cavab verməkdə aciz idi.

Xələf kələyinin üstünün açıldığını gördükdə o kənddən qaçıb Reyə getdi, orada da öldü. O haman kənddə bəzilərini öz məzhəbinə gətirə bilmişdi. Onun oğlu Əhməd ibn Xələf atasının yerində oturub onun dinini təbliğ etməyə başladı. Qiyas adlı birisi bu Əhməd bin Xələfin yerinə keçdi. Qiyas sərf-nəhv qanunlarını gözəl bilirdi. Ona görə Əhməd ibn Xələf onu özünə canişin təyin etdi, təbliği ona tapşırdı. Sonra bu Qiyas onların məzhəbinin əsasını Quran ayələri, peyğəmbər ə.s. və s. hədisləri, ərəb məsələləri, hekayət və rəvayətləri ilə bəzədi. Bir kitab yazdı, adını "Kitab əl-Bəyan" qoydu. Burada namaz, oruc, təharət, zəkat, şəriətə aid sözlərin mənası izah edilirdi. Deyildiyi kimi, Qiyası ona görə canişin təyin etmiş, təbliği ona tapşırmışdı ki, o nəhvi və dili yaxşı bilirdi. O, sünnilərlə mübahisə edir, camaata məzhəb qaydalarını öyrədirdi. Ətrafa xəbər yayıldıqda ki, xələfi dinini təbliğ edən, mübahisə etməyi bacaran, yaxşı əhvalatlar danışan, xalqa məzhəb qaydalarını öyrədən Qiyas adlı birisi meydana çıxıb, şəhərin əhalisi axışıb onun yanına getməyə və bu məzhəbi öyrənməyə başladılar. Əbdullah Zəfəranı bu işdən xəbər tutduqda camaat ikinci dəfə onlara qarşı qəsd təşkil etməyə başladı. Bu məzhəbi qəbul etmiş adamları bəziləri xələfilər, bəzilərini batinilər adlandırırdılar. Hicrətdən iki yüz il keçdikdə bu məzhəb ifşa edildi. Haman ildə Şamda[251] Sahibi Cəbbal[252] adlı bir kişi xüruc edib Şamın böyük bir hissəsini ələ keçirdi. Qiyas qaçıb Xorasana getdi, Mərvrudda məskən saldı, əmir Hüseyn ƏIi Mərvəzini dinə dəvət etdi, o dinə gəldi. Xorasan, xüsusilə Taliqan, Meymənə, Herat, Ğərcistan, Gur bu Əmir Hüseynin hakimiyyəti altında idilər. Əmir Hüseyn bu məzhəbi qəbul etsək, bu ölkələrdə olanların hamısını bu dinə gəlməyə məcbur etdi. Sonra Qiyas bir adamı Mərvrudda öz yerinə qoyub, təbliği ona tapşırdı, özü isə yenidən Reyə gedib camaatı dəvətə başladı. Tazi[253] şerini ərəb hadisələrini gözəl bilən Bu-Hatəm adı altında şöhrət tapmış, Nişabur nahiyəsindən olan birisini özünə canişin təyin etmiş, təbliği ona tapşırmışdı. Xorasana gedərkən vəd etmişdi ki, Mehdi bu yaxın zamanlarda filan ildə zühur edəcəkdir. Qərmətilər haman vədin intizarını çəkirdilər. Sünnilər Qiyasın yenidən qayıtdığını və camaatı təbliğ ilə məşğul olduğundan xəbər tutdular, bu tərəfdən də Mehdinin zühurunun vaxtı başa çatdı, Qiyas yalançı oldu, şiələr ondan üz döndərməyə başladılar, ona eyiblər tutur, əleyhinə gedirdilər. Qiyas qaçdı, heç kəs



downloaded from KitabYurdu.org

onu tapa bilmədi.

Ondan sonra camaat Rey şəhərində xələfin övladlarından birinin başına toplanmağa başladı, onunla günlərini bir yerdə keçirirdilər. Əcəli çatdıqda oğlunu öz yerində qoydu. Onun adı Bu-Cəfər Kəbir kimi şöhrət tapmışdı. Onun başına hava gəldikdə. Bu-Hatəmi Batini ona kömək etməyə başladı. O sağalanda artıq rəyasət Batinin əlində idi. O, Bu-Cəfəri heç yaxına da buraxmadı, rəyasət xələfzadələrin əlindən çıxdı.

Bu-Hatəm Təbəristan, İsfahan, Azərbaycan kimi yerlərə təbliğatçılar göndərib camaatı öz məzhəbinə dəvət etməyə başladı. Reyin əmiri Əhməd ibn Əli onun dəvətini qəbul etdi, batini oldu. İş elə gətirdi ki, deyləmilər Təbəristan Ələvilərinə qarşı xüruc etdilər və dedilər: "Siz yoldan azıbsınız, sübut etmək istəyirsiniz ki, guya elm bizim xanədanımıza məxsusdur. Bu qəbul olunmaz. Elm ümumidir. Əgər siz öyrədirsinizsə, deməli, bilirsiniz, başqası öyrətsə, o da bilən sayılar. Elm irsi ola bilməz. İzzət və cəlal sahibi olan allah peyğəmbər ə.s.-ı hamıya eyni göndərmişdir. Heç bir tayfaya üstünlük verməmişdir. İndi bizim hamımıza məlum oldu ki, siz hamınız yalançısınız."

Təbəristan ələvilərə kömək edirdi, ona da etiraz etdilər, dedilər ki, Bağdad, Xorasan şəhərlərindən fitva və məktub gətiriblər: "Sizin məzhəbiniz təmiz deyildir, siz allah, peyğəmbər deyən kimi etmirsiniz. Dağlı və peşə adamları olan biz, şəriət işindən az-maz baş çıxarırıq."

Qəzadan Bu-Hatəmi Batini də bu zaman Reydən Təbəristana gedib deyləmilərə qoşuldu.

Deyləmilərin başçısı Şərvin binvərdavəndi [254] idi. Onun yanına gedib onlarla əlbir oldu. Ələviləri pisləyir, onların dalınca qiybət edir, hey deyirdi: "Onlar etiqadı olmayan bədməzhəblərdir; bir də deyirdi: "Bu yaxın zamanlarda deyləmilər arasında bir imam zühur edəcəkdir, mən onun nə deyəcəyini, nə məzhəb gətirəcəyini bilirəm." Deyləmilər onun bu dediklərinə böyük həvəslə inanırdılar. Mərdavicin dövründə giləklər və deyləmilər yağışdan qaçıb yağmura düşdülər, hamısı azdılar, əyri yolla getdilər.

Bir müddət belə dolandıqdan sonra imamın zühuranu vəd etdiyi gün gəlib çatdı. Dedilər: "Bunun əsli yoxdur, bu qondarma məzhəbdir, Məzdək məzhəbidir!"

Dərhal ondan üz döndərib peyğəmbər ə.s övladları məzhəbinə qayıtdılar. Bu-Hatəmi öldürmək istədilər. Bu-Hatəm qaçdı və öldü. Onların işi axsamağa başladı, çox adam o məzhəbdən əl çəkib tövbə etdi. Bir müddət şiələr tərəddüd və iztirab içində yaşadılar, gizlində yığıncaqlar təşkil etdilər, nəhayət, məzhəb iki adamın öhdəsinə düşdü: biri Əbdullah Kövkəbi[255], o biri İshaq[256] idi ki, Reydə yaşayırdılar.



downloaded from KitabYurdu.org

*Qırx səkkizinci fəsil*

## XORASAN VƏ MAVƏRƏNNƏHRDƏ BATİNİLƏRİN XÜRUCU HAQQINDA

Xorasanda Qiyas tərəfindən batini elan edilmiş Hüseyn Əli Mərvəzi ölümün yaxınlaşdığmı hiss etdikdə bu vəzifəni Məhəmməd ibn Əhməd Nəxşəbiyə tapşırdı, onu özünə canişin təyin etdi. O Xorasan filosoflarından hesab edilirdi, mütəkkəlim [257]idi. Ona vəsiyyət etdi ki, yerində bir adam qoyub özü Ceyhundan[258] keçsin, Buxara və Səmərqəndə getsin, oranın əhalisini məzhəbə gətirsin, çalışsın ki, Xorasan əmiri bin Əhmədin xidmətində olan bəzi əyanlar da bu məzhəbi qəbul etsinlər.

Elə ki, Hüseyn Əli öldü, Məhəmməd Nəxşəbi onun yerində oturdu. Xorasan əhalisinin çoxunu dəvət etdi, qəbul etdilər. Onların içərisində Səvada oğlu [259] adlı bir adam var idi. Reydən qaçıb Xorasana Hüseyn Əlinin yanına gəlmişdi, batinilərin başçılarından biri idi. Bu Məhəmməd Nəxşəbi [260] onu Nərvənrudda canişin təyin edib özü sudan keçdi və Buxaraya gəldi. Orada işinin yaxşı getmədiyini gördükdə Nəxşəbə getdi, burada Əmir Xorasanın nədimi olan Bubəkr Nəxşəbini məzhəbə gətirdi. Bubəkr də xüsusi dəbiri və nədimlər arasında mövqeyi olan Baəşəsi məzhəbə gətirdi. Ənəşin bacısı əri Bu-Mənsur Cəğanini də bu məzhəbə dəvət etdilər, razılıq verdi. Aytaş xüsusi hacib idi, bunlarla dostluq edirdi, o da bu məzhəbi qəbul etdi. Sonra bunlar Nəxşəbiyə dedilər: "Sənin Nəxşəbidə qalmağına ehtiyac yoxdur. Qalx paytaxta, Buxaraya get, biz burada elə edərik ki, sənin işini göylərə qaldırarıq, böyük adamları bu məzhəbə gətirərik."

Qalxıb Buxaraya getdi. Bu adamla əlaqə saxlayır, böyüklərlə oturub-dururdu, onları məzhəbə dəvət edirdi. Sünniləri yoldan çıxarır və tədriclə məzhəbə dəvət edirdi. Sünniləri yoldan çıxarır və tədriclə şiəliyə gəlirirdi. Beləliklə, o, Buxara rəisini, sahibxəracı [261] dehqanları, bazar adamlarını bu məzhəbə gətirdi. Padşahın yaxın adamı, İlaqın [262], valisi Hüseyn Məliki və Əli Zərradı[263] bu məzhəbə gətirdi. Adlarını çəkdiyimizin çoxu böyüklər və şahın inanılmış adamları idi.

Elə ki ona beət gətirənlərin sayı çoxaldı, şahı da bu məzhəbə gətirmək fikrinə düşdü. Şahın yaxın adamlarını məcbur etdi ki, istər ayıqlıqda, istərsə məstlikdə onun sözlərini xeyirxahlıqla şaha desinlər.

Belə də dedilər, o qədər onun tərəfindən vəkillik etdilər ki, Nəsrdə onu görmək marağı əmələ gəldi. Sonra Məhəmməd Nəxşəbini Xorasan əmirinin yanına apardılar, onun alimliyini çox təriflədilər, Xorasan əmiri onu hörmətlə qəbul edib əzizlədi, yanında saxladı.

O, əmirə nəyi danışır, nəyi izah edirdisə, nədimlər o saat bir səslə "afərin" deyirdilər.

Gündən-günə Nəsr Əhməd onu daha çox əzizlədi. Axırda məzhəbini də



downloaded from KitabYurdu.org

qəbul etdi, o qədər aludə olmuşdu ki, necə deyirdisə, şah da elə edirdi.

Nəxşəbinin işi o qədər yaxşı gedirdi ki, öz məzhəbini açıq təbliğ etmək fikrinə düşdü.

Şahın qərmətliyi türklərin xoşuna gəlmədi. Sonra alimlər yığılıb şəhər və ordu başçılarının yanına getdilər və dedilər:

"Kömək ediniz, müsəlmanlıq əldən gedir." Başçılar dedilər: "Qayıdın gedin, hər şey düzələr."

Sabahısı gün gəlib şaha nə qədər dedilərsə, faydası olmadı. Hay-küy qalxdı. Başçılar sözü bir yerə qoyub baş süpəhsaların yanına getdilər və dedilər: "Biz kafir şah istəmirik, sən şahlığı ələ al, biz sənə tabeyik." Baş sərkərdələr bir tərəfdən din, o biri tərəfdən tamah xatirinə razı oldular və dedilər: "Bir yerdə oturub fikirləşmək lazımdır ki, şah xəbər tuta bilməsin." Böyük qoşun başçıları içərisində bir qoca var idi, ona Tolon oka[264] (əkə) deyərdilər. O dedi: "Bu işin çarəsi belədir. Sən sərkərdəsən, şaha de ki, böyüklər məndən qonaqlıq istəyirlər. Hər halda "vermə" deməyəcəkdir. Deyəcək imkanın varsa, ver." Onda sən deyərsən: "Məndə yemək-içmək tapılar, lakin bəzək-düzək, qızıl-gümüş, qab-qacaq, xalı-xalça yoxdur." O deyəcək:"Xəzinədən, şərabxanadan, fərraşxanadan nə lazımsa götür." Onda baş əyib deyərsən:"Qulunuz yalnız o şərtlə qoşuna qonaqlıq verər ki, yeyib-içdikdən sonra yaraqlanıb mənlə birlikdə kafirlərə qarşı Balasaquna[265] qəzavat davasına getdilər. Bu kafir türklər vilayəti zəbt ediblər, məzlumların ahı həddi-hüdudu keçmişdir. Qoy səndən şübhələnib bədgüman olmasın. Bundan sonra qonaqlıq verməyə hazırlaş. Orduya xəbər ver ki, filan günə vədiniz alınmışdır. Şahın xəzinəsində, şərabxanasında, fərraşxanasında qızıldan-gümüşdən nə varsa, hamısını öz sarayına apar. Elə ki, hamı sənin sarayına gəldi, yerin darlığını bəhanə edib qapını bağla, böyükləri isə şərbət içmək üçün hücrəyə dəvət elə. Orada bu məsələni aç, onlar ki, əsldirlər, sənin tərəfində olacaqlar, onlar ki, əsldirlər ürəkdə sənin tərəfində deyildirlər, hərəmizdən bir söz eşitdikdə yola gəlib bizimlə həmfikir olarlar, hamı and içib sənin şahlığına beət gətirəcəkdir. Hücrədən çıxıb, çörək yeyərik, oradan şərab məclisinə gedib hərəmiz üç-dörd piyalə mey içərik, qızıl-gümüş, xalça, yarağı bütün böyüklərə və ordu arasında paylayıb xaricə çıxar və gedib şahı taxtdan salarıq, şəhər və kəndləri gəzib, harada qərməti gördük öldürərik, səni taxta oturdarıq."

Sərkərdə dedi: "Bu yaxşı tədbirdir."

Sabahısı gün Nəsr Əhmədə qoşun böyüklərinin qonaqlıq istədiklərini və gününü təyin etməyi tələb eydiklərini dedi. Nəsr dedi: "Qonaqlıq vermək imkanın varsa, xəsislik etmə." Dedi: "Yemək, içmək imkanım vardır, lakin qab-qacaq, xalı-xalça çatmaz." Dedi: "Nə lazımsa, xəzinədən götür." Xəzinədə, şərabxanada qızıldan, gümüşdən, xalı-xalçadan nə varsa hamısını öz evinə göndərdi. Sonra elə bir qonaqlıq düzəltdi ki, heç kəs onun mislini o vaxt görməmişdi. Bütün ordu başçılarının öz köməkçiləri və dəstə başçıları ilə dəvət etmişdi. Onların hamısı toplandıqda sarayın qapısını bağlamağı əmr etdi. Böyükləri hücrəyə apardı, and



downloaded from KitabYurdu.org

içdilər, beət gətirdilər, hücrədən çıxıb süfrəyə oturdular.

Onlardan biri sıçrayıb sarayın damına çıxdı, qaçıb Nəsrin oğlu Nuha xəbər verdi ki, bu saat ordu başçıları nə etdilər.

Nuh çapa-çapa atasının sarayına getdi və dedi: "Nə oturmusan, eşitməmisən ki, ordu başçıları sərkərdəyə and içiblər, beət ediblər ki, çörək yeyib, üç piyalə şərab içdikdən sonra sənin xəzinəndən aparılan şeylərin hamısını paylasınlar, oradan çıxıb bizim saraya hücum etsinlər, səni, məni, kim əllərinə keçsə öldürsünlər?! Bu qonaqlıqdan məqsəd bizi məhv etməkdir." Nəsr Nuha dedi: "Bu işin çarəsi nədir?" Dedi:"Çarəsi odur ki, bu saat bir xidmətçi göndərəsən, nə qədər ki, onlar yemək-içməyə başlamayıb, sərkərdənin qulağına desin: Şah buyurur, bu gün böyük iş görübsən, misilsiz qonaqlıq hazırlatdırıbsan, lakin mənim daş-qaşla bəzədilmiş elə qab-qacağım var ki, tayı heç bir şahda yoxdur. Onlar xəzinədən ayrı yerdə saxlanılırdı. İndi tez gəlsən, nə qədər ki, qonaqlar şərab məclisinə getməyiblər, o qızıldan olan məclis yaraşığmı sənə verə bilərəm."

Mala tamahı düşəcək, mütləq gələcəkdir. Elə ki, bura gəldi, dərhal başını üzərik. Sonra deyərəm nə edərik."

Nəsr dərhal iki xidmətçi ilə haman xəbəri göndərdi. Camaat çörək yeməklə məşğul idi. Sərkərdə o adamlardan bir-ikisinə nə üçün çağrıldığını bildirdi. Dedilər: "Get onlan da gətir, bu gün hər şey bizim işimizə yarayar." Sərkərdə tələsik şahın sarayına getdi. O saat onu hücrəyə çağırdılar. Qulamlara əmr etdi, başını bədənindən ayırıb, torbaya saldılar. Nuh atasına dedi: "İndi dur, hər ikimiz onun sarayına gedək, torbanı da özümüzlə aparaq. Sən ordu başçıları qarşısında şahlıqdan bezar olduğunu de, məni vəliəhd təyin et, mən onların öhdəsindən gələrəm, şahlıq da bizim dudmanın əlində qalar. Bu ordunun hamısı bir fikirdə ola bilməz.,,

Hər ikisi ata minib, sərkərdənin sarayına getdilər. Böyüklər şahın oğlu ilə saray qapısından girdiklərini gördükdə qalxıb onlan qarşıladılar. Heç kəs məsələnin nə yerdə olduğunu bilmirdi. Düşünürdülər ki, bəlkə padşah bu qonaqlığı görmək həvəsinə düşmüşdür.

Nəsr Əhməd keçib öz yerində oturdu. Silahlı keşikçilər keçib onun arxasında durdular. Nuh atasının sag tərəfindən ayaq üstündə dayandı və dedi: "Siz oturunuz, çörəyinizi yeyiniz, qurtardıqdan sonra süfrəni yığınız." Çörəklərini yedilər, qurtardıqdan sonra sürtəni yığışdırdılar: Başları ayıldıqdan sonra Nəsr Əhməd dedi: "Biliniz ki, sizin tutduğunuz işdən mənim xəbərim vardır. Qəsdinizdən xəbər tutduqda ürəyim sizdən bərk incimişdir. İndi bundan sonra nə mən sizə arxayın ola bilərəm, nə siz mənə. Əgər mən yoldan azmış, pis məzhəb qəbul etmiş, günaha batmışam, buna görə sizin də sidqiniz məndən siyrilmişdir, Nuhun ki, bir eybi yoxdur?!" Dedilər: Yox." Dedi: "Belə isə bundan sonra sizin şahınız Nuhdur. Mən onu özümə vəliəhd təyin etmişəm. Mən düz yolda, əyri yolda olsam da, bundan sonra üzr və tövbə ilə məşğul olacaq, allah-taaladan bağışlanmağımı xahiş edəcəyəm. Sizi bu işə sövq edən cəzasına çatmışdır."



downloaded from KitabYurdu.org

Əmr etdi, başı torbadan çıxarıb onların qabağına atdılar. Nəsr taxtdan düşüb, ibadət üçün canamazın üstünə diz çökdü.

Nuh taxta çıxıb atasımn yerinə oturdu.

Qoşun başçıları vəziyyəli belə gördükdə, belə eşitdikdə, heç bir üzr tapıb bəhanə gətirə bilmədilər. Hamısı başlarını yerə qoyub Nuhıı təbrik etdilər, bütün günahı sərkərdənin boynuna yıxdılar və dedilər: "Biz hamımız sizin qulunuzuq, əmrinizə hazırıq." Dedi: "Bilin, siz yaxşıdan-pisdən nə edibsinizsə, hansı səhvlərə yol veribsinizsə, mən onların hamısının xeyirxahlıq məqsədi ilə edildiyini düşünürəm. Mən sizin arzularınızın hamısını yerinə yetirəcəyəm. Mənim sözümə qulaq asın, kefinizi davam etdirin."

Sonra əmr etdi, atasının ayağına kündə vurdular, dərhal apanb "Köhəndez"[266] qalasında zindana atdılar.

Dedi: "İndi durun, şərab məclisinə gedək."

Şərab məclisində üç piyalə şərab içdikdən sonra dedi: "Siz sözü bir yerə qoymuşdunuz ki, üç piyalə içdikdən sonra məclisdə nə varsa, hamısını talan edəsiniz. Talan etməyə icazə vermirəm, lakin sizə bağışlayıram. Götürün, öz aranızda bərabər bölüşdürün."

Hamısını götürüb çuvala doldurdular, ağzını möhürləyib inanılmış bir adama tapşırdılar.

Sonra dedi: "Sərkərdə pis fikrə düşmüşdü, cəzasına çatdı, atam yolunu azmışdı, mükafatını aldı. Siz belə qərara gəlmişdiniz ki, qonaqlıq qurtardıqdan sonra Balasaquna türk davasına gedəsiniz. Kafirlə din davası lap bizim qapımızdadır. İndi durun qəzavatla məşğul olaq, Mavərənnəhr, Xorasanda yoldan çıxıb atamın qəbul etdiyi bu məzhəbi kim götürübsə, onlarla vuruşmaq, harada dinini azmış, məzdəkiliyi qəbul etmiş bir adam görsək, hamısını öldürək. Onların mal-dövlətləri sizindir. Bu gün məclisdə qızıldan-gümüşdən nə vardısa, hamısını sizə verdim. Xəzinədə olanları da sizə verəcəyəm, çünki batinilərin malları talandan başqa heç nəyə yaramaz. Bu işdən başımız ayıldıqdan sonra türk kafirlər üzərinə gedirik. İndi istəyirəm ki, Məhəmməd Nəxşəbinin və atamın nədimlərinin başını vurasınız."

Sonra şəhərə, kəndə düşdülər, Nəxşəbinin nədimləri və bu məzhəbi təbliğ edənlərin hamısını öldürdülər. Haman gün bir əmiri böyük ordu ilə Mərvruda göndərdi. Səvadə oğlunu, bu məzhəbi qəbul edənlərin hamısını öldürdülər. Sonra dedi: "Ayıq olun, vəsiyyət edirəm, səhv salıb heç bir müsəlman öldürülməsin: səhv olaraq müsəlman öldürülsə, qisasını alacağam."

Bir neçə gecə-gündüz axtardılar, onları düz və səhv etmədən tapdılar, öldürdülər. Beləliklə, Xorasan və Mavərənnəhrdə bu məzhəbi təbliğ edənlərin kökü kəsildi, məzhəbin üstü örtüldü.

**Şam və Məğrubdə batinilərin xürucu haqqında fəsil.** Gəlib Şam rəvayətinə çatdıq. Əbdullah bin Meymunun oğlu Əhməd[267] atası Bəsrəyə köçdükdən sonra qalxıb Şama getdi, Şamdan Məğribə[268] tərəf yollandı. Orada çox



downloaded from KitabYurdu.org

yaxşı qarşılandı, dəvəti qəbul olundu. Yenə Şama qayıtdı. Səlmiyə[269] adlanan şəhərdə yaşamağa başladı. Orada bir oğlu oldu, adını Məhəmməd[270] ibn Əhməd qoydu. O öldükdə oğlu hələ kiçik idi. Qardaşı Səid onun yerində oturdu, Məğribə tərəf getdi, adını dəyişdirib, Əbdullah bin Hüseyn qoydu və öz əshabəsindən Əbdullah Möhtəsib[271] adlı birisini canişin təyin etdi. Sonra onu Bənuəğləb[272] qəbiləsi içərisində, onlarm yaşadığı yerə göndərdi ki, oradakı əhalini bu məzhəbə dəvət etsin.

Bənuəğləb qəbiləsi əsasən səhranişin idilər, çöldə yaşayırdılar. Bu məzhəbi qəbul edən çox oldu. Elə ki, sayı çoxaldı, Səid əmr etdi: "Bundan sonra işinizi qılıncla görünüz, sizin məzhəbiniz olmayanları öldürünüz!"

Belə də etdilər. Bənuəğləblərin çoxu onun başına toplandı. Şəhərlərə, qəsəbələrə hücuma başladılar, qarət etdilər, öldürdülər, çoxlu şəhər ələ keçirdilər, Məğribin əksər şəhərlərində şah oldular.

Deyləmli Əli Vəhsudan[273] adlı bir sünni var idi. Onu Şam ordusu ilə birlikdə qəflətən Bu-Əbdullah Möhtəsibin üzərinə göndərdi. Bu-Əbdullah qaçdı, Bənuəğləblilərdən çoxlu adam öldü, qalanları qaçmağa məcbur oldular.

Bu-Əbdullah bu şəhərə gedib oraya teyləsan[274] geydi və abidlər kimi yaşamağa başladı. Onu yaxşı yola verirdilər. Bu illərdə Şamda Zəkərəveh Sahibəlxal adlanan bir adam xüruc edərək Şamın əksər hissəsini ələ keçirdi. Ondan sonra Bənuəğləb adasında yurd saldı, oranı özünə vətən etdi. Bənuəğləblilər ona zəkat göndərirdilər. Öləndən sonra oğlu onun yerində oturdu və bu qayda orada qaldı.[275]

**Herat və Qur vilayətlərində qərməti və məzdəkilərin xürucu.** Hicrətin iki yüz doxsan beşinci ilində Heratm valisi Məhəmməd Harsümə [276] əmir Adil Samaniyə [277] xəbər verdi ki, Ğurdağı ətəyində və Tərcistandan Bu-Bilal[278] adlı birisi xüruc etmişdir, hər təbəqəyə mənsub adamlar onun başına toplanmış, o isə özünə "Darülədl” ləqəbi qoymuşdur. Herat və Rey vilayətlərindən saysız-hesabsız kəndli axışıb gəlir və ona beət edirlər. İndi onların sayı on mindən artıqdır. Əgər onun işinə fikir verilməsə, adamların miqdarı daha da çoxala bilər. Deyirlər ki, o, Yəqub Leysin [280] nədimi olmuşdur, onun canişini kimi, xəvarici məzhəbinə dəvət edir.

Əmir Adil bu işdən xəbər tutduqda dedi:"Deyəsən Bu-Bilalm əcəli çatıbdır." Sonra zikri Hacibə dedi: "Beş yüz qoçaq türk qulamı ayır, əmr et ki, onlara dirhəm versinlər, Biğəşi onlara başçı təyin et, o ağıllı qulamdır. Əmr et ki, min dirhəm də ona versinlər, beş yüz zirehli dəvə hazırlasınlar. Sən sabah onlarla Cuyi-Muliyana [281] gəl, mən baxım, mənim qabağımdan keçib getsinlər."

Hacib Zikri elə də etdi, Bu-Əli Mərvəziyə[282] məktub yazdı. Adamlarına dirhəm ver, nə qədər qulamlar sənə çatmayıb, gedib Məhəmməd Hərsümə qoşulmayıblar, şəhərdən çıx".

Məhəmməd Hərsümə də yazdı ki: "Hazır ol, Bu-Əli və Biğəş gəlib sənə qoşulsunlar." Biğəşə dedi: “Qalib gəlsən sənə vilayət verəcəyəm." Qulamlara dedi:



downloaded from KitabYurdu.org

Bu dava Əli Şirvin [283] ya Əmr Leys, ya Məhəmməd Hərəvi[284] davası deyil, orada qoşun və silah çox idi. Bu işdə ümid yalnız sizədir. Herat dağı ətəyində xəvaricilər əmələ gəlmişdir. Xəvarici və qərməti məzhəbini təbliğ edirlər. Onların çoxu əkinçi və çobandırlar. Qələbə çalsanız, hamınıza xələt və hədiyyə verəcəyəm." Zirəng bir dəbiri onlara kəndxuda təyin etdi.

Mərvruda çatdıqda Bu-Əli dərhal öz adamları ilə birlikdə onlara qoşuldu. Yol ayrıclarını tutdular ki, xəvaricilərin onlardan xəbərləri olmasın. Herata çatdıqda Məhəmməd Hərsümə öz qoşunu ilə onlara qoşuldu. Yolları tutdular ki, Bu-Bilala xəbər aparan olmasın. Dağa yollandılar, üç gün gecə-gündüz çətin dağ aşırımlarını keçdikdən sonra onlara çatdılar, qəfildən aralığa alıb, hamısını öldürdülər. Bu-Bilal, Həmdan və rəislərdən daha on nələrini tutdular. Yetmiş gündən sonra oranı tərk etdilər. Bu-Bilalı Köhəndez qalasına göndərdilər və orada həlak oldu. Başqalarının hərəsini bir şəhərə göndərdilər ki, orada dara çəksinlər.

Bir müddət onların kökü Ğur və Ğərcistandan kəsildi. Haman il əmir Adilin də əcəli çatdı, oğlu Nəsr Əhməd onun yerində oturdu. Onun dövründə baş verən hadisələr haqqında daha əvvəl danışmışıq.

**Əli Məhəmməd Bürqəinin[285] zənci qoşunları ilə Xuzistan və Bəsrədə xürucu.** Məhəmməd ə.s.-ın hicrətindən iki yüz əlli beşinci ilində Bürqəi xüruc etdi. O, uzun illərdən bəri Əhvaz və Bəsrədə zənciləri yoldan çıxarır, beətə gətirməyə çalışırdı. Onlara çoxlu vəd verib vaxt təyin etmişdi. Təyin edilmiş vaxt gəlib çatdıqda xüruc etdi, zəncilər də ona qoşuldular. Əvvəl Əhvaz və Bəsrəni tutdular, sonra bütün Xuzistanı ələ keçirdilər. Zəncilər öz hökmdarını tutub öldürdülər, fəsad törətdilər, zülmlər etdilər. Xəlifə Möqəmid bir neçə dəfə ordu göndərdi, hamısını darmadağın etdilər. Bürqəi on dörd ay altı gün şahlıq etdi, axırda Mötəmidin qardaşı Müvəffəq tərəfindən hiyləgərliklə ələ keçirildi. Bütün zənciləri öldürdülər. Əli bin Məhəmməd Bürqəini Bağdadda dara çəkdilər. Onun da məzhəbi Məzdək, Babək-Qərməti məzhəbi idi, hər mənada onlardan daha pis idi.
**Bəhreyn, Ləhsadə Bu-Səid Cənnabi və oğlu Bu-Tahirin xürucu.** Mötəsimin[286] dövründə Bu-Səid əl-Hüseyn bin Bəhram əl-Cənnab[287] Bəhreyn və Ləhsadə xüruc etdi. O, adamları bizim batini adlandırdığımız şiə məzhəbinə dəvət edirdi. O camaatı yoldan çıxartdı, öz işini möhkəmlətdi, güclәndikdə quldurluğa başladı, malları ümumi elan etdi. Bir müddət keçdi. Bir xidmətçi onu öldürdü. Bu hadisədən sonra Bəhreyn və Ləhsada xidmətçilərə etibar qalmadı. Onun Bu-Tahir adlı bir oğlu var idi. O atasının yerində oturdu. Bir müddət sakit dolandı, şiələrin sözündən bir şey başa düşmürdü, özünü fiqs-fəsaddan kənarda saxlayırdı. Nəhayət, bir nəfər məzhəb mübəlliğələrinin yanına göndərdi, onların "Kənzü-bilağətüsabe" adlanan kitabını istədi. Onu oxucaq itə döndü. Bəhreyn və Ləhsadə olanların hamısına dedi: "Hamınız silahlanın, sizinlə işim vardır."

Həcc vaxtı yaxınlaşırdı, bir dəstə adam onun başına toplandı, onları götürüb Məkkəye-müəzzəməyə apardı. Həccə saysız-hesabsız adam toplanmışdı. Əmr etdi: "Qılıncları siyirin, kimə rast gəldiniz, öldürün. Çalışın Məkkə



downloaded from KitabYurdu.org

yaxınlığından daha çox qırın."

Qəflətən xalqı qılıncdan keçirməyə başladılar.

Məkkəlilər silahlanıb Bu-Tahirb davaya çıxdılar. Bu-Tahir işi belə gördükdə elçi göndərib dedi: "Biz davaya deyil, həccə gəlmişik. Günah sizdədir ki, hərəm qapılarını üzümüzə bağladınız, biz də silaha əl atmalı olduq. Geri qayıdın, hacıları incitməyin, biz də həccə gəlmişik. Bu yol bağlı olsa, siz rüsvay olarsınız. Bizim həccimizi haram etməyin, qoyun ziyarətimizi edək."

Məkkəlilər elə güman etdilər ki, düz deyirlər, anlaşılmazlıq olub, onları acıqlandırıblar, onlar da qılınca əl atıblar.

Sazişə gəlib and içdilər ki, hər iki tərəf silahı yerə qoyub müharibə etməsinlər. Silahları yerə qoydular, Məkkənin başına dolanmağa başladılar. Bu-Tahir silahların dağıldığını gördükdə öz yoldaşlarına dedi: “Tez silahları götürüb özünüzü hərəmin içərisinə salın. Bayırda, içəridə kimi tapdınız, öldürün."

Sonra onlar gözlənilmədən hərəmə soxuldular, qılınc qaldırdılar, kimə rast gəldibrsə, öldürməyə başladılar. Adamlar qılıncın qorxusundan özlərini quyulara atır, dağlara dırmaşırdılar. Bu-Tahirin dostları "Qaradaşı" evdən bayıra atdılar, qızıl novdanı sındırdılar və dedilər: "Sizin allahınız göydə yaşayırsa, onun evinin yerdə nə işi var?! Dağıtmaq lazımdır!" Orada olan pal-paltar, parça, nə vardısa hamısını tikə-tikə doğrayıb talan etdilər, istehza edib kinayə ilə [bu ayəni] dedibr: "Ora girənə zaval yoxdur, bu yer onu təhlükədən xilas edər." Siz ki, ora girmişdiniz, bəs nə üçün bizim qılıncımızdan xilas olmadınız? Allahınız olsaydı, sizi bizim qılıncımızdan qurtarardı."

Belə sözlər deyir, müsəlmanların arvad-uşaqlarını tutub aparırdılar. Sayca iyirmi mindən çox adam öldürdülər. Quyuya salınanlar bura daxil deyildi. Bu-Tahir əmr etdi, öldürülənləri quyudakıların üstünə atsınlar, onlar ölülərin altında ölsünlər.

Qızıl, gümüş, ətriyyat, zərif şeylərin hamısını yığıb apardılar.

Bəhreynə qayıtdıqdan sonra bu mallardan məzhəb mübəlliğlərinə hədsiz-hesabsız hədiyyələr göndərdilər.

Bu hadisə islam tarixi ilə üç yüz on yeddici ildə, Müqtədirin vaxtında olmuşdur [289].

Sonra Məğribə Əbdullah Meymun Qəddahın oğlanlarından biri olan Bu-Səidə hədiyyə göndərdi, onun adı Əhməd idi və bu zaman böyük oğlan idi. Əbdullah onun anasını aldıqdan sonra oğlunu tərbiyəyə götürmüş, iş tapşırmış, ədəb-ərkan öyrətmiş, dəm-dəstgah düzəltmiş, nəhayət, özünə canişin təyin etmişdi. Bundan sonra məzhəbə dəvət etməyə öyrətdi, nişanlar verdi. O hazırlaşıb Məğribə getdi, Sicilmas şəhərində məskən saldı. İşi yaxşı gətirdi, bu məzhəbi camaata öyrətməyə başladı, bəzilərinə zorla, bəzilərinə xoşluqla bu məzhəbi qəbul etdirdi. O deyirdi: "Mən Mehdiyəm[290], ələviyəm." Ağır vergilər qoydu, meyi halal etdi, ana-bacı ilə evlənməyə icazə verdi; mərvani və əbbasilərə lənət oxumağı əmr etdi.

Onun axıtdığı nahaq qanlardan, yaratdığı yaramaz qayda-qanunlardan



downloaded from KitabYurdu.org

danışsam uzun olar. Tarixdə belə deyirlər ki, Misirdə oturanlar onların övladlarındandır. Bu-Səid, Bu-Tahir Ləhsaya gəldikdən sonra Tövrat, İncil, Qurandan nə qədər cüzv var idisə, hamısını ortalığa töküb murdarladılar. Bu-Tahir dedi: "Üç adam xalqı günaha batırıbdır. Çoban, təbib və sarvan.[291] Bu sarvan o birilərindən daha çox hiyləgər olmuşdur."

Sonra bacısını, anasını, qızını halal elan etdi. Açıqdan məzdək təriqətini təbliğə başladı, "qara daşı" iki parça elədi. Bir parçasını ayaqyolunun bir tərəfinə, o biri parçasını isə digər tərəfinə qoydu. O, çalada oturmaq istərkən bir ayağını bir çalanın, o biri ayağını o biri parçanın üzərinə qoyardı.

Əmr etdi, elçi və peyğəmbərlərə lənət oxusunlar. Bu iş ərəblərə yaman ağır gəlirdi.

Sonra hökm verdi, kişilər öz ana və bacılarına yaxınlıq etsinlər. Ərəblərdən bir çoxları zırnıx və kükürd yeyib öldülər ki, öz ana və bacılarına yaxınlıq edə bilməsinlər. Lakin cəhalətdə yaşayan məğriblilər, bədəvi ərəblər, könüllü, böyük həvəslə buna razı oldular.

İkinci dəfə həcc zəvvarına hücum etdilər, çoxlu adam öldürdülər. İraq və Xorasan əhalisi yığılıb onlara qarşı çıxdıqda quru və su yolları ilə irəliləməyə başladıqda onlar qorxuya düşdülər, "qara daşı” gətirib Kufə cümə məscidinə atdılar. Camaat məscidə gəlib gözlənilmədən "qara daşı" gördü, iki parçanı götürüb dəmir mıxla bir-birinə bərkitdilər, Məkkəyə apardılar, yenə də öz yerinə qoydular.[292]

Sonra Bu-Tahir gəbr Gəbrən [293] İsfahandan gətirib Ləhsada şahlığa oturtdu. Sonra bu gəbr qalxıb onlardan yeddi yüz başçı öldürdü. Bu-Tahir və qardaşlarını da öldürmək istədi. Bu-Tahir bundan xəbər tutdu, hiylə ilə onu öldürdü, sonra yenə də özü hakimliyə başladı.

Bu itin islam şəhərində nə qədər fisq-fəsad törədib, nə qədər adam qırdığını yazsaq bu kitaba sığışmaz. Bu fitnəkarlıq Razinin[294] dövrünə qədər davam etdi. Razinin dövründə deyləmilər meydana çıxdı.

Bunları ona görə yada salıram ki, dünyanın hökmdarı, allah onun səltənətini əbədi etsin, islamda onların nələr törətdiyini bilsin. Onların and-amanlarına etibar yoxdur, bu qərmətilər fürsət tapcaq həmişə çoxlu adam öldürmüşlər.

Bu zaman Müğənnəi Mərvəzi Mavərənnəhr şəhərində xüruc edib öz tayfası arasında şəriəti tamamilə aradan qaldırdı. Əvvəlcə batinilər kimi, məsələn, Səid Cənnabi, Bu-Səid Məğribi, Məhəmməd Ələvi Bürqəi və onların mübəlliğələri kimi təbliğ edirdi. Bunların hamısı bir zamanda yaşamışlar, bir-biri ilə dostluq etmiş, məktublaşmışlar. Müğənnəi Mərvəzi Mavərənnəhrdə bir tilsim düzəltdi. Dağdan aya oxşar bir şey çıxarırdı, özü də bunu hər gün, təbii ay görünən vaxt göstərirdi. O ətrafın adamları bunu görür, uzun müddət ona tamaşa edirdilər. Əvvəllər özünü batinilər kimi aparırdı. Lakin elə ki, o vilayətin adamlarını müsəlmanlıq və şəriətdən çıxartdı, allahlıq iddiasına düşdü. Onun vaxtında çoxlu



downloaded from KitabYurdu.org

qan axıdıldı, islam əhli ilə onun arasında çoxlu müharibə oldu. O, uzun illər boyu məhdudiyyət bilməyən bir şahlıq etdi. Hamısını yazsaq, məsələ uzanar. Bu itlərin hərəsi haqqında bir əhvalat danışsaq, böyük br kitab lazım olar. Batinilər hər dəfə xüruc etdikdə onların özlərinə məxsus ad və ləqəbləri olmuş, hər şəhərdə onlan bir cür adlandırmışlar: Hələb və Misirdə-ismaillilər; Bağdad, Mavərənnəhrdə və Qəzneyndə-qarmətilər; Kufədə-mübarikilər; Bəsrədə-rəvəndilər və bürqeilər; Reydə-xələfilər və batinilər, Gurganda-mühəmmirlər; Şamda-mübəyizilər; Məğribdə-səidilər; Ləhsa və Bəhreyndə-cənnabilər; İsfahanda-batinilər. Onlar özlərini təlimi adlandırırdılar. Hamısının məqsədi birdir; necə olursa-olsun müsəlmanlığı aradan qaldırmaq, peyğəmbərə ə.s. övladlarına qarşı düşmənçilik, xalqı yoldan azdırmaq. Allah onlara lənət etsin.

**İsfahan və Azərbaycanda xürrəmilərin xürucu haqqında.** İndi qısa olaraq, bir neçə kəlmə xürrəmdinilər haqqında danışaq ki, dünya hökmdarının onlar haqqında da bir məlumatı olsun. Xürrəmdinilər nə vaxt xümc etmişlərsə, batinilər də onlarla əlbir olmuş, onlara kömək etməyə çalışmışlar, çünki hər iki məzhəbin kökü birdir. Xəlifə Mehdinin dövründə, yüz altmış ikinci ildə, Gurgan batiniləri "qırmızı bayraq" adlanan xürrəmdinilərlə əlbir oldular və dedilər: "Bu-Müslim diridir, biz ölkəni ələ keçirməliyik."

Onun oğlu Əbül Qəranı özlərinə böyük seçdilər. Reyə qədər irəlilədilər, halal-haram bilmədilər, arvadları ümumi elan etdilər.

Mehdi ətrafa Təbəristanın valisi Əmr ibn Əl-Əlaya məktub göndərdi ki, birləşin, onlara qarşı davaya gedin. Getdilər, o camaatı darmadağın etdilər. Harun ər-Rəşid Xorasanda olan xürrəmdinilər, İsfahan, Tərmədin, Kapulə, Fab və başqa yerlərdən bir də baş qaldırdılar. Reydən, Həmədandan adamlar dəstə-dəstə, topa-topa gəlib onlara qoşuldular. Onların sayı yüz mindən çox idi. Harun Əbdullah ibn Mübarəki[295] iyirmi min atlı ilə Xorasandan onların davasına göndərdi. Qorxdular, dağılışıb, hərəsi öz yerlərinə qayıtdılar.

Əbdullah ibn Mübarək məktub yazdı: "Biz Bu-Dələfsiz[294] keçinə bilmirik." Məktubun cavabı gəldi: "Çox doğrudur." Onların hər ikisi sözü bir yerə qoydular.

Xürrəmdinilər, batinilər çoxlu miqdarda bir yerə toplanıb yenidən qarətə, talana, fisq-fəsada başladılar. Bu-Dələf İcli, Əbdullah Mübarək qəfildən hücuma keçib onlardan saysız-hesabsız adam öldürdülər, oğul-uşaqlarını Bağdada aparıb, qul yerinə satdılar.

**Babəkin xürucu.** Bu hadisədən doqquz il keçdikdən sonra Babək xüruc elədi, bu tayfa Azərbaycandan qalxıb onlara birləşmək istədi. Lakin yollarının qoşunlar tərəfindən tutulduğunu eşitdikdə qorxub qaçdılar. O biri il Məmunun dövründə İsfahan nahiyəsindən iki yüz on ikinci ildə xürrəmdinilər xüruc etdilər, batinilər də onlara qoşuldular, Azərbaycana gedib Babəklə birləşdilər. Məmun Məhəmməd ibn Həmid ət-Taini Babəkin davasına göndərdi. Ona əmr etmişdi ki, Züreyq Əli ibn Sədəqə ilə vuruşsun. O, yağı idi, İraq dağlarına çəkilib yol kəsir,



downloaded from KitabYurdu.org

karvan çapırdı. Məhəmməd ibn Həmid təcili yola düşdü, Məmunun xəzinəsindən heç bir şey istəmədi, orduya malı öz xəzinəsindən verdi və Züreyqin vuruşuna yollandı, onu tutdu, qoşununu məğlub etdi, darmadağın oldular.

Məmun Qəzvin və Azərbaycanı ona verdi. Onunla Babək arasında altı böyük vuruş oldu. Axırda Məhəmməd Həmid öldü-rüldü. Babəkin işi müvəffəqiyyət qazandı. İsfahana qayıtdılar. Mə'mun Məhəmmədin öldürülməsindən son dərəcə kədərləndi. Dərhal Xorasanın valisi Əbdullah Tahiri çağırıb Babəkin davası-na göndərdi, Kuhistan, Azərbaycan vilayətlərini ona verdi. Ab-dullah qalxıb Azərbaycana yola düşdü. Babək ona müqavimət göstərə bilmədi, möhkəm bir qalaya qaçdı. Ordusu dağıldı.

İki yüz on səkkizinci il gəldikdə xürrəmdinilər yenidən İsfahan, Pars, Azərbaycan və bütün Kuhistanda xüruc etdilər. Məmun Ruma getdiyindən vilayətlərə hazırlıq aparmış, gecə ikən hamısı birdən hücuma başlayaraq şəhərlər qarət etmiş, Parsdan çoxlu müsəlmanlar öldürülmüş, arvad-uşaqlarını əsir edərək qul aparmışdılar.

İsfahanda onların başçısı Əli Məzdək[297] adlı bir kişi idi. O şəhərdən iyirmi min adam yığıb qardaşı ilə birlikdə Kuhə[298] yola düşdü. Bu-Dələf orada yox idi. Qardaşı Məqəl Kuhda idi. Beş yüz atlısı var idi, müqavimət göstərə bilməyib, Bağdada qaçmalı oldu.

Əli Məzdək Kuhu tutdu, talan etdi, islam əhlindən əlinə keçəni öldürdü, iclilərin oğul-uşağını qul edib geri qayıtdı. Babəkə qoşulmaq üçün Azərbaycana getdi. Ətrafdan xürrəmdinilər axışıb Babəkin yanına gəlirdilər. Əvvəl on min idilər, sonra iyirmi beş min oldular. Kuhistanın Şəhristanə adlanan bir kiçik şəhəri var, ora toplandılar. Babək də gəlib onlara qoşuldu. Sonra Mötəsim İshaqı[299] qırx min qoşunla onun davasına göndərdi. İshaq qəflətən onların üstünü aldı, müharibə başladı, hamısını öldürdü.

İlk vuruşda xürrəmdinilərdən yüz min[300] adam öldürüldü. Bir dəstə İsfahana üz qoydu, on minə yaxın adam Əli Məzdəkin qardaşı ilə İsfahanın evlərini, kəndlərini talan etdilər, oğul-uşaqlarını tutub qul apardılar. İsfahanın əmiri Əli ibn İsa orada yox idi. Qazi, əyan-əşraf onlarla davaya çıxdılar, mühasirəyə aldılar, qələbə çaldılar, çox adam öldürdülər, oğul-uşaqlarını qul apardılar. Bundan sonra Mötəsim daha altı il xürrəmdinilərin işi ilə məşğul oldu, Əfşini onların üzərinə göndərdi. Əfşin qoşun toplayıb Babəklə müharibəyə yollandı. İki il vuruşdular, tərəfdarlarından çoxlu adam öldürüldü. Axırda Babəki tutmaqdan aciz qalmış Əfşin hiyləyə əl atdı. Gecə öz qoşunlarına əmr etdi, çadırları yığışdırıb daha on fərsəng irəliləsinlər və orada məskən salsınlar. Sonra Babəkə xəbər göndərdi ki, bir ağıllı, dünyagörmüş adam göndər, sözüm var. Bu hər ikimizin xeyrinədir.

Babək də onun yanına bir adam göndərdi, Əfşin ona dedi: "Babəkə de ki, hər başlanğıcın bir sonu vardır, insan kəlləsi kəvər deyildir ki, vurduqca yenə bitsin. Mənim adamlarının çoxu qırılıbdır, ondan biri qalmayıbdır, yəqin səninki də belədir, gəl sülh edək. Əlində olan ölkələrlə kifayətlən yerində otur. Mən qayıdıb



downloaded from KitabYurdu.org

xəlifədən sənə başqa vilayətlər də alaram, yazılı fərmanla rəsmiyyətə salaram. Mənim nəsihətimi qəbul eləməsən, gəl onda birdəfəlik bəxtimizi yoxlayaq, görək tale kimə yar olacaqdır." Elçi onun yanından çıxcaq, Əfşin iki min atlı, üç min atlı, üç min piyadəni dərələr və dağlarda gizlətdi, pusquda oturtdu, guya geri çəkilirmişlər.

Elçi onun yanından qayıdıb əhvalatı Babəkə danışdı, qoşunun azlığı, çoxluğunu dedi, casuslar da haman cür xəbər gətirdilər. Üç gündən sonra möhkəm vuruşmaq qərarına gəldilər.

Sonra Əfşin qoşunu bir fərsəng sağ, bir fərsəng soldan pusquda yerləşdirib dedi: "Mən qaçmağa üz qoyduqda onun qoşunu talana başlayacaq, bəziləri isə təqib edərək mənim dalımca gələcəkdir. Siz onların arxasında pusqudan çıxıb yollarını kəsərsiniz, mən bu zaman geri dönüb bacardığımı edəcəyəm.

Döyüş günü çatdıqda Babək yüz min atlı və piyada qoşun çıxartdı. Əfşinin qoşunu gözlərinə az göründü. Müharibə başlandı. Hər iki tərəf bərk vuruşdu, çoxlu adam qırıldı. Gün batana yaxın Əfşin qaçmağa başladı, bir fərsəngə qədər" ordugahdan uzaqlaşdıqda bayraqdara dedi: "Bayrağı qaldır!"

Cilovu dartdılar, kim ora çatdısa dayandı.

Babək demişdi: "Qarətlə məşğul olmayın, birdəfəlik bu Əfşinin işini bitirək, ordusundan başımız ayılsın."

Nə qədər atlı var idisə, hamısı Babəklə birlikdə Əfşini təqib etməyə başladılar, piyadalar isə talan və qarətlə məşğul oldular. İyirmi minə qədər atlı sağdan-soldan Əfşinin ardına düşərək, dağlarda onu təqib etməyə getdi, piyadalar isə səhrada qaldılar.

Xürrəmdini piyadalarının dərədə dolu olduğunu gördükdə dərənin yolunu onların üzlərinə bağladılar, qılınc çəkib qırmağa başladılar.

Əfşin öz dəstəsi ilə geri qayıtdı. Babək və onun qoşununu araya aldılar. Babək nə qədər çalışdısa, qaçmağa yol tapa bilmədi. Əfşin özünü yetirib onu tutdu. Gecə düşənə qədər çapıb öldürdülər, səksən mindən çox adamı qılıncdan keçirdilər.

Sonra Əfşin bir qulamı on min atlı və piyada ilə orada qoydu, özü Babəki və başqa əsirləri götürüb Bağdada apardı. Babəkə xüsusi işarə vurub Bağdad şəhərini gəzdirdilər. Mötəsimin gözü Babəkə sataşacaq dedi: "Ay it, nə üçün dünyada fitnə qaldırdın, nə qədər müsəlman öldürdün?" Heç cavab vermədi.

Əmr etdi, dörd əl-ayağını kəssinlər. Babəkin bir əlini kəsdikdə o biri əlini bulayıb qanı üzünə sürtdü. Mötəsim dedi: "Ay it, bu nə üçündür?" Dedi: "Bunda hikmət vardır. Sən mənim hər iki əlimi və ayağımı kəsdirəcəksən. İnsanın üzü qandan qırmızı olar, qan bədəndən axdıqca üz saralar. Mən üzümü ona görə qana buladım ki, camaat deməsin qorxudan üzü saraldı." Sonra əmr etdi, Babəki təzə öküz dərisinə qoyub elə tikdilər ki, öküzün hər iki buynuzu Babəkin qulaqlarının dibinə düşdü. Sonra dəri qurudu, Babəki diri-diri dara çəkdilər, əziyyətlə öldü. Xürucun əvvəlindən edam edilənə qədər onun haqqında çoxlu kitab və rəvayət



downloaded from KitabYurdu.org

vardır.

Onun cəlladlarından biri ələ keçmişdi. Ondan soruşdular: "Sən neçə adam öldürübsən?" Dedi: "Onun cəlldaları çox idi. Mən otuz altı min müsəlman öldürmüşəm. Başqa cəlladların öldürdükləri bura daxil deyildir."

Mötəsim üç qələbə çalmışdır, hər üçü də islamın qüvvətlənməsinə səbəb olmuşdur. Biri-Rum, ikincisi-Babək, üçüncüsü-Təbəristanlı Maziyar Gəbr üzərindəki qələbə idi. Bu üç qələbədən biri bclə baş tutmasaydı, islam məhv olub gedərdi.[301]

**Hekayət.** Bir gün Mötəsim şərab məclisində oturmuşdu, qazi Yəhya bin Əksəm[302] də orada idi. Mötəsim məclisdən durub o biri hücrəyə getdi. Bir az orada qaldıqdan sonra dışarı çıxıb şərab məclisinə gəldi, sonra hamama gedib üç dəfə qüsl etdi, dişan çıxıb canamaz istədi, iki rükət namaz qıldı, sonra yenə şərab məclisinə gəldi. Qazi Yəhyaya dedi: "Bu namazı nə üçün qıldığımı bilirsənmi?" Dedi: "Yox!" Dedi: "İzzət və calal sahibi allahın əta etdiyi çoxlu nemətdən biri üçün idi."Yəhya dedi: "Əgər böyük rəy sahibi lazım bilərsə, desin, biz də şad olaq." Dedi: "Bu saat mən üç qızın bəkarətini aldım. Bunların hər üçü mənim düşmənlərimin-biri Rum padşahının, ikincisi Babəkin, üçüncüsü maziyar Gəbrin qızı idi."

Xürrəmdinilər bu dəfə də Vasiqin[303] dövründə İsfahan ətrafında xüruc etdilər. Onlardan çoxlu fisq-fücur baş verdi, bu üç yüzüncü[304] ilə qədər davam etdi. Kirehi talan etdilər, çoxlu adam qırıldı, yenə də məğlub oldular, yenə də şaha qarşı üsyan qaldırdılar. İsfahan dağlarında sığınacaq tapıb, karvanları çapır, kəndləri talayır, qoca, cavan, qadın, uşaqları öldürürdülər. Otuz[305] ildən yuxarı fitnəkarlıqla məşğul oldular. Heç bir qoşun onların öhdəsindən gələ bilmirdi, çünki yerləri çox möhkəm, qalaları çox etibarlı idi.

Axırda ələ keçdilər, onları tutub öldürdülər, kəsik başlarını İsfahanda gəzdirdilər. Bu fəth bütün islamı sevindirdi, "fəthnamə" yazdılar. Onların əhvalatı tam şəkildə 'Təcarübül-ümən", "Tarixi-İsfahan" və "Əxbari-xülafayi-Ali-Əbbas" kitablarında yazılmışdı.

Xürrəmdinilər məzhəbinin qaydası belədir: haramı halal bilərlər,[306] bədəni bütün əziyyətlərdən azad edərlər, şəriəti danar, namaz, oruc, həcc, zəkatı bir tərəfə atarlar; şərabı, camaatın malını, arvadını halal sayarlar, bütün dini vəzirfələrdən uzaq qaçarlar.

Bir yerə toplananda, məsələ həll edəndə, məşvərət edəndə onların sözü bu olar; əvvəl Bu-Müslimə, Mehdiyə, Əbu-Müslimin qızı Fatimənin oğlu "alim uşaq"[307] adlanan Firuzə salavat çevirərlər. Məzdək məshəbinin əsasının nədən ibarət olduğu bundan aydındır.” [308]

Xürrəmdinilər və batinilər bir-birinə yaxındır, həmişə necə olursa-olsun islamı aradan qaldırmaq istərlər. Bu yoldan azmışlar adamları ovlamaq üçün özlərini peyğəmbər ə. s.-ın övladlarını sevənlər kimi qələmə verərlər. Elə ki camaalı ələ qətirib qüvvətləndilər, şəriəti məhv eləməyə çalışarlar. Peyğəmbər övladlarının düşmənidirlər, heç kəsə rəhmləri gəlməz. Kafirlər içərisində onlardan



downloaded from KitabYurdu.org

daha rəhmsizi yoxdur. Onlar həmişə bir-birlərinə kömək edərlər. Onların məzhəbindən tənbeh üçün danışıldı.

Bütün aləm dünya hökmdarınındır (allah onun dövlətini əbədi etsin), bütün qullar onun quludur.

Onlar camaatı mal ilə şirnikdirir, müstəhəqlərdən geri alır, elə geri alır, elə göstərirlər ki, guya beləliklə, bolluq əmələ gələcəkdir.

Ətəyi kəsib qola calamaqla heç vaxt köynək olmaz. Bəndənizin sözü-onlar əziz adamları, böyükləri bu quyuya salmağa başlayanda, onların təbillərinin səsi qulaqlara çatanda sirrləri aşkara çıxanda yada düşəcəkdir. Yalnız bu qarmaqarışıqlıqda bilinəcəkdir ki, bu bəndənizin dediklərinin hamısı düzdür, xeyirxahlıq üzündən nəsihət etmişdir. Böyük allah bu məğlubedilməz dövləti rüzigarın bədnəzərlərindən mühafizə etsin, onun düşmənlərini heç vaxt öz arzularına çatdırmasın. Qiyamətə qədər bu dərgah bargahı və divanı din adamlarına qismət eləsin, dövləti tərəfdarsız qoymasın. Məhəmməd və onun pak ailəsi xatirinə hər gün qələbə, zəfər, izzət və bayram gətirsin.

Qazancı biziyan mon az görmüşəm,
Kimi həlim insan, mən az görmüşəm.
Bərk gündə düşmənə dönməyən dostu,
Axtarıb çox zaman mən az görmüşəm.

*Qırx doqquzuncu fəsil*

## XƏZİNƏ TOPLAMAQ VƏ ONU SAXLAMAQ QAYDALARI HAQQINDA

Bütün şahların iki xəzinəsi olmuşdur: biri əsl xəzinə, o biri xərc xəzinəsi. Alınan malların çoxu əsl xəzinəyə toplanar, onun az hissəsi isə xərci xəzinəyə verilərdi. Zərurət olmayınca əsl xəzinədən xərcləməzlər. Bir şey götürüldükdə borc kimi götürürlər, əvəzinə nə isə bir şey qoyulardı. Bu barədə ehtiyat lazımdır ki, gəlir ilə çıxar eyni olmasın. Birdən mala ehtiyac hiss edildikdə ürəyə tappıltı düşməsin, o işdə tələsməyə və gecikməyə, əyər-əskiyə yol verilməsin. Xəzinə üçün vilayətlərdən yığılası malları heç vaxt dəyişmək, təxirə salmaq, həvalə etmək olmaz. Elə etmək lazımdır ki, vergilər vaxtında çatdırılsın, bəxşişlər, hədiyyələr, maaşlar, muzdlar yubadılmasın, həmişə xəzinə öz qaydasında olsun.

**Hekayət.** Eşitdim ki, Əmir Altuntaş Sultan Mahmudun baş hacibi olanda onu Xarəzmşaha baş hakim təyin edirlər. Xarəzmə gedir. Xarəzmin əbrəsi[309] altmış min, Altuntaşın donluğu isə yüz iyirmi min dinar imiş. Xarəzmə getdikdən bir il sonra öz inanılmış adamlarmı Qəzneynə göndərir, məktub yazıb xahiş edir ki, divandan göndəriləcək altmış min əvəzinə haman qədər Xarəzmdən gələn vergidən götürməyi ona icazə versinlər və maaşdan çıxsınlar.



downloaded from KitabYurdu.org

Bu zaman Şəms əl-kufət Əhməd Həsən Meyməndi vəzir imiş. Altuntaşın məktubunu oxucaq, dərhal cavabında yazır: "Bismillahirrəhman ər-rəhim, əmir Altuntaş bilməlidir ki, o heç vaxt Mahmud olmayacaqdır.[310] Sən məsul olduğun malı heç vaxt qoymayacaqlar ki, səndə qalsın. Vergini toplayıb, sultanın xəzinəsinə gətir, qəbz al. Ondan sonra donluğunu istə, qoy Sistana yazsınlar. Aparıb vergini orda baratla təhvil verəndə sənin donluğunu da alıb, Xarəzmə gətirsinlər; bəndə ilə ağa, Mahmudla Altuntaş atasındakı fərq meydana çıxsın".

İşi nizama salmaq, ordunu qaydada saxlamaq şaha xasdır. Xarəzmşahın gözü, sözü səhvsiz olmalıdır. O bu xahişi ilə ya sultana xor gözlə baxmış, ya Əhməd Həsəni xam və avam yerinə qoymuşdur. Biz ağıllı və kamallı hesab etdiyimiz Xarəzmşahın belə bir şey yazdığına inana bilmirik. İndi ki yazıbdır, üzr istəməlidir, çünki hakimiyyətdə öz ağasına şərik çıxmağın bəndəyə çox böyük xətəri vardır."

Bu məktubu bir hərbçiyə verib, onu qulamla Xarəzmə göndərdi. Altmış min dinarı gətririb xəzinəyə təhvil verdilər, onun əvəzinə həvalə alıb, Bost[311] və Sistana apardılar, onun da əvəzinə nar qabığı, mazu (rəng fındığı) pambıq və bu kimi şeylər verdilər.

Ölkəni belə dolandırmaq lazımdır. Qaydaya belə riayət etmək lazımdır ki, ölkənin mənafeyini bir-birinə bağlayan əlaqələr qırılmasın, xalqın məişəti, xəzinənin vəziyyəti öz qaydasında olsun, dövlət və rəiyyət malına tamahın kökü kəsilsin.

Gününü qəflət, lağ-lağı və işrətdə keçirən şahın işi get-gedə xarablaşar, sonra tarixdə onun adma pis-pis rəvayət və hekayətlər düzəldərlər.

Elə şahlıq bəyənilər ki, ondan sonra yaxşı ad qalsın, tərif deyilsin.

### *Əllinci fəsil*

## CAVAB VERMƏK, ZÜLM EDİLMİŞLƏRİN ŞİKAYƏTLƏRİNƏ BAXMAQ, ƏDALƏTLİ QƏRAR QƏBUL ETMƏK HAQQINDA

Həmişə saraya çoxlu şikayətçi gələr, ərizələrinə cavab almayınca getməzlər. Saraya qərib adam, ya elçi gəldikdə bu ah-fəğan və hay-küyü gördükdə elə güman edərlər ki, sarayda camaata zülm edilir. Ona görə bu şübhə qapısını onların üzünə bağlamaq lazımdır. Həm qərib, həm də yeni adamların şikayətinə qulaq asmaq, oradaca da qərar yazmaq lazımdır. Əmr onlara çatdırılacaq dərhal qayıdıb getməlidirlər ki, bu fəryad və hay-küy kəsilsin.

**Hekayət.** Deyirlər Yəzdəcürd, Şəhriyar[312] əmirəlmöminin Ömərə (allah ondan razı olsun) elçi göndərib dedi: "Dünyada bizim sarayımızdan daha çox adamlı saray yoxdur, bizim xəzinəmizdən daha dövlətli xəzinə yoxdur, bizdə olan qədər silah heç kəsdə yoxdur." Ömər cavab göndərib dedi: "Doğrudur, sizin sarayınızda adam doludur, lakin şikayətçilərlə; sizin xəzinə dövlətlidir, lakin haram



downloaded from KitabYurdu.org

mai ilə; sizin qoşununuz cəsurdur, lakin fərmana qulaq asmamaqda, dövlət gedəndən sonra sayın və silahın nə faydası? Bunların hamısı sizin miskinliyinizə və məhv olacağınıza dəlalət edir. Çarəniz odur ki, sizin sultan özü şəxsən ədalət göstərsin, hamı ona baxıb ədalətli olsun, yersiz tamahkarlıqdan əl çəksin." Sultan Mahmud belə etmişdi.

**Hekayət.** Deyirlər bir tacir Sultan Mahmudun şikayət sarayına gəlib onun oğlu Məsudun əlindən dad-fəryad edir və deyir: "Mən bir tacir babayam, uzun müddətdir şəhərdəyəm. Öz şəhərimə getmək istəyirəm, lakin gedə bilməyirəm, çünki oğlun altmış min dinarlıq mal alıb, amma pulunu vermir. Xahiş edirəm, Məsudu mənimlə qazi yanına göndərəsən."

Mahmud tacirin sözündən bərk tutuldu, Məsuda ağır bir xəbər göndərdi və dedi: "Ya bu saat tacirin haqqını ver, ya da onunla məhkəməyə get, şəriət nə hökm edərsə elə də qərar çıxarılsın." Tacir qazinin sarayına getdi, məmur Məsudun yanına gəlib, xəbəri Məsuda çatdırdı. Məsud məəttəl qaldı, xəzinədarı çağırıb dedi: "Bax gör, xəzinədə nə qədər nağd pul var." Xəzinədar hesablayıb dedi: "İyirmi min dinar." Dedi: "Götür apar tacirin yanına, hamısını vermək üçün üç gün möhlət istə." Məmur dedi: "Sultana de ki, iyirmi min dinarını dərhal verdim, hamısını üç gün müddətində ödəyəcəyəm. Mən qəbamı geyib kəmərimi bağlamış, başmaqlarım ayağımda hazır durmuşam. Nə buyurur, ali şəriət məhkəməsinə gedim, ya yox?!"

Mahmud dedi: "Həqiqəti bilmək istəyirsənsə, camaatın malını tamam-kamal etməyincə, mənim gözümə görünməməlisən." Məsud artıq bir söz deməyə cəsarət etmədi. Hər tərəfə adam göndərib borc istədi. Əsr namazına yaxın altmış min dinar tacirə çatdırıldı. Bu xəbər bütün dünyada sövdəgərlər arasında yayıldı. Çin, Xəta, Misir, Məğribdən sövdəgərlər Qəzneynə axışıb gəlməyə başladılar. Dünyada nə qədər zərif və əntiqə şeylər vardısa, çəkib Qəzneynə gətirdilər. Deyirlər bu zaman fərraş mehtərdən tutmuş Xorasan rəisi, İsfahan əmirinə qədər çox az adama rast gəlmək olardı ki, şəriət məhkəməsinə işi düşsün.

**Hekayət.** Hims[313] şəhərinin amili Ömər Əbdül Əzizə yazdı ki, "Hims şəhristanının divarı uçulmuş, təmirə ehtiyacı var, əmriniz nədir?" Cavabında yazdı: "Himsin divarlarını ədalətdən tikdir, yollarını zülm və təhlükədən təmizlə, o zaman palçıq, daş, kərpic və kəcə ehtiyac olmaz." Haqq-taala buyurur: "Ey Davud, biz səni yer üzündə ona görə özümüzə xəlifə təyin etdik ki, bizim bəndələrin hayına qalasan, haqq söz danışasan, düz iş görəsən. Allah öz qulundan razıdırmı?"

Peyğəmbər ə.s. deyir: "Kim müsəlmanlar arasında daha yaxşılarının olduğunu bilə-bilə, başqasını onların üzərinə amil təyin edirsə, o allah və onun peyğəmbərinə xəyanət etmiş olur." Təfsiri budur: "Düz adam təyin etmək lazımdır ki, allahın bəndələrini incitməsinlər, qayğılarına qalsınlar. Belə etməyən bir adama vəzifə tapşırsalar, allaha, onun peyğəmbərinə və bütün müsəlmanlara xəyanət etmiş olarlar."

Bu dünya şahların gündəlik dəftəridir, yaxşı olsalar, yaxşılıqla yad olunacaq, pis olsalar, pisliklə adları çəkiləcək, lənət oxunacaq, qarğış ediləcəkdir.



downloaded from KitabYurdu.org

Necə ki, Ünsüri[314] deyir:

Əbədiyyət istəyirsən, taxtını qur fələkdən
Kəhkəşanlar kəmərini hikmətlə al mələkdən
Söz deyəndə elə de ki, qüvvət versin idraka,
Zəhmət çək ki, nağılların şirin olsun diləkdən!

*Əlli birinci fəsil*

## VİLAYƏTİN HESABINI SAXLAMAQ, ONU TƏRTİBƏ SALMAQ QAYDALARI HAQQINDA

Vilayətin varının hesabatını aparmaq, onun gəlirini, çıxarını aydınlaşdırmaq lazımdır. Bunun qaydası orasındadır ki, xərclərin nədən ibarət olduğu meydana çıxar, lazım olmayanlar ixtisara salınar, qanunsuz olanların üstündən qələm çəkilər. Gəlir haqqında məlumat verənin sözündə mübaliğə, ya nöqsan olmasına baxmayaraq, ona diqqətlə qulaq asmaq lazımdır. Dedikləri doğrudursa, o mal ondan tələb edilməli, kəsir varsa, səbəbi aydınlaşdırılmalı, malın az olmasına imkan verilməməlidir. Dünya malı məsələsində və işlərin nizama salınmasında şahın vəzifəsi ondan ibarətdir ki, insaflı olsun, şahların qədim adət-ənənələrinə riayət eləsin, pis qayda-qanun yaratmasın, nahaq qan tökülməsinə yol verməsin. Şahın müqəddəs vəzifələrindən biri amilləri yoxlamaq, işlərinə göz qoymaq, gəlirini, çıxarını nəzarət altında saxlamaq, var-dövləti qorumaq, ehtiyat toplamaq, düşməni dəf etmək üçün həmişə hazır olmaqdan ibarətdir.

Şah elə dolanmalıdır ki, onu xəsis adlandırmasınlar, elə də bədxərc olmamalıdır ki, onu israfçı və ya pulunun qədrini bilməyən hesab etsinlər. Hədiyyə verərkən əndazəsini bilməlidir, bir dinara layiq olana yüz dinar, yüz dinar veriləsiyə min dinar verməməlidir. Belə şeylərin böyüklüyə zərəri vardır. Birdən deyərlər ki, "adamların qədir-qiymətini bilmir, fəzilət, istedad və elm sahiblərinin mövqeyini təyin etməyi bacarmır.,, Səbəb olmadan inciyər, işdə kahıllıq göstərməyə başlarlar.

Bir də düşmənlə elə dava etməlidir ki, barışığa yer qalsın. Dost və düşmənlə elə əlaqə saxlanmalıdır ki, onu qırmaq mümkün olsun, lakin elə qırılmalıdır ki, bağlaya bilsin. Şərabı məstliyə qədər içməməlidir. Həmişə qaşqabaqlı və ya həmişə üzügülər olmamalıdır. Bir müddət ova gedib, dünyanın kef və ləzzəti ilə

məşğul oluğu kimi, bəzən də şükr, sədəqə, gecə namazı, oruc, Quran oxumaq, xeyrat verməklə məşğul olmalıdır ki, həm dindən. həm də dünyadan istifadə etsin. Gərək adam bütün işlərdə mülayim olsun, orta bir mövqe tutsun. Peyğəmbər ə.s. buyurmuşdur: "xeyrət umu ovsətiha" yəni işlərin ən yaxşısı orta



downloaded from KitabYurdu.org

vəziyyətdir, hamı onu bəyənər.

Hər işdə allah-taalanı yada salmaq lazımdır, onda adama zaval gəlməz, əmr vermək, qadağan etmək imkan daxilində olar, elə işlər görülər ki, yadigar qalsın. Dünyada çəkilən zəhmətlərin hamısı yaxşı ad üçündür. Din işlərində fəal olmalıdır ki, böyük allah onu dünya və axirət malından qəni etsin, hər iki dünyada bütün arzularına çatdırsın.

Budur, "Siyasətnamə[315] kitabı yazılıb qurtardı.

Dünyanın şahı mən bəndəsinə buyurmuşdu ki, bu mənada bir məcmuə yazım. Hökm yerinə yetirildi. Bir dəfəyə bədahətən, otuz doqquz fəsil yazılıb ali məclisə göndərildi və bəyənildi. Çox qısa olduğundan sonralar iki [fəsilj və bəzi şeylər artırıldı, hər fəslə layiq olan incə məsəblər ona əlavə edildi, sadə bir dil şərhinə səy göstərildi. Dörd yüz səksən beşinci ildə Bağdad tərəfə yola düşmək istərkən bunu şah kitablarının xəttatı Məhəmməd Məğribiyə verdim və əmr etdim ki, aydın xətlə üzünü köçürsün.

Əgər mən bu səfərdən salamat qayıtsam, bu dəftəri dünya hökmdarının yanına aparsın, ali məclisin məsləhəti artsın, ayıq olsun və həmişə bu kitabı oxusun. Bu kitab onu yormaz, çünki bu kitabda həm nəsihət, hikmət, təmsil, həm də Quran təfsiri, peyğəmbər ə.s. hədisi, peyğəmbərlər əhvalatı, adil şahlar hekayəti, keçmiş zamanlar, gələcək hadisələr, rəvayətlər vardır. Bu qədər uzunluğuna baxmayaraq, çox müxtəsərdir, adil şaha layiq bir əsərdir.

Allah bilən məsləhətdir.



downloaded from KitabYurdu.org

## QEYDLƏR

1. **Nasix** - nüsxənin üzünü köçürən, mirzə, katib.
2. **Əbülfəth Məlik şah bin Məhəmməd** - səlcuq şahlarındandır. 1072-1092-ci illərdə hökmranlıq etmişdir. Bir neçə ləqəbi vardır. Məsələn Ravəndi onun tam ləqəbini—Əssultan Müizəddin və Əddünya Məlik şah bin Məhəmməd; Bondari-Cəlal əl-dövlə Əbülfət Məlik şah b.-Alp-Arsan kimi göstərir.
3. **Dörd yüz həştad dördüncü ildə** - tarix hicri-qəməri ilə göstərilir. Miladi 1091 - 1092-ci ilə uyğun gəlir.
4. **Nizamülmülk** - Məlikşahın vaziri, "Siyasətnamə" əsərinin müəllifi. 1092-ci ildə ismaililər (həşşaşilər) tərəfindən öldürülmüşdür. Əsrinin son dərəcə müdrik dövlət xadimi olmuşdur. Alimləri himayə etmiş. Xəyyamın böyük dostu olmuşdur. Öz vaxtında dünya şöhrəti qazanmış məşhur Bağdad "Nizamiyyə mədrəsəsinin"-elmlər akademiyasının banisidir.
5. **Şərəfülmülk** - tam ləqəbi və adı Şərəfülmülk Əbu Səd Məhəmməd b.Mənsur b.Məhəmməd əl-1101 Xarəzmidir. Nizamülmülkün yaxın əməkdaşlarındandır. 494-cü ildə (1100) ölmüşdür.
6. **Tacülmülk -** tam ləqəbi və adı Tacülmülk Əbülqənim Əlmərzibai b. Xosrov Firuzdur. Nizamülmülkdən sonra vəzir təyin edilmişdir, lakin vəzirliyi çox sürməmiş. 486 (1093)-cü ildə öldürülmüşdür.
7. **Məcdəlmülk** - tam ləqəbi və adı Məcdəlmülk Əbülfəz Əsəd b. Məhəmməd əl Qumidir. Məlikşah dövründə yüksək rütbəli dövlət xadimlərindən biri olmuşdur. Nizamülmülk vəzirlikdən istefa verdikdən sonra şərəfülmülkün yerinə keçmişdir.
8. **Əlli kitab** - kitab indiki vəziyyətdə əlli bir fəsildir. Ümumiyyətlə, müqəddimə ilə kitabın mətnində, fəsillərin adlarında, tarixi hadisələrin izahatında və başqa məsələlərdə müxtəlif ziddiyyətlər vardır ki, bunlar haqqında müqəddimədə danışılıbdır.
9. **Amil** - məmur. Vergi toplayan vali, maliyyə işləri ilə məşğul olan dövlət məmuru.
10. **Müqti** - iqtidar, torpaq sahibi. İqta və iqtidarlar haqqında kitabın V fəslində geniş danışılır.
11. **Qazi** - qazi, hakim, şikayətlərə və şəri işlərə baxan məhkəmə sədri.
12. **Xətib** - xütbə oxuyan, şah fərmanlarını məscidlərdə camaata çatdıran xadim.
13. **Möhtəsib** - hərfən hesab çəkən deməkdir. Qədim şərq ölkələrində asayişi qoruyan, qayda-qanunu pozmağa qoymayan silahli dəstə başçısına verilən rəsmi addır.
14. **Şəhnə** - burada gecə keşikçisi mənasında işlədilmişdir, darğa da deyilərdi.
15. **Müşrif** - burada inanılmış saray məmurları, saray işlərini idarə edən, təşrifat rəisi mənasında işlədilmişdir.
16. **Sahibxəbər** - xəbər sahibi, gizli xəbərləri bilən, xəfiyyə idarəsinin rəisi.



downloaded from KitabYurdu.org

17. **Münhilər** - gizli xəbər toplayanlar, xəfiyyələr, casuslar.
18. **Nədim-** padşahın sirdaşı, onun həmsöhbəti, ən yaxın məşvərətçisi, eyş-işrət dostu, həmpiyaləsi.
19. **Müfridlər** - burada sarayda saxlanılan xüsusi seçilmiş mühalizə dəstələri, xüsusi şah qvardiyası nəfərləri.
20. **Əmir-hərəs** - Mirqəzəb, cəza verən dəstənin rəisi, baş cəllad, həbsxana rəisi, nəzmiyyə rəisi.
21. **Çubdarlar** - çubuqsaxlayanlar, çubuqvuranlar, cəza dəstələri. Əmir-hərəsin adamları.
22. **Xüruc** - xaricə çıxmaq, baş qaldırmaq, üsyan etmək mənasında işlədilmişdir. Ümumiyyətlə, qədim Şərq abidələrində müxtəlif hərəkatlar haqqında mənfi mənada "xüruc", müsbət mənada "zühur" istilahı işlədilir. (məsələn: Xərdəcəlin xürucu. Axərəzzamanm zühuru və s.)
23. **Məzhəb** - əsərdə dini əqidə, məslək, təriqət, siyasi məqsəd mənasında işlədilir. Ümumiyyətlə mənfilik çaları vardır.
24. **Ləhsa** - coğrafi yer adıdır. Xəlic-Farsın (İran körfəzi) cənub-qərbində, indi Xofuf adlanır.
25. **Məğrib** - burada coğrafi yer adı. Ümumiyyətlə şimal-qərbi Afrika mənasında işlədilir.
26. **Kərmətilər, qərmətilər, muqərmətuyələr-** ismaililər təriqətinin bir qolu hesab edilir. Bir çox tarixi məxəzlərdə qərmətilərlə mübarəkilərin, eləcə də Qərmətlə Mübarəkin eyni olduğu qeyd edilir. "Siyasətnamə"nin haman fəslində bu məsələ nisbətən aydın şəkildə izah edilir.
27. **O hadisə -** Nizamülmülkün Bağdada gedərkən 1092-ci ildə öldürülməsinə işarə edilir. Nizamülmülk 485-ci il ramazan ayının 20-də öldürülmüşdür. 10 oktyabr 1092-ci ilə uyğundur.
28. **Qiyas əd-dünya və əd-din-** Məhəmməd b. Məlik şahın ləqəbidir. Bəzi şərqşünasların fikrinə görə, "Siyasətnamə" məhz onun dövründə üzü köçürülərək şah xəzinəsinə verilmişdir. "Siyasətnamə" kitabının sonunda onun mədhinə deyilmiş qəsidə də bunu göstərir.
29. **Ribat-** karvansara, mehmanxana.
30. **Eynəlkəmal -** hərfən kamil, nəzər kəmalə yetmiş baxış mənasında olan bu söz "Siyasətnamə"də bədnəzər, şumgöz mənasında işlədilərək mənfilik bildirir.
31. **Samani -** Samanilər sülaləsi nəzərdə tutulur. 875-999-cu illər arasında hakimiyyət başında olmuşlar.
32. **İsmail ibn Əhməd-** Samani sülaləsinin ən görkəmli hökmdarlarından biri hesab edilir. Onun dövründə samanilər tam müstəqil dövlət halına düşərək mərkəzi Buxara olan qüdrətli bir hakimiyyət yaratmağa müvəffəq olurlar. Buxarada İsmail Samaniyə öz orijinallığı, ornamentin zərifliyi ilə diqqəti cəlb edən bir məqbərə tikdirmişdir. İsmail ibn Əhməd 888-907-ci illlər arasında hökmranlıq etmişdir.
33. **Mavərənnəhr-** hərfən nəhrin arxası, suyun arxası. Dənizin arxası deməkdir.



downloaded from KitabYurdu.org

Orta əsrlərdə qərbdən Xarəzm dənizi (Aral dənizi), cənubdan Ceyhun (Amu-Dərya), şimaldan Seyhun (Sır-Dərya), şərqdən Fərqanə ilə əhatə olunan sahəyə deyilərdi. Çayın arxasındakı ölkə mənasında da işlədilmişdir.
34. **Yəqub Leys** - tam adı və ləqəbi Yəqub ibn Leys əs-Səffardır. Səffarilər sülaləsinin banisi hesab edilir. 862-ci ildə hakimiyyəti ələ keçirmiş, 878/79-cu illərdə ölmüşdür.
35. **Sistan** - orta əsrlərdə İranın şərqində vilayət adı. Sistan şimaldan Xorasan, şərqdən Əfqanıstan, cənubdan Mokran, qərbdən Kermanla həmsərhəd idi.
36. **İsmaili təriqəti** - XI əsrdə meydana çıxmış şiə təriqətlərindən birinin adıdır. Həmin əsrin sonunda ismaililər dini təriqətdən çox silahlı bir təşkilata çevrilmiş və Səlcuq dövlət başçılarına qarşı sui-qəsdlər etmişdilər. Ehtimala görə, Nizamülmülkü də onlar öldürmüşlər.
37. **Əbbasilər, Abbasilər** - ərəb xəlifələri sülaləsidir. 750-ci ildən 1258-ci ilə qədər hakimiyyət başında olmuşlar, özlərinin mənşəyini Məhəmmədin əmisi Əbbas ilə bağlayırlar. Cəmisi 37 xəlifə olmuşdur. Bağdad şəhəri bu sülalədən olan ikinci xəlifə Mənsurun (754-775) dövründə yaradılmış və xilafətin mərkəzinə çevrilmişdir.
38. **Batinilər** - dini təriqat adıdır. Müxtəlif yerlərdə müxtəlif cür adlandırdılar. Məsələn, Qum, Kaşan, Təbəristan, Səbzvar, Mavərannəhr, Qəzvin, Bağdadda-qərmətilər; Kufədə-mübarəkilər Reydə-xələfilər; Corcanda-müxəmmirilər; Ləhsa, Bəhreyndə-cənnabilər; Məğribdə-seyidilər, digər yerlərdə daha başqa cür adlandırdılar. Batinilər təbliğ etdikləri təlimat və görüşləri baxımından qərmətilərə yaxın olsalar da fərqli cəhətləri də var idi.
39. **Mülhid** - burada kafir, dinsiz, yolunu azmış, yolundan dönmüş mənasında işlədilmişdir. Başqa mənaları da vardır. Bir sıra mənbələrdə ismaililərə məlahidə adı verilmişdir.
40. **Sünn, sünnə** - Məhəmmədin ölümündən sonra ona təqlid əsasında, onun adından yaradılmış və Quranda olmayan şəri qanun, adət, ənənə və qaydalar. Sünn üçün Quranın dedikləri məcburi deyildir. Ona görə Sünn ilə Quran ehkamları arasında bəzən kəskin ziddiyyətlər əmələ gəlirdi. Sonralar Sünnü müdafiə edib yerinə yetirənlər sünni adlandılar.
41. **Qulunc** - mədə-bağırsaq xəstəliyi.
42. **Amu-** Amu-Dərya, Ceyhun çayı nəzərdə tutulur.
43. **Batman** - çəki vahidi. İranda iki cür batman işlədilmişdir 1) adi batman, 2) şah batmanı. Batman dörd çərəyə, o da təqribən 2,969 kq-a bərabərdir. Şah batmanı iki adi batmana, yəni 5, 938 kq-a bərabərdir.
44. **Qubad şah** - tam adı və ləqəbi Qubad b. Firuzdur (488-531). Məzdəkə rəğbət bəsləmişdir. Lakin sonra oğlu I Xosrov Ənuşirəvanın təhriki nəticəsində hakimiyyətdən əl çəkmiş, Məzdəkdən üz döndərmişdir.
45. **Beytülmal** - islamın ilk dövrlərində xüsusi dini xəzinəyə verilən addır.



downloaded from KitabYurdu.org

Həmən dövrdə müsəlman olmayanlardan zorla alınmış qəzəvatlarda zəbt edilmiş mallar bu xəzinəyə toplanar, sonradan lazım olduqda ehtiyacı olan müsəlmanlara paylanarmış.
46. **Axırıncı fəsil** - sərlövhənin nə üçün belə adlandırıldığı mətndən məlum olmur. Tehran çapında həmin sərlövhə yoxdur.
47. **Rastrəviş, Rast Rəviş** - lüğəti mənası "düzrəftar","düzgetmə","düz" (adam) deməkdir. Lakin adının lüğəti mənasının tam əksinə olaraq həmin Rastrəviş vəzir çox kəcrəftar, əliəyri, rüşvətxor imiş. Nizamülmülk sözün lüğəti mənası, vəzirin nalayiq hərəkətləri təzadından bədii üslub kimi məharətlə istifadə etmişdir.
48. **Fərsəng, fərsəx** - məsafə ölçü vahidi. Təqribən 6, 24 km-ə bərabərdir.
49. **Sədəqə** - burada vergi mənasında işlədilmişdir. Dinavərinin verdiyi məlumata görə, Sasanilər dövründə də camaatdan dini idarələrin xeyrinə olaraq "sədəqə" toplayan məmurlar var imiş. Ümumiyyətlə, orta əsrlərə aid yazılmış tarix kitablarında dəvə, mal-qara, qoyun-quzu sürülərinə gorə xüsusi "sədəqə" vergiləri alındığı qeyd olunur.
50. **Kəjrəviş, Kəcrəviş** - əyrirəftar, yolunu əyri gedən, yolunu azmış mənasındadır. Rastrəvişə qarşı qoyulur.
51. **Sərhəng** - indi polkovnik deməkdir. Orta əsrlərdə müxtəlif hərbi rütbələr mənasında işlədilmişdir. "Siyasətnamə"də zabit sözü yerinə işlədilir.
52. **Zəim** - torpaq sahibi, mülkədar.
53. **Xəritə** - burada zərf, məktub saxlanan çanta, məktub qutusu, kağız və məktub qovluğu mənasında işlədilmişdir.
54. **Dəbir** - katib, yazı işlərini aparan, sonralar münşi adlanmışlar.
55. **Mütəsərrif** - burada maliyyə, təsərrüfat işləri ilə məşğul olan məmur nəzərdə tutulur.
56. **Haciblər hacibi** - saray işlərini nizama salan məmurların (haciblərin) başçısı deməkdir. X əsrdə irəli çəkilmiş qulamlara verilən adlardan biridir. Onlara sarayda müxtəlif işlər tapşırılardı: təşrifat işləri, rəsmi qəbulun təşkili, sarayın, hərəmxananın mühafizəsi və s. də çox zaman onların öhdəsinə qoyulardı.
57. **"Ay səni görək pir olasan"-** orijinalda "azad-mərd" sözü işlədilmişdir. Bu sözün müxtəlif mənası vardır. Lakin biz burada onun lüğəvi mənasını deyil, mətn mənasını nəzərə alaraq, tərcümə etmişik.
58. **Əristatalis-** məşhur yunan alimi Ərəstu-Aristotel (er.əvvəl 384-322) nəzərdə tutulur.
59. **Məzdək** - V əsrin 80-cı illərində feodal istismarına qarşı qalxmış xalq hərəkatının başçısı. Bu hərəkat tarixdə "Məzdək hərəkatı" adı altında məşhurdur. Məzdək insanlar arasında tam bərabərlik ideyalarını təbliğ edirdi.
60. **Bədrə** - içərisində 10.000 dirhəm və ya 7.000 dinar pul olan kisə. Orta əsrlərdə xüsusi pul vahidi yerində işlədilirdi.
61. **Sipəhsalar** - hərbi rütbə və dərəcədir. Müxtəlif mənalarda işlədilmişdir. Bəzi mənbələrdə ali komandan, baş sərkərdə, general, bəzilərində isə ümumiyyətlə,



downloaded from KitabYurdu.org

sərkərdə mənasında işlədilmişdir. Samanilər dövlətində hərbi vəzifə olaraq baş komandan demək idi. "Siyasətnamə"də hərbi dərəcə kimi işlədilmişdir.
62. **Mədayin** – Ümumiyyətlə mədinə (şəhər) sözünün cəmi olaraq şəhərlər deməkdir. Burada sasanilərin paytaxtını bildirir. Ənuşirəvan burada otururdu. Xaqaninin məşhur "Mədayin xərabələri" şeri də həmin şəhərə həsr edilmişdir.
63. **Batman** - bax:43.
64. **Mobid, Mobəd** - zərdüşt ruhaniləri arasında xüsusi vəzifə idi. Kahin, rahib mənasını da verir.
65. **Min-min dinar** - bir milyona bərabərdir. İki dəfə min-min dinar, yəni iki milyon dinar. Görünür, bu kitab yazılan dövrdə minliklərdən yuxarı hesab işlədilmirmiş.
66. **Fərras** - ədliyyə məmuru, Saray xidmətçisi, xidmətçi.
67. **Əcəm** - ümumiyyətlə, ərəb sözünə qarşı qoyularaq "ərəb olmayan" mənasındadır. Burada "Fars", "İran" mənasında işlədilmişdir. Əcəm hökmdarları, yəni Fars hökmdarları.
68. **Mehrcan, Mehrqan** - Mehr ayının altıncı gününün adıdır.(Sentyabr ayının 21-22-nə uyğun gəlir). Baharda, martın 21-22-də Novruz bayramı hesab edildiyi kimi, payızda gecə-gündüz bərabər olduqda da haman gün Mehrqan adı altında bayram edilərdi. Mehrcan ərəbləşmiş formadır.
69. **Münadi** - nida edən. Carçı, şah fərmanın meydanlarda bərkdən oxuyub camaata çatdıran. Sasani dövründə xüsusi məmura verilən addır.
70. **Ərdəşir** - Sasani sülaləsinin banisi Ərdəşir Babəkan nəzərdə tutulur. Ərdəşir 224-cü ildə hakimiyyəti ələ almış, 241-ci ildə ölmüşdür. Sasanilərin hökmranlığı 652-ci ilə qədər davam etmişdir.
71. **Yəzdcord** - Yəzdqord sözünün ərəbləşmiş formasıdır. Yəzcord sasanilərin son padşahı olmuşdur. 652-ci ildə öldürülmüşdür. Ondan sonra İranda ərəb hakimiyyəti başlamışdır.
72. **Umare bin Həmzə** - Bəsrə, Əhvaz və Farsın valisi olmuşdur. 814-cü ildə ölmüşdür. Xəlifə Vasiq 842-847-ci illərdə xilafətdə oturmuşdur. Bu zaman artıq Umare vəfat etmişdi. Belə tarixi ziddiyyətlər "Siyasətnamə"də olduqca çoxdur.
73. **Xəlifə Vasiq** - ərəb xəlifələrindəndir. 842-847-ci illər arasında hakimiyyət başında olmuşdur.
74. **Tazik** - orijinalda bu söz, bir sıra məxəzlərdə olduğu kimi, "tazi" ərəb sözündən deyil, "taci" - "tacik" mənasında işlədilmişdir. Mətndən də "tazik"-"tacik"in ərəb dili bilmədiyi aydın qeyd edilir.
75. **İmam** - burada hamıdan qabaqda durub bərkdən namaz qılan adam mənasında işlədilmişdir. Qaydaya görə dalda duranların hamısı onun dediyini təkrar etməli idilər.
76. **Qoca türk** - orta əsrlərdə, xüsusilə X-XII əsrlərdə inzibati vəzifələrin bir qismi, əsasən nizam-intizam, əmin-amanlığın, asayişin qorunması türk qulamlarından təşkil olunmuş dəstələrə tapşırılardı. Bunların başında qoca,



downloaded from KitabYurdu.org

təcrübəli bir adamın qoyulmasına böyük əhəmiyyət verilərdi.
77. **Sultan Mahmud** - Qəznəvilər sülaləsinin ən qüdrətli hökmdarı olmuşdur.(998-1030).
78. **Məhəmməd Ərəbi** - Qəznəvənlər sarayında kürd və ərəb qoşunlarının sərkərdəsi olmuşdur.
79. **Qəzneyn** - Əfqanıstanda şəhər adı. Qəznəvilərin paytaxtı olmuşdur. Qəznəvilər öz adlarını da bu şəhərdən götürmüşlər.
80. **Sultan İbrahim** - Qəznəvi sultanlarındandır, bəzi məxəzlər 1059 (60-1088)-89-cu, bəziləri isə 1059-1099-cu illərdə hakimiyyət başında olduğunu yazır, ləqəbi Zəhir əd-dövlədir.
81. **Əbu əl-Dəqqaq** - dövrünün sufılərindəndir, 1015-ci ildə vəfat etmişdir.
82. **Ğazi-** burada Sultan Mahmudun ləqəbi kimi işlədilmişdir. Sultan Mahmudun bir neçə ləqəbi olmuşdur.
83. **Füzeyl bin İyaz** - dövrünün məşhur sufilərindən olmuşdur. 803-cü ildə vəfat etmişdir.
84. **Əlmötəsim, əl-Mötəsim** - Abbasi xəlifəsi, 833-842-ci illərdə hakimiyyət başında olmuşdur. Əl-Mötəsimin dövründə türk qullarından təşkil edilən xüsusi hərbi qvardiya dəstələri ordunun ən güclü hissələrindən biri hesab olunurdu.
85. **Bəni-Abbasi** - Abbasi xəlifələri nəzərdə tutulur- Əbbasi övladları deməkdir. Bax:37
86. **Müamilə** - alver, ticarət, borcla ticarət sazişinə gəlmək, borc verib borc almaq və s.
87. **Ey şeyx** - Burada şeyx-müraciət, xitab məqsədi ilə işlədilmişdir. Şərq ölkələrində belə xitab məqsədilə işlədilən sözlər çox olmuşdur. Məsələn, ağa, əfəndi, bəy, mirzə, sərkar, əxi, bəradər və s. bu qəbildəndir. Şeyx sözünün bu mənada işlədilməsinə nadir hallarda təsadüf edilir.
88. **Arpa** - pul vahididir. Qızıl və gümüş pullarda işlədilərdi. Təqribən, 48-50 mq-a bərabər idi. Burada ən kiçik pul vahidi mənasında işlədilmişdir.
89. **Konstəntəniyyə** - İstambul, İstambul şəhərinin orta əsrlərdəki adı.
90. **Beytülmal-bax:45**
91. **Sufi an Sauri** - Əbu Əbdüllah Sufiyan əs-Sauri ənənələrindən. 723-cü ildə vəfat etmişdir.
92. **Həsən Bəsri** - Əbu Səid Bəsri 723-cü iidə vəfat etmişdir. Dövrünün görkəmli üləmalarından hesab edilmişdir.
93. **Ömər bin Əbdüləziz** - Əməvilər xəlifələrindən olubdur. 717-719-cu illərdə hakimiyyət başında olmuşdur.
94. **İşraf** - müşrifliyin yerinə yetirilməsi, sarayda xüsusi vəzifə; bax:15
95. **Sahib-bərid** - rabitə işçiləri rəisi.- Ölkədə baş verən hadisələr haqqında açıqdan-açığa məlumat toplayıb şaha xəbər çatdıran məmurlar rəisi. Sahibxəbərlər gizli işlədikləri halda sahibbəridlər açıq işləyirdilər.
96. **Cahiliyyət** - islamdan əvvəlki dövrə deyilir.



downloaded from KitabYurdu.org

97. **Deir Keçin** - coğrafi yer adıdır. Bəzi məxəzlərdə Deir Kezin Deyr-Ciss formalarında təsadüf edilir.
98. **Qəzəvat** - dini şüarlar, din pərdəsi altında aparılan müharibə, Qəznəvilər dövründə, xüsusilə Sultan Mahmudun hakimiyyəti dövründə çox yayılmışdı. Ona görə Sultan Mahmuda ğazi (yəni qəzəvat edən) adı verilmişdir.
99. **Deyləmilər** - dcyləmi ya albuyelər hicri 320-440-cı illərdə (932-1048/49 miladi), İranda hakimiyyət başında durmuş sülalənin adıdır.
100. **Səbat, yollarda səbat düzəldir** - yəni pusqu qurur, yolları kəsir, yollarda toplaşırlar və s. mənada işlədilir.
101. **Zaniyə** - burada əxlaqsız, zina ilə məşğul olan qadın mənasında işlədilir.
102. **Zındıq** - Mazi tərəfindən təşkil edilmiş təriqətçilərə verilən ad. Burada "kafir","yolunu azmış" mənasında işlədilmişdir. Tarixdə təriqəti - Zənadiqə adı altında məşhurdur.
103. **Batinilər**-bax: 38
104. **Hənəfi** - sünnilər əsasən dörd qoldan ibarət idilər ki, onlardan biri də Hənəfilər idi. Hənəfilərə bəzən əzəmilər də deyilir. Bu məzhəbin banisi Məhəmmədin əmisi Hənifə hesab edilir. Hənəfilər öz adlarını da ondan götürmüşlər. Yerdə qalan üç qol: Maleki, Şafei və Hənbəlidir.
**105. Xəvariclıər, xaricilər** - islamın ilk vaxtlarında ərəb aristokratiyasına qarşı çevrilmiş hərəkat tərəfdarlarına verilən addır. Lüğəvi mənası "yağı", "üsyankar", "həddini aşmış", "cızığından xaricə çıxmış" deməkdir. Xəvaricilər sünni və şiələrin əleyhinə olaraq xəlifənin yalnız Qüreyş, yəni Məhəmınəd qəbiləsindən deyil, başqa tayfalarından ola biləcəyini müdafiə edir. Quran ehkamlarının əbədiliyini şübhə altına alırdılar. Xaricilərin fikrinə görə xəlifənin yürütdüyü siyasət əksəriyyətin mənafeyinə uyğun gəlmədikdə onu dəyişdirmək, hətta öldürmək də olar. Bir sıra tarixçilərin fikrincə, üçüncü xəlifə Osmanı və dördüncü xəlifə Əlini məhz xəvaricilər öldürmüşlər. Bəzilərinin fikrinə görə, Əliniyə qarşı "xüruc" etdikləri üçün "xaricilər", “xəvaricilər", adlanmışlar.
106. **Somnat** - Hindistanda yer adı. Bu zaman Sultan Mahmud Somnat və Sumnatda idi.
107. **Qasid** - orta əsrlərdə xəbər, kağız aparan adam, çapar. Qasidlik, şah saraylarında vəzifə hesab edilərdi, fərmanların bir şəhərdən başqa şəhərlərə çatdırılması xüsusi qasidlər vasitəsilə yerinə yetirilərdi.
108. **Xarvar** - çəki vahidi, 100 batman. Təqribən 297 kq-a bərabərdir.
109. **Zubin** - ikibaşlı nizə.
110. **Əbülfəz Səkzi** – Əbülfəzl Nəsr b. Xələf- Sistan hökmdarı olmuş, ona görə də Səkzi ləqəbi almışdır. 1072-ci ildə vəfat etmişdir.
111. **Alp-Arslan** - Səlcuq hökmdarlındandır. 1063 -1072-ci illərdə hakimiyyət başında olmuşdur.
112. **Pərviz** - Xosrov II Pərviz Sasani şahlarındandır. 590-623-cü illər arasında



downloaded from KitabYurdu.org

hakimiyyət başında olmuşdur.
113. **Bəhram Çubin** - Xosrov II Pərvizin dövründə dövlət xadimi olmaqla bərabər həm də böyük sərkərdə olmuşdur. 591/92-ci illərdə öldürülmüşdür.
114. **Sərəxs, Serəxs** - Orta Asiyanın cənubunda, İran sərhəddində yer adı.
115. **Qürrabe** - burada mirvari saxlanılan xüsusi küp mənasında.
116. **Gəz ,zər** - uzunluq ölçü vahidi, dörd çərəkə, təqribən, 1.04 m-ə bərabərdir.
117. **Nəqib** - burada qasidlərin qayğısına qalan məsul vəzifə sahibi nəzərdə tutulur. Sasanilər dövründə qasidlərin işini nizama salan xüsusi vəzifəli adamlar var idi. Nizamülmülk "keçmiş adətlərə görə"-deyərkən onlara işarə edir.
118. **Rud** - xüsusi musiqi aləti adıdır. Qədim şah saraylarında ud ilə bir yerdə çalınardı. Burada ümumiyyətlə, musiqi nəzərdə tutulur.
119. **Lövhə** və **qələm** - yəni yazılan və yazan şeylərin hamısı, alına yazılanlar və yazanlar.
120. **Fələk və təxc** - göy və yer, çərxi-fələk, talle və bəxt.
121. **Xətt, xət** - İran körfəzində, Bəhreyndə Ərdəşir babəkan tərəfindən əsası qoyulmuş bir şəhərin adıdır. Nizə düzəltmək üçün burada bitən qamışlardan istifadə edilərdi.
122. **Şəmsülmülk Nəsr b. İbrahim** - Qaraxani sülaləsindəndir. 1067-1079-cu illər arasında hakimiyyət başında olmuşdur.
123. **Rafizi** - Əlini birinci xəlifə hesab edib Əbu Bəkr, Ömər və Osmanın xəlifəliyini rədd edən şiələri sünnilər belə adlandırırdılar. Səlcuq hökmdarları rafiziləri təqib edir, onları bərk cəzalandırırdılar, ona görə Nizamülmülk özünün rafizi adlandırılmasından belə təşvişə düşmüşdür.
124. **Çikililər** - Orta Asiyada yaşayan tayfalardan birinin adıdır. Onların yerli və ya gəlmə olmaları haqqında tarixçilər arasında müxtəlif fikirlər vardır.
125. **Bistiqane** - hərfən iyirmilik, iyirmi-iyirmi, iyirmiyana, iyiyrmiyə görə, iyirmi haqqı və s. mənasındadır. Bəziləri "Bistiqane"ni hər iyirmi gündən bir verilən maaş, bəziləri iyirmi adama birlikdə verilən maaş kimi izah edir. Bizim fikrimizə görə, səlcuqilər dövründə hərbi dəstələrin ən az sayı (bölmə) iyirmi əsgərdən ibarət olduğundan, sonralar türk ordularında "onbaşılar", "yüzbaşılar" olduğu kimi, o vaxt da "iyirmibaşılar" olmuşdur. Ona görə də "bistiqanc" hər iyirmi əsgərə, iyirmi gündən bir verilən maaş kimi izah edilərsə, həqiqətə daha yaxın olar.
126. **Samanilər-** bax: 31
127. **Rikab** - müşayiət dəstəsi. Şah, sultan, xaqanları müşayiət edən xüsusi silahlı, süvari dəstələr, qvardiya dəstələri.
128. **Zindənic qəbasi** - birinci il xidmətdə olan qulamlara verilən xüsusi parçadan tikilmiş geyim. "Zindənic" sözü Buxara şəhərinin yanında olan Zindənə kəndinin adından götürülmüşdür. Bu paltaıiarın parçası həmin kənddə hazırlandığından ona "zindənici" adı verilmişdir.
129. **Visaqbaşı** - yeddi il qulamlıqdan sonra verilən addır.Yalnız bu adı aldıqdan sonra qulamın başqa (birdən üçə qədər) qulamlar üzərində böyüklük etməyə



downloaded from KitabYurdu.org

ixtiyarı var idi.
130. **Darai-qəba** - beş il qulluq etdikdən sonra qulama verilən xüsusi paltarın adıdır. Orta əstiər İran qoşunlarında belə xüsusi geyim adlarına tez-tez təsadüf edilir (müq.et. sərdari-hərbi geyim, pəhləvi-xüsusi papaq və s.).
131. **Xələc** - coğrafi yer adı. Müxtəlif məxəzlər müxtəlif yerlərdə olduğunu göstərir. Məsələn, hüdud-ül-aləm xələcilərin Bəlxdə, Toxaristan, Bost və Guzğanda olduğunu göstərir. "Siyasətnamə"də Türkmənistana yaxın olduğu deyilir.
132. **Amuyə** - Ceyhun çayı vadisindədir. İndiki Cərcə şəhəri yaxınlığında olmuşdur. Səhra Amol şəhərindən başlayaraq Ceyhun (Amu-Dərya) çayının sahilinə qədər uzanarmış.
133. **Əhməd ibn** İsmail - Sasani hökmdarlarındandır. 913/14 illərdə hakimiyyət başında olmuşdur.
134. **Nəsr ibn Əhməd** - Samani hökmdarlarındandır. 913-942 ci illər arasında hakimiyyət başında olmuşdur.
135. **Nuh, Nuh ibn Nəsr** - Samani hökmdarlarındandır. 942/43-cü -954/55-ci illər arasında hakimiyyət başında olmuşdur.
136. **Mənsur ibn Nuh** - Samani hökmdarlarındandır. 954/55-961/62-ci illər arasında hakimiyyət başında olmuşdur.
137. **Xottalyan, Xotlan** - Orta Asiyada yer adı.
138. **Ləvik** - Bu adamın adı müxtəlif məxəzlərdə müxtəlif şəkildə göstərilmişdir. Məsələn: Ənuk, Kubak, Komik və s. Biz əlimizdə olan abidədəki yazılışı saxlamışıq.
139. **Bikapür** - Bicapür, Qucrali vilayətində şəhər adıdır.
140. **Bu-Cəfər** - Əbu-Cəfər Məhəmməd bin Nəsr. 962-ci ildə Alptəkinə qarşı vuruşan ordunun sərkərdəsi olmuşdur. Nuhun qardaşıdır.
141. **Sultan Toğrul** - Səlcuq dövlətinin hökmdarı. 1033-1063-cü illər arasında hakimiyyət başında olmuşdur.
142. **Yüzkənd** - Orta Asiyada, Səmərqənd vilayətində yer adı.
143. **Ənbiya** - peyğəmbərlər, elçilər deməkdir. Təki "nəbi", cəmi "ənbiyə" olmuşdur. Burada peyğəmbərlərin tərcümeyi-halları şərh edilən "əmbiyanamələr" nəzərdə tutulur.
144. **Tur, Sina dağı** - Dini rəvayətə görə , Musanın allah ilə naz-niyaza getdiyi dağın adıdır.
145. **Haman** - Fironun vəzirinin adıdır.(səh.l73)
146. **Haşimi** - Haşimilər Məhəmmədin mənsub olduğu ərəb qəbiləsinin adıdır. Adını Məhəmmədin ulu babası Haşim b. Əbd-Mənafdan götürmüşlər.
147. **Xordadbeh** - Əbdül Qasim Ubeydullah b. Əhməd b. Xordadbeh dövrünün görkəmli alimlərindən olmuşdur.
148. **Pərvizşah**-bax:112
149. **Bazeyd, Bazid** - məşhur musiqişünas, sazandar Barbəd nəzərdə tutulur.



downloaded from KitabYurdu.org

Xosrov Pərviz sarayında Barbədin şöhrəti çox böyük olmuş və Şərq ədəbiyyatında ona layiq yer verilmişdir.
150. **Samani** - bax: 31
151. **Kəsra** - Sasani şahlarına, xüsusilə Ənuşirəvana verilən ləqəb.
152. **Bəkrək** - tarixi şəxsiyyət kimi hələlik müəyyən edilməmişdir. Rəvəndi Bəkrəkin Alp-Arslan sarayında hacib olduğunu göstərir. Məşhur fransız şərqşünası, "Siyasətnamə"nin ilk naşirlərindən biri Ş.Şefer Bəkrəkin Alp-Arslanın türk qullarından olduğu fikrini irəli sürür. İran alimi, "Siyasətnamə"nin fars naşirlərindən Məhəmməd Qəznəvini isə onun adının qarşısına sual qoyaraq Bəkrəkin ona mə'lum olmadığını etiraf edir. "Siyasətnamə"ni ruscaya tərcümə etmiş prof. B.N. Zaxoder isə Şeferin fikrini qəbul edir.
153. **Bozorcmehr** - Bozorgmehrin ərəbləşmiş formasıdır. Ənuşirəvanın vəziri olmuşdur. Guya bir çox əxlaqi və tərbiyəvi əsərlərin müəllifidir. "Kəlilə və Dimnə"dəki "Təbib Bərzuye" fəslinin də onun tərəfindən yazıldığını deyirlər.
154. **Carçı** - car çəkən, hökmdarın əmrləri, mirqəzəbin görəcəyi işlər haqqında, bərkdən qışqırıb, car çəkib camaatı xəbərdar edən adam.
155. **Zeyd bin Əsləm** - Xəlifə Ömərin əshabələrindən birinin adıdır. Sonra Ömər ona azadlıq və sərbəstlik vermişdir.
**156. Bazar adamı** - "qara camaat", "adi adamlar" mənasında işlədilir.
157. **Dehqan -** mülkədar, kəndi, torpağı olan. İndi isə kəndçi mənasında işlədilir.
**158. Hüsam əd-din -** ləqəbdir. dinin xəncəri deməkdir**.**
**159. Seyf əd-dövlə -** ləqəbdir, dinin qılıncı deməkdir.
**160. Əmin əd-dövlə -** ləqəbdir, dövlətin inamı deməkdir.
161. **Xacə -** burada dövlət xadimi, vəzir, vəkil, saray adamları mənasında işlədilir.
162. **Əmid** - dövlət məmurları, divan adamları, vilayət başçıları və s. mənada işlədilir.
**163. Əmid əd-dövlə -** dövlətin dayağı.
**164. Zəhir əl-mülk -** dövlətin köməkçisi, dövlətin əltutanı.
**165. Qəvam əd-dövlə -** ləqəb, dövlətin dayağı. dövlətin köməyi.
166. **Əlqadir Billah -** Abbasi xəlifəsi. 991-1031-ci illərdə xilafətdə oturubdur.
**167. Yəmin əd-dövlə -** ləqəb, dövlətin sağ əli.
**168. Moin Xəlifətullah -** ləqəb, allah xəlifəsinin köməkçisi**.**
**169. Məlik əş-şərq vəssin -** ləqəb, Şərqin və Çinin sultanı.
170. **Tərğu** - müxtəlif mənalar, müxtəlif tərzdə şərh edilmişdir. Bəziləri "ərğəvani"ni ipək parça, bəziləri ağ dəvə yunundan hazırlanmış bahalı paltar, bəziləri xuruş kimi tərcümə etmişlər. Bu mətndə bahalı qadın paltarı mənasında işlədilmişdir.
171. **Əmin əl-millə** - ləqəbdir, millətin hamisi, mühafizə edəni deməkdir. Orta əsrdə "millət" sözünün bir mənası da "din" idi.
**172. Yəmin əd-dövlə** - bax: 167
**173. Əmir Sədid** - Nuhun (Samani şahıdır) atasının ləqəbi, düzlük, doğruluq,



downloaded from KitabYurdu.org

həqiqət əmiri deməkdir.
174. **Əmir Həmid** - Nuhun babasının ləqəbi, "həmd əmiri", "şanlı əmir" deməkdir.
175. **Məcd əd-din** - ləqəb, "dinin şöhrəti" deməkdir.
176. **Seyf əs-sünnə** - ləqəb, sünnənin qılıncı (sünnə sözii üçün) bax: 40. (səh.206)
**177. Zeynəlşəriə**- ləqəb, "şəriətin zinəti".
**178. Fəxrəlüləma** - ləqəb. "üləmaların fəxri".
**179. Sərəfəlmülk** - ləqəb,"mülkün şərəfi", "dövlətin şərəfi".
**180. Əmidəlmülk** - ləqəb, "mülkün dayağı", "dövlətin dayağı".
181. **Nizaməlmülk** - ləqəb, "mülkün nizamı", "dövlətin nizamı".
**182. Kəmalulmülk** - ləqəb, "mülkün kəmalı", "dövlətin kəmalı".
**183. Quniyanların** - tayfa adı.
**184. Əzüd əl-dövlə** - ləqəb, "dövlətin köınəyi", "dövlətin yardımçısı".
**185. Rökn əd-dövlə** - ləqəb, "dövlətin rüknü", "dövlətin sütunu".
**186. Cəlil** - calallı, şan-şövkətli, ostadi-cəlil - ləqəb, calallı ustad, şöhrətli **müəllim.**
**187. Ostadi Xətir** - ləqəb, böyük ustad, böyük müəllim.
**188. Sahib Əbbad** - albuyə, albuveyhlər sülaləsinin ən şöhrətli vəziri. 970-995-ci illər arasında vəzirlik etmişdir.
**189. Kafi əl-kufat** - ləqəb, "kafirlərin kafisi", "kamillərin kamili", Sahib Əbbadin ləqəbi idi.
**190. Şəms əl-Kufat** - ləqəb, Sultan Mahmudun vəziri Həsən Meyməndinin ləqəbi idi. 1032/33-cü illərdə vəfat etmişdir. "Kamillərin günəşi" deməkdir.
**191. Müizə əl-dünya vəddin** - ləqəb, "dünyanı və dini möhkəmləndirən" Məlikşahın ləqəbi idi.
**192. Berkyaruq** - Əbu Müzəffər Bərkyaruq bin Məlikşah, Səlcuq sülaləsinin beşinci şahı olmuşdur. 1101/102-1107/105-ci illəı arasında hakimiyyət başında olmuşdur.
**193. Qəvaməlmülk** - ləqəb, "ölkənin köməyi" "dövlətin köməyi".
**194. Ləbbeyk** - hərfən; budur qarşındayam, hazır, ümumiyyətlə "bəli" mənasında işlədilir.Yüksək üslubda: qulluğunuzda hazıram.
**195. Müxtəs** - ləqəb, xüsusi, seçilmiş, məxsus və s.
**196. Toğran** - möhür saxlayan, dəftərxana rəisi.
**197. Arizi** - orduda maliyyə işlərinə baxan məmur.
**198. Əmidi-bax:162.**
**199. Sədid** - doğru, düz, açıq danışan, doğrunu üzə deyən.
**200. Ərdüm** - Toğrul bəyin vəfatından sonra daxili vuruşmalarda Alp-Arslanın tərəfini saxlamış əmirlərdən biri.
**201.** Rafizi-bax:123.
**202. Əbu-Bəkr** - Əbu-Bəkr bin Əhməd bin Əli b. Sabit dövrünün görkəmli üləmalarından olubdur. l067-ci ildə vəfat etmişdir.



downloaded from KitabYurdu.org

**203. Əbdullah b. Əbbas** - Məhəmmədin əmisi oğlu, 687/88-ci illərdə ölmüşdür.
**204. Əbu Ümamə** - Məhəmmədin əshabələrindən biri.
**205. Sufyan ibn Ubeylə** - V.N.Zaxoderin fikrinə görə, düzü Sufian b. oyayna olmalıdır. 812/13-cü illərdə ölmüşdür.
**206. Okba b. Amir** - ənənəçilərdəndir. 676-cı ildə ölmüşdür.
**207. Əbud-Dərda** - Məhəmmədin əshabələrindəndir. 652/53-cü illərdə ölmüşdür.
**208. Xaricilər -** bax: 105.
**209. Qədərilər** - İslam dinində xüsusi təriqətçilərə deyilir. Taleyə, alına yazılmalara, qəzavü-qədərə inanmamağı təbliğ edirlər.
**210. Gəbr-** atəşpərəst, maq, zərdüşt tərəfdarları, qədim parslar.
**211. Üm-Səlma-Ümm-Səlma** - Məhəmmədin ikinci arvadının adı. 679-cu ildə ölmüşdür.
**212. Əbu** Musa Əşəri - Məhəmmədin əshabələrindən birinin adıdır.
**213. Fəxr əd-dövlə** - Əli bin-Rüki əd-dövlə. Deyləmi şahlarındandır. 976/77-988-ci illər arasında hakimiyyət başında olmuşdur.
**214. Təbərək** - Rey yaxınlığında bir dağ adıdır.
**215. Sotudan** - burada ibadətgah, məqbərə, başdaşı, sitayişgah.
**216. Dideyi-Süpəhsalaran** - süpəhsalarlar gözü sərkərdələr qülləsi sotudan və ya sutudanın adı. (səh.219).
**217. Ba-Xorasan, Baxorasan-** Tehran çapında haman məhtasibin adı Nasir Əman verilir.
**218. Sotudan batil oldu-** Qədim dini adətə görə, müqəddəs məbədlərin, məqbərələrin, qəbir daşlarının üzərinə çıxmaq günah hesab edilərdi. Belə qəbirlərin üzərinə çıxdıqda o müqəddəsliyini itirər və ya şəri istilahla deyilərsə, oruc-namaz batil ola bildiyi kimi, onun da müqəddəsliyi batil olardı.
**219. Davat** - mürəkkəb qabı.
**220. Sahih-kafi -** Fəxr əd-Dövlənin vəziri Sahib Əbbad nəzərdə tutulur.
**221. Cüllab** - təzə meyvədən hazırlanmış şirələr və şərbətlər. Gülqənd və s.
222. **Rud** - simli çalğı aləti.
223. **Səd ibn Vəqqas** - Əbu İshaq Səd ibn əbu Vəqqas, Məhəmmədin tərəfdarlarındandır. İslam tarixində böyük sərkərdələrdən hesab edilir. 677-ci ildə ölmüşdür.
224. **Cəfər b.** Bərməki - İranda öz vəzirlikləri ilə böyük şöhrət tapmış bərməkilər ailəsinin son görkəmli nümayəndəsi. Bərməkilər ailəsi 803-cü ildə Harun ər Rəşidin əmri ilə qılıncdan keçirilərək tamamilə məhv edilmişdir. Cəfər Bərməki 767-ci ildə doğulmuş. 803-cü ildə öldürülmüşdür.
225. **Cəz** - balıqqulağının xüsusi növünə deyilərdi.
226. **Amol** - Təbəristanda yer adı. Xəzər dənizinin cənubundadır. Orta əsrlərdə məhəlli şah və valilərin paytaxtı olmuşdur.
227. **Hicab əhli** - örtük əhli, üzüörtülülər, qadınlar nəzərdə tutulur.
**228. Siyavuş** - Firdovsinin məşhur "Şahnamə" qəhrəmanlarından biridir. Siyavuş-



downloaded from KitabYurdu.org

Südabə əhvalatı Şərq xalqları arasında çox məşhurdur. Bu mövzuya çoxlu elmi və bədii əsər həsr edilmiş, fars və Azərbaycan ədəbiyyatında dastan və pyeslər yazılmışdır. "Siyasətnamə"də verilən variant orta əsr sxolastik mahiyyəti daşıyır.

**229. Şəbistan** - Şəbistan burada "hərəmxana"-"yataq otağı" mənasında işlədilmişdir. Ümumiyyətlə, məscidlərdə gecələmək üçün ayrılmış xüsusi yerlərə deyirlər.

**230. Şəbrəng** - Siyavuşun atının adı, "gecərəng"-qara rəngli mənasındadır. Qədim kitablarda hər qəhrəmanın atının özönəməxsus adı olardı. Məsələn: Rüstəm pəhləvanın adı-Rəxş, Xosrov Pərvizin - Şəbdiz, Siyavuşun- Şəbrəng, Koroğlunun-Qırat və s. Maraqlı burasıdır ki, çətin anlarda qəhrəmanların köməyinə çatan ilk növbədə atları olur. Burada da Siyavuşu yanmaqdan Şəbrəng xilas edir.

**231. Möbəd** - atəşpərəst kahini.

**232. Aişə və Həfsə** - Aişə- Əbu Bəkrin qızı, Məhəmmədin arvadının adıdır. 678-ci ildə ölmüşdür. Həfsə- Ömərin qızıdır. Birinci əri öldükdən sonra Məhəmmədə ərə getmişdir.

**233. Xəvaricilər** - bax: 105.

**234. Xürramdin** - xörrəmilər. IX əsrin əvvəllərində ərəb xilafətinə qarşı qalxan güclü üsyan tərəfdarlarına verilən addır. Bu ösyan 808-ci ildə Cənubi Azərbaycanda başlamış, sonra İranın başqa yerlərinə yayılmışdı. 816-cı ildən başlayaraq, xürrəmilər hərəkatının başında babək (əsl adı Həsəndir) dururdu. "Siyasətnamə" müəllifi iri feodal olmaqla öz sinfinin mənafeyini müdafiə edərək başqa hərəkatlar kimi xürrəmilər hərəkatını da pisləyirdi.

**235. Möbəde-möbədan** - möbədlər möbədi deməkdir. Möbədane-möbəd formasında da işlədilir. (müq. şahani-şah, şahənşah), Zərdüştilər və atəşpərəstlər məbədlərində təqribən baş kahin demək idi. Burada Məzdəkin möbədlər möbədi olduğu təsdiq edilir. Bir çox tarixi məxəzlər Məzdəkin möbədlər möbədi olduğunu deyərkən "Siyasətnamə"ni əsas götürür və ya onu nəzərdə tuturlar.

**236. Məzdək** - V əsrin 80-cı illərində feodal istismarına qarşı qalxmış xalq üsyanının başçısı. Bir sıra məxəzlərdə Məzdəki Bamdadan, Məzdəki bin Bamdadan və s. kimi də yazılır. Məzdək hərəkatına aid külli miqdarda elmi tədqiqat əsərlərinin mövcud olmasına baxmayaraq, Məzdəkin özünün şəxsiyyəti hələ tam aydınlaşdırılmamışdır.

**237. Tövrat** - Musaya nazil olan dini kitabın adı, yəhudilərin Quranı.

**238. Suruş, soruş** - Zərdüşt əfsanələrində vəhydən (göydən) xəbər gətirən mələyin adıdır. Yəhudi və islam dinində Cəbrayıl haman vəzifəni yerinə yetirir. Fars şerində "qeybdən xəbər gətirən" mənasında işlədilir.

**239. Mən soruşum sən cavab ver** - qədim dini, şəri qayda-qanuna görə sual yalnız minbərdə oturana verilərdi. Minbərdəkinin aşağıda oturana sual verməsi zəiflik və kəmsavadlıq hesab edilərdi. Burada Məzdək bu sözü deməkdə ilk səhvə yol verir və möbəd bundan məharətlə istifadə edir.



downloaded from KitabYurdu.org

**240. Yəzdan** - Zərdüştilərdə xeyir allahı.
**241. Gəştasib** - daha qədim yazılarda Viştasb şaklində yazılır. İran şahlarındandır. Zərdüştlə bir əsrdə olmuşdur. Ümumiyyətlə, eramızdan əvvəl təqribən VIII-VII əsrlərə aid edirlər. Daha qədimdən hesab edənlər də var.
**242. Harun ər-Rəşid** - Əbbasi xəlifələrinin beşincisidir. 786-809-cu illər arasında hakimiyyət başında olmuşdur.
**243. Müşəbbehi** - hərfən "oxşadanlar" deməkdir. İslam dinində təriqət adıdır. Müşəbbehilər xalq ilə (allah ilə) onun məxluqları arasında müəyyən oxşarlıq olduğunu təbliğ edirdilər. Nizamülmülk dövründə şiələrin çoxu müşəbbehi hesab edilirdi.
**244. Obeydə Hənifi** - Xəlifə Mənsur dövründə Reyin amili təyin edilmişdi. Tehran nəşrində başqa ad göstərilir. Rusca tərcümədə Xeyfi (Heyfı) şəklindədir.
**245. Mehdi** - on ikinci imam, Əbül Qasim Məhəmməd əl-Həsən, Mehdi ləqəbi sonradan verilmişdir. Şiələrin əqidəsinə görə, dünyanın axırı çatdıqda zühur edəcəkdir. 868/69-cu illərdə doğulmuşdur. Ötən ili tarixdə göstərilmir. Rəvayətə görə qeyb olmuşdur.
**246. Cümhur İcli** - bu ad müxtəlif məxəzlərdə müxtəlif cür oxunmuşdur. Məşhur "Tarixi-Təbəri"də Cəvhər bin Mərrar əl-Əcəlli yazılmışdır. Şəxsiyyəti tam şəkildə aydınlaşdırılmamışdır.
**247. Zübeyrilər** - Əz-Zübeyr ibn Əvvamın tərəfdarlarına verilən addır. Zübeyr Məhəmmədin əshabələrindən olub, hakimiyyəti ələ keçirmək üçün üsyan qaldırmış, lakin sonra müvəffəqiyyətsizliyə uğrayaraq məğlub olmuşdur.
**248. Məhəmməd Zəkəriyyə** - Əbu Bəkr Məhəmməd b. Zəkəriyyə ər-Razi. Dövrünün ən böyük alimi və həkimi hesab edilimişdir. Təbabət, riyaziyyat və nücum elmi haqqında dəyərli əsərləri vardır. Ölümünü müxtəlif vaxtlarda göstərirlər. Bəziləri 923, bəziləri 932-ci ili əsas götürürlər.
**249. Məxariqül Ənbiya** - peyğəmbərlərin xariqələri, möcüzələri mənasındadır. Lakin Razinin bu adda əsəri Fehrestdə göstərilməmişdir.
**250. Nişaburye, Qolbon** - indiki Tehran yaxınlığındadır. Nişabuye sözünə müxtəlif şəkillərdə məsələn, Fişabuye, Bişabuye, Pişabuye şəkillərində; "Qolbon" sözünə isə "Qolin" şəklində təsadüf edilir.
**251. Şam** - Suriya, Dəməşq şəhəri.
**252. Sahibi-cibal** - dağ sahibi, dağlar sahibi.
**253. Tazi** - Şərq ədəbiyyatında əksərən "ərəb", az hallarda isə "tacik'" sözü mənasında işlədilmişdir.
**254. Şərvin bini-Vərdavəndi** - Deyləmi sülaləsinin şəcərəsində göstərilməmişdir.
**255. Əbdullah Kövkəbi** - başqa nüsxələrdə Əbdülməlik Kövkəbi adlandırılır.
**256. İshaq** - İshaq bin İbrahim. Sonralar dini vuruşlarda fəal iştirak etmişdir.
**257. Mütəkəllim** - İsmaililər haqqında "mütəkəllim" dedikdə həmişə təriqət başçıları nəzərdə tutulur.
**258. Ceyhun** - Amu-Dərya çayının fars mənbələrindəki adı.



downloaded from KitabYurdu.org

**259. Səvadə oğlu** - Tehran nəşrində "oğlu" sözü yoxdur. Sadəcə olaraq "səvadə" yazılır. Beləliklə ata ilə oğul məsələsi həll edilməmiş qalır.
**260. Məhəmməd Nəxşəbi** - Nəxşəbli Məhəmməd mənasındadır. Nəxşəb şəhəri bəzi ərəb məxəzlərində Nəsəf kimi verilmişdir. Sonra bu şəhərin adı Karşi qoyulmuşdur. V.V. Bertoldun fikrinə görə, bu addəyişmə XIV əsrdə Cığatay xanı Kebek haman şəhərin yaxınlığında saray tikdirdikdən sonra baş vermişdir, “karşı” - monqolca "saray" deməkdir.
**261. Sahibxərac** - xərac sahibi deməkdir. Vergi toplayan idarənin rəisi mənasında işlədilir. Orta əsrlərdə xüsusi vəzifə olmuşdur. V.V.Bertoldun fikrinə görə, Sahibxərac-Mostofi eyni məna ifadə edir və eyni məmuru bildirir.
**262, 263- İlaqin valisi Hüseyn Məlik Əli Zərrad** - "Siyasətnamə"nin bu fəslində adları çəkilən yerlər və şəxslər müxtəlif faktlarla çox zaman düz gəlmir. Məsələn, Tehran nəşrində Hüseyn Malik əvəzinə Həsən Malik, İlaqin valisi əvəzinə saray valisi yazılmışdır. Görünür, Nizamülmülkü adların, hadisələrin doğruluğundansa, əsərin məqsədi, şaha təsiri daha çox maraqlandırmışdır. İlaq, İlak-Sır-Dəryanın sağ sahilində yer adıdır.
**264. Tolan aka, Tələn əkə** - Tehran nəşrindəki qrafikası ilə bizim nüsxə arasında fərq vardır.
Müxtəlif cür oxumaq olar: Otlan Ləvkən, Utlən, I.ukan, Utlon Lokan və s.
**265. Balasaqun, bilasağun, bəlasağun** - türk şəhərlərindən birinin adıdır. Burada təsvir edilən vuruşmalar V.V.Bartoldun fikrinə görə, 942-943-cü illərdə baş vermişdir.
**266. Kohəndəz, kohəndəj** - lüğəvi mənası "köhnəqala" deməkdir. Beş baş şəhərin: Bəlx, Buxara, Mərv, Nuşabur və Səmərqəndin qalaları orta əsrlərdə "kohəndez" adlanmışdır. Burada söhbət Buxara "kohəndez"indən gedir.
**267. Əbdullah bin Məmun bin Əhməd** - bəzi məxəzlərə görə Əbdullahdan sonra onun yerinə Əhməd deyil, o biri oğlu Məhəmməd keçmişdir. İbn əl-Əsir "Siyasətnamə"nin doğruluğunu təsdiq edir.
**268. Məğrib** - bax:25
**269. Sələmiyə** - Şamda şəhər adı, başqa məxəzlərdə ayrı ad yazılmışdır.
**270. Məhəmməd ibn Əhməd-** bəzi məxəzlər Məhəmməd ibn Əhmədi əmisi Məhəmmədlə qarışıq salırlar; bax:267.
**271. Əbu Əbdullah Möhtəsib** - məxəzlərdə ixtilaf vardır.
**272. Bənuəğləb** - şimalı Afrikada qəbilə və sülalə adı. Sülalənin banisi İbrahim b.əl-Əğləb ət-Təmimi olmuşdur. 800-812-ci illər arasında hökmranlıq sürmüşdür.
**273. Əli Vəhsudan** - başqa məxəzlərin, məsələn ibn Miskəvəyyin və ibn əl-Əsirin verdiyi məlumatda Əli b. Vəhsudun yalnız fari, İsfahan və İraqda xəlifə tərəfindən canişin olduğu qeyd edilir.
**274. Teyləsan** - başa geyilən, ətəkləri çiyinlərə və kürəyə düşən xüsusi başlığa deyərdilər. Bunu əsasən qazilər və üləmalar başlarına salardılar.
**275. Bu qayda orada qaldı** - yəni zəkat vermək qaydası. Burda müxtəlif



downloaded from KitabYurdu.org

vaxtlarda müxtəlif üsullarla zəkatın alınması və ənənəyə keçməsindən söhbət gedir. Göründüyü kimi, bu zəkatın heç bir dini əsası yoxdur. Bu bir növ vergi və xəracı xatırladır.

**276. Məhəmməd Hərsumə** - 895-ci idə samanilərdən İsmail b. Əhmədin tərəfində Saffar Əmr b. Leysə qarşı vuruşan bir sərkərdənin adıdır. Sonuncu məğlub edildikdən sonra Hərsumə Herata vali təyin edilmişdi.

**277. Əmir Adil Samani** - Samani sülaləsində hər hökmdarın öz ləqəbi var idi. Əmir Adil İsmail b. Əhmədin ləqəbi idi.

**278. Bu-Bilal** - Səfari əmiri Yəqub b. Leysə kömək edən bir sərkərdənin adıdır.

**279. Darulədl** - ədalət evi.

**280. Yəqub Leys** - bax: 34

**281. Cuyi** - Mulyan- Buxara şəhəri nahiyələrindən birinin adıdır, orada olan kanalın adı ilə belə adlanır. İsmail b. Əhməd saray və bağ salmaq üçün buranı almışdır. Rudəki Cuyi-Mulyana gözəl bir şer yazmışdır.

**282. Bu** - Əli Mərvəzi- ehtimala görə, Əli b. əl-Hüseyn Mərvərrudi nəzərdə tutulur.

**283. Əli Şərvin** - Əli b. Şərvin Səffari sülaləsində Əmr b. Leysin sərkərdələrindən biridir. 898-ci ildə samanilərdən İsmail b. Əhmədə qarşı müharibəyə göndərilmiş, lakin məğlub olaraq əsir düşmüşdür.

**284. Məhəmməd Hərəvi** - müxtəlif məxəzlərdə müxtəlif şəkildə göstərilmişdir. Məsələn, Nərxəşi "Məhəmməd Haruni" şəklində yazır. Məhəmməd Harun İsmail b. Əhməd tərəfindən 902-ci ildə əsir alınaraq Buxara qalasına salınmışdı. B.N.Zaxoder son adın daha doğru olduğunu təsdiq edir.

**285. Burqe, Burğə** - örtüklü, örtük salmış mənasındadır. Xuzistan zəncirlərinin başçısı Əli b. Məhəmməd b. Əhməd b. İsa b. Zeyd b. Hüseyn b. Əli b. Əbu Talibin ləqəbidir. Özünün Əli Övladlarından olduğunu sübut üçün əcdadlarının şəcərəsini də həmin ad ilə qurtarır.

**286. Mötəsim** - B.N.Zaxoderin fikrinə görə Şeferin nəşrində olan Mötəsim (833-842) düz deyil, Mötəzid olmalıdır, (892-902). Bu xəlifələrin hər ikisi Abbasilər sülaləsinə aiddir. Mötəsim 8-ci, Mötəzid 16-cı xəlifə olmuşdur.

**287. Bu-Səid** – rəvayətə görə bir qul tərəfindən öldürülmüşdür.

**288. Kinzu büağətüs Sabe** - tərcüməsi "yeddici bəlağət" divanı deməkdir. Yəqin şiələrin yeddinci imamı nəzərdə tutulur. Fihrist həmin kitabın Qərmət Əbdan tərəfindən yazıldığını və orada qərmətiliyin mahiyyətinin izah edildiyini qeyd edir.

**289. Bu hadisə islam tarixi ilə 317-ci ildə olmuşdur** - Əbbasi xəlifələrindən əl-Müqtədir 903-932-ci illərdə hakimiyyət başında olmuşdur. On səkkizinci xəlifədir. Əbu Tahirin Məkkəyə hücumu 317-ci il zülhiccə ayının 8-də, yəni 930-cu ilin yanvar ayının 12-də başlanmışdır. Məkkənin əmiri də həmin vuruşda öldürülmüşdü.

**290. Mən Mehdiyəm** - şiələrin 12-ci imamı nəzərdə tutulur. Rəvayətə görə, Mehdi qeyb olub, vaxtı çatanda zühur edəcəkdir. Yeri gəlmişkən qeyd edək ki,



downloaded from KitabYurdu.org

tarix boyu indiyə qədər bir neçə yalançı "Mehdi" zühur etmiş, hamısının da aqibəti faciə ilə nəticələnmişdir.

**291. Çoban, Təbib və Sərvan** - burada Musa, İsa və Məhəmməd nəzərdə tutulur.

**292. Yenə də öz yerinə qoydular** - Məkkədə olan "Qara daş" haqqında çoxlu uydurma və əfsanə vardır. Onlardan biri də "Qara daş"ın itib yerinə gəlməsi, aparılıb gətirilməsi, itib tapılmasıdır.

**293. Gəbrlər gəbri** - orta əsrlərdə çoxlu miqdarda bu tipli söz birləşmələri var idi və onlar müəyyən vəzifənin, dəstənin, ictimai təbəqənin başında duran adamı göstərirdi. Məsələn, Sepəhbədane-Sepəhbəd, Möbədane-Möbəd, şahane-şah (müq. Şahənşah) və s. Maraqlıdır ki, tipoloji nöqteyi-nəzərdən bunlar Azərbaycan dilindəki söz birləşmələrinə daha uyğun gəlir. Burada gəbrlər gəbri-gəbrlərin, atəşpərəstlərin başçısı deməkdir.

**294. Razi** - Əbu-Əbbas Əhməd ər-Razi. Əbbasilərin 20-ci xəlifəsidir. 934-940-cı illərdə hakimiyyət başında olmuşdur.

**295. Əbdüllah ibn Mübarək** - Qərmətilərin başçısı Mübarək nəzərdə tutulur. Bax: 26,38.

**296. Bu-Dələf əl-Qasim b.İsa İcli** - məşhur şair və əbbasilərin görkəmli sərkərdələrindən biri olmuşdur. Rəvayətə görə, Kərəc şəhərini də o saldırmışdır.

**297. Əli ibn-Məzdək** - bəzi məxəzlərdə Əli b. Məzdəkan (müq. Ərdəşir Babəkan) şəklində verilir. "Siyasətnamə"də Babək hərəkatına aid çoxlu tarixi təhrif və yanlış təsvirlər vardır.

**298. Kuh** - mənası dağ deməkdir. B.N. Zaxoderin dediyinə görə, fars da Ərrəcan vilayətində şəhər adıdır.

**299. İshaq** - İshaq bin-İbrahim, Xəlifə Mötəsəm Əbdullah b. Tahir Dinəvərə hücum edərkən İshaqı onun köməyinə göndərmişdi.

**300. Yüz min** - yanlışdır, iyirmi beş mindən yüz min öldürmək olmaz.

**301. İslam məhv olub gedərdi** - bu fəslin müəllifı və ya Nizamülmülk bu sözü ilə Babək hərəkatınm ərəb xilafəti, islam üçün nə qədər qorxulu və qüdrətli bir hərəkat olduğunu açıqcasına etiraf etmişdir.

**302. Yəhya b. Əksəm** – Yəhya bin Əksəm ət-Təmimi - Babəkə qarşı vuruşmaq üçün İshaq bin İbrahimlə birlikdə Əbdullah bin Tahirin köməyinə gondərilmişdi. 856-cı ildə öldürülmüşdür.

**303. Vasiq** - Əbu Cəfər Harun əl-Vasiq. Əbbasi xəlifələrinin doqquzuncusudur. 842-847-ci illər arasında hakimiyyət başında olmuşdur.

**304. Üç yüzüncü il** - hicri-qəməridir, miladi ilə 912/13-cü illərə uyğun gəlir.

**305. Otuz ildən yuxarı** - Tehran nəşrində üç il göstərilir. Farsca otuz-"si", üç-“'se" olduğundan onlar bir-biri ilə qarışdırılmışdır.

**306. Ilaramı halal bilərlər** - bu sözlə xürrəmdinilərin şəriətin bütün ehkamlarını rədd etdikləri çox aydın ifadə olunmuşdur.

**307. Alim** uşaq - Əbu Müslimin nəvəsinin belə adlanması sonralar



downloaded from KitabYurdu.org

xüsusi "kudəkiyyə" təriqətinin meydana çıxması ilə əlaqələndirilmişdir. Farsca Əbu Müslimin nəvəsi "Kudəke dana" - yəni "bilikli uşaq", "alim uşaq", "müdrik uşaq" adlanırdı. Buradan da "kudəkiyyə", "uşaqçılıq" sözü meydana çıxırmışdır.

**308. Məzdək məzhəbi** - burada "Məzdək məzhəbi" Əbu Müslim təriqətçiliyinə daxil edilir.

**309. Əbrə və ya ubre** - bir neçə mənası vardır. Burada "Xarəzmin gəliri" mənasında işlədilmişdir. Orta əsrlərdə çayı keçmək üçün alınan vergiyə deyərdilər.

**310. Mahnıud olmayacaqdır** - Mahmud sözünün ikimənalılığından istifadə etmişdir. O bir tərəfdən Sultan Mahmudu xatırladır, digər tərəfdən "təriflənmiş" mənasını ifadə edir. Hər iki halda bu söz Altuntaşın xeyrinə deyildi.

**311. Bost** - Əfqanıstanda yer adı. İndi Qəlsi Bist və ya Bost adlanır.

**312. Yəzdcord, Yəzdqord** - Sasani sülaləsinin son hökmdarı. Nəhavənd vuruşunda ərəb qoşunlarına müqavimət göstərə bilməyib Xorasan tərəfə qaçmağa məcbur olmuş və 651-ci ildə Mərvdə öldürülmüşdür.

**313. Hims-** Suriyada şəhər adı.

**314. Onsori** - Əbülqasim Həsən bin Əhməd. Qəznəvilər sülaləsinin məddah şairlərindən biridir. Şah sarayında məliküşşüəra ləqəbi almışdır. Əsasən qəsidə yazmışdır. 1040-cı ildə vəfat etmişdir.

**315. Siyasətnamə** - bəzi nüsxələrdə seyərül-müluk, yəni "şahların əxlaqı" adlanır, lakin bütün dünyada "Siyasətnamə" adı ilə şöhrət tapmışdır.

**Dörd yüz həştad beşinci** - hicri-qəməri illədir, miladiyə çevirdikdə 1092/93-cü ilə uyğun gəlir. Nizamülmülk də həmin ildə öldürülmüşdür.



downloaded from KitabYurdu.org

# MÜNDƏRİCAT


Nizamülmülkün həyat və fəaliyyəti haqqında ........................................ ............

Bir neçə söz ..............................................................................................

Kitabın yaradılması səbəbi....................................................................................

***Birinci fəsil.***

İnsanların halı, ruzigarın dövranı və dünyanın sultanı Qiyasəddünya

və dinin mədhi haqqında..........................................................................................

***İkinci fəsil.***

Padşahların allah-taalanın verdiyi nemətin qədrini bilmələri haqqında..................

***Uçüncü fəsil.***

Şahların şikayətə baxmaları, ədalət, mərhəmət və xeyirxahlıqları

haqqında.....................................................................................................................

***Dördüncü fəsil.***

Amillər, vəzir, qulam və başqalarının işlərinə nəzarət

haqqında. ........................................................................................... .................

***Beçinci fəsil.***

Müqtilər və onların rəiyyətlə rəftarı haqqında.........................................................

***Altıncı fəsil***

Qazilər, xətiblər, möhtəsiblər və onların işlərini yaxşılaşdırmaq

haqqında....................................................................................................................

***Yeddinci fəsil.***

Amil, qazi, şəhnə, rəislərin işlərinə nəzarət və cəza qaydası
haqqında.....................................................................................................................

***Səkkizinci fəsil.***

Din, şəriət və bu kimi işləri öyrənib nəzarət altına almaq haqqında.........................

***Doqquzuncu fəsil.***

Müşriflər və onların təmin edilməsi haqqında.....................................................




downloaded from KitabYurdu.org

***Onuncu fəsil.***

Sahibxəbər və ölkə dolandırmaq tədbirləri haqqında..........................................

***On birinci fəsil.***

Əlahəzrətin əmrləri və dərgahdan gələn yazıların hörmətini

saxlamaq haqqında......................................................................................

***On ikinci fəsil.***

Mühüm işlər üçün dərbardan qulamların göndərilməsi haqqında...........................

***On üçüncü fəsil.***

Casuslar göndərmək, ölkə və rəiyyətin vəziyyətini yaxşılaşdırmaq

tədbirləri haqqında.........................................................................................

***On dördüncü fəsil***

Qasid və göyərçinlərin ardıcıl göndərilməsi haqqında............................................

***On beşinci fəsil.***

Sərxoşluqda və ayıqlıqda əmrlərin verilməsində ehtiyatlı

Olmaq haqqında ..........................................................................................

***On altıncı fəsil.***

Xüsusi vəkil və onun işinin irəliləməsi haqqında....................................................

***On yeddinci fəsil.***

Nədimlər, əshabələr və onların işini nizama salmaq haqqında................................

***On səkkizinci fəsil.***

Padşahın öz işləri barəsində alim və hikmət sahibləri ilə məşvərət

etməsi haqqında..........................................................................................

***On doqquzuncu fəsil.***

Müfridlər, onların yaraqlandırılması və işlərinin nizama

salınması haqqında..............................................................................

***İyirminci fəsil.***



downloaded from KitabYurdu.org

Dərgahda bəzək-düzəkli, daş-qaşlı silahların saxlanması haqqında...........................

***İyirmi birinci fəsil.***

Elçilərin gəlməsinin mənası və onların işlərini nizama

salmaq haqqında...........................................................................................

***İyirmi ikinci fəsil.***

Mənzilbaşında yemin ehtiyat edilməsi  haqqında..................................................

***İyirmi üçüncü fəsil.***

Bütün qoşun malının müəyyən edilməsi haqqında................................................

***İyirmi dördüncü fəsil.***

Hər növdən qoşun saxlamaq haqqında..................................................................

***İyirmi beşinci fəsil.***

Hər tayfadan sarayda girov qoşun saxlamaq haqqında............................................

***İyirmi altıncı fəsil.***

Türkmənləri türk və başqa qulamlar kimi xidmətdə saxlamaq haqqında.................

***İyirmi yeddinci  fəsil.***

Qulların xidmət vaxtı incidilməməsi və onların işinin nizama

salınması haqqında.......................................................................................

***İyirmi səkkizinci fəsil***

Əyan-əşraf və başqalarını qəbul haqqında.............................................................

***İyirmi doqquzuncu fəsil.***

Şərab məclisi düzəltmək qaydaları və onun şərtləri haqqında................................

***Otuzuncu fəsil.***

Xidmət vaxtı qulların və nökərlərin yerlərində durması haqqında...........................

***Otuz birinci fəsil.***

Ordu və xidmətçilərin ehtiyac və xahişləri haqqında...............................................

***Otuz ikinci fəsil.***



downloaded from KitabYurdu.org

Müharibə və yürüş ləvazimatını, silahını və dəm-dəstgahını hazırlamaq haqqında.......................................................................................

***Otuz üçüncü fəsil.***

Səhv, günah etdikdə irəli çəkilmiş adamlara töhmət vermək haqqında.....................

***Otuz dördüncü fəsil.***

Keşikçilər, növbətçilər və qapıçıların işi haqqında..................................................

***Otuz beşinci fəsil.***

Şahlarda yaxşı süfrə açmaq qaydaları haqqında....................................................

***Otuz altıncı fəsil.***

Layiqli xidmətçilər və qulamların qədir-qiymətini bilmək haqqında.......................

***Otuz yeddinci fəsil.***

İqtidarların iqtarları va rəiyyətin halı barədə ehtiyatlı olmaq haqqında...................

***Otuz səkkizinci fəsil.***

Ölkə işlərində şahların tələsməsi haqqında...........................................................

***Otuz doqquzuncu fəsil.***

Mirqəzəb, çubuqvuran və cəza alətləri haqqında.....................................................

***Qırxıncı fəsil.***

Şahın allah bəndələrinə bəxşiş verməsi, hər iş və adəti qaydaya salması haqqında.......................................................................................

***Qırx birinci fəsil.***

Ləqəblər haqqında...............................................................................................

***Qırx ikinci fəsil.***

İki işi bir adama tapşırmamaq, işsizlərə iş vermək, onları məhrum elməmək, pakdin və layiqli adamları irəli çəkib bədməzhəb, bədəqidə adamlara vəzifə tapşırmayıb, onları özündən uzaqlaşdırmaq haqqında............................................

***Qırx üçüncü fəsil.***

Hicab əhli,[227]ordu başçıları və sərkərdələrin rütbələri haqqında.............................



downloaded from KitabYurdu.org

***Qırx dördüncü fəsil.***
Şah və islamın düşməni olan bədməzhəblərin ortaya çıxarılması
haqqında.........................................................................................................
***Qırx beşinci fəsil.***
Məzdəkin xürucu, onun məzhəbi və Nuşirəvan adil tərəfindən
öldürülməsi haqqında..................................................................................
***Qırx altıncı fəsil.***
Gəbr Sunbadın Nişaburdan Reyə-müsəlmanlara hücumu və onun fitnəsi
haqqında.........................................................................................................
***Qırx yeddinci fəsil.***
Kuhistan, İraq və Xorasanda qərməti və batinilərin əmələ
gəlməsi haqqında..........................................................................................
***Qırx səkkizinci fəsil.***
Xorasan və Mavərənnəhrdə batinilərin xürucu haqqında...........................................
***Qırx doqquzuncu fəsil.***
Xəzinə toplamaq və onu saxlamaq qaydaları haqqında.............................................
***Əllinci fəsil.***
Cavab vermək, zülm edilmişlərin şikayətlərinə baxmaq, ədalətli qərar
qəbul etınək haqqında..................................................................................
***Əlli birinci fəsil.***
Vilayətin hesabım saxlamaq, onu tərtibə salmaq qaydaları haqqında......................
Qeydlər.........................................................................................................



downloaded from KitabYurdu.org

Yığılmağa verilmişdir: 10.02.2007
Çapa imzalanmışdır: 25.07.2007
Kağız formatı: 60 x 84 1/32

"Çıraq" nəşriyyatında yığılıb səhifələnmiş və çapa hazırlanmışdır.



downloaded from KitabYurdu.org